# Milli Məclis

MAY, 2023 | XÜSUSİ BURAXILIŞ



*Mən həyatda yalnız üç şeyə arxalanmışam: Yaradanıma, zəhmətimə və bir də xalqıma. Bəlkə də ən çox xalqıma.*



**Milli Məclis**
*Analitik informasiya jurnalı*

**Təsisçi:**
Azərbaycan Respublikasının Milli Məclisi

**Redaksiya Şurasının sədri:**
Sahibə Qafarova

**Redaksiya Şurasının üzvləri:**
Əli Hüseynli, Adil Əliyev, Fəzail İbrahimli, Fərid Hacıyev, Ziyafət Əsgərov, Zahid Oruc, Sadiq Qurbanov, Tahir Mirkişili, Tahir Rzayev, Musa Quliyev, Əhliman Əmiraslanov, Hicran Hüseynova, Siyavuş Novruzov, Bəxtiyar Əliyev, Qənirə Paşayeva, Səməd Seyidov, Eldar İbrahimov, Eldar Quliyev

**Baş redaktor:**
Ülviyyə Abdullayeva

**Redaktorlar:**
Aidə Əhmədova
Qərənfil Mansurova

**Dizayn:**
Vəfadar Əliyev

**Redaksiyanın ünvanı:**
Azərbaycan 1152, Bakı,
Parlament prospekti 1.
Tel: (+99 412) 510 90 01
(+99 412) 510 67 01
(+99 412) 510 88 72

Milli Məclisin rəsmi web səhifəsi:
**www.meclis.gov.az**

"Milli Məclis" jurnalının web səhifəsi:
**www.jurnal.meclis.gov.az**

Jurnal 2007-ci ilin may ayından nəşr olunur

# BU SAYDA

**XÜSUSİ BURAXILIŞ:** MAY, 2023

*Parlamentin Ulu Öndərin 100 illik yubileyinə həsr edilmiş xüsusi iclası* ... 2
*Heydər Əliyev xalqımızın milli qürur və iftixar mənbəyidir* ... 10
*Azərbaycanın müstəqillik mübarizəsinin həqiqi carçısı* ... 18
*Azərbaycanın taleyində müstəsna rolun sahibi: Heydər Əliyev* ... 22
*Heydər Əliyev Azərbaycanda gənclər və idman siyasətinin banisidir* ... 26
*Heydər Əliyev Azərbaycan Konstitusiyasının və hüquqi dövlət quruculuğunun memarıdır* ... 30
*Heydər Əliyevin dövlətçilik irsinin mahiyyətini insan hüquqları təşkil edir* ... 36
*Ulu Öndərin müəllifi olduğu strateji inkişaf yolu* ... 40
*Heydər Əliyev yolu Azərbaycanın uğur yoludur* ... 44
*Ulu Öndərin daim inkişafda olan davamlı aqrar siyasət xətti* ... 48
*Heydər Əliyev və Azərbaycanda sosial dövlət quruculuğu* ... 54
*Müstəqil Azərbaycan səhiyyəsinin memarı* ... 60
*Vətənə sədaqət nümunəsi - Heydər Əliyev* ... 66
*Azərbaycanı parlaq və xoşbəxt gələcəyə aparan əvəzsiz miras* ... 70
*Heydər Əliyevin həmişəyaşar irsi milli təhsilimizin məhək daşıdır* ... 74
*Mədəniyyətimizin böyük himayədarı* ... 80
*Heydər Əliyev və Azərbaycanın xarici siyasəti* ... 84
*Azərbaycan tarixində əbədi qalacaq dahi şəxsiyyət* ... 88
*Ulu Öndər Heydər Əliyev ideyalarına sadiq güclü və qalib Azərbaycan* ... 92
*Müasir Azərbaycan parlamentinin qurucusu* ... 96
*Heydər Əliyev irsi Azərbaycan xalqının mənəvi-siyasi sərvətidir* ... 102
*Heydər Əliyev Azərbaycanda demokratik seçki sisteminin müəllifidir* ... 106
*Heydər Əliyev və həmkarlar ittifaqları* ... 112
*Hesablama Palatasının yaradılmasında və fəaliyyətində Heydər Əliyevin rolu* ... 116
*Ümummilli Liderin insan hüquq və azadlıqlarının təmin edilməsi sahəsindəki tarixi missiyası* ... 120
*Heydər Əliyev və türk dünyası* ... 124
*Heydər Əliyevin xarici siyasətində MDB ölkələri ilə münasibətlər* ... 128




# Parlamentin Ulu Öndərin  100 illik yubileyinə həsr edilmiş xüsusi iclası

Mayın 16-da Azərbaycan Respublikası Milli Məclisinin xalqımızın Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş xüsusi iclası keçirildi. Tədbirdə xarici ölkə parlamentlərinin 12 sədri, 15 sədr müavini, 57 parlament üzvü, 4 beynəlxalq parlament təşkilatının, eləcə də xarici dövlətlərin diplomatik korpuslarının təmsilçiləri, ümumiyyətlə, 4 qitəni əhatə edən 228 nəfər qonaq iştirak edirdi.

Milli Məclisin sədri Sahibə Qafarova tədbir iştirakçılarını parlament adından salamladı və yüksək tribunadan böyük şəxsiyyət və müdrik rəhbər Heydər Əliyev haqqında düşüncələrini tədbir iştirakçıları ilə bölüşdü. Spiker qeyd etdi ki, həqiqi milli liderlər həm sağlığında, həm də dünyasını dəyişəndən sonra onların əməllərinin və ideyalarının sönməz nuru mənsub olduqları xalqın həyatına və tale yoluna işıq salır.  Azərbaycanın öz tarixi ərzində yetişdirdiyi ən böyük siyasi və dövlət xadimlərindən biri olan Heydər Əliyevin keçdiyi ömür yolu doğma torpağa və xalqa məhəbbət və sədaqət meyarına çevrildi, fəaliyyəti dünya siyasət sənəti  xəzinəsinə daxil oldu. Onun sayəsində xalqımız əvvəlcə siyasi və dövlət müstəqilliyinin möhkəm təməlini yaratdı, daha sonra isə müstəqil dövləti qurmaq, qorumaq və yaşatmaq





üçün tarixin verdiyi imkanı reallaşdıra bildi.

Sahibə Qafarova əminliklə bildirdi ki, Heydər Əliyev dühasının və zəhmətinin bəhrəsi olan müstəqil Azərbaycan dövləti daim var olacaq, Ulu Öndərin dediyi kimi, "əbədiyyətə qədər yaşayacaqdır".

Sonra Milli Məclisin xüsusi iclasında iştirak edən xarici ölkə parlamentləri sədrlərinin, vitse-spikerlərin, komitə sədrlərinin, parlamentlərarası dostluq qrupları rəhbərlərinin, beynəlxalq təşkilatların başçılarının çıxışları dinlənildi. Çıxışlarda Azərbaycan xalqının və dövlətinin tarixində əlamətdar hadisələrdən olan Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə dəvətə və bu mötəbər tədbirin yüksək səviyyədə təşkilinə görə Milli Məclisin sədri Sahibə Qafarovaya minnətdarlıq bildirildi.

Xarici ölkə nümayəndələri Ulu Öndərimiz Heydər Əliyevin yüksək liderlik keyfiyyətləri, uzaqgörənliyi sayəsində müasir Azərbaycanın öz dövlət müstəqilliyini qoruyub saxlamağa və möhkəmləndirməyə nail olduğunu söylədilər, onun Azərbaycanın tərəqqisi və inkişafında danılmaz xidmətlərindən söz açdılar. Azərbaycanın beynəlxalq səviyyədə tanınmasında, nüfuzunun möhkəmlənməsində Ümummilli Liderin önəmli rolu qeyd olundu. Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin bir çox çətinlikləri dəf edərək öz əzmi ilə ölkəsinin iqtisadi müstəqilliyinin əsasını qoyduğundan, onun müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında, Azərbaycan dilinin və zəngin mədəni irsimizin qorunmasında müstəsna xidmətlərindən danışıldı. Ulu Öndər Heydər Əliyevin Azərbaycanın dünya ölkələri ilə əlaqələrinin qurulmasında və inkişafında xidmətləri, onun dost ölkə xalqlarının taleyində də xüsusi yerinin olduğu bildirildi. Vurğulandı ki, Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasında, iqtisadi potensialının gücləndirilməsində, ölkənin regionda və dünyada nüfuzunun artmasında Heydər Əliyevin müdrik siyasəti önəmli rol oynadı.






Tədbir iştirakçıları müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev ideyalarının ölkə Prezidenti İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirildiyini söylədilər. Bu gün Azərbaycanda multikultural dəyərlərə önəm verildiyi bildirildi, ölkəmizin dünyada və regionda sülhün və əmin-amanlığın təmin olunmasında atdığı addımlar təqdir edildi. Qeyd olundu ki, Heydər Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycanın dünya dövlətləri ilə dərinləşən və genişlənən əlaqələri bu gün yeni mərhələyə qədəm qoyaraq, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə daha da inkişaf etməkdədir. Hazırda Azərbaycan mötəbər beynəlxalq təşkilatlarda da dünya ölkələri ilə əməkdaşlığını uğurla həyata keçirir. Qoşulmama Hərəkatının sədri kimi ölkəmiz səmərəli fəaliyyət göstərir, bir çox mühüm təşəbbüslərlə çıxış edir.

Xarici ölkə nümayəndələri müasir Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi xadim, dahi şəxsiyyət, xalqının Ümummilli





Lideri Heydər Əliyevin əziz xatirəsinin daim hörmət və ehtiramla anılacağını bildirdilər.

Sonda Milli Məclisin xüsusi iclasına yekun vuran parlamentin sədri Sahibə Qafarova iştirakçılara bir daha öz minnətdarlığını bildirdi və Azərbaycan xalqının Ümummilli Liderinin 100 illik yubileyini onlarla birlikdə qeyd etməyin çox xoş olduğunu söylədi.







# Ulu Öndər Heydər Əliyevin 100-cü ildönümünə həsr olunmuş xüsusi iclasda iştirak edən qonaqların fikirləri



**Parlamentlərarası İttifaqın prezidenti Duarte Paçeko:**

"Xüsusi və böyük şəxsiyyətlər haqqında yaddaş əbədidir. Azərbaycan haqqında danışanda dahi Heydər Əliyevin adını qürurla qeyd etməliyik. Bu müdrik insan ölkənin həqiqi müstəqilliyinə nail olmağın nələrdən asılı olduğunu yaxşı bilir, bu işləri yüksək bacarıq, səriştə ilə həyata keçirirdi. O, daim Azərbaycan üçün əzmlə çalışıb, ümummilli məqsədləri uğurla reallaşdırıb və ölkəsinin taleyində əvəzsiz rol oynayıb".



**Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva:**

"Heydər Əliyev şəxsiyyəti və onun müstəqil Azərbaycanın memarı kimi böyük irsi dünyanın görkəmli siyasətçiləri və ictimai xadimləri tərəfindən hələ də diqqətlə öyrənilir. Sevindirici haldır ki, ölkənin daha da inkişaf etdirilməsi, xalqın rifahının yüksəldilməsi, Azərbaycanın dünya miqyasında beynəlxalq nüfuzunun artırılması istiqamətində atasının gördüyü işlər möhtərəm İlham Əliyev tərəfindən layiqincə davam etdirilir".



**Ərəb Parlamentinin sədri Adel bin Abdul Rahman Əl Asumi:**

"Müasir Azərbaycan dövlətinin əsasını qoyan, onu bölünmə və parçalanmadan xilas edərək birliyə və sabitliyə aparan, inkişaf, tərəqqi və çiçəklənməsinin təməlini qoyan Heydər Əliyevin xatirəsinə həsr edilmiş bu möhtəşəm tədbiri yüksək qiymətləndiririk. Məhz bu dahi şəxsiyyətin böyük səyləri nəticəsində Azərbaycan beynəlxalq arenada görkəmli mövqe tuta, etimad və hörmətini qazana bilmiş, regional səviyyədə aparıcı ölkəyə və etibarlı tərəfdaşa çevrilmişdir. Bu dahi insan Azərbaycanla ərəb dövlətlərinin bütün səviyyələrdə güclü əlaqələrinin təməl daşını qoymuş, İslam həmrəyliyinin təşviqi istiqamətində unudulmaz səylər göstərmişdir. Heydər Əliyevin adı Azərbaycan xalqının müasir intibah tarixinin banisi kimi yaddaşlarda parlaq bir nümunə olaraq əbədi qalacaq".



**Qazaxıstan Parlamenti Məclisinin sədri Yerlan Koşanov:**

“Heydər Əliyev qeyri-adi tarixi şəxsiyyət, dövrünün görkəmli lideri, müasir Azərbaycan dövlətinin qurucusudur. Bu müdrik siyasətçinin bütün həyatı Azərbaycan xalqına xidmətdə keçmişdir. Onun zəngin siyasi irsi bu gün bütün türk dünyası üçün tükənməz mənəvi bələdçi və çıraqdır”.



**Qırğızıstan Jokorku Keneşinin sədri Nurlanbek Şakiyev:**

“Böyük siyasi idarəçilik qabiliyyətinə, fenomenal liderlik düşüncəsinə, mübariz xarakterə, güclü iradəyə, zəngin təcrübəyə malik olan Heydər Əliyevin ölkəsini dinamik inkişafa gətirib çıxarmış sosial-iqtisadi strategiyasının nəticələrini burada hamımız aydın görürük. “Heydər” adı əbəs yerə “başçılıq edən, öncül, öndə gedən” mənasını daşımır. Qardaş Azərbaycanın qüruruna çevrilən, həyatını millətinə, dövlətinə həsr edən görkəmli lider Heydər Əliyev öz adını ləyaqətlə doğrultmuşdur və xalqının tarixində əbədi izi olacaq”.



**Tacikistan Ali Məclisi Nümayəndələr Palatasının sədri Mahmadtoir Zokirzoda:**

“Uzunmüddətli səmərəli fəaliyyəti ilə Azərbaycanın hüdudlarından kənarda da ümumbəşəri hörmət və nüfuz qazanan Heydər Əlirza oğlunun lider fenomenliyinin sirri onun müstəsna idarəçilik keyfiyyətlərində, dərin zəkasında, xalqının və dövlətinin rifahı naminə tükənməz səylərində, insanlara qarşı daim həssas münasibətində idi. Azərbaycan xalqının Ümummilli Liderinin 100 illik yubileyi bu zəkanın təntənəsidir, bu birlik və həmrəyliyi təcəssüm etdirən əlamətdar bayramdır. O xalqın ki, öz liderinin başçılığı altında öz dövlətçiliyinin əsaslarının formalaşmasında və möhkəmlənməsində böyük uğurlar qazandığını bütün dünyaya sübut etdi. Ölkələrimiz arasında tarixi dostluğa söykənən əlaqələrin dərinləşməsində Azərbaycan xalqının bu görkəmli oğlu ilə Tacikistan Respublikasının Prezidenti möhtərəm Emoməli Rəhmonun şəxsi qardaşlıq və dostluq münasibətlərini, uzunillik qarşılıqlı fəaliyyətlərini də qeyd etməyə bilmərəm. Bu gün həmin əlaqələr hər iki ölkənin dövlət və hökumət başçıları tərəfindən ənənəvi hörmət və çoxşaxəli tərəfdaşlıq ruhunda davam və inkişaf edir”.



**Mərakeş Krallığı Parlamentinin Nümayəndələr Palatasının sədri Raşid Talbi əl-Alami:**

"Azərbaycan parlamentinin böyük millətinizin çağdaş tarixində unudulmaz xidmətlərə malik ümummilli şəxsiyyət Heydər Əliyevə sədaqətini, ehtiramını və minnətdarlığını ifadə etmək üçün keçirdiyi bu tədbir təqdirəlayiqdir. Çünki ölkəsinin öz müstəqilliyini bərqərar etməsi və çoxşaxəli intibaha nail olması prosesi məhz bu dahi insanın adı ilə bağlıdır. Elə bir intibah ki, sorağı Azərbaycanın geosiyasi miqyasının hüdudlarını aşaraq bütün dünya regionlarına və ölkələrinə yayılıb. Heydər Əliyevin sayəsində dost ölkəniz öz nailiyyətləri, mədəni müxtəlifliyi, milli sərvətlərinin qorunması, müasirliyin daşıyıcısı olan geniş orta təbəqənin yaranması ilə regional sabitlik mərkəzinə, demokratiyanın mötədil, tolerant İslamla ziddiyyət təşkil etmədiyini təsdiqləyən ölkələrdən birinə çevrilib".



**Serbiya Milli Assambleyasının sədri Vladimir Orliç:**

"Bu müdrik və qətiyyətli şəxsiyyətin Azərbaycanın müstəqilliyinin əldə edilməsində, milli və iqtisadi dirçəlişində danılmaz xidmətləri yaddaşlarda əbədi qalacaq. Biz bu gün ölkələrimizin ərazi bütövlüyünün və suverenliyinin qətiyyətlə qorunmasında Heydər Əliyevin söylədiyi "əgər hər hansı ölkə və xalq öz hüquqlarını anlayır və onları qoruya bilirsə, o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar" kəlamını əldə rəhbər tuturuq. Sevindirici haldır ki, Azərbaycan öz zəngin tarixinin şanlı səhifələrini yazmağı Heydər Əliyevin ləyaqətli davamçısı, Serbiya Respublikasının böyük və səmimi dostu Prezident İlham Əliyev ölkəyə rəhbərlik etməyə başladıqdan sonra da dayandırmayıb".



**Cənubi Afrika Respublikası Milli Assambleyasının sədri Nosivive Mapisa-Nqakula:**

"Təmsil etdiyim ölkədə Nelson Mandela olduğu kimi, Azərbaycan xalqının tarix və Zəfər salnaməsi də Heydər Əliyevin adı olmadan yazıla bilməz. O, öz xalqının azadlığına və müstəqilliyinə nail olmaq üçün ən mürəkkəb yollardan və əzablı siyasi mübarizələrdən keçmiş, millətini daim irəliyə aparmış lider kimi dünya miqyasında şöhrət qazanmışdır".



**Misir Ərəb Respublikası parlamentinin Nümayəndələr Palatasının sədri Hanaf Ali Əl Gebali:**

"Bu dost ölkəyə səfərimiz böyük insan, Azərbaycana bütün səviyyələrdə nəzərəçarpacaq tərəqqi qazandıran, uğurlar gətirən, öz ölkəsinin taleyində unudulmaz rol oynayan, Misir xalqının da heyran olduğu mərhum lider Heydər Əliyevin 100 illik yubileyinə təsadüf edir. Dahi şəxsiyyətin yubiley yaşını göstərən 1 rəqəminin yanındakı iki sıfırı ifadə edən o işarə ölümsüzlüyü, əbədiyyəti göstərir. Bu, o deməkdir ki, onun parlaq əməlləri xalqının yaddaşında əbədiyaşarlıq qazanmışdır və heç vaxt unudulmayacaq".



**Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili:**

"Böyük şəxsiyyət Heydər Əliyev müasir Azərbaycanın formalaşmasında mühüm rol oynayıb. Bu ölkənin müstəqilliyinin ilk çətin illərində o, xalqının milli oyanış ruhunu yüksəltdi, dövlətçiliyin möhkəm təməlini qurdu, düşünülmüş, uzaqgörən siyasəti ilə Azərbaycanı güclü, sabit və firavan bir dövlətə çevirdi. Nəticədə Heydər Əliyev dünyada ən mühüm dəyəri qazandı - öz xalqının qəlbini fəth etdi. Bu insan Cənubi Qafqaz regionunda da sülhün və sabitliyin sadiq tərəfdarı idi. Onun Gürcüstan-Azərbaycan əlaqələrinin möhkəmləndirilməsində mühüm rolu ölkələrimiz arasındakı tarixi dostluğu möhkəm strateji tərəfdaşlığa çevirmişdir".



**İordaniya Haşimilər Krallığı parlamentinin Nümayəndələr Palatasının sədri Əhməd Əs-Səfadi:**

"Bu gün müasir Azərbaycan dövlətinin qurucusu, xalqının müstəqilliyi və intibahı yolunda böyük fədakarlıqlar göstərmiş Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibəti ilə keçirilən bu yığıncaqda sizə İordaniya xalqının ən səmimi məhəbbətini çatdırmaq istəyirəm. Biz hər zaman öz ölkəsini davamlı inkişaf və tərəqqi yoluna çıxarmış Heydər Əliyevin xatirəsini ehtiramla yad edirik. O, müstəsna qabiliyyətli lider kimi Azərbaycanın bütün təbii sərvətlərinə xalqının sahib çıxmasına, siyasi, sosial, iqtisadi və mədəni sahələrdə uğurlar əldə etməsinə nail olmuş, öz parlaq düşüncəsi və geniş dünyagörüşü ilə ölkəsini dünya xəritəsində ön sıralara çıxarmışdır".

# Heydər Əliyev xalqımızın milli qürur və iftixar mənbəyidir



**Sahibə Qafarova**
Azərbaycan Respublikası Milli Məclisinin sədri

Fenomen şəxsiyyət, dahi siyasətçi Heydər Əliyevin idarəetmə fəlsəfəsinin başlıca ideya istiqamətini milli özünüdərk, xalqın tarixi yaddaşının özünə qaytarılması təşkil edirdi. Bu gün müstəqil Azərbaycan dövlətçiliyinin ideoloji əsası olan azərbaycançılıq ideyasının bünövrəsinin qoyulması, onun mükəmməl bir konsepsiya şəklində irəli sürülməsi və icra olunması məhz daim azərbaycanlı olması ilə fəxr edən, milli kimliyimizi özünün güc mənbəyi sayan Ümummilli Liderin adı ilə bağlıdır. Azərbaycan xalqının gerçək tarixinin öyrənilməsi, ədəbiyyat nümunələrimizin, adət-ənənələrimizin təbliğ olunması, milli ruhun dirçəliş mərhələsinin əsası da ötən əsrin 70-ci illərinin əvvəllərində Heydər Əliyev tərəfindən qoyuldu. Azərbaycan dili dövlət, sovet və partiya orqanlarında işlək dilə çevrilməyə başladı. 1978-ci ildə Azərbaycan Konstitusiyasına "Azərbaycan SSR-nin dövlət dili Azərbaycan dilidir" maddəsinin daxil edilməsi Ulu Öndərin öz xalqına olan sonsuz sevgisinin, bu sahədəki qətiyyətinin daha bir örnəyi idi və həmin dövrdə bu məsələni həll etməyə yalnız onun kimi dühа nail ola bilərdi.

Sirr deyil ki, 1969-cu ilin iyul plenumu ərəfəsində Azərbaycan keçmiş ittifaq miqyasında ən geridə qalmış aqrar respublikalardan biri idi. Burada həyatın bütün sahələrində ciddi tənəzzül yaşanırdı, iqtisadiyyat dərin böhran içərisində idi. Vəziyyəti dəyişdirmək, prosesləri müsbət məcraya yönəltmək üçün dərin biliyə, yüksək idarəetmə qabiliyyətinə və sarsılmaz iradəyə sahib respublika rəhbərinə ehtiyac duyulurdu. Yalnız bu ali keyfiyyətlərə malik olan bir şəxsiyyətin liderliyi ilə ölkənin taleyində dəyişiklik etmək mümkün idi. Ona görə də həmin dövrü xarakterizə edərkən haqlı olaraq biz onu Azərbaycan tarixinin dönüş nöqtəsi kimi dəyərləndiririk.

Heydər Əliyev Azərbaycana rəhbər təyin olundu və çox qısa zaman ərzində respublikada geniş vüsət alan islahatlar, iqtisadi və sosial sahələrdə əldə edilən nailiyyətlər xalqın maddi rifah halının keyfiyyətcə yeni mərhələyə yüksəlməsini şərtləndirdi. Ulu Öndər dövlət idarəetmə sisteminin milliləşdirilməsinə və milli kadr potensialının hazırlanmasına da xüsusi diqqət yetirirdi. O illərdə azərbaycanlı gənclərin Sovet İttifaqının müxtəlif şəhərlərində aparıcı elm və təhsil ocaqlarına göndərilməsi Azərbaycanın gələcək inkişafı üçün güclü kadr potensialının formalaşdırılmasına xidmət edirdi. O zaman yüksək təhsilə yiyələnmiş bu kadrlar müstəqillik əldə edildikdən sonra ölkəmizdə quruculuq və inkişaf proseslərində fəal iştirak etdilər. Ulu Öndər böyük cəsarət və uzaqgörənliklə 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılmasına, gənc azərbaycanlı oğlanların ittifaq miqyasında tanınmış ali hərbi məktəblərdə təhsil almasına nail oldu. Heydər Əliyev 1997-ci ildə keçmiş SSRİ-nin müxtəlif universitetlərində ali təhsil almış məzunlarla görüşündə demişdi: "Azərbaycanda kadr hazırlığı məsələsi ilə şəxsən bilavasitə ciddi məşğul olarkən və o cümlədən sizləri respublikamızdan kənarda ali məktəblərə göndərərkən mütləq





və mütləq Azərbaycanın gələcəyini, müstəqilliyini düşünürdüm. O vaxt mən inanırdım, vaxt gələcəkdir ki, Azərbaycan müstəqil olacaqdır və bu kadrlar Azərbaycanın müstəqilliyini təmin edəcəklər".

Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi 1969-1982-ci illər Azərbaycanın quruculuq salnaməsinə ən parlaq səhifələr kimi daxil oldu. Həmin dövrdə yaranmış iqtisadi, elmi-texniki və mədəni potensial respublikanın müstəqil dövlət kimi fəaliyyət göstərməsi üçün sarsılmaz bir zəmin formalaşdırdı. Möhtərəm Prezident İlham Əliyev Ulu Öndərin həmin dövrdəki xidmətlərini təhlil edərkən demişdir: "Sanki o, Azərbaycanın gələcəyini görürdü. Sanki bilirdi ki, Azərbaycan müstəqil olacaq, xalqımız azad olacaq. Azərbaycan dünya birliyinin üzvü olacaqdır".

## Heydər Əliyevin varlığı Azərbaycana qarşı separatizm və işğal planlarını alt-üst edirdi

Ulu Öndərin ölkəyə böyük uğurla rəhbərlik etməsi, yüksək səviyyəli idarəçilik qabiliyyəti, şəxsiyyətinə olan böyük hörmət onun keçmiş ittifaq miqyasında da nüfuzunun getdikcə artmasını və ittifaq rəhbərliyinə qədər yüksəlməsini şərtləndirmişdi. Heydər Əliyev 1976-cı ilin mart ayında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Büro üzvü seçildi, eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. Bu vəzifədə çalışarkən keçmiş ittifaq miqyasında ən böyük layihələrə, strateji əhəmiyyətli tədbirlərə məhz o, rəhbərlik edir, üzərinə götürdüyü vəzifələri layiqincə yerinə yetirirdi.

1987-ci ilin oktyabrında Heydər Əliyev Sov.İKP MK-nın Siyasi Bürosunun və şəxsən baş katib M.S.Qorbaçovun yeritdiyi yanlış xəttə - onun anti-Azərbaycan siyasətinə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa verdi. Bundan sonra xalqımız üçün problemlər, çətinliklər başlamışdı, respublikamıza qarşı o vaxta qədər güclü Heydər Əliyev amilinin qarşısını aldığı təxribat planları, məkrli iddialar baş qaldırmışdı. Azərbaycanın ərazi bütövlüyünə qarşı təhdidlər, separatçı meyillər geniş vüsət almışdı. Ermənilərin Azərbaycan torpaqlarını işğal planı işə düşdü və zaman keçdikcə mənfur qonşularımız tərəfindən törədilən təxribatların miqyası daha da genişləndi. Möhtərəm Prezident İlham Əliyev o dövrü təhlil edərkən deyir: "Heydər Əliyevin varlığı, onun sovet rəhbərliyində böyük nüfuza malik olması Azərbaycana qarşı separatizm və işğal planlarını alt-üst edirdi. Heydər Əliyev bütün vəzifələrdən gedəndən sonra iki həftə keçməmiş erməni separatçıları məsələ qaldırmışdılar ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılsın, Ermənistana verilsin. Bizim xalqımızın bəlaları o gündən başladı"...

1990-cı il yanvarın 20-də Azərbaycan xalqına qarşı qanlı qırğınlar törədildi. Bu faciəyə ilk etiraz səsini ucaldan məhz Ulu Öndər Heydər Əliyev oldu. O, hadisənin ertəsi günü - yanvarın 21-də Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək bu

vəhşiliyi qətiyyətlə pislədi, onun törədilməsi səbəblərini, təşkilatçıların, günahkarların adını açıq şəkildə bəyan etdi və öz xalqı ilə həmrəy olduğunu söylədi. Ulu Öndər baş vermiş faciə ilə əlaqədar xalqımıza başsağlığı verdi və başda Mixail Qorbaçov olmaqla Bakıdakı terror aktına rəvac verən hakimiyyət nümayəndələrini və hərbçiləri cinayətkar, onların dinc əhaliyə tutduqları divanı isə bütöv bir xalqa qarşı edilən tarixi cinayət adlandırdı. Heydər Əliyev kimi böyük bir şəxsiyyətin belə bir bəyanatı dünyanın ictimai rəyini xalqımıza qarşı törədilən bu qanlı qırğına yönəltdi, faciənin miqyası və detalları barədə beynəlxalq ictimaiyyəti ətraflı məlumatlandırdı. Ümummilli Lider bu qanlı cinayətə etiraz olaraq daha bir cəsarətli addım atdı, özünə və ailə üzvlərinə qarşı təzyiqlərə baxmayaraq, Kommunist Partiyasının sıralarını tərk etdi.

Heydər Əliyev həmin il iyulun 20-də Bakıya dönsə də, respublikanın o vaxtkı rəhbərliyi onun Bakıda yaşamasına imkan vermədi və iyulun 22-də Ulu Öndər doğulduğu Naxçıvan Muxtar Respublikasına getdi. Baxmayaraq ki, Ümummilli Lider özünün də dediyi kimi, Azərbaycana öz xalqının yanında olmağa, onların azadlıq uğrunda mübarizəsinə qoşulmağa gəlmişdi. Amma müəyyən dairələrin direktivləri ilə hərəkət edən hakimiyyət qüvvələri onun nüfuzundan, xalqımızın öz liderinə sonsuz sevgisindən narahat olur, hər vəchlə fəaliyyətinə maneələr yaratmağa çalışır, hətta dahi şəxsiyyətə qarşı təxribatlar törətməyə cəhdlər edirdilər. Bütün bunlar, təbii ki, Heydər Əliyev kimi nəhəng siyasətçini öz yolundan döndərə bilməzdi və o, xalqımızı həqiqi azadlığa aparacaq yolda qətiyyətlə davam edirdi...

Ümummilli Liderin Naxçıvana dönüşü onun xilaskarlıq missiyasının növbəti mərhələsini təşkil edir. Çünki ermənilərin Azərbaycana qarşı işğal planlarında Naxçıvan ilk sıralarda dayanırdı. Mərkəzi hakimiyyətin məsuliyyətsiz yanaşması isə bu qədim diyarı daha ağır ssenarilərlə üz-üzə qoymuşdu. Heydər Əliyevin Naxçıvana qayıtması bütün məkrli planları alt-üst etdi və muxtar respublika xilas oldu.

1990-cı il noyabrın 17-də Naxçıvanın ali qanunvericilik orqanında Heydər Əliyevin təşəbbüsü ilə Xalq Cümhuriyyətinin üçrəngli bayrağı qaldırıldı. Ulu Öndərin sədrliyi ilə keçən həmin tarixi sessiyada muxtar respublikanın rəsmi adından "sovet", "sosialist" sözləri çıxarıldı, qanunvericilik hakimiyyəti orqanının adı dəyişdirilərək "Ali Məclis" adlandırıldı. 1992-ci ilin noyabrın 21-də Heydər Əliyevin sədrliyi ilə Azərbaycan dövlətçiliyi və xalqımız qarşısında çox böyük xidmətlər göstərmiş, müstəqilliyin möhkəmləndirilməsinə, ölkəmizin inkişafına böyük töhfələr vermiş Yeni Azərbaycan Partiyası yaradıldı.

> **"Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir və bizim qarşımızda duran vəzifə dövlət müstəqilliyini qorumaqdan, əbədi etməkdən ibarətdir".**
>
> **Heydər Əliyev**

### Heydər Əliyevin liderliyi ilə Azərbaycan xalqı öz milli dövlətini qurmağı və yaşatmağı bacardı

Bu gün dünyada 4 mindən artıq xalq mövcuddur. Onların heç də hamısı öz dövlətini qurmaq xoşbəxtliyini yaşamayıb. Bu sırada tarixin müəyyən dövrlərində öz milli dövlətini yaratmış, lakin sonradan onu qorumağı bacarmayaraq başqa bir dövlətin tərkibində yaşamağa məcbur olmuş xalqlar da var. Dünyanın qabaqcıl xalqlarının inkişaf və təkamül tarixinə nəzər salanda bir inkarolunmaz gerçəklik də özünü aydın göstərir ki, bu, xalqların intibahında əvəzolunmaz liderlərin roludur. Azərbaycan xalqı üçün belə bir lider, zamanın fövqündə dayanan nəhəng şəxsiyyət, mənsub olduğu xalqı zamanın burulğanlarından uğurla çıxaran, Azərbaycanın dünya xalqları arasında yerini müəyyənləşdirən məhz Heydər Əliyev oldu. Əgər bu gün müstəqil Azərbaycan dövləti yaşayır və inkişaf edirsə, bu, ilk növbədə Heydər Əliyevin ölməz ideyaları və titanik fəaliyyəti ilə bağlıdır.

O dövrdə ölkədə cərəyan edən gərgin ictimai-siyasi hadisələr həyatın bütün sahələrində dərin böhran meyilləri ilə müşayiət olunurdu. Respublikada siyasi və hərbi vəziyyət gərginləşmişdi, hakimiyyət böhranı baş vermiş, vətəndaş müharibəsi təhlükəsi yaranmışdı. Hərbi hissələrdə nizam-intizamın zəifləməsi, orduda vahid komandanlığın və təşkilatçılığın olmaması Ermənistanın işğalçılıq siyasətinin daha da genişlənməsinə gətirib çıxarmışdı. Hakimiyyəti qəsb etmiş qüvvələr Azərbaycanın üzləşdiyi problemləri aradan qaldırmaq iqtidarında deyildi.

Belə bir zamanda xalq ölkəmizi bu qədər ağır problemlər girdabından yalnız bacarığına və şəxsiyyətinə dərin etimad göstərdiyi bir insanın - dahi şəxsiyyət Heydər Əliyevin qurtaracağına inandı, ona üz tutdu və hakimiyyətə dəvət etdi. Məhz Ulu Öndərin liderliyi ilə Azərbaycan xalqı öz milli dövlətini qurmağı, qorumağı və yaşatmağı bacardı. Bu gün Azərbaycan müstəqil bir dövlət kimi yaşayırsa və inkişaf edirsə, bu, ilk növbədə, "Azərbaycanın dövlət müstəqilliyi tarixi



hadisədir, Azərbaycan xalqının tarixi nailiyyətidir. Bizim borcumuz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövləti çatdırmaqdan ibarətdir", - deyən Heydər Əliyevin gərgin zəhmətinin, fədakarlığının və qətiyyətinin nəticəsidir.

Heydər Əliyev milli enerjini milli gücə çevirməyi, cəmiyyəti vahid amal və milli ideya ətrafında səfərbər etməyi bacardı. Ümummilli Lider dövlətçilik tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçiləndən sonra xalqı müstəqilliyin qorunması və onun əbədiliyinin təmin edilməsi vəzifəsi uğrunda yumruq kimi birləşdirməyə, bu tarixi missiyanı uğurla yerinə yetirməyə müvəffəq oldu. Onun rəhbərliyi ilə çox qısa zamanda respublikamızda vətəndaş müharibəsi təhlükəsinə, separatçı meyillərə son qoyuldu, ictimai-siyasi sabitlik yarandı, Azərbaycanın inkişaf strategiyası hazırlandı, çoxşaxəli islahatlar kursu həyata keçirilməyə başlandı.

1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi"nin imzalanması ilə xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrildi və enerji ehtiyatlarının ölkənin inkişafına, Azərbaycana xarici sərmayələrin cəlb olunmasına, iqtisadiyyatın müxtəlif sahələrinə böyük həcmdə sərmayə qoyuluşunun təşviq edilməsinə, neft gəlirlərinin insan kapitalının formalaşdırılmasına yönəldilməsinə geniş imkanlar yarandı.

> **"Azərbaycanın dövlət müstəqilliyi tarixi hadisədir, Azərbaycan xalqının tarixi nailiyyətidir. Bizim borcumuz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövləti çatdırmaqdan ibarətdir".**
>
> **Heydər Əliyev**

Heydər Əliyev ölkənin xarici siyasət istiqamətlərini müəyyənləşdirdi, Azərbaycanın beynəlxalq münasibətlərinin yaradılması və inkişafı sahəsində yorulmadan çalışdı.

Gənc respublikamızın demokratik inkişafı, ölkəmizdə hüquqi dövlət və cəmiyyət quruculuğunun möhkəm təməllərinin yaradılması da Ulu Öndərin adı ilə bağlıdır. 1995-ci ildə Heydər Əliyevin təşəbbüsü və birbaşa rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbul olunması hakimiyyət bölgüsünün, qanunun aliliyinin, insan hüquqlarının, fikir plüralizminin, söz və məlumat azadlığının təmin edilməsinə, demokratik institutların formalaşdırılmasına və inkişafına etibarlı zəmin yaratdı.

## Azərbaycan parlamentarizm tarixinin şərəfli mərhələsi

Ulu Öndər Heydər Əliyevin Azərbaycan parlamentinə rəhbərliyi bir neçə ayı əhatə etsə də, bu dövr qanunvericilik orqanının tarixində müstəsna əhəmiyyətə malikdir və parlamentarizm tariximizin şərəfli bir mərhələsini təşkil edir. Heydər Əliyevin Ali Sovetin sədri kimi fəaliyyəti dövlət müstəqilliyinin möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə yönəlmişdi. O, Ali Sovetin iclasındakı bir çıxışında deyirdi: "Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm".

Azərbaycanın qanunvericilik orqanının demokratik, milli maraqları müdafiə edən təsisat kimi fəaliyyətinin əsasları məhz həmin tarixdən qoyulmuşdur. Ölkənin bu gərgin vəziyyətində proseslərin mərkəzində parlament dayanırdı, xalqın nəzər-diqqəti ora yönəlmişdi. Çünki Azərbaycan xalqı görürdü və bilirdi ki, o dövrə qədər siyasi intriqaların, hakimiyyəti




MİLLİ MƏCLİSİN
APARATI




zəbt etmiş siyasi qrupların şəxsi mənafe çəkişmələrinin mərkəzində dayanan parlament Heydər Əliyevin rəhbərliyi ilə tamamilə yeni bir ampluada çıxış etməyə başladı

> "Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir".
>
> **İlham Əliyev**

və onun demokratik imici bərpa olundu. Ümummilli Lider qısa müddətdə parlamentin ruhunu kökündən dəyişdi, Milli Məclisə siyasi mədəniyyət gətirdi. Qanunvericilik sahəsində bir çox mühüm addımlar məhz o dövrdə atıldı, ordu quruculuğu sahəsində vacib qərarlar qəbul olundu. Konstitusiyaya və müxtəlif hüquqi sənədlərə dəyişikliklər edildi, baş verən hadisələrə hüquqi, siyasi qiymət verilməsi istiqamətində müvafiq qərarlar qəbul olundu, həmçinin ictimai-siyasi həyatdakı gərginliyin aradan qaldırılması üçün lazımi tədbirlər görüldü. Parlamentdə keçən gərgin müzakirələrin xalqa olduğu kimi təqdim edilməsi, cəmiyyətin baş verənlər haqqında müfəssəl məlumatlar alması üçün iclasların, parlament tədbirlərinin kütləvi informasiya vasitələri tərəfindən işıqlandırılmasına, televiziya ilə canlı yayımlanmasına şərait yaradıldı.

Heydər Əliyev parlamentin sədri kimi Azərbaycanın strateji maraqları əsasında ölkənin yeni xarici siyasət konsepsiyasını müəyyənləşdirirdi. Böyük siyasətçi keçirdiyi bütün görüşlərdə ölkəmizin mənafeyini qətiyyətlə müdafiə edir, mədəniyyətimizin təbliğinə, elmin və təhsilin inkişafına böyük diqqət ayırırdı. Tez-tez alimlər, gənclər, jurnalistlər, şair, yazıçı və digər tanınmış ziyalılarla görüşlər keçirir, onlarla ölkənin gələcəyi barədə fikirlərini bölüşürdü. Beləliklə, Azərbaycan parlamentarizm tarixinin Heydər Əliyev zirvəsi kimi dəyərləndirdiyimiz bu dövrdə ölkəmizin demokratik, hüquqi, dünyəvi dövlət kimi gələcək inkişafının təməli qoyuldu.

### Azərbaycan xalqı Ümummilli Liderin 100 illik yubileyini tarixi nailiyyətlərlə qeyd edir

Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi və xalqı qarşısında misilsiz xidmətləri sırasında ən vacib, hətta ölkəmizin gələcək inkişafının təmin olunması baxımından taleyüklü məsələlərdən biri də onun Azərbaycana gələcəkdə uğurla rəhbərlik edəcək



siyasi varis yetişdirməsi olmuşdur. Möhtərəm Prezident İlham Əliyev Heydər Əliyev siyasətini dövrün tələblərinə və yeni şərtlərinə uyğun müasirləşdirərək uğurla davam etdirdi və Azərbaycana özünün çoxəsrlik dövlətçilik tarixində ən böyük uğurları qazandırdı. 2003-cü ildə ali kürsüdə fəaliyyətə başlayarkən, "Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyevin siyasəti davam etdirilməlidir",- deyən İlham Əliyev dahi şəxsiyyətin yaratdığı möhkəm təməllərə söykənərək onun yolunu, siyasətini davam etdirdi və yeni tarixi şəraitdə Azərbaycan dövlətçiliyi qarşısında duran bütün taleyüklü məsələlərin həllinə nail oldu. Bu gün Azərbaycan möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə həyatın bütün sahələrində möhtəşəm uğurlar qazanıb, dünyada layiqli yerini tutub, sözünə güvənilən, etibarlı bir dövlətə çevrilib.

Cari il mayın 3-də Şuşada Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda dövlətimizin başçısı çıxışı zamanı qeyd etdi: "Heydər Əliyevin ən böyük arzusu Şuşanı azad görmək idi və biz onun arzusunu gerçəkləşdirdik. Biz bununla fəxr edirik, biz buna sevinirik".

Bəli, Heydər Əliyev həmişə torpaqlarımızın azad ediləcəyinə inanırdı. O, daim bu işğalın müvəqqəti olduğunu və Azərbaycan xalqının öz dədə-baba yurdlarına qayıdacağını qətiyyətlə bildirirdi. Bunun üçün isə bütün mümkün vasitələrdən istifadə edirdi, diplomatik, hərbi, siyasi cəbhələrdə lazımi addımlar atırdı.

Bu gün Ulu Öndərin ruhu şaddır. Bu gün torpaqlarımız azad olunub, möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə Vətən müharibəsində qazanılmış tarixi Zəfər çoxəsrlik dövlətçilik tariximizə qızıl hərflərlə yazılıb. Azərbaycan Ulu Öndərin siyasi varisi və ləyaqətli davamçısı möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyevin görmək istədiyi qüdrətli, güclü dövlətə çevrilib.

Bildiyimiz kimi, 2023-cü il möhtərəm Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan edilib. Bu gün Azərbaycan xalqı öz liderinin 100 illik yubileyini tarixi nailiyyətlərlə qarşılayır. Ulu Öndər Heydər Əliyev xalqımızın milli qürur və iftixar mənbəyidir, onun irsi milli sərvətimizdir. Möhtərəm Prezident İlham Əliyevin qeyd etdiyi kimi, "müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir".

# Azərbaycanın müstəqillik mübarizəsinin həqiqi carçısı



**Əli Hüseynli**
Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri

Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin bərpası uğrunda mübarizədə danılmaz rolu var. Bütün dünyada böyük nüfuza və hörmətə malik olan dahi şəxsiyyət Heydər Əliyev Sovet Azərbaycanında hakimiyyət başında və SSRİ rəhbərliyində olduğu dövrlərdə böyük uğurlar qazandı. Əslində Ulu Öndərin o zaman başçılıq etdiyi Sovet Azərbaycanı postsovet məkanındakı indiki bir sıra respublikalardan daha müstəqil idi. 1987-ci ildə onun Sovet İttifaqı rəhbərliyindən ədalətsizcəsinə kənarlaşdırılması və təqib olunması Azərbaycan xalqının Sovetlər Birliyinə inamını sarsıtdı və xalqın müstəqillik düşüncəsinə ilk təkan oldu.

Heydər Əliyevin Moskvada siyasi fəaliyyətdən təcrid olunması səbəbindən Qarabağda erməni separatizmi baş qaldırdı, ardınca soydaşlarımız Ermənistandan kütləvi deportasiya edildi, Sumqayıtda ermənilər təxribat törətdilər. Hadisələrin kuliminasiya nöqtəsi isə 20 Yanvar faciəsi oldu. Hakimiyyətdə olanların və Xalq Cəbhəsi fəallarının qorxaqlığı və xəyanəti fonunda Azərbaycan xalqının haqq səsini dünyaya çatdıran ancaq Heydər Əliyev idi. Onun Moskvada cəsarətli bəyanatından ruhlanan Azərbaycanın müstəqillik mübarizəsi daha da vüsət aldı.

Xalqımızın ürəyində və düşüncəsində 1987-ci ildən başlayan tarixi uğursuzluqların və faciələrin qarşısını ala biləcək yeganə şəxs olan Heydər Əliyev yüz minlərlə insanın arzusu ilə Bakıya dönməli və xalqa rəhbərlik etməli idi. İlk belə tarixi imkan Heydər Əliyev Moskvadan 1990-cı ilin yayında Bakıya gələrkən yarandı. Təəssüf ki, vaxtilə vəzifə verdiyi Azərbaycanın o zamankı hakimiyyət nümayəndələri tərəfindən təqib olunmağa başlandı. Eyni zamanda, xalq azadlıq hərəkatına yamaq kimi yapışmış cəbhəçilər də Heydər Əliyevi kommunist keçmişi ilə əsassız təhdid edib gözdən salmağa cəhd edirdilər, amma heç zaman buna nail ola bilmədilər. Əslində isə bu “cəbhəçi” liderlərin bir çoxu özləri Qorbaçovun “yenidənqurma” siyasətinin nəticələrindən biri kimi bir çox sovet respublikalarında, o cümlədən Azərbaycanda xalq hərəkatına populist şüarlarla yeridilmiş, Moskvadan və Qərbin anti-Azərbaycan dairələrindən idarə olunan şəxslər idi. Heydər Əliyev hələ 1990-cı ildə verdiyi müsahibələrindən birində demişdi: **“...erməni lobbisi bütövlükdə hamısı və Azərbaycanda millətinə, xalqına, vətəninə nankor baxan, xain çıxan bir qrup adamlar fürsətdən istifadə edib erməni lobbisi ilə birləşib mənim əleyhimə cürbəcür işlər aparıblar”...**

Beləliklə, Heydər Əliyevin Bakıda qalmasının və xalqa rəhbərlik etməsinin qarşısı xəyanətkarcasına alındı. Bununla da əslində bu mərhələdə Azərbaycanın xilasının qarşısı alınmış oldu.

O günlərdə Heydər Əliyevə qarşı sui-qəsd təhdidləri açıq xarakter aldı və o, Naxçıvana yollandı, doğma yurdunda Azərbaycanın müstəqilliyi uğrunda mübarizəsini davam etdirdi. Ulu Öndər 1990-cı il noyabrın 17-də Naxçıvanda üçrəngli bayrağımızı qaldırmaqla suverenliyimizin bərpasının ilk hüquqi təməlini qoymuş oldu.

Prezident İlham Əliyev sonralar bu tarixi hadisəyə belə qiymət vermişdir: *“...Tarixi həqiqət var - o da 17 noyabr tarixidir. 1990-cı il noyabrın 17-də Heydər Əliyevin təşəbbüsü ilə o vaxt Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişdirildi, “sovet”, “ sosialist” sözləri o addan götürüldü. Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvanda rəsmi bayraq kimi qəbul edildi. İndi baxın, müstəqilliyə aparan addımlar*







*hansılardır? Müstəqilliyə aparan yollar haradan keçib?* ***Hər kəs bu tarixi bilsin və müstəqilliyin əsas səbəbkarlarını tanısın. Bizim müstəqilliyimizə gedən yol məhz 17 noyabr 1990-cı ildən başlamışdır ki, indi dövlət bayrağımız olan üçrəngli bayraq dövlət bayrağı kimi təsis edildi…"***

Bu gün Azərbaycan cəmiyyəti birmənalı olaraq o fikirdədir ki, əgər həmin dövrdə Heydər Əliyev Azərbaycanın rəhbərliyində olsaydı, nə Dağlıq Qarabağ işğal olunardı, nə də ölkə müstəqilliyinin ilk illərində böhran yaşamazdı. Təəssüf ki, biz bu tarixi şansdan yararlana bilmədik və bunun acı nəticələrini gördük.

Azərbaycanın xilas olmasının növbəti tarixi imkanı 1991-ci ilin payızında yarandı. O zaman Moskvanın təşəbbüsü ilə SSRİ-nin dağılması nəticəsində bütün müttəfiq respublikalar müxtəlif vaxtlarda müstəqilliklərini elan edirdilər. Azərbaycanda isə çox gec - 1991-ci il oktyabrın 18-də parlamentdə Müstəqillik haqqında Konstitusiya Aktı müzakirə olunaraq qəbul edildi. Amma utancverici hal idi ki, bu müzakirələrin böyük hissəsi "kommunistlərin və cəbhəçilərin" birləşərək Heydər Əliyev əleyhinə çıxışlarından ibarət oldu. Əslində isə guya Azərbaycanın müstəqilliyi uğrunda müzakirələr aparan bu xəyanətkarların məqsədi Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsinin qarşısını almaq idi.

Sonralar Yeni Azərbaycan Partiyasında təmsil olunacaq cəmi bir neçə ziyalı deputat xalqın əsl iradəsini nümayiş etdirərək qorxmadan çıxışlarında Heydər Əliyevi müdafiə edirdilər. Prezident İlham Əliyev bu tarixi hadisələrə belə qiymət vermişdir: *"Biz tarixə ədalətli yanaşmalıyıq. Biz ermənilərdən fərqli olaraq heç bir mifologiya yaratmamalıyıq.* ***Tarixi olduğu kimi bilməliyik və qiymət verməliyik... 18 oktyabr gününü böyük təmtəraqla qeyd etmək, yaxud da, kimə buna görə minnətdar olmaq tamamilə yersizdir. Sovet İttifaqı dağılırdı, Rusiya Federasiyası özü dövlət suverenliyi haqqında Konstitusiya Aktını bizdən qabaq qəbul etmişdi".*** İllər sonra Azərbaycan Milli Məclisi tamamilə düzgün olaraq "Müstəqillik günü haqqında" Qanun qəbul edərək mayın 28-ni Müstəqillik Günü, oktyabrın 18-ni isə Müstəqilliyin Bərpası Günü elan etdi.

Artıq növbəti mərhələdə Azərbaycan dövlətçiliyi daha dərin bir uçuruma yuvarlandı. Şuşanın və Laçının işğalına şərait yaratmaqla təxribat və dövlət çevrilişi nəticəsində AXC-Müsavat cütlüyü hakimiyyəti zəbt etdi, nəticədə ölkənin iqtisadiyyatı dağıdıldı və Qarabağın işğalı genişləndi. Beləliklə, Azərbaycan milli xəyanətkarlar ucbatından bir çox postsovet respublikalarından (Qazaxıstan, Belarus, Özbəkistan, Ukrayna və s.) fərqli olaraq sovet sistemindən müstəqilliyin bərpası dövrünə ən ağır itkilərlə keçid etdi.

Sözsüz ki, Azərbaycan xalqı bütövlükdə özünün müstəqillik uğrunda apardığı mübarizəsinin bir qrup qaragüruh quldur tərəfindən heçə endirilməsi ilə barışmayacaqdı. Məhz buna görə də "91-lər" adlanan bir qrup ziyalı əslində bütün xalqın ira-

dəsini həyata keçirərək Azərbaycanın müstəqillik mübarizəsinin tarixində dönüş yaratdı. 1993-cü ilin 15 İyun - Qurtuluş Günü həm də müstəqilliyimizin qurtuluşu oldu. Prezident İlham Əliyev 2023-cü il mayın 10-da xalqa müraciətində bu tarixi hadisələri bir daha belə qiymətləndirmişdir: *“Məhz bu ağır dövrdə o vaxtkı hakimiyyət qardaş qanını axıtdı, vətəndaş müharibəsinə start verdi, təki hakimiyyətdə qalsın və öz talançılıq fəaliyyətini davam etdirsin. Xalq isə ayağa qalxdı, xalq Heydər Əliyevi tələb edirdi, ancaq Heydər Əliyevin simasında nicat yolu görürdü. O ağır dövrdə xalqın tələbi ilə Naxçıvandan Bakıya gələn Heydər Əliyev, demək olar ki, gənc müstəqil Azərbaycan dövlətinin, sözün əsl mənasında, xilaskarına çevrilmişdi”.*

**Tarixi reallıq ondan ibarətdir ki, 1987-ci ildən başlayaraq Azərbaycan xalqının düşüncəsində əsl milli azadlıq və müstəqillik simvolu olmuş Heydər Əliyev, nəhayət, Azərbaycan dövlətinə rəhbərliyə qayıtdı.**

O zaman Ali Sovetdə baş verən hadisələri təhqiq edən deputat istintaq komissiyası 1993-cü il iyulun 16-da işinin yekunu barədə qəbul etdiyi qərarla bu hadisələrə siyasi qiymət vermişdir. Sənədin 2-ci bəndində deyilir: “1993-cü il iyunun 4-də Gəncə şəhərində baş vermiş qanlı hadisələr Azərbaycan Respublikasının Prezidenti Əbülfəz Elçibəyin və digər yüksək vəzifəli şəxslərin əvvəlcədən xüsusi düşünülmüş və planlaşdırılmış siyasətinin nəticəsi hesab edilsin, onlar tərəfindən Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının kobud şəkildə pozulması kimi qiymətləndirilsin”.

Ən azından həyatda və siyasətdə qaldıqlarına görə Heydər Əliyevə borclu olan cəbhəçilər ümumxalq məqsədləri naminə legitim hakimiyyətə dəstək verməli olduqları halda, təəssüf ki, öz nankor xislətlərini bu dəfə də ortaya qoydular. Onlar hər vəchlə Heydər Əliyevin müstəqilliyimizin qorunması və dövlət quruculuğu istiqamətində başladığı fəaliyyətə mane olur, onun gördüyü taleyüklü işləri gözdən salmağa çalışırdılar. Bunun üçün də yenə Qarabağ kartından istifadə etməyə cəhd göstərirdilər.




Şuşanın və Laçının işğalına şərait yaratmaqla hakimiyyətə gəlmiş AXC-Müsavat cütlüyü artıq digər rayonların işğalına da göz yumur, sadəcə, hakimiyyətdə qalmağa çalışırdılar. Bu məqsədlə də faktiki olaraq cəbhəçilərin nəzarətində olan silahlı birləşmələr döyüş zonalarından uzaqlaşdırılır və orduda hərc-mərclik yaradılırdı.

Heydər Əliyevin güclü və müstəqil bir siyasətçi olduğunu bilən xarici qüvvələr də bu ərəfədə işğalçı Ermənistana dəstək verirdilər. Nəticədə 1993-cü ilin iyul-avqust aylarında Ağdərə, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı rayonları düşmənin nəzarəti altına keçdi.

Bütün bu gərgin vəziyyətə baxmayaraq, Azərbaycanda dövlət orqanlarının fəaliyyətini və dövlətçiliyi bərpa etmək məqsədi ilə 1993-cü il oktyabrın 3-də prezident seçkiləri keçirildi və Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.

1993-cü ilin dekabr ayında Heydər Əliyev bütün daxili çəkişmələri kənara qoyub torpaqları azad etmək naminə Azərbaycan hərbçilərini səfərbər olmağa çağırdı. Azərbaycan Ordusunun həmin günlərdə başlayan hücum əməliyyatları 1994-cü ilin yanvarında Horadizin və Füzuli rayonunun bir hissəsinin azad olunması ilə başa çatdı. Bu tarixin ən obyektiv qiymətini Heydər Əliyevin sonrakı addımlarının timsalında zamanın özü verib. Qarabağ savaşında ciddi uğur nümunəsi olan Horadiz əməliyyatının əsas siyasi əhəmiyyəti budur ki, öz havadarlarına arxayın olan rəsmi Yerevanın bu məğlubiyyətdən sonra atəşkəs rejiminə imza atmaqdan başqa çıxış yolu qalmadı. İllər sonra Ali Baş Komandan İlham Əliyev və Azərbaycan Ordusu Ulu Öndərin bu hərbi Zəfərini tamamlayaraq Qarabağı işğaldan tam azad etdi.

Beləliklə, 1990-cı il noyabrın 17-də Heydər Əliyevin Naxçıvanda qaldırdığı müstəqil üçrəngli Azərbaycan bayrağı məhz onun davamçısı, Ali Baş Komandan İlham Əliyev tərəfindən 2020-ci il noyabrın 8-də Şuşada ucaldıldı.

Ulu Öndər Heydər Əliyev Azərbaycan tarixində müstəqil dövlətçiliyin banisi olmaqla yanaşı, eyni zamanda, xalqımızın XX əsrin sonunda müstəqillik uğrunda mübarizəsinin həqiqi carçısı kimi əbədi qalacaqdır.

# Azərbaycanın taleyində müstəsna rolun sahibi: Heydər Əliyev



**Fəzail İbrahimli**
Milli Məclis sədrinin müavini,
İctimai birliklər və dini qurumlar komitəsinin sədri

Hər bir xalqın tarixi taleyində müstəsna rol oynamış və o millətin xilaskarlıq missiyasını öz üzərinə götürmüş liderlərin mənalı və zəngin həyat səhifələrini vərəqləyərkən onların mənsub olduğu xalqların dövlətçilik ənənələri, tarixi, inkişaf səviyyəsi barədə aydın təsəvvür yaranır. Bu dahi şəxsiyyətlər yüksək mənəvi aləmləri ilə, ali bəşəri və milli ideallara, ümummilli mənafelərə ürəkdən bağlılıqları ilə milyonların qəlbində özləri üçün möhtəşəm abidə ucaldırlar.

Tanrının bəxş etdiyi belə seçilmiş şəxsiyyətlər xalqlarının əsrlər boyu cilalanmış dövlətçilik təfəkkürü, siyasi dünyagörüşü, milli dəyərləri əsasında optimal dövlət modeli və siyasi varislik ənənələri yaradırlar.

XX əsr Azərbaycan tarixinin parlaq siması, böyük şəxsiyyəti olan Ümummilli Lider Heydər Əliyevin siyasi portreti də Azərbaycan xalqının dövlətçilik təfəkkürünün, tarixin sınağından şərəflə çıxmış unikal idarəçilik məktəbinin, müasir ictimai-siyasi, fəlsəfi fikrin ən davamlı keyfiyyətlərinin canlı təcəssümüdür. Tarixşünaslıq elmi Heydər Əliyev şəxsiyyətini öyrəndikcə, əslində, müstəqil Azərbaycan dövlətinin tarixi keçmişini, bu gününü, ölkəmizdə həyata keçirilən dövlət quruculuğu prosesini öyrənir.

Heydər Əliyev siyasi dühası, idarəçilik qabiliyyəti sovet dövründə belə bütün ittifaq səviyyəsində qəbul olunurdu. O, 1967-ci ildə Dövlət Təhlükəsizlik Komitəsinin sədri kimi tariximizdə ilk azərbaycanlı idi ki, ona etibar edildi. Sovet bolşevizminin siyasi xətti belə idi ki, müsəlmana etibar etmək olmaz. Amma Heydər Əliyevin şəxsi nüfuzu və zəkası o qədər qüdrətli idi ki, bu xətti yara bildi və ona etibar edildi. Xalqın taleyi məhz Dövlət Təhlükəsizlik Komitəsinin divarları içərisində həll olunur, məsələlər sonra Kommunist Partiyasına ötürülürdü. Kommunist Partiyası ancaq siyasi qərarlar verirdi. Heydər Əliyev həmin sipərləri qırdı, ilk dəfə olaraq millətinin taleyini öz imzası ilə həll etmək imkanına malik oldu. Bu hadisə nə qədər insanın həyatına müsbət təsir göstərdi.

1969-cu ildə isə Heydər Əliyev Azərbaycan Kommunist Partiyasının birinci katibi seçilməklə, demək olar ki, ölkə artıq keçmiş ittifaq respublikaları içərisində əsas yerlərdən birini tutdu. Azərbaycan o vaxtadək adının düzgün ifadə edilmədiyi bir məmləkətdən ittifaq miqyasında öndə gedən bir respublikaya çevrildi. Bu da Ulu Öndərin ikinci əsas addımlarından idi.

Növbəti böyük uğur isə sovet rəhbərliyində təmsil olunmaqla bağlı idi. Belə ki, Stalinin ölümündən sonra Siyasi Büroda qeyri-leqal qərar qəbul edilmişdi. Qafqaz və türk mənşəli insanları Siyasi Büroya gətirmək olmazdı. Siyasi Büroda ancaq slavyan mənşəli şəxslər yerləşdirilirdi. Heydər Əliyev Siyasi Büroya üzv seçilməklə bu siyasi xətti də darmadağın etdi. O, təkcə Siyasi Büronun üzvü deyildi, həm də SSRİ Nazirlər Soveti sədrinin birinci müavini idi, yəni hökumətdə ikinci şəxs idi. O dövrdə Heydər Əliyevin adı ilk beşlikdə çəkilirdi. Nəticə çıxarmaq olar ki, işğal olunan, əyalət kimi baxılan, millətinə müsəlman və türk parçası kimi yanaşılan bir məmləkətin



nümayəndəsi böyük bir imperiyanın idarəçiliyinə gedib çıxa bildi. Bunun-la da idarə olunan milləti idarə edən millət statusuna qədər yüksəldə bildi. Bax, Heydər Əliyevin böyüklüyü bu, idi. Bu baxımdan Heydər Əliyevin Azərbaycan xalqı qarşısında böyük xidmətlərindən söhbət açarkən ilk növbədə 1969-1982-ci illərə, onun sovetlər birliyi dövründə respublikamıza rəhbərlik etdiyi zamanlara nəzər yetirməyi vacib bilirəm. Məhz 1969-cu ilin tarixi iyul plenumunda Heydər Əliyevin respublika rəhbəri təyin edilməsi ilə Azərbaycanın tarixində sürətli inkişaf dövrü başladı. Qısa vaxt ərzində onun təşəbbüsü ilə Azərbaycanın şəhərlərində mühüm sənaye müəssisələri inşa edildi, təsərrüfat, elm və təhsil sahələrində qətiyyətli islahatlar həyata keçirildi. Həmin illərdə yaşamış dövlət və sənət xadimləri, təsərrüfat adamları, ziyalılar daim Ulu Öndərimizlə bağlı xatirələrində belə görkəmli şəxsiyyətin müasiri olmaqdan qürurlandıqlarını bildirir və qeyd edirlər ki, onun Azərbaycana rəhbərliyi ölkəmizin tarixində əsaslı dönüş nöqtəsi olub. O vaxta kimi Azərbaycan adlı respublika nəinki dünya, hətta ittifaq miqyasında o qədər də tanınmırdı. Halbuki respublikamız ittifaqda zəngin yerüstü, yeraltı sərvətləri ilə seçilirdi, amma adı ucqar milli əyalətlərdən biri kimi çəkilirdi. Böyük strateq Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti-quruculuq tədbirləri, habelə bir neçə onillikdən sonra müstəqillik əldə edəcək respublikamızın gələcəyinə hesablanmış digər məqsədyönlü addımları ilə özünün Ümummilli Lider obrazını yaratdı. Tarix isə Ulu Öndərin bu statusunu bütün mərhələlərdə qorumuşdur.

1960-cı illərədək Azərbaycan aqrar ölkə kimi tanınırdı. Onun əsas sənaye mənbəyi neft idi. Lakin məhz hakimiyyətinin ilk illərindən Heydər Əliyev qətiyyətli addımlar atmaqla respublikaya olan bu münasibəti dəyişməyə nail oldu. Belə ki, qısa müddət ərzində həm yüngül, həm də ağır sənaye inkişaf etdi, bir sıra zavod və fabriklər istifadəyə verildi. Yaradılmış yeni iş yerləri əsasında insanların rifah halı daha da yaxşılaşdı.

Heydər Əliyev o illərdə respublikanı nəhəng tikinti meydançasına çevirmək, irimiqyaslı obyektlərin, strateji əhəmiyyətli sənaye müəssisələrinin inşasına xüsusi əhəmiyyət verməklə yanaşı, bir sıra yeni təhsil ocaqları, o cümlədən Cəmşid Naxçıvanski adına Hərbi Liseyi yaratmışdı. Bu hadisə azərbaycanlıların döyüş ruhunun inkişaf etdirilməsində mühüm rol oynamışdır. Ordu quruculuğunda bu məktəbin rolu böyükdür. Respublikamız müstəqillik əldə etdikdən sonra hərbi liseyin məzunları ordumuzun yaranmasında, vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizədə həmişə ön cəbhədə olmuşlar. Qarabağ döyüşlərində vuruşan Azərbaycan zabitlərinin 70 faizindən çoxu hərbi liseyin yetirmələridir.



İndi dünya analitiklərinin böyük önəm verdiyi milli mədəniyyətin yayılması siyasətini Heydər Əliyev hələ sovet dövründə özünəməxsus tərzdə həyata keçirirdi. Çünki Ulu Öndər Azərbaycanı dünyada məhz milli dəyərləri, tarixi, mədəniyyət özəlliyi ilə tanıdırdı. Onun təşəbbüsü ilə respublikanın tanınmış musiqiçiləri, şairləri, yazıçıları, müğənniləri, bəstəkarları, aktyorları dünyanın ayrı-ayrı ölkələrində çıxış edirdilər. Əlbəttə, burada siyasi məqam da var idi, o da Azərbaycanı tanıtmaq idi. Bütün bunlar həm də onu göstərir ki, Ümummilli Liderin hələ sovet dönəmində başladığı iqtisadi, siyasi, mədəni yüksəliş siyasəti əslində müstəqil Azərbaycan dövlətinin əsasını təşkil edirdi.

Azərbaycan xalqının xilaskar oğlu kimi özü bir tarix yazan Ulu Öndər Heydər Əliyevin ikinci hakimiyyət dövrünün müstəqillik qazandığımız çox çətin, mürəkkəb illəri də diqqət çəkir. Bəli, 1993-cü ilin iyununda Azərbaycan xalqı dövlətin idarə olunmasını Heydər Əliyevə etibar edəndə bu dövlətin taleyi Tanrının ümidinə qalmışdı. Ölkədə hakimiyyətsizlik, hərc-mərclik baş alıb gedirdi. Məhz Heydər Əliyevin qayıdışı ilə Azərbaycan xalqında ruh yüksəkliyi, öz gələcəyinə inam yarandı və Heydər Əliyev ölkəyə milli dövlətçilik yaratmağın mümkün olması barədə yeni stimul verdi, zaman-zaman Azərbaycanın başı üstündə dolaşan qara buludlar dağılmağa başladı, Azərbaycan parçalanma təhlükəsindən xilas oldu. Nəzərə alsaq ki, milli azadlığa gedən yol məhz milli oyanışdan, milli dirçəlişdən, milli ruhun canlanmasından keçir, onda Heydər Əliyevin gəlişinin nə demək olduğunu açıqlamağa ehtiyac qalmır.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Onun Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı.

Bu gün müstəqil Azərbaycanın tarixi taleyində Ümummilli Lider Heydər Əliyevin dəsti-xətti açıq-aydın görünür. Ulu Öndər Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə xalqımız üçün misilsiz xidmətlər göstərib. O, 1993-cü ildə hakimiyyətə qayıdışı, ilk atdığı addımı ilə respublikada ayrı-ayrı hərbi qrupların, qarşıdurmaların qarşısını aldı, vətəndaş müharibəsinə son qoyularaq ölkədə sabitliyin yaradılmasına doğru addımlar atıldı. Hərbi qüvvələri səfərbər etmək, hərbi qüdrətimizi artırmaq üçün atəşkəs rejimi tətbiq olundu. Ulu Öndər "Əsrin müqaviləsi"ni imzalamaqla ölkəmizin iqtisadi qüdrətinə təkan verdi, dünyaya yeni libasla təqdim olunan Azərbaycan məhz həmin müqavilə hesabına inkişaf edərək dünya dövlətlərinin diqqətini cəlb etdi.

Heydər Əliyevin prezidentliyi zamanında milli ordu quruculuğunda ciddi dəyişikliklər başladı. Təcavüzkar erməni silahlı qüvvələrinin Azərbaycan ərazisindəki azğınlıqlarının qarşısı alındı, qəddar düşmənə əks-zərbələr endirildi və 1994-cü ilin mayında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. 1995-ci ilin noyabrında referendum yolu ilə Azərbaycan Respublikasının ümumbəşəri demokratik dəyərləri özündə əks etdirən Konstitusiyasının qəbul edilməsi, 1995 və 2000-ci illərdə çoxpartiyalılıq əsasında demokratik parlament seçkilərinin keçirilməsi, Konstitusiya Məhkəməsinin fəaliyyətə başlaması, Azərbaycanda ölüm cəzasının ləğv olunması, "Bələdiyyə seçkiləri haqqında" Qanunun və bir sıra digər qanunların qəbulu və əməli surətdə həyata keçirilməsi məhz Ulu Öndərin adı ilə bağlıdır. Heydər Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Azərbaycan xalqının Ümummilli Lideri 2003-cü ilin prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq versə də, səhhətində yaranmış problemlərlə əlaqədar seçkilərdə iştirakdan imtina etmiş və öz namizədliyini İlham Əliyevin xeyrinə geri götürmüşdü. Ulu Öndər Heydər Əliyev İlham Əliyevə böyük ümidlər bəsləyərək söyləyirdi:"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri



sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Uzaqgörən siyasətçi bu fikirlərində də yanılmamışdı. Prezident İlham Əliyev Ulu Öndərin ümidlərini doğrultdu və ata vəsiyyətini yerinə yetirdi. Əgər bu gün Azərbaycan qalib ölkə olaraq dünyadakı nüfuzunu daha da artırıbsa, 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında qalan torpaqları düşmən tapdağından azad edibsə, bütün uğurların təməlində Heydər Əliyev məktəbinin, uzaqgörənliyinin əsasları dayanmaqdadır. Bu əsaslar Azərbaycanın ötən onilliklərdə güclənməsinə, iqtisadi, diplomatik, hərbi sahədə irəliləməsinə şərait yaratdı. Əlbəttə, Ulu Öndərin siyasət mücəssəməsi məhz bu günlər yaşadığımız Zəfər tariximizə hesablanmış uzun, çətin bir yolun keçidi idi.

Bu gün Azərbaycan xalqı 200 illik tarixini Ulu Öndər Heydər Əliyevin siyasi və layiqli varisi, müzəffər Ali Baş Komandan, Prezident İlham Heydər oğlu Əliyevin qətiyyəti, dönməz iradəsi, liderliyi və sərkərdəliyi sayəsində bərqərar edib. Bəli, Azərbaycan xalqının dahi oğlu Heydər Əliyev məktəbinin, irsinin müdavimi olan Ali Baş Komandanımız İlham Əliyevin "Qarabağ Azərbaycandır!" kəlamı və onun "dəmir yumruğ"u hesabına yağı düşmənin başı əzildi. Müzəffər ordumuz bütün dünyaya nümayiş etdirdiyi Qarabağ Zəfəri ilə yeni hərb tarixini də yazmış oldu. Bu tarixin yazılması isə çox çətin, hətta deyərdim, ağır işlərin, yorulmaz zəhmətin sayəsində əldə edilib. Cəmi 44 gün ərzində qazanılan qalibiyyət yürüşü enişli-yoxuşlu yolların aşılmasından sonra baş tutdu. Mənfur düşmən üzərində 2016-cı ildə qazanılmış Aprel zəfəri, eləcə də 2018-ci ildəki Günnüt qalibiyyəti məhz 2020-ci ilin 10 noyabr qalibiyyətinə doğru aparan şərəf yolu olaraq tariximizə yazıldı. Bu, eyni zamanda, xalq-dövlət-Ali Baş Komandan vəhdəti kimi mühüm bir gerçəkliyin məntiqi nəticəsi idi. Bu birlik dünyanın bütün ölkələrindən heyrətlə izlənildi. Onlar Azərbaycan dövlətinin nə qədər dərin əsaslara, təməllərə söykənməsi faktının şahidi oldular.

Bu gün Azərbaycan əsası Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində dünyada iqtisadi, hərbi cəhətdən güclü dövlət kimi qəbul edilir.

Ulu Öndərin əbədiləşən ömür yolunu düşünəndə belə qənaətə gəlirik ki, ömrünü xalqına həsr edən, milləti, dövləti üçün misilsiz xidmətlər göstərən rəhbərlər heç zaman unudula bilməz. Ölkəmizdə milli tərəqqinin yarım əsrə yaxın bir mərhələsi Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından üzüağ çıxaran, hələ sağlığında canlı əfsanəyə çevrilən Heydər Əliyevin millət və vətən sevgisindən qaynaqlanan fəaliyyəti ilə bağlıdır. Tarixi gerçəkliklərin müqayisəsi böyük şəxsiyyətlərin fəaliyyətinin qiymətləndirilməsində ən obyektiv istinad yeridir. Bütün bunlara görə, bu gün Ulu Öndər Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan dövləti istisnasız olaraq daim irəliləyən, iqtisadi, sosial, humanitar və mədəni sahələrdə intibaha can atan, hər addımda insan və şəxsiyyət amilini uca tutan bir ölkə kimi dünyada öz layiqli yerini tutur.

# Heydər Əliyev Azərbaycanda gənclər və idman siyasətinin banisidir



**Adil Əliyev**
Milli Məclis sədrinin müavini,
Gənclər və idman komitəsinin sədri

Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə 2023-cü ili ölkədə "Heydər Əliyev İli" elan etdi. Ümummilli Liderin çoxşaxəli fəaliyyəti həyatın bütün sahələrini əhatə etmiş, onun şöhrəti ölkəmizin hüdudlarını aşaraq dünyaya səs salmışdır.

Dahi şəxsiyyətin cahanşümul xidmətləri sırasında Azərbaycanda gənclər və idman siyasəti istiqamətində möhkəm təməllər qurması, böyük ənənələr yaratması xüsusi yer tutur. Məhz həmin bu böyük ənənələr Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə 44 günlük Vətən müharibəsində böyük Zəfərimizin mühüm zəmini rolunda çıxış etdi.

26 il əvvəl - 1997-ci ildə Ulu Öndər Heydər Əliyev fevralın 2-nin Azərbaycanda Gənclər Günü elan edilməsi ilə bağlı qərar verdi. Heydər Əliyevin Şərqi Avropada və MDB ölkələrində ilk hesab olunan belə bir günü təsis etməsi ilə müstəqil Azərbaycan Respublikasının gənclər siyasətində yeni bir epoxa başladı. Ötən 26 il ərzində Azərbaycanda gənclər sahəsində kompleks şəkildə dövlət siyasəti həyata keçirildi. Həmin siyasət nəticəsində ölkədə gənclərlə işin ciddi keyfiyyət dəyişikləri əldə edildi, onların ictimai həyatda rolu önəmli dərəcədə artdı.

Heydər Əliyev gəncləri ölkənin həm bu günü, həm də gələcəyi hesab edirdi. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsinin əsas hərəkətverici qüvvəsi gənclər idi. Azərbaycanın düşmən ölkə üzərindəki böyük Zəfəri həm də gənclərlə bağlı 26 illik bir dövrü əhatə edən uğurlu dövlət siyasətinin məntiqi yekunu idi.

Zaman keçdikcə biz 2 fevral - Gənclər Gününün əhəmiyyətini, bunun sadəcə formal xarakterli bir gün olmadığını daha dərindən dərk edirik. Bu gün mahiyyət etibarı ilə Azərbaycanda gənclərə yönəlmiş sistemli siyasətin və kompleks yanaşmanın təsis edilməsi deməkdir.

Bu məqsədlə Ulu Öndər Heydər Əliyevin ölkədə gənclər siyasətinin bünövrəsini təşkil edən üç tarixi qərarına xüsusi diqqət yetirmək zəruridir: birincisi, 1994-cü il iyulun 26-da Heydər Əliyevin fərmanı ilə gənclər siyasətinin həyata keçirilməsinə məsul olan mərkəzi qurum - Gənclər və İdman Nazirliyi yaradıldı. İkincisi, Ümummilli Liderin təşəbbüsü ilə 1996-cı il fevralın 2-də ölkədə Gənclərin Birinci Forumu keçirildi. Bu tədbir müasir Azərbaycanda gənclər siyasətinin inkişafına həlledici təkan verdi, eləcə də dövləti və gəncləri bir araya gətirən vacib platformaya çevrildi. Üçüncüsü, Ulu Öndərin 1997-ci il 2 fevral tarixli Sərəncamı ilə təqvimin bu gününün Azərbaycanda Gənclər Günü elan edilməsi dövləti və gəncləri birləşdirən həmin platformanı mühüm bir ənənəyə çevirdi.

Heydər Əliyevin möhkəm təməllər üzərində qurduğu gənclər və idman siyasətinin ölkəmizə verdiyi töhfələrə bir daha 44 günlük Vətən müharibəsi prizmasından baxmaq istəyirəm. Müqəddəs vətən torpağı uğrunda gedən bu savaşda gənclərimizin yüksək fiziki və mənəvi hazırlığı, vətənpərvərlik hissinin



formalaşması əməli şəkildə sübut olundu. Ancaq qələbəmizdə gənclərlə bağlı dövlət siyasətinin rolu təkcə bunlarla məhdudlaşmır. Torpaqlarımızın 30 illik işğaldan azad edilməsində vətənpərvər gənclərimizin göstərdiyi şücaət onların yüksək texnologiyalardan və süni intellektə əsaslanan döyüş vasitələrindən düzgün idarə edilməsi üçün tələb olunan peşəkarlığa və mükəmməl təhsilə malik olduqlarının parlaq nümayişi idi. Digər tərəfdən, belə təhsilli, savadlı və intellektual vətən övladlarının yetişməsi Azərbaycan həqiqətlərinin, o cümlədən Qarabağ müharibəsi ilə bağlı mövqeyimizin dünyaya çatdırılması, habelə ölkəmizin beynəlxalq səviyyədə yumşaq gücünün formalaşması üçün də zəruri bir vasitə idi.

Söhbət Azərbaycan gənclərindən və bu sahədəki uğurlu dövlət siyasətindən gedirsə, ilk növbədə gənc hərbçilərimizi - əsgər və zabitlərimizi xüsusi vurğulamalıyıq. 44 günlük Vətən müharibəsində Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun qazandığı böyük Zəfərdə onların misilsiz və möhtəşəm əməyi oldu. Çünki döyüşçülərin fədakarlığı və qəhrəmanlığı olmadan bu qələbəni qazanmaq mümkün olmayacaqdı.

> **“İdman, bədən tərbiyəsi xalqın sağlamlığı ilə bağlı olan mühüm sosial sahədir. Azərbaycan bayrağı dünyada, demək olar ki, iki dəfə qaldırılır. Bu, bir Azərbaycanın dövlət başçısı hər hansı ölkəyə gələrkən və bir də idmançılarımız beynəlxalq yarışlarda çempion adını qazanarkən baş verir. Azərbaycan Himni səslənir, Dövlət Bayrağı qaldırılır ”.**
>
> **Heydər Əliyev**

Heydər Əliyevin fəaliyyətində gənclər siyasəti prioritet istiqamətlərdən biri kimi müəyyən edilmişdir və Zəfərə doğru gedən bu yolda gənclərimizin əsas qüvvə olacağı müdrik bir uzaqgörənliklə hədəflənmişdi. Qəhrəman əsgərlərimizin döyüş meydanında əldə etdikləri qələbələri gənclərimiz hazırda digər mübarizə meydanlarında ləyaqətlə davam etdirirlər. Qarabağda işğalçı Ermənistan tərəfindən qızıl, mis və molibden yataqlarının qeyri-qanuni istismarına, eləcə də ekoloji terrora, ətraf mühitə, təbiətə vurulan zərərə etiraz olaraq vətəndaş cəmiyyəti nümayəndələrinin və QHT-lərin Şuşa-La-






çın-Xankəndi yolunda keçirdikləri ekoloji aksiyada gənclərimizin fəal və yorulmaz iştirakını buna misal çəkmək istəyirəm. Həqiqətən, onlar bir neçə aydır davam edən bu aksiyada əsl vətənpərvərlik nümunəsi göstərir, mədəni və etik şəkildə mübarizə aparırlar. Bu gün aksiyanın əks-sədası dünyanın ən nüfuzlu yüksək qurumu olan BMT Təhlükəsizlik Şurasının iclasına qədər gedib və əsaslı aksiyanın tələbləri təşkilatın müzakirələrinə çıxarılıb. Ermənipərəst qüvvələr, xüsusən də Fransa BMT-də ölkəmizə qarşı qərar qəbul etməyə ciddi səy göstərir. Amma Prezident İlham Əliyevin apardığı uğurlu xarici siyasət nəticəsində dünyada olan dostlarımız azərbaycanlı eko-fəalların bu haqq işinə qarşı belə bir qərarın çıxarılmasının qarşısını alırlar. Bu, həm Ulu Öndərin əsasını qoyduğu gənclər siyasətinin, həm cənab Prezidentin apardığı uğurlu diplomatiyanın, həm də sağlam düşüncəli, vətənpərvər ruhlu Azərbaycan gəncliyinin qələbəsidir.

Ölkədə aparılan gənclər siyasətindən danışarkən könüllülər hərəkatının geniş vüsət almasını da qeyd etməmək olmaz. Gənclər arasında könüllülük fəaliyyətinin təbliği onlarda humanizm hisslərini, mənəvi dəyərləri gücləndirir. Bu fəaliyyət həm də əmək bazarına yeni çıxan gənclərə çox vacib bir təcrübə qazandırır. Könüllülər ölkəmizdə keçirilən beynəlxalq tədbirlərə, o cümlədən idman və musiqi yarışlarına mühüm töhfə verirlər. Beynəlxalq tədbirlərdə iştirak bir tərəfdən onlara fərqli mədəniyyətlərə mənsub olan insanlarla ünsiyyət vərdişləri aşılayır, digər tərəfdən isə Azərbaycan xalqının çoxəsrlik tolerantlıq xüsusiyyətlərini əcnəbilərə nümayiş etdirir. Bu tolerantlığın əsasında da Ulu Öndərin miras qoyduğu azərbaycançılıq məfkurəsi ilə ahəngdarlıq təşkil edən, Azərbaycanda dövlət siyasəti elan edilmiş multikulturalizm ənənələri dayanır. Bu gün ölkəmizdə bütün ali məktəblərdə multikulturalizm fənni tədris olunur, bununla bağlı beynəlxalq yay və qış məktəbləri təşkil edilir, müxtəlif tədbirlər keçirilir. Məhz bu ideoloji xəttin, bu siyasətin nəticəsidir ki, Azərbaycan hərbçiləri Vətən müharibəsi dövründə düşmənlərə, onların qəbirlərinə və dini abidələrinə qarşı münasibətdə ləyaqətlə davranıblar.

Azərbaycan xalqının xarakteri ölkədə yürüdülən gənclər siyasətinin ideoloji təməlində duran, ümumbəşəri dəyərlərə hörmət bəsləyən azərbaycançılıq məfkurəsi ilə bağlıdır. Bu məfkurə din, dil, etnik və digər mənsubiyyətindən asılı olmayaraq, bütün azərbaycanlıların ümumi vətəni olan Azərbaycan dövlətinə bağlılığını özündə ehtiva




edir. Multikulturalizm siyasəti də bu bağlılığın möhkəmlənməsinə yönəlmiş ideologiyadır və vətənpərvərliyin Azərbaycan nümunəsi kimi səciyyələndirilə bilər.

Bir daha qeyd edirəm ki, 44 günlük Vətən müharibəsində, xüsusən də Şuşa döyüşlərində gənclərimizin vətənpərvərlik nüminəsi öz təcəssümünün zirvəsinə çatdı. Belə ideoloji təməl üzərində qurulmuş gənclər siyasətinin qarşıdan gələn dövrdə əsas vəzifələrindən biri Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində orta güc konsepsiyası ilə xarakterizə edilən dövlət kimi formalaşmasında gənclərimizin rolunun gücləndirilməsinə xidmət etməkdir.

Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev gənclər siyasətini zamanın tələbinə və ruhuna uyğun şəkildə inkişaf etdirir. Eləcə də Birinci vitse-prezident Mehriban xanım Əliyeva gənclər sektorunun tərəqqisinə önəmli töhfələr verir. Məhz Ulu Öndər Heydər Əliyevin banisi olduğu gənclər siyasətinin və kompleks yanaşmanın cənab Prezident tərəfindən mütərəqqi və ahəngdar surətdə inkişaf etdirilməsini, gənclərimizin bu gün ictimai-siyasi həyatımızda və beynəlxalq aləmdə necə mühüm rol oynadıqlarını, bu günümüzün bir parçasına çevrildiklərini bir neçə konkret nümunə ilə qeyd edim. İdmançı gənclərimiz bizi hər il yeni-yeni qələbələrlə, nailiyyətlərlə sevindirirlər, mötəbər beynəlxalq arenalarda dövlətimizin üçrəngli bayrağını qaldırır, himnimizi səsləndirirlər, Azərbaycanı dünyada tanıdıb təbliğ edirlər. Onların bu nailiyyətlərinə verilən qiymətin təzahürü Prezident İlham Əliyevin idmançılarla müntəzəm görüşləri, onları müxtəlif mükafatlarla təltif etməsi və sosial məişət şəraitlərinin yaxşılaşdırılması ilə bağlı gördüyü tədbirlərdir.

Ulu Öndərin banisi olduğu gənclər və idman siyasətini layiqli şəkildə inkişaf etdirən Prezident İlham Əliyevin qarşıya qoyduğu prioritetlərdən biri də gənclərin elmli, təhsilli, layiqli vətəndaşlar kimi yetişdirilməsidir. Azərbaycan gənclərinin dünyanın qabaqcıl ali məktəblərdə təhsil alması məqsədi ilə cənab Prezidentin tapşırığı ilə xaricdə təhsillə bağlı xüsusi proqramlar həyata keçirilir. Eləcə də yerli universitetlər və təhsil müəssisələri inkişaf etdirilir ki, bu ənənənin təməli də hələ Ulu Öndər Heydər Əliyevin 1970-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə qoyulmuşdur.

Çox sevindirici haldır ki, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu və İlham Əliyevin uğurla inkişaf etdirdiyi gənclər və idman siyasətinin bəhrəsi olan müasir gəncliyin Vətən müharibəsindəki qəhrəmanlıqları, elm, təhsil və idman sahəsindəki nailiyyətləri, vətən övladlarının qəhrəman, savadlı və vətənpərvər obrazı dünyaya səs salır.

# Heydər Əliyev Azərbaycan Konstitusiyasının və hüquqi dövlət quruculuğunun memarıdır



**Ziyafət Əsgərov**
Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri

Çoxminillik dövlətçilik tarixi olan müstəqil Azərbaycan Respublikasının inkişaf yolu şərəfli və keşməkeşli olmuşdur. Ölkəmizdə ilk respublikanın qurulması XX əsrin əvvəlinə, onun 70 ildən sonra bərpası isə əsrin sonlarına - ən təlatümlü dövr hesab edilən 1990-cı illərdəki geopolitik dəyişikliklər dövrünə təsadüf etmişdir. Ötən yüzilliyin sonlarında keçmiş SSRİ-nin tarixi məntiqə söykənən qaçılmaz çöküşü prosesi ittifaq ölkələrinin öz müstəqilliyini bərpa etməsi üçün tarixi zəmin yaratmışdı. Nəticə etibarilə, 1991-ci ilin oktyabr ayının 18-də Azərbaycan öz dövlət müstəqilliyini bərpa etsə də, SSRİ-dən miras qalmış hüquq sistemi demokratik, hüquqi dövlət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının müdafiəsinə heç bir təminat vermirdi. Dünyanın inkişaf etmiş ölkələrinin mütərəqqi hüquq sistemləri ilə əlaqədən, demək olar ki, təcrid olunmuş və öz "dəyər"ləri olan keçmiş SSRİ-nin sosialist hüququna əsaslanan qanunvericilik sistemi postsovet dövrünün reallıqları ilə ayaqlaşmaq gücündə deyildi. Müstəqilliyin bərpa olunduğu ilk illərdə bu sistem quruculuğu yönündə bəzi addımlar atılsa da, təəssüf ki, siyasi idarəetmədəki təcrübəsizlik müstəqil dövlət quruculuğunun bərpası prosesini ləngitdiyi kimi, milli hüquq sisteminin təşəkkül tapmasına da öz mənfi təsirini göstərirdi. O dövrdə ölkədəki pərakəndəlik, separatizm meyilləri, siyasi təcrübənin zəifliyi, ayrı-ayrı silahlı dəstələrin hökmranlıq etmək istəyi dövlətçiliyin itirilməsinə doğru gedən bu vəziyyəti şərtləndirən başlıca amil idi. Bu hadisələrin fonunda müstəqilliyini təzəcə bərpa etmiş ölkənin gələcək inkişafı, böhran vəziyyətində olan dövlətçiliyin xilas edilməsi konstitusiya hüququ sahəsində islahatların təxirə salınmadan həyata keçirilməsini, yeni mütərəqqi və demokratik dəyərlərə söykənən dövlət quruculuğunun, milli hüquq və məhkəmə sisteminin, normativ hüquqi akt bazasının yaradılmasını zərurətə çevirmişdi. Amma təəssüf ki, yuxarıda qeyd edilən səbatsızlıq və bu kimi digər səbəblərdən sadalanan işləri görə biləcək nə güclü dövlət aparatı, nə siyasi rəhbər, nə də iradə mövcud deyildi.

Məhz belə mürəkkəb bir şəraitdə xalqın təkidi ilə hakimiyyətə qayıdan və xilaskarlıq missiyasını çiyinlərinə götürən Ümummilli Lider Heydər Əliyev qısa müddət ərzində Azərbaycanda müstəqil dövlətin inkişafı üçün başlıca amil sayılan sabitliyi təmin etməyə nail oldu və dövlət quruculuğu prosesi üçün zəruri olan bir sıra vacib addımlar atdı. Bunun ardınca vətəndaşların hüquq və mənafelərinin müdafiəsinə əsaslanan milli dövlətin qurulması prosesinə start verildi - insan və vətəndaş hüquq və azadlıqlarının, Azərbay-




can Respublikası vətəndaşlarının layiqli həyat səviyyəsinin təmin edilməsi yeni qurulan dövlətin ali məqsədi kimi əsas hədəf seçildi, beynəlxalq münasibətlər sisteminə inteqrasiyaya istiqamətlənmiş, sosial ədalət prinsipinə əsaslanan hüquqi dövlət quruculuğu prosesi öz başlanğıc mərhələsinə qədəm qoydu və məntiqi ardıcıllığa uyğun olaraq hər şeydən əvvəl bu prosesin konseptual əsasları işlənib hazırlandı. Bu mərhələdə Azərbaycan Respublikasının Milli Məclisi "Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın tərkibi haqqında" müvafiq qərar qəbul etdi və o vaxt Prezident vəzifəsində olan Ümummilli Lider Heydər Əliyevin sədrliyi ilə yaradılmış komissiya ümumxalq səsverməsinə çıxarılacaq Konstitusiya layihəsinin hazırlanması işinə başladı. Onun rəhbərliyi ilə yeni Konstitusiya layihəsini hazırlayan komissiyanın ilk iclasındakı çıxışında Ümummilli Lider layihə ilə bağlı zəruri tezisləri komissiya üzvlərinin diqqətinə çatdıraraq əslində həm də hüquqi dövlət quruculuğu prosesinin ilkin təməllərini formalaşdırdı:"Biz elə bir Konstitusiya layihəsi hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun... Konstitusiyamız Azərbaycanda məhz demokratik, hüquqi, dünyəvi, sivilizasiyalı bir dövlət qurmaq üçün əsas yaratmalıdır, onun əsas qanunu olmalıdır... Konstitusiya yaratmaq üçün tarixi keçmişimizə nəzər salmalıyıq, eyni zamanda, ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən istifadə etməli, bəhrələnməliyik... Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü qanunvericilik, ali icra, məhkəmə hakimiyyətləri - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidir... Ona görə də hər bir vətəndaşın hüquqlarının qorunması, azadlıqlarının təmin edilməsi və hər bir vətəndaşa cəmiyyətimizdə, ölkəmizdə özünə layiqli yer tutmaq imkanlarının yaradılması - bunlar hamısı Konstitusiyamızda öz əksini tapmalıdır..."

Sitatdan və ümumxalq səsverməsindən sonra qəbul edilmiş ilk milli Konstitusiyamızda müasir konstitusionalizmin klassik ideyaları aydın şəkildə təsbit olunmuşdur: hakimiyyətlərin bölgüsü; insan hüquq və azadlıqlarının prioritet hesab edilməsi; hakimiy-

yətin mənbəyinin xalq olması; siyasi plüralizm; konstitusion nəzarət və s.

Sadalanan bütün bu konseptual məqamlar əslində yuxarıda qeyd edildiyi kimi, mahiyyət etibarilə hüquqi dövlət quruculuğu prosesində ilkin təməl rolunu oynadı. Konstitusiya qəbul edildikdən sonra bu istiqamətdə ilk mühüm addım atılsa da, qarşıda görülməli işlər hələ çox idi. Növbəti fazada müvafiq dövlət proqramlarının, əsasən də insan hüquqları sahəsində qanunvericilik aktlarının qəbulu prosesi xüsusi yer tuturdu. Bu sahədə maddi hüquq normalarının bir hissəsi Konstitusiyamızda öz əksini tapsa da, sahəvi aktların çoxu hələ mövcud deyildi. Demək olar ki, Konstitusiyanın 158 maddəsindən 48-i, təqribən üçdə biri insan hüquq və azadlıqlarının təminatını nəzərdə tutan müddəalardır. Məhz bu amildən çıxış edərək Ümummilli Lider Heydər Əliyev tərəfindən 1996-cı il 21 fevral tarixli Sərəncamla təşkil edilmiş Hüquq İslahatları Komissiyası bu sahə üzrə ixtisaslaşmış ekspertlərin iştirakı ilə müasir Avropa standartlarına cavab verən qanunvericilik aktlarının layihəsini hazırlayaraq milli qanunvericiliyin qabaqcıl ölkələrin təcrübəsinə əsaslanan səviyyəyə çatmasına nail olmuşdur. İnsan hüquqları və azadlıqları sahəsində o dövrdə qəbul edilmiş aktlar sırasında Ümummilli Lider Heydər Əliyevin 22 fevral 1998-ci il tarixində imzaladığı "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı və 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" mühüm yer tutur. Konstitusiyada ümumdövlət əhəmiyyətli məsələ səviyyəsinə qaldırılmış və milli hüquq sisteminin prioritet istiqamətinə çevrilmiş insan hüquqları məsələsi bu fərman və sərəncamlarla daha da genişləndirildi. Bir dövlət təsisatı kimi dövlətçilik tariximizdə ilk dəfə yaradılmış İnsan hüquqları üzrə müvəkkil (ombudsman) təsisatının formalaşdırılması da ilk olaraq məhz adıçəkilən aktlarda nəzərdə tutulmuşdu. Onu da vurğulamaq istəyirəm ki, ölkə başçısı İlham Əliyev cənablarının 2007-ci il tarixli sərəncamına əsasən ilk Dövlət Proqramının qəbul olunduğu gün - 18 iyun Azərbaycanda İnsan Hüquqları Günü elan edilmişdir.

Ölkəmizin Avropaya inteqrasiya xəttinin xarici siyasi kurs kimi müəyyənləşdirilməsi də məhz Ümummilli Liderin siyasi idarəetməsinin vacib istiqaməti idi.



Bu baxımdan mühüm beynəlxalq təşkilatlardan olan Avropa Şurasına üzv qəbul edildikdən sonra qanunvericilik sisteminin Avropa standartlarına uyğunlaşdırılması prosesində Milli Məclis tərəfindən qanunların qəbulu zamanı mühüm beynəlxalq çoxtərəfli müqavilələrdə, saziş və konvensiyalarda müəyyən edilmiş fundamental insan hüquq və azadlıqlarının əsas meyar kimi götürülməsi də hüquqi dövlət quruculuğu prosesində xüsusi yer tuturdu. “Məlumat azadlığı haqqında”, “Uşaq hüquqları haqqında”, “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında”, “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında”, Seçki Məcəlləsi və bu qəbildən olan digər qanunlar, Konstitusiya qanunları bu fikrə nümunə kimi göstərilə bilər. Milli Məclis tərəfindən BMT-nin “Qadınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv olunması haqqında” Konvensiyasının, “Milli azlıqlara mənsub olan şəxslərin hüquqlarının təmin edilməsi haqqında” Konvensiyanın, “Müəlliflik hüququnun və əlaqəli hüquqların müdafiəsi sahəsində əməkdaşlıq haqqında” Sazişin, “Genosid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında”, “Köləlik haqqında” konvensiyaların, “İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Beynəlxalq Konvensiyanın, “Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası”nın, “İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında” Konvensiyanın və onun protokollarının ratifikasiya edilməsi ilə beynəlxalq hüquqi aktların milli qanunvericiliyə implementasiyası prosesi də xüsusi önəm daşıyırdı. Bu baxımdan milli hüquqi mexanizmlərin təkmilləşdirilməsi, insan hüquqları sahəsində fəaliyyət göstərən beynəlxalq təsisatlarla əməkdaşlığın qurulması və inkişaf etdirilməsi, bu sahədə fəaliyyət göstərən beynəlxalq mərkəzlərdə tədqiqat və təhsil proqramları əsasında mütəxəssislərin hazırlanması, dövlət aparatında qulluq keçən dövlət qulluqçularının və ixtisaslaşmış kadrların müvafiq təcrübə mübadiləsi proqramlarına cəlb edilməsi amili də nəzərdən qaçırılmamalıdır. Çünki istənilən hüquqi dövlətdə dövlət aparatının funksiyalarının məhz kadr korpusu tərəfindən yerinə yetirildiyi amili də xüsusi önəm kəsb edir.

> “İstər bir azərbaycanlı - Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri - Prezidenti kimi mənim həyat amalım yalnız sizə – bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur”.
>
> **Heydər Əliyev**

Ümummilli Liderin nəzərində həm sovet dövründə, həm müstəqilliyin bərpasından sonrakı ilk onillikdə xüsusi istedadı olan gənclərimizin qabaqcıl xarici ölkə ali məktəblərində, təşkilatlarda təhsil və təcrübə proqramlarına cəlb edilməsi çox vacib məsələ idi. Təsadüfi deyil ki, həmin dövrdə təhsil almış o vaxtkı gənc nəslin bir çoxu bu gün hüquqi dövlət quruculuğunun həyata keçirilməsi prosesinin iştirakçıları kimi müxtəlif dövlət orqanlarında qulluq keçməkdədirlər.

Müstəqil Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu prosesinin növbəti vacib mərhələsi ədalətli və müstəqil məhkəmə sisteminin yaradılmasından ibarət olmuşdur. Məlumdur ki, hüquq filosofları tərəfindən irəli sürülmüş hakimiyyətlərin bölünməsi prinsipinin vacib tərkib hissəsi olan müstəqil məhkəmələr ədalətli cəmiyyət quruculuğu prosesinin əsas komponentlərindən biri kimi qəbul edilmişdir. Demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun Azərbaycan Respublikası üçün ən düzgün siyasi xətt olduğunu hesab edən Ümummilli Lider ölkəmizdə müstəqil məhkəmə hakimiyyətinin formalaşdırılmasına müstəsna əhəmiyyət vermişdir. Təsadüfi deyildir ki, dünyanın bir çox aparıcı beynəlxalq təşkilatları, həmin təşkilatlar çərçivəsində qəbul edilmiş çoxtərəfli beynəlxalq müqavilələr, sivil və demokratik dövlətlərin konstitusiyaları, elmi ədəbiyyatlar müstəqil məhkəmə sisteminin mövcudluğunu ədalətin əsas təminatçısı, hüquqi dövlətdə ən vacib institut kimi xarakterizə etmişdir. Bu baxımdan Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1997-ci ildə “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun qəbul edilməsi xüsusi önəm daşıyır ki, bu qanunla milli hüquq sistemində məhkəmələrin yerinin Konstitusiyanın müddəalarına uyğun olaraq müəyyən edilməsi və formalaşdırılması prosesinə start verildi. Bu qanunun ardınca Azərbaycan Respublikası Prezidentinin həmin qanundan irəli gələn məsələlərin tətbiqi və məhkəmə islahatlarının həyata keçirilməsi məsələləri ilə bağlı proqram xarakterli fərmanı ilə respublikada məhkəmə quruluşunun və məhkəmə qərarlarının icrası prosesinin müasir modelinin formalaşdırılmasına başlanıldı. Vətəndaşların Konstitusiyada və

digər aktlarda müəyyən edilmiş hüquq və azadlıqlarının təmini baxımından xüsusi önəm daşıyan ədalət mühakiməsinin əlçatanlığı və müstəqilliyi hüquqi dövlət quruculuğu prosesinin ən vacib mərhələlərindən biri kimi qiymətləndirilməlidir. Çünki görülmüş bütün bu işlərin və həyata keçirilmiş əsaslı məhkəmə-hüquq islahatlarının nəticəsində keçmiş sovet ittifaqından qalma məhkəmə sistemi demək olar ki, tamamilə aradan qaldırıldı, yeni və qabaqcıl inkişaf etmiş ölkələrin təcrübəsinə söykənən üçpilləli müstəqil məhkəmə hakimiyyəti sistemi yaradıldı, hakim korpusun demokratik əsaslarla formalaşdırılması prosesi sürətləndirildi.

O da xüsusi qeyd edilməlidir ki, müstəqil məhkəmə sisteminin formalaşdırılması işində Məhkəmə-Hüquq Şurasının təsis edilməsi amili də mühüm rol oynamışdır. Öz fəaliyyətini şəffaflıq prinsipləri üzərində quran Şuranın hakim heyətinin müsabiqə əsasında formalaşdırılması bu baxımdan da xüsusi önəm kəsb edirdi. Sadalanan bu işlərin fonunda proses sonrakı mərhələdə “Polis haqqında”, “Prokurorluq haqqında” və digər sahəvi qanunvericilik aktlarının qəbul olunması ilə davam etdirildi.

Göründüyü kimi, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə hüquqi dövlət quruculuğu prosesi çərçivəsində demək olar ki, dövlət hakimiyyətinin bütün qollarında əsaslı islahatlar aparıldı, idarəetmə sisteminin bütün istiqamətlərinin inkişafı üzrə tarixi əhəmiyyət kəsb edən qərarlar qəbul olundu, Azərbaycan xalqının dövlətçilik tarixində köklü və mütərəqqi işlər görüldü.

Məhz Ümummilli Liderin təməlini qoyduğu və yuxarıda sadalanan həmin islahatların məntiqi nəticəsidir ki, müasir Azərbaycan Respublikasının inkişafı davamlı prosesə çevrilmişdir. Əminliklə deyə bilərik ki, bu siyasi və hüquqi islahatlar bu gün ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Tarixi faktların ədalətli təhlili göstərir ki, xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışın ilk illərində ölkədə xaos, özbaşınalıq, separatizm, silahlı qruplaşmalar, başıpozuq dəstələr mövcud idisə, bu gün Azərbaycan Respublikası ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə dünya siyasi arenalarında söz sahibi olan, tam müstəqil siyasət yürüdən, iqtisadi cəhətdən qüdrətli, təhlükəsiz və stabil bir dövlətdir.

Heç şübhəsiz ki, yaşadığımız dünyada elmi-texniki tərəqqi, sənaye inqilabları, texnoloji yeniliklər xüsusilə XXI əsrdə elə sürətlə inkişaf edir ki, bu yeni çağırışlar dövlət quruculuğu və idarəetməsinə yeni konseptual baxışlar ortaya qoyur. Modernləşməkdə olan dövlətin fəaliyyətində səmərəliliyin daha da artırılmasına yönəlik yeni idarəetmə konsepsiyasının yaradılması bu sadalanan paradiqmadan çıxış etməyi tələb edir. Qeyd olunan amillər müasir dövlət idarəetməsi işində yeni bir eranın başlanğıcı kimi də qəbul edilə bilər. Rəqəmsal texnologiyanın sürətli inkişafı, internetin və kompüterləşmənin artması nəticə etibarilə dövlət-vətəndaş münasibətlərinə yeni müasir baxışların və sistemlərin ortaya qoyulmasını, milli qanunvericiliyin tərkib hissəsi olan normativ hüquqi aktların yenilənməsini də qaçılmaz edir. Bu baxımdan, Milli Məclis tərəfindən bu münasibətləri yeni məcraya salan qanunların qəbul edilməsi, Azərbaycan Respublikasının Prezidenti tərəfindən bu qəbildən olan yeni fərman və sərəncamların imzalanması, müvafiq strategiyaların və dövlət proqramlarının qəbul edilməsi, elektron hökumət, elektron məhkəmə platformalarının yaradılması xüsusi vurğulanmalıdır və bütün bunlar Azərbaycan Respublikasında artıq müasir idarəetmənin həyata keçirilməsi kimi qiymətləndirilməlidir.

Bu gün əminliklə deyə bilərik ki, dövlət orqanlarının fəaliyyətinin müasir tələblərə uyğun qurulması, müasir prinsip olan şəffaflığın rəhbər tutulması həm də elektron idarəetmənin tətbiqi əsasında təmin edilmişdir. Bu tətbiqetmələr nəticəsində dövlət orqanlarının fəaliyyət infrastrukturu təkmilləşdirilmiş, elektron xidmətlər bu fəaliyyətə inkorporasiya edilmiş, vətəndaşların dövlət idarəetməsinə və bu idarəetmədə iştiraka çıxış imkanları artırılmışdır.

Ötən 30 ilin faktlarının təhlili göstərir ki, ölkəmizdə Ümummilli Lider tərəfindən aparılmış hüquqi islahatlar, düzgün dövlət quruculuğu prosesi və 2003-cü ildən başlayaraq bu islahatlar kursunun davamının təmin edilməsi olmasaydı, bu gün biz nə dünyadakı söz sahibliyimizdən, nə hərbi və iqtisadi gücümüzdən, nə də ərazilərimizin işğaldan azad edilməsindən danışa bilərdik. Azərbaycan xalqından yüksək səs çoxluğu ilə mandat alaraq Prezident seçilən cənab İlham Əliyev Ümummilli Liderin hüquqi dövlət quruculuğu prosesini davam etdirməklə yanaşı, ölkənin iqtisadi qüdrətini yüksəltmək, paralel olaraq da Ermənistanın dünya birliyi tərəfindən işğalçı ölkə kimi tanınmasına nail olmaq hədəfini seçdi. Əlbəttə, bu işlər bir neçə ay və ya il içində ərsəyə gəlmədi. 2003-cü ildən başlayan bu çətin yol 17 illik zəhmətdən sonra 2020-ci ildə öz zirvəsinə yüksəldi - artıq dünya ictimaiyyəti Azərbaycan həqiqətlərini istəsə də, istəməsə də qəbul etməyə başlamışdı, Ermənistanı isə işğalçı dövlət kimi qəbul edən ölkələrin sayı artmışdı. Respublikamız



Avropanın enerji təhlükəsizliyinin təminatçısına çevrilmiş, ordu güclənmiş, müasir silah və sursatlarla təmin edilmiş, Ümummilli Lider tərəfindən əsası qoyulmuş hərbi ixtisaslı orta və ali məktəbləri bitirən zabit heyəti ordu sıralarında öz mövqelərini tutmuşdu. Bu işlərlə paralel olaraq, beynəlxalq siyasi arenalarda qazandığımız uğurlar Azərbaycan Respublikasına siyasi üstünlüklər gətirmişdi. Onu da nəzərə almaq lazımdır ki, bu misilsiz işlər ərazisinin 20 faizi işğal altında olan, 1 milyondan çox qaçqın və məcburi köçkünün öz dədə-baba torpaqlarından zorla qovulduğu ölkədə görülmüşdü. Şübhəsiz ki, yuxarıda sadalanan işlərin mürəkkəb coğrafiyada yerləşən bir ölkədə belə ağır şərtlər altında aparılması ikiqat iradə və əzm tələb edirdi. Amma xalq-iqtidar birliyindən güc alan cənab İlham Əliyev tərəfindən görülmüş misilsiz işlər 17 ilə sığışdırıldı və o tarixi gün gəlib çatdı. "İlhamla irəli!" ilə başlayan seçki kampaniyası "Ali Baş Komandanla irəli!" komandasına çevrildi. Modernləşdirilmiş güclü Azərbaycan Ordusu Ali Baş Komandanın "dəmir yumruq" əməliyyatına başladı. "44" rəqəmini şanlı tariximizin səhifələrinə 44 günlük Vətən müharibəsi kimi həkk edən müzəffər Ali Baş Komandan və rəşadətli ordumuz 1993-cü ildən başlanmış yolun çoxdan gözlənilən sonuna çatdı. 30 ilə yaxın işğal altında qalan Azərbaycan torpaqları azad edildi, vətəndaşlarımızın yurd həsrətinə son qoyuldu. Birinci Qarabağ müharibəsində erməni vandalizmi nəticəsində yerlə-yeksan edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına daxil olan ərazilərimiz bu gün demək olar ki, "ağıllı kənd (şəhər)" konsepsiyası əsasında yenidən qurulur. Yenidənqurma işlərinin yüksək sürətlə və əzmlə həyata keçirilməsi bütövləşən Azərbaycana yeni nəfəs, keçmiş məcburi köçkünlərə yeni yaşam həvəsi bəxş edir. Tezliklə öz doğma yurdlarına qayıdacaq soydaşlarımız və xalqımızın digər nümayəndələri 1993-cü ildə əsası qoyulmuş hüquqi dövlət quruculuğu prosesinin müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla və daha böyük əzmlə davam etdirilməsinin məntiqi bəhrəsini görməkdədirlər.

Bu gün tam əminliklə deyə bilərəm ki, qədim dövlətçilik tarixinə sahib olan azərbaycanlılar dahi şəxsiyyət Heydər Əliyevin misilsiz əməyi nəticəsində yaradılmış dövlətimizin - Azərbaycan Respublikasının hələ çox-çox illər sonra da bəhrəsini görəcək və Ulu Öndərin əvəzsiz xidmətlərinin nəticəsi olan firavan bir ölkədə rifah içində, sülh və əmin-amanlıq şəraitində əbədi yaşayacaqlar.

# Heydər Əliyevin dövlətçilik irsinin mahiyyətini insan hüquqları təşkil edir



**Zahid Oruc**
Milli Məclisin İnsan hüquqları komitəsinin sədri

İnsan və vətəndaş hüquqlarının bərqərar olması üçün ilk əvvəl ölkə azad və müstəqil olmalı, orada vətəndaşlar dinc və təhlükəsizlik şəraitində yaşamalı, insanların firavanlığı, sosial rifahı və hüquqları dövlət tərəfindən tam təmin edilməlidir.

Ulu Öndər Heydər Əliyev fəaliyyəti dövründə bunu dəfələrlə vurğulayır, müstəqilliyin təmin edilməsinin və qorunub-saxlanılmasının nə qədər çətin olduğunu bəyan edirdi. Öz millətinin və xalqının yolunda daim düşünən və bunun üçün fövqəladə güc sərf edən Ümummilli Lider ötən yüzilliyin sonunda Azərbaycan xalqının əsrlər boyu arzuladığı bu fundamental haqqını gerçəkliyə çevirdi.

Müstəqillik tariximizin Azərbaycanın 20 faiz torpaqlarının Ermənistan tərəfindən işğalı, ərazi bütövlüyünün pozulması ilə paralel şəkildə başlanması, bütün səviyyələrdə xalqımızın və beynəlxalq hüququn pozulmuş fundamental prinsiplərinin bərpasının tələb edilməsi mövqeyindən çıxış etmək həm daxili qanunvericiliyin, həm də beynəlxalq hüquq məkanına inteqrasiyanın ana xəttini təşkil etmişdir.

Hər bir ölkədə pozulmuş insan hüquqlarının bərpası üçün ən səmərəli üsul dövlətlərin daxili mexanizmləridir. Milli normalar bu hüquqların tənzimlənməsində daha çox çevikliyə malikdir. Beynəlxalq normalar isə ona görə əhəmiyyətlidir ki, insan hüquq və azadlıqlarına dair minimal standartları müəyyən edir. Beynəlxalq normalara tərəfdar çıxmış dövlət öz milli normalarında bu sənədlərdə əks olunanlardan daha üstün hüquq və azadlıqlar nəzərdə tuta bilər.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyini bərpa etməklə milyonlarla azərbaycanlının əsrlərlə arzuladığı azad ölkədə, müstəqil dövlətdə yaşamaq hüququnu təmin etdi. Bu mənada əminliklə deyə bilərik ki, Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin təməlini məhz insan hüquqları amili təşkil edirdi. Ulu Öndərin hakimiyyəti dövründə həyata keçirilən hüquqi islahatlar, qəbul edilən qanunlar, dövlətçiliyin qurulması və hüquqi bazanın təkmilləşdirilməsi prosesi bu günə qədər də söylənən prinsiplər üçün yol xəritəsinə çevrildi.

Ulu Öndərin Azərbaycanda hüquqi dövlətin inkişafına verdiyi töhfələr əvəzedilməzdir. Ölkədə 1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərindən başlayan özbaşınalıq və xaos dünyada tanınan və seçilən güclü nüfuza malik dühanın - Heydər Əliyevin hakimiyyət sükanı arxasına keçməsi ilə sona çatdı. Təkcə onu demək kifayətdir ki, Ümummilli Lider xüsusi fərman imzalayaraq ölkədə qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsinə mühüm töhfə olan Azərbaycanın ilk milli Konstitusiyasını formalaşdırdı və 1995-ci il noyabrın 12-də Ana qanunumuz qəbul edildi.

Azərbaycanda BMT yanında daimi nümayəndəliyin fəaliyyətə başlaması, ölkəmizin bu qurum ilə əməkdaşlığına yaradılan əlverişli




imkan da insan hüquq və azadlıqlarının qorunması istiqamətində vacib rol oynadı. 1998-ci ildə BMT və Azərbaycan arasında "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandum imzalandı. Azərbaycanın BMT-yə üzv kimi qəbul olunması Ermənistanın ölkəmizə qarşı təcavüzünün genişləndiyi bir vaxtda beynəlxalq birliyin diqqətinin münaqişə bölgəsində baş verən hadisələrə cəlb edilməsinə və dünya ictimaiyyətində obyektiv rəyin formalaşdırılmasına təkan oldu. 1992-1993-cü illərdə Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi ilə əlaqədar Təhlükəsizlik Şurasının vermiş olduğu bəyanatlarda, eləcə də BMT-nin qəbul etdiyi 4 qətnamədə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirildi. İşğalçı ölkənin silahlı qüvvələrinin zəbt olunmuş Azərbaycan ərazilərindən dərhal çıxarılması, atəşkəsin təmini və münaqişənin danışıqlar yolu ilə həlli tələb edildi.

2000-ci ilin sentyabrında BMT-nin "Minilliyin Sammiti"ndə çıxış edən Prezident Heydər Əliyev dünyada sülhün və təhlükəsizliyin qorunmasında bu beynəlxalq təşkilatın mühüm rol oynadığını söylədi, regional münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair Azərbaycanın mövqeyini bir daha bildirdi, bəşəriyyətin üzləşdiyi problemlərin həllində BMT-nin fəaliyyətini daha da gücləndirmək məqsədi ilə təşkilatda islahatların aparılmasının zəruriliyini vurğuladı.

BMT Təhlükəsizlik Şurasının qeyd olunan 4 qətnaməsi ilə yanaşı, təşkilat səviyyəsində Ermənistanın işğalçı imicinin gücləndirilməsi məqsədi ilə də Azərbaycan tərəfindən görülən işlər öz bəhrəsini verdi. Məhz ölkəmizin diplomatik səyləri nəticəsində 2008-ci il martın 14-də BMT Baş Assambleyasının 62-ci sessiyasında "Azərbaycanın işğal olunmuş ərazilərindəki vəziyyət haqqında" qətnamə qəbul olundu. Qətnamədə Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri çərçivəsində ərazi bütövlüyünə hörmət və dəstək təsdiqlənir, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz çıxarılması tələb edilir, bu ərazilərdən qovulmuş əhalinin öz torpaqlarına qayıtması və normal şəraitlə təmin olunması hüququ təkrarlanır, Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları üçün normal, birgəyaşayış şəraitinin yaradılmasının zəruriliyi vurğulanırdı. Sənəddə deyilirdi ki, heç bir dövlət Azərbaycan ərazilərinin işğalı ilə nəticələnən vəziyyəti qanuni vəziyyət kimi tanımamalıdır.

Dövlətimizin insan hüquqları sahəsində atdığı ən mühüm addımlardan biri də ölüm cəzasının ləğvi




oldu. Şərqdə ilk dəfə Azərbaycanda bu cəza növünün tamamilə ləğv edilməsi Ulu Öndər Heydər Əliyevin böyük qəlb və mənəviyyat sahibi olduğunu, şəxsiyyətcə böyüklüyünü bir daha təsdiqlədi.

Ümummilli Liderin hüquqi dövlət quruculuğu yolunda göstərdiyi nailiyyətlərin nəticəsi olaraq ölkəmiz 2001-ci il yanvarın 25-də Avropa Şurasına üzv qəbul edildi, Avropa İnsan Hüquqları Konvensiyasına qoşuldu, Avropa İnsan Hüquqları Məhkəməsinin yuridiksiyasını qəbul etdi. Bunlar Azərbaycanda milli qanunvericiliyin təkmilləşməsi, Avropa standartlarına cavab verən yeni qanunların qəbul edilməsi prosesini daha da sürətləndirdi.

Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) vəzifəsinin təsis edilməsi də ölkəmizin demokratik quruculuq yoluna qədəm qoyması ilə bilavasitə bağlı idi və Avropa Şurası qarşısında götürdüyü öhdəliklərə uyğun olaraq 2002-ci ildə Azərbaycanda İnsan hüquqları üzrə müvəkkil (ombudsman) institutu təsis edildi.

Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti dövründə həyata keçirilən hüquqi islahatlar və məhkəmə orqanlarının təkmilləşdirilməsi söylənən prinsiplər üçün hüquqi bazaya çevrildi. Ulu Öndərin siyasi varisi və layaqətli davamçısı, Azərbaycanın dövlət başçısı İlham Əliyevin Sərəncamı ilə 2011-ci il dekabrın 27-də təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquqları sahəsində Milli Fəaliyyət Proqramı"nın hazırlanması da bu istiqamətdə mühüm addımdır. Bu sənəd insan hüquqlarının müdafiəsinin Azərbaycan üçün strateji əhəmiyyətli məsələ olduğunu bir daha təsdiqləyir. Proqramda respublikada insan hüquq və azadlıqlarının müdafiəsi sisteminin daha da inkişaf etdirilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi, əhalinin müxtəlif qruplarının hüquqlarının daha səmərəli təmini istiqamətində konkret vəzifələrin icrası nəzərdə tutulmuşdur. Milli Fəaliyyət Proqramına əsasən, gələcəkdə insan hüquqları sahəsində maarifləndirmə, elmi-analitik tədbirlərin davam etdirilməsi, beynəlxalq təşkilatlarla, o cümlədən BMT-nin insan hüquqları sahəsində ixtisaslaşan qurumlar ilə Qaçqınlar üzrə Ali Komissarlıq, UNESCO, UNİSEF, Dünya Bankı, Avropa Şurası, Avropa İttifaqı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı və s. ilə birgə əməkdaşlıq proqramlarının həyata keçirilməsi planlaşdırılır. Dövlət başçısı İlham Əliyev bunu nəzərə alaraq xüsusi qeyd edir ki, respublikamızın aktiv inkişaf fazasına daxil olduğu indiki mərhələdə demokratik normaların ictimai şüurda möhkəmlənməsinə və qəbuluna daha yaxşı imkanlar yaranmışdır.



Müstəqillik tarixinin suveren torpaqların işğalı, ərazi bütövlüyünün pozulması ilə paralel şəkildə başlanması bütün səviyyələrdə xalqımızın və beynəlxalq hüququn fundamental prinsiplərini pozmuşdu. Azərbaycan xalqının bu haqqını da Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyev təmin etdi. İnsan Haqları Gününün təsis edilməsinin 70-ci ildönümündə Azərbaycan xalqı Ali Baş Komandan və milli ordumuzun sarsılmaz gücü ilə Vətən müharibəsində Zəfər qazandı. Azərbaycan nəinki ölkəmizdə sayı milyonu ötən qaçqınlarımızın məskəninə, eləcə də, regionda və dünyada haqq və ədaləti bərpa edən ünvana çevrildi. Zəfər tarixinin yazıldığı 44 günlük müharibədə Azərbaycan dövləti beynəlxalq tanınmış sərhədləri daxilində ərazi bütövlüyünə nəzarəti bərqərar etdi. Regionda və dünyada beynəlxalq geosiyasi, hərbi, iqtisadi, diplomatik nüfuzun görünməmiş səviyyədə yüksəldiyi postmüharibə reallığının formalaşdırılmasına nail olundu. Bununla da Azərbaycan Ali Baş Komandan, Prezident İlham Əliyevin nümunəsində insan haqlarının təmtəraqlı ifadələr deyil, milyondan çox qaçqının öz tarixi torpaqlarına Böyük Qayıdışını təmin edən gerçək əməli fəaliyyət olmasını reallıqda sübut etdi.

Dünyada insan hüquqları bütün tələbatlara deyil, yalnız fundamental hüquqlara - həyat və təhlükəsizliklə bağlı ehtiyaclara aiddir. Əksər hallarda demokratiya ilə insan hüquqları eyniləşdirilir ki, bu da olduqca bəsit yanaşmadır. Demokratiya bütün cəmiyyət üçün məcburi siyasi davranış formalarının və hüquqlarının əksəriyyətin-çoxluğun qəbul etdiyi qərarlarla həll edildiyi üsuli-idarədir.

İnsan hüquqları ehtiyaclardan azad olmaq hüququdur. Qərbin məşhur tədqiqatçı alimləri hesab edirlər ki, inkişaf etmək hüququ insan hüquqları ilə müqayisədə prioritet olmalıdır. İnsan hüquqları dünyada hər bir cəmiyyətin ümumi mənafeyi və xoşbəxtliyi üçün nə yeganə, nə də kifayət hesab ediləcək şərt deyil. Onun məzmununun təkmilləşməsinə, yenidən baxılmasına ehtiyac duyulur. İnsanın sabitlik və təhlükəsizlik mühitində yaşamaq hüququ var. Bunun üçün ilk növbədə vətəndaşın yaşadığı dövlət özü davamlı olaraq inkişaf etməlidir.

Xoşbəxt xalqıq ki, bu sadaladıqlarımızın hamısı Ulu Öndərin ideoloji təməlini qurduğu dövlət tərəfindən bizim üçün - Azərbaycan vətəndaşları üçün təmin edilmişdir. Bu gün demokratik dövlətimizdə hər kəsin öz maraq və problemlərini həll etməsi üçün bütün qanuni təminatlar, insan hüquqlarının bərqərar olunması üçün sabit meyarlar mövcuddur.

# Ulu Öndərin müəllifi olduğu strateji inkişaf yolu



**Sadiq Qurbanov**
Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri

Bugünkü Azərbaycanın hər bir uğuru Heydər Əliyev siyasətinin təntənəsidir. Ulu Öndər 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmasaydı, bu gün Azərbaycan bəlkə də kiminsə əlində oyuncaq bir dövlət, bir yarımmüstəmləkə kimi yaşayırdı. O dövrdə ölkədə qanunsuz silahlı birləşmələr meydan oxuyur, Bakı və digər bölgələrimizdə əli avtomatlı insanlar faktiki olaraq hökmranlıq edirdi, kütləvi itaətsizlik hökm sürürdü. Belə bir vəziyyətdə sabitliyi yaratmaq ancaq Heydər Əliyevin nüfuzu, cəsarəti və xalqın ona olan inamı hesabına mümkün idi.

Ümummilli Liderin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtması, ölkədə siyasi sabitliyin bərqərar olunması, atəşkəsin əldə edilməsi ilə irimiqyaslı iqtisadi islahatların başlanmasına, uğurlu neft strategiyasına start verildi.

Respublikanın ərazi bütövlüyü uğrunda işğalçı Ermənistanla aparılan müharibə Azərbaycanı investisiya imkanlarından məhrum etmişdi, böyük güclərin regionda maraqlarından yaranan gərginliklə bərabər ölkəmiz maliyyə çətinlikləri ilə üz-üzə qalmışdı. Xoşagəlməz siyasi-iqtisadi məngənədən qurtulmağın yeganə yolu isə təbii sərvətlərimizin dünya bazarlarına çıxarılması amili idi ki, bunu da reallaşdırmaq o qədər də asan deyildi. Lakin Azərbaycan bütün bu çətinlikləri arxada qoymalı, beynəlxalq aləmdə özünütəsdiqə nail olmalı idi. Ölkə üçün belə taleyüklü bir məqamda məhz Ulu Öndər Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi" bütün çətinliklərin öhdəsindən layiqincə gəlməyə imkan verdi. Söhbət ondan gedir ki, bu müqavilə çərçivəsində Qərbin sərmayələri ölkəmizin inkişafında böyük rol oynamaqla yanaşı, regionda qüvvələr nisbətini Azərbaycanın xeyrinə dəyişdirdi. 1994-cü ilin sentyabrın 20-də Bakıda "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi" haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış bu müqavilə ölkəyə güclü maliyyə zəmini yaratdı.

O vaxt atılan addımlar və qəbul edilmiş qərarlar bu gün bizə imkan verir ki, müstəqil iqtisadi siyasət aparaq və beynəlxalq müstəvidə suveren ölkə kimi özümüzü təsdiqləyək.

Heç kimə sirr deyil ki, 1990-cı illərin əvvəlləri Azərbaycanın siyasi həyatı üçün çox təlatümlü və ziddiyyətli bir dövr kimi xarakterizə edilir. Ölkəmiz parçalanma təhlükəsi ilə üz-üzə qalmışdı. Xalqımız bu vəziyyətdən onu xilas edəcək yeganə dahi şəxsiyyəti, Ümummilli Lider Heydər Əliyevi təkidli tələblərlə Naxçıvandan Bakıya dəvət etdi və demokratik yolla hakimiyyətə gətirdi. Həmin dönəmlərdə Azərbaycanın beynəlxalq münasibətlər sistemində mövqeyi yenicə möhkəmlənməyə başlayırdı və transmilli korporasiyaların Azərbaycan neftinə böyük maraq göstərməsinə baxmayaraq, ölkə qanunvericiliyində sərmayə qoyuluşu üçün hüquqi təminatlar yetərli deyildi.

Məhz Ermənistanla Azərbaycan arasında uzunmüddətli atəşkəs razılaşması əldə ediləndən 4 ay sonra "Əsrin müqaviləsi" reallaşdı. Böyük siyasi xadim Heydər Əliyev bütün dünyaya Qərblə Rusiya arasında balanslaşdırılmış siyasət yürüdəcəyini elan etdi.



Ulu Öndərin şəxsiyyətinə böyük inam və etimad "Əsrin müqaviləsi"nin imzalanmasında həlledici amil oldu. Şəxsi keyfiyyətləri ilə seçilməsi, qətiyyəti, söylədiyi hər sözünün sahibi olması Heydər Əliyevi başqalarından fərqləndirirdi. O, dünya liderləri arasında yüksək nüfuz sahibi idi.

"Əsrin müqaviləsi"ndən sonra neft strategiyasının prinsipləri əsasında 19 ölkəni təmsil edən 41 neft şirkəti ilə 26 saziş imzalandı. Hazırda hasilatın pay bölgüsü Sazişi üzrə dünyanın 14 ölkəsini təmsil edən 24 neft şirkəti ilə əməkdaşlığımız uğurla davam etdirilir. Həmin müqavilədə Azərbaycan Respublikası ilə ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanının ən məşhur neft şirkətləri olan Amoco, BP, McDermott, UNOCAL, Lukoil, Statoil, Exxon, Türkiyə Petrolları, Pennzoil, ITOCHU, Ramco, Delta iştirak edirdi. Bununla da yeni neft strategiyası və doktrinasının əsası qoyuldu. "Əsrin müqaviləsi"ni imzalayan dövlətlərdən üçü - Rusiya, ABŞ və Böyük Britaniya BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvləri idi. Müharibə şəraitində olan bir dövlət üçün bu, çox vacib amil idi. Artıq bu müqavilədən sonra Azərbaycanda sabitlik və təhlükəsizliyin təmin edilməsi təkcə regional deyil, qlobal bir məsələyə çevrildi və respublikamız ümumqafqazın həlledici söz sahibi kimi dünyada tanındı.

Həyata keçirilən məqsədyönlü siyasət və Azərbaycan neftçilərinin fədakar əməyi nəticəsində qısa müddətdə "Çıraq-1" ilk hasilat platforması istismara verildi, Bakı-Novorossiysk neft boru kəməri bərpa edildi, Bakı-Supsa kəmərinin çəkilişi başa çatdırıldı, "Dədə Qorqud", "İstiqlal", "Qurtuluş" kimi nəhəng üzən qazma qurğuları tikilərək istifadəyə verildi.

2002-ci il sentyabrın 20-də Azərbaycanın neft nəqli sisteminin şah damarı sayılan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin əsası qoyuldu, 2006-cı ildə kəmər istismara verildi. Bu gün Azərbaycan neftinin dünya bazarına təhlükəsiz və davamlı ixrac olunmasında onun xüsusi rolu var.

"Əsrin müqaviləsi"nin baş tutmamasında maraqlı olan qüvvələr həmin ərəfədə Azərbaycanda siyasi qətllər və terrorlar həyata keçirdilər. Bu tarixi müqavilənin ölkəmizin gələcək iqtisadi strategiyasında nə qədər mühüm rol oynayacağını müəyyənləşdirən böyük siyasi xadim Heydər Əliyev bütün təhdidlərə sinə gərərək öz prinsipial mövqeyindən geri çəkilmədi və bu nəhəng layihəni gerçəkləşdirməyə nail oldu.

Ümummilli Lider vaxtilə SSRİ-ni idarə edən şəxslərdən biri kimi qlobal siyasi mənzərəni və gerçəklikləri yaxşı dəyərləndirən müdrik bir şəxsiyyət idi. Heydər Əliyevin "Əsrin müqaviləsi" vasitəsilə əks qütblərdə dayanmış Qərb və Rusiya ilə, eyni zamanda, qardaş Türkiyə ilə münasibətlərdə "qızıl orta"nı tapa bilmə bacarığı heyranlıqla qarşılanır-



dı. Təsadüfi deyil ki, Azərbaycanın ən böyük iqtisadi layihəsi olan bu müqavilə bağlanarkən ilk növbədə milli maraqlarımız ön planda oldu. Ermənistan-Azərbaycan münaqişəsinin milli maraqlar kontekstində və xüsusilə ərazi bütövlüyümüz çərçivəsində həll edilməsi əsas amil kimi təməl prinsipə çevrilmişdi.

Bu məqamda Türkiyə-Azərbaycan münasibətlərinə də xüsusi diqqət yetirmək istəyirəm. 1999-cu ilin noyabrında Türkiyənin İstanbul şəhərində keçirilmiş ATƏT-in sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistan prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft boru kəmərinin çəkilişi haqqında dövlətlərarası müqavilə imzalanmışdı. 2002-ci il sentyabrın 18-də Bakıda Səngəçal Terminalında Heydər Əliyevin, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft boru kəmərinin təməl daşı qoyuldu və tikintisinə başlanıldı. Kəmərin Azərbaycan hissəsinin Gürcüstan hissəsi ilə birləşdirilməsi 2004-cü ilin oktyabrında baş tutdu. 2006-cı il iyulun 13-də isə Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi oldu.

Azərbaycan nefti ilə doldurulmuş ilk tankerlər dünya bazarlarına çıxarıldı. Bu neftin satışından əldə edilən valyuta Ümummilli Lider Heydər Əliyev tərəfindən yaradılmış Azərbaycan Respublikası Dövlət Neft Fonduna daxil edildi. Görülən bütün tədbirlər qeyri-neft sektorunun inkişafına diqqətin bariz göstəricisi idi.

"Azərbaycanın ən böyük sərvəti onun insan kapitalıdır". Birinci vitse-prezident Mehriban xanım Əliyevanın səsləndirdiyi bu fikir dövlət siyasətimizin əsas prioritetini təşkil edir. Sosial dövlət olan Azərbaycan Respublikasında həyata keçirilən bütün layihələrin mərkəzində məhz insan amili durur. Təsadüfi deyil ki, Azərbaycanın dövlət büdcəsinin böyük bir hissəsini neftdən əldə edilən gəlirlər təşkil edir. Lakin qeyri-neft sektorunun inkişafı dövlətimizin ən vacib iqtisadi prioritetlərindəndir. Neftdən gələn gəlirin qeyri-neft sektorunun inkişafına yönəldilməsi iqtisadiyyatın dinamik inkişafını təmin edir. Bütün sahələrdə, ilk növbədə, informasiya texnologiyaları, innovasiyalar olmaqla neftdən əldə edilən gəlirlə sərmayə qoyuluşunun şahidi oluruq.

Həmçinin bir istiqaməti də - neft sahəsində çalışan kadrların hazırlanmasına sərmayə qoyuluşu məsələsini də xüsusilə qeyd etmək istəyirəm. Prezident İlham Əliyevin təsdiq etdiyi Milli Təhlükə-

sizlik Konsepsiyasında ölkəmizin təhlükəsizliyini təhdid edən hallar sırasında peşəkar insan ehtiyatlarının çatışmazlığı xüsusilə vurğulanırdı. Sənədə görə peşəkar milli işçi qüvvəsinin və idarəetmə sektorunun inkişafı üçün zəruri olan bütün səviyyələrdə təlim və tədrisin təmin edilməsinə dair işlər görüldü. Bu prosesi aşağıdakı kateqoriyalara ayırmaq olar:

1) Neft kapitalının insan kapitalına çevrilməsi;

2) Təhsilin, mədəniyyətin və idmanın inkişafına yönəlmiş layihələr;

3) İnfrastruktur və nəqliyyat daşımaları layihələri.

Dövlətimiz neft strategiyasının əsas prioritetlərindən biri kimi, qeyri-neft sektorunun və alternativ enerji mənbələrinin inkişafını da diqqət mərkəzində saxlayır. İqtisadiyyatın rentabelliyi və dayanıqlığı baxımından alternativ enerji mənbələri son dövrlər bizim regionda da aktuallıq qazanıb.

Son illərdə aparılmış islahatların bir hissəsi bərpa olunan enerji istehsalı ilə bağlıdır. Bu sahədə bir sıra təşəbbüslər uğurla reallaşdırılıb və bərpa olunan energetika sahəsi son dövrlərdə "yaşıl iqtisadiyyat"ın inkişafında önəmli yer tutub. Bu gün xarici şirkətlərlə yeni layihələrin imzalanması bu sahədə atılan ciddi addımlardan biridir. Məsələn, işğaldan azad edilmiş regionlarımızın bərpasında alternativ enerji mənbələri ilə bağlı məşhur olan "ACWA Power" və "Masdar" şirkətləri ilə 500 milyon dollarlıq müqavilə bağlanması dövlətimizin bu sahənin inkişafında maraqlı olduğunu göstərir. Bu müqavilələr Azərbaycana sərmayə yatırılmasını nəzərdə tutur. Bu da ilk növbədə milli iqtisadiyyatımıza stimul verəcək, yeni iş yerləri açılacaq. Bu layihələr ölkəmizin enerji dayanıqlığını təmin edəcək, bərpa olunan enerji istehsalı Azərbaycanda "yaşıl iqtisadiyyat"ın inkişafına töhfə verəcək.

Bu sahənin inkişafını şərtləndirmək üçün Milli Məclisdə bir neçə yeni qanun da qəbul edilib. Elə ötən yaz sessiyasında "Elektrik enerjisi istehsalında bərpa olunan enerji mənbələrindən istifadə haqqında" Qanun qəbul etdik. Heç şübhəsiz ki, bu sahənin inkişaf perspektivləri möhkəm təməllər üzərində qurulmalı və inkişaf etdirilməlidir.

Azərbaycan Avropanın mühüm elektrik enerjisinə, əsasən, "yaşıl enerji" təchizatçısına çevrilməyi planlaşdırır. Ölkəmizin nəhəng bərpa olunan enerji potensialı respublikamızın bu sahədə də həlledici rol oynamasına imkan verir. Azərbaycanın bərpa olunan enerji potensialı, quruda külək və günəş enerjisinin həcmi 27 qiqavatdan çoxdur, Xəzər dənizinin Azərbaycan sektorunda isə külək enerjisi 157 qiqavat təşkil edir. Ölkəmiz strateji investorların biri ilə 2027-ci ilə qədər 3 qiqavat külək və 1 qiqavat günəş enerjisini istehsal etməyi planlaşdırır. Onların 80 faizi ixrac olunacaq. Azərbaycan 2037-ci ilə qədər ən azı 6 qiqavatlıq əlavə gücləri yaratmağı nəzərdə tutur.

> "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyanın da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha da səmərəli istifadə etməkdən ibarətdir".
>
> **Heydər Əliyev**

Bir məsələni də xüsusi vurğulamaq lazımdır ki, Cənub Qaz Dəhlizi ideyası Azərbaycanın iradəsi və liderliyi sayəsində reallığa çevrilməyə başlayıb. Bu layihənin əhəmiyyətini Prezident İlham Əliyevin Macarıstana rəsmi səfəri zamanı mətbuata bəyanatında aydın görmək olur: "Vaxtilə "Nabukko" layihəsi üzərində böyük işlər aparılmışdı. Ancaq maliyyə mənbələri müəyyən edilmədiyi üçün "Nabukko" layihəsi icra edilmədi. Buna baxmayaraq, Azərbaycan öz qaz resurslarını Avropa bazarlarına çatdırmaq üçün fəal çalışırdı və nəticə etibarilə iki il bundan əvvəl Cənub Qaz Dəhlizi icra edildi. Bu, çox müasir enerji infrastrukturudur, uzunluğu 3500 kilometrdir və artıq iki ildir ki, Azərbaycan Avropa İttifaqı məkanına öz təbii qaz resurslarını çatdırır".

Dövlət başçısı İlham Əliyev azad olunmuş Qarabağı və Şərqi Zəngəzuru "yaşıl enerji" zonası elan edib. Ötən il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması da qarşıdakı dövr üçün müəyyənləşdirilən hədəflərə birgə nail olmağa öz müsbət təsirini göstərəcək.

Ölkəmizin iqtisadi potensialının ən vacib komponenti olan neft amilinin düzgün idarə edilməsi 44 günlük Vətən müharibəsində özünü göstərdi. Azərbaycanın hərbi baxımdan dünyanın ən güclü dövlətləri sırasına çıxmasında məhz bu siyasətin düzgün qurulması həlledici rol oynadı. Vaxtilə Ümummilli Lider Heydər Əliyev tərəfindən iqtisadi prioritetlərin düzgün müəyyən edilməsi və cənab İlham Əliyev tərəfindən bu siyasətin uğurla davam etdirilməsi bizimlə müharibə vəziyyətində olan Ermənistanın iqtisadi blokadaya alınmasına gətirib çıxardı. Əvəzində isə güclü iqtisadiyyatımız bizə müdafiə sənayemizin inkişaf edirilməsinə şərait yaratdı. Bütün bunlar iki böyük sərkərdənin - Heydər Əliyevin və onun siyasi varisi, layiqli davamçısı İlham Əliyevin zəkasının Azərbaycan xalqına töhfəsi idi.

# Heydər Əliyev yolu Azərbaycanın uğur yoludur



**Tahir Mirkişili**
Milli Məclisin İqtisadi siyasət,
sənaye və sahibkarlıq komitəsinin sədri

Dayanıqlı və möhkəm dövlət quruculuğunun əsas tələbi xalqın strateji fəaliyyət proqramını, dövlətin və millətin mövcudluğunun mənasını, inkişafın məqsəd və prioritetlərini özündə birləşdirən milli ideyanın olmasıdır. Müstəqil dövlət qurmaq hər zaman Azərbaycan xalqının milli amalı olub və bu müqəddəs amal uğrunda saysız-hesabsız qurbanlar verilib.

Milli ideyanı milli gerçəkliyə və tarixi taleyə çevirən əsas qüvvə isə lider faktoru idi. XX əsrin ortalarından etibarən Ulu Öndər Heydər Əliyevin şəxsində tarixin Azərbaycan xalqına bəxş etdiyi lider azərbaycanlıların yenidən özünə inamına və müstəqillik kimi əsas milli ideyasının möhkəm əsaslarla həyata keçməsinə şərait yaratdı. O, XX əsrin ortalarından başlayaraq tamamilə yeni bir dövlət inşa etdi, öz siyasəti, inkişafı, müasirliyi, dayanıqlılığı, etibarlılığı ilə bütün dünyaya səs salan bir Azərbaycan qurdu.

Artıq dünyada Azərbaycan öz müstəqil, humanitar və ədalətli mövqeyi, regional və daxili iqtisadi gücü, sosial bazar iqtisadiyyatı konsepsiyası, effektiv idarəetməsi, insan resursları və güclü ordusu ilə tanınan bir ölkədir. Bu, artıq reallıqdır ki, beynəlxalq aləmdə hüququn və mənəvi dəyərlərin aşındığı indiki dövrdə yüksək hüquqi normaları qoruyaraq fəaliyyət göstərmək üçün ardıcıl olaraq fədakarlıq göstərmək lazımdır. Məhz doğru və müasir strategiya, ardıcıl atılan addımlar, möhkəm siyasi iradə, xalqın dəstəyi və ədalətli idarəetmə sayəsində bütün çətinlikləri dəf etməyin, milli maraqları qorumağın və inkişaf etməyin mümkünlüyünü Azərbaycan dövləti bütün dünyaya nümayiş etdirdi. Uzun illər ərzində işğal altında olan ərazilərimizin müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə azad edilməsi Azərbaycan dövlətinin milli hədəflərə yönəlmiş gücünün qarşısında heç bir qüvvənin tab gətirə bilməməsini bariz şəkildə göstərdi. Tarixində ən güclü olan müasir Azərbaycan Respublikası vətənini sevən hər bir azərbaycanlının qəlbində qürür və güc simvoludur.

Bizim ardıcıl olaraq hər sahədə qələbələr əldə etməyimizə hesablanmış Azərbaycan dövlətinin banisi və dövlətçiliyimizin memarı Ulu Öndər Heydər Əliyevin strategiyası qazandığımız bütün uğurların səbəbi oldu. Daim Heydər Əliyev ideologiyasına və siyasətinə sadiq qalmağımız, onun dövlətçilik prinsiplərini həyat amalı olaraq qəbul etməyimiz və bu yolu Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da zənginləşdirməyimiz xalqımıza tükənməz sevinc bəxş etdi.

Təbii ki, bütün ümdə hədəflərə çatmaq üçün dövlətin möhkəm iqtisadi dayaqları olmalı idi. Ulu Öndərin təbirincə desək: "İqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir". Ötən əsrin 60-cı illərində Azərbaycan SSR-nin iqtisadiyyatı yoxsul, primitiv, bərbad bir vəziyyətə düşmüşdü. İqtisadiyyatın 85 faizi yanacaq sənayesinin hesabına formalaşırdı, respublika SSRİ-də ən geridə qalmış bölgə vəziyyətində idi, əhali yoxsulluq və səfalət içində yaşayırdı. Belə bir şəraitdə ittifaq rəhbərliyində respublikamızın özünü doğrultmadığı, onun ərazisinin Ermənistan, Gürcüstan və Dağıstan arasında bölünməsi ideyası müzakirə olunurdu. Məhz bu zaman - 1969-cu ildə Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbər təyin edildi.



Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrdə iqtisadiyyatın dirçəlməsi və sürətli inkişafı baxımından əhəmiyyətli işlər gördü. Azərbaycan iqtisadi inkişafının əsl çiçəklənən dövrünü yaşadı. Bütün sahələrlə yanaşı, iqtisadiyyatda da yüksək inkişaf Azərbaycanı digər respublikalardan fərqləndirdi. Heydər Əliyevin qarşısında hələ bu vaxta qədər respublika rəhbərlərindən heç birinin cəsarət edə bilmədiyi misli görünməmiş vəzifələr dururdu: iqtisadiyyatı əsaslı şəkildə dəyişmək, onu qüdrətli dövlətin xammal istehsalçılarından qabaqcıl, müasir texnika və texnologiya ilə təchiz olunmuş sənaye bazasına çevirmək, monokultura xarakteri ilə fərqlənən kənd təsərrüfatını gücləndirmək, Bakının dünyanın ən gözəl və abad şəhəri kimi simasını özünə qaytarmaq, Azərbaycanın kəndlərini dirçəltmək, əhalinin sosial, mədəni və təhsil səviyyəsini yüksəltmək, ölkəmizin xaricdə yaşayan həmvətənlərlə əlaqələrini möhkəmləndirmək, diasporun inkişafına nail olmaq... Ulu Öndər bunların hamısını bacardı.

Heydər Əliyevin 1969-1982-ci illər fəaliyyətinin elə ilk dövrlərində Azərbaycanda sürətli iqtisadi inkişaf dönməz xarakter almağa başladı. 15 il sonra Azərbaycan artıq SSRİ respublikaları arasında ən sürətlə inkişaf edən, iqtisadi gücü yetərincə olan, elmi-texniki tərəqqiyə, insan kapitalına sahib ölkəyə çevrildi. Kənd təsərrüfatında, elmi-texniki sənayenin inkişafında, kadr potensialının formalaşmasında, neft sahəsində ciddi nailiyyətlər əldə edildi. Xəzər dənizində aparılmış kəşfiyyat işləri Azərbaycanın nəhəng neft yataqlarına malik olduğunu üzə çıxardı, inşa edilən Dərin Özüllər Zavodu respublikaya bu yataqlardan müstəqil şəkildə faydalanmaq imkanı yaratdı.

1980-ci illərin ortalarında Rusiyadan sonra yalnız Azərbaycan özü-özünü iqtisadi cəhətdən təmin edə bilən vəziyyətə gəlmişdi. Bir işçiyə düşən əsas fondların dəyəri keçmiş SSRİ üzrə 1985-ci ildə 17,8 min rubl təşkil edirdisə, Azərbaycanda bu göstərici 24,5 min rubla bərabər idi. O vaxtlar üçün bu göstərici möcüzə sayılırdı, çünki keçmiş ittifaq respublikaları arasında iqtisadiyyat elə planlaşdırılmışdı ki, Rusiyadan başqa heç bir yer özü-özünü təmin edə bilməsin və müstəqil olmaq fikrinə düşməsin.

Mövcud iqtisadi potensial artıq hər bir azərbaycanlının şüurunda müstəqil ola bilmək inamı yaratmaqda idi. Azərbaycanın müstəqil inkişafına heç kim şübhə etmirdi. 1980-ci illərin ortalarından əksər azərbaycanlılarda oxşar fikir formalaşmağa başlamışdı: "Bizim zəngin iqtisadiyyatımız, neft ehtiyatlarımız var, özümüz özümüzü təmin edə bilirik. Niyə müstəqil olmayaq?"

Elmi araşdırmalara görə, xalqların müstəqillik arzuları onların iqtisadi güc və potensialları ilə birbaşa bağlıdır. Bu cəhətdən əminliklə demək olar ki, 1980-ci illərin sonunda Azər-

baycanda yaranan milli-azadlıq hisslərinin formalaşmasında, "azadlıq" kəlməsinin hayqırtı ilə deyilməsində Heydər Əliyevin və onun yaratdığı iqtisadi potensialın müstəsna və həlledici rolu olub.

Xalqımız məhz bu inamla 1980-ci illərin sonunda Azadlıq meydanına çıxdı və müstəqilliyini tələb etdi, 20 Yanvarda tankların qarşısında dayandı və bu müstəqillik əldə edildi.

1980-ci illərin sonu, 1990-cı illərin əvvəli Azərbaycan iqtisadiyyatı yenidən dağılmağa, iflas etməyə başlamışdı. Ölkədəki səbatsız rəhbərliyin fəaliyyəti nəticəsində iqtisadiyyatın hər il orta hesabla 20 faiz azalması, 1700 faizlik hiper-inflyasiya, milli valyutanın 226 dəfəlik devalvasiyası, kənd təsərrüfatı istehsalının iflası və digər amillər müharibə edən ölkəni dağılmaq həddinə gətirib çıxarmış, insanların maddi rifah halı xeyli pisləşmişdi. Ölkə parçalanmış, dövlət hakimiyyəti və onun atributları yox olmağa başlamışdı. Bu şərait azərbaycanlılarda xalqımızın müstəqil ola bilmək imkanlarına inamı da azaltmışdı. Belə bir şəraitdə Azərbaycana dönən Ulu Öndər ilk öncə Naxçıvanda milli bayrağımızı dalğalandırmaqla bu dəfə insanlardakı müstəqillik arzusunu öz şəxsinə olan inamın hesabına gücləndirməyə nail oldu.

Milli iqtisadiyyatın bazar prinsipləri əsasında təşkilinin ilk illərində getdikcə azalan milli gəlirdə yığımın payının azalması, təkrar istehsal imkanlarının və sərmayə qoyuluşu ilə əlaqədar maraqların ən aşağı səviyyədə olması ölkə iqtisadiyyatına yerli və xarici investisiyaların kəskin şəkildə aşağı düşməsinə səbəb olmuşdu. Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə ölkədə islahat-inkişaf xarakterli makroiqtisadi sabitləşmə tədbirlərinin həyata keçirilməsi nəticəsində 1997-2003-cü illərdə ÜDM, sənaye və kənd təsərrüfatı məhsullarının həcmi, əsaslı vəsait qoyuluşu dəfələrlə artmışdı.



Bu dövrdə Ulu Öndərin rəhbərliyi ilə ölkədə həyata keçirilən layihələr nəticəsində 1994-2000-ci illərdə investisiya sıçrayışı nəticəsində Azərbaycan iqtisadiyyatına 11,4 mlrd. ABŞ dolları həcmində investisiya qoyulmuş, bunun 8,3 mlrd. dolları xarici, 3,1 mlrd. dolları isə daxili investisiyalar olmuş, yəni xarici investisiyanın cəlb edilməsi 2,7 dəfə çoxalmışdı.

Heydər Əliyev qısa zamanda iqtisadi inkişafda geriliyi aradan qaldırmağa, iqtisadiyyatı inkişaf etdirməyə Azərbaycanın gücü olduğunu dönə-dönə vurğulayırdı. Çünki Ulu Öndər ölkənin iqtisadi potensialını yaxşı bilir, insanların ona inamı ilə daha əvvəl də olduğu kimi böyük uğurlara imza atmağın mümkünlüyünə inanırdı.

Onun atdığı qətiyyətli addımlar öz bəhrəsini verdi. Azərbaycan tez bir zamanda bu iqtisadi böhrandan xilas oldu. Heydər Əliyev bunun üçün torpaq sahəsində, vergidə, sahibkarlığın inkişaf etdirilməsi yolunda bir sıra islahatlar keçirdi.

Belə bir şəraitdə iqtisadi inkişafı təmin edə biləcək strateji mənbəyə ehtiyac var idi və bu da neft resursları idi. Heydər Əliyevin ən mühüm nailiyyətlərindən biri məhz həmin sahədə oldu. Ulu Öndərin şəxsi nüfuzu hesabına 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandı. Xəzər dənizinin statusunun müəyyən edilmədiyi, əsas ixrac boru kəmərinin mövcud olmadığı bir şəraitdə investorları Azərbaycana cəlb etmək böyük güc, dərin zəka və dahilik tələb edirdi. Azərbaycan neftinin dünya bazarına çıxarılması və neftdən əldə olunan gəlir ilə büdcənin gəlirlərini təmin etmək və möhkəmləndirmək, qaçqın düşərgələrini ləğv etmək, əhalinin həyat səviyyəsini yüksəltmək, işsizlik və yoxsulluqla mübarizə o zaman atılmış mühüm addımlardan idi.

Heydər Əliyevin neft sahəsində ən böyük uğurlarından biri Bakı-Tbilisi-Ceyhan layihəsinin reallaşması oldu. O, "Əsrin müqaviləsi" ilə neft strategiyasının inkişafının təməlini qoysa da, Bakı-Tbilisi-Ceyhan layihəsi ilə bu uğuru davam etdirdi. Bu layihə Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində tarixi bir əhəmiyyətə malikdir. O, təkcə neft ixrac edən boru kəməri deyil, ölkəmizi dünyaya açan və inteqrasiya imkanı yaradan mühüm pəncərə oldu.

Heydər Əliyev təkcə neft sahəsində deyil, Azərbaycanda qaz resurslarının istifadəsi ilə bağlı da bir çox sənədlər imzaladı. Bu addımlar XXI əsrdə Azərbaycanda qaz sənayesinin inkişafına və neftlə yanaşı, qaz ixrac



edən ölkəyə çevrilməsinə zəmin yaratdı. Məhz bu ideyaların nəticəsində Azərbaycan qazını Avropaya nəql edən, müasir dünyanın ən böyük qaz layihəsi olan Cənub Qaz Dəhlizi istismara verildi və artıq respublikamız Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan ölkəyə çevrildi.

Heydər Əliyevin apardığı bu məqsədyönlü siyasət nəticəsində Azərbaycan get-gedə öz inkişafını yenidən bərpa edir, qüdrətlənirdi. 1996-cı ildən başlayaraq ölkədə ümumi daxili məhsulun artım tempi bərpa olunmuşdu.

Bu dövrdə Azərbaycanda kənd təsərrüfatında olan durğunluq aradan qaldırılmış, ölkədə mövcud olan təbii-iqtisadi, texniki-istehsal və elmi-texniki potensialın fəal surətdə təsərrüfat dövrüyyəsinə cəlb olunması, kənd təsərrüfatının inkişaf etdirilməsinə dair qəbul edilmiş islahatlar bu inkişafa xeyli təkan vermişdi.

Qədim İpək Yolunun Azərbaycan ərazisindən keçməsi, ölkəmizin burada tranzit rolunu oynaması bizə iqtisadi və maddi cəhətdən böyük imkanlar vəd edirdi. Gələcəyə yönələn məhz bu ideyanın reallaşması nəticəsində Azərbaycan 2017-ci ildə Şərq və Qərbi birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu layihəsini uğurla istifadəyə verdi. Rusiya-Ukrayna müharibəsi başlayandan bəri Azərbaycandan keçən Orta Dəhlizin əhəmiyyətinin xeyli artması ölkəmizin Şərq-Qərb arasında tranzit əlaqələrdən fayda əldə etməsinə səbəb olmuşdur.

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi respublikamızın əbədi müstəqilliyi üçün möhkəm, sarsılmaz iqtisadi zəmin yaratdı və Azərbaycanı dünyanın iqtisadi cəhətdən ən sürətli inkişaf edən ölkəsinə çevirdi. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu iqtisadi güc və imkanlar xalqımızın uzun illərdir əziyyət çəkdiyi ən əsas problemin - Qarabağ münaqişəsinin ədalətli həllinə yönəldi. Bütün resursların bir hədəfə - işğalçıların ölkəmizdən qovulmasına, bu qara ləkənin üzərimizdən silinməsinə yönəlməsi müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordumuzun möhtəşəm Zəfərinə səbəb oldu, şəhidlərimizin qisası alındı. Şuşanı azad görməyi daim arzu edən Ulu Öndərin dövlətçilik yolu Şuşada bayrağımızın əbədi dalğalanmasına gətirib çıxardı.

Öz müstəqilliyi ilə dostlarımızı sevindirən, düşmənlərimizi məyus edən bugünkü Azərbaycan məhz Heydər Əliyevin əsəridir. Dövlət başçısı cənab İlham Əliyev isə bu əsəri hər keçən gün daha da zənginləşdirir və gücləndirir. Artıq hər kəs bilir və sonsuz olaraq inanır ki, müstəqilliyimiz və azaqlığımız əbədidir. 100 il bundan əvvəl azad olmaq istədiyinə görə qurbanlar verən Azərbaycan xalqı bu gün azadlığımıza qəsd etmək istəyən qüvvələrə layiqli cavablar verir.

Hər kəs əmindir ki, biz Ulu Öndər Heydər Əliyevin yolu, Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəkdə hələ çox uğurlara imza atacağıq.

# Ulu Öndərin daim inkişafda olan davamlı aqrar siyasət xətti



**Tahir Rzayev**
Milli Məclisin Aqrar siyasət komitəsinin sədri

2023-cü ilin "Heydər Əliyev İli" elan olunması və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin bununla əlaqədar imzaladığı sərəncamdan irəli gələn vəzifələrin uğurla həyata keçirilməsi hər bir insanda qürur doğurur. Müstəqillik tariximizin yaradıcısı, dövlətimizin qurucusu, bütün mənalı həyatını xalqının və vətəninin gələcəyinə, xoşbəxtliyinə, inkişafına sərf edən görkəmli dövlət xadimi, uzaqgörən siyasətçi Heydər Əliyevin adı və xidmətləri unudulmazdır, əbədidir.

Heydər Əliyevin mənalı ömrünün hər bir anı insana hörmət, məhəbbət, qayğı, xalqlara və millətlərə azadlıq, bərabərlik, əmin-amanlıq, sülh, səadət, vətənə sədaqət nümunəsidir. Qətiyyətlə demək olar ki, Azərbaycanın son yarım əsrdən artıq dövrünü əhatə edən tarixi Heydər Əliyevin adı, fəaliyyəti və ölməz ideyalarının həyata keçirilməsi ilə bağlıdır. Bu dövrdə ölkənin ictimai-siyasi və mədəni həyatında baş verən yeniliklər, uğurlar, dəyişikliklər bu dahi şəxsiyyətin canlı fəaliyyətinin və ölməz ideyalarının bəhrəsidir.

Heydər Əliyev parlaq siyasi zəkası, bəşəri düşüncəsi, uzaqgörən fikirləri ilə canlı əfsanəyə, fenomenə çevrilmiş, dünya siyasətçiləri, dövlət rəhbərləri arasında seçilmiş, əvəzolunmaz təşkilatçılığı, bacarığı, cəsarəti ilə başqa dövlətlərin və xalqların da hörmətini qazanmışdı. Müasirləri, onun fəaliyyəti və siyasəti ilə yaxından tanış olanlar Heydər Əliyevi tək Azərbaycan xalqının deyil, bütün millətlərin dostu, cəfakeşi, əzizi kimi qiymətləndirmişlər. Millilik, tariximizə, dinimizə, mənəvi dəyərlərimizə, adət-ənənələrimizə sadiqlik, hörmət və ehtiram bu müdrik insanı səciyyələndirən, ona məhəbbət qazandıran başlıca amillərdən idi. Dünya azərbaycanlılarının həmrəyliyi, vahid amalı, tarixi vətən ətrafında birliyi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi və dövlətçiliyin inkişafı, xalqın rifahının yüksəldilməsi, ölkənin iqtisadi-siyasi, mədəni inkişafı Ümummilli Liderin həyat amalı, ən böyük arzusu idi. O, Azərbaycanı bütöv, dünya azərbaycanlılarını daim həmrəy görmək istəyirdi.

Ulu Öndər Azərbaycanın inkişafını, xalqın tərəqqisini hər zaman insanların birliyində, həmrəyliyində görür və bunun uğrunda yorulmadan mübarizə aparırdı. Çünki hakimiyyətə gəldiyi, respublikaya rəhbərlik etdiyi 1969-cu ilin ilk günlərindən dahi şəxsiyyət bu birliyin əzəmətini, uğurlara yol açdığını görmüş və məhz bu birlik, səfərbərlik nəticəsində respublikanın ucalacağına, xalqın inkişaf edəcəyinə əmin olmuşdu. O çətin, uğursuz illərdə respublikanı düşdüyü ağır vəziyyətdən çıxararkən Heydər Əliyev məhz xalqın birliyinə, dəstəyinə arxalanmışdı və ən geridə qalan Azərbaycanı az bir müddətdə ittifaqın ən qabaqcıl regionu kimi yüksəltmiş, tanıtmış, şöhrətləndirmişdi.

Ölkəmiz aqrar bir respublika olduğu üçün Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçildiyi ilk gündən bu sahənin inkişafına göstərdiyi qayğı və diqqət, kadrların seçilib yerləşdirilməsində, yeni texnologiyaların təsərrüfatlara tətbiq edilməsində, kənd təsərrüfatının sənaye təməli



üzərinə keçirilməsində reallaşdırdığı köklü dəyişikliklər, əsaslı tədbirlər təsadüfi deyildi. Ölkədə pambıqçılığın, üzümçülüyün, heyvandarlığın inkişafı, sözsüz ki, yeni emal müəssisələrinin - zavodların, fabriklərin, sexlərin, dəmir yollarının yaradılmasını zərurətə çevirirdi.

Heydər Əliyev respublikada həyata keçirilən bütün tədbirləri, layihələri ittifaqın qərarları, sənədləri ilə əsaslandırırdı. 1970-ci illərdə Sov.İKP MK və SSRİ Nazirlər Soveti "Azərbaycan SSR-in kənd təsərrüfatının inkişaf tədbirləri haqqında", "Azərbaycan SSR-in xalq təsərrüfatının inkişafı haqqında", "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da intensivləşdirmək tədbirləri haqqında" və "Azərbaycan SSR-də kənd təsərrüfatı istehsalını daha da ixtisaslaşdırmaq, üzümçülüyü, şərabçılığı inkişaf etdirmək tədbirləri haqqında" dörd mühüm qərar qəbul etdi. Sözsüz ki, bu qərarların qəbulu və onların müddəalarının yerinə yetirilməsi respublikada kənd təsərrüfatının inkişaf etdirilməsində əsaslı rol oynamışdı. Azərbaycan aqrar sahədə əldə olunan nəticələrə görə bir neçə ildə ittifaqın ən qabaqcıl respublikalarından biri kimi tanınmış, ölkədə pambıq, üzüm, taxıl, heyvandarlıq üzrə məhsuldarlıq iki dəfədən çox yüksəlmiş, kənd təsərrüfatının bütün sahələrində uğurlu nəticələr əldə edilmişdi.

1969-1982-ci illərdə meliorasiya və su təsərrüfatı kompleksinə qoyulan vəsait əvvəlki 50 il ərzində qoyulan vəsaitdən 2,5 dəfə artıq olmuşdu ki, bu da kənd təsərrüfatının sürətli inkişafına imkan yaratmışdı. Həmin dövrdə xalq istehlakı mallarının artırılmasına 1 milyard 200 milyon manat sərf edilmişdi ki, bu da əvvəlki dövrlə müqayisədə 3,6 dəfə çox idi.

Həmin illərdə kənd təsərrüfatı ilə paralel olaraq sənaye də özünün yüksəliş dövrünü yaşamışdı. O dövrdə sənaye istehsalının həcmi 2,7 dəfə artmış, sənaye obyektlərinin sayı dəfələrlə çoxalmışdı. Ölkədə 581 adda yeni tipli maşın avadanlıqları, aparat və cihaz nümunələri yaradılmışdı ki, bu nümunələr də sənayedə elmi-texniki nailiyyətlərin geniş tətbiq olunmasına xidmət edirdi.

Həmin illərdə respublikada 2 milyon 200 mindən çox insan yeni mənzillərlə təmin edilmiş, 633 min yeni iş yerləri yaradılmışdı. Əzəmətli tikinti-quruculuq işləri, yüksək sosial-iqtisadi göstəricilər, sağlam mənəvi mühit, gələcəyə inam o dövrün səciyyəvi cəhətləridir.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi həmin 13 il ərzində respublika çiçəklənən bir diyara çevrilmişdi. Ölkə rəhbərinin böyük təşkilatçılıq qabiliyyəti zamanı sürətlə qabaqlamış, respublikanın



həyatını çox irəliyə - böyük inkişafa aparmışdı.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmin illərin inkişafını belə dəyərləndirmişdir: “Təkcə onu demək kifayətdir ki, sovet dövründə - 1970-ci illərdə, 1980-ci illərin əvvəllərində Azərbaycan Heydər Əliyevin rəhbərliyi ilə ən geridə qalmış respublikalardan birindən ən qabaqcıl respublikaya çevrilmişdi. Məhz o illərdə ölkədə çox mühüm sənaye potensialı yaradılmış, infrastruktur layihələri icra edilmişdi ki, bu layihələr bu gün də müstəqil Azərbaycana xidmət göstərir”.

İlham Əliyevin qeyd etdikləri danılmaz həqiqətdir və biz bunu bugünkü həyatımızda daim hiss edirik. O dövrdə respublikanın kənd təsərrüfatı inkişaf etdirildi, eləcə də yüzlərlə zavod, fabrik, sənaye müəssisələri, təhsil, səhiyyə, mədəniyyət ocaqları tikilib istifadəyə verildi. C.Naxçıvanski adına Hərbi Liseyinin, Dərin Özüllər Zavodunun timsalında biz bunu aydın görürük.

Ulu Öndər kadr seçimində də olduqca tələbkar və o qədər də mehriban, qayğıkeş idi. İnsanları bacarığına, ağlına, savadına, mədəniyyətinə, mövqeyinə, zəhmətinə görə qiymətləndirir, onlara etimad göstərir, səmərəli fəaliyyətə istiqamətləndirirdi.

Heydər Əliyevin Moskvada keçən həyat yolu da mənalı və unudulmazdır. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi o, ittifaqda öz sözünü deyən, unikal idarəetmə qabiliyyəti və təşkilatçılığı ilə digər məsul şəxslərdən fərqlənən bir rəhbər idi. Sovetlər İttifaqının sosial-iqtisadi inkişafı sahəsində onun xidmətləri əvəzsizdir. O illərdə Azərbaycana göstərilən qayğı və diqqət, respublikanın inkişafı üçün həyata keçirilən mühüm tədbirlər bilavasitə Ulu Öndərin adı ilə bağlıdır. Keçmiş Sovetlər İttifaqının bütün xalqları Heydər Əliyevi prinsipial rəhbər, müdrik siyasətçi, həssas və mehriban insan kimi tanıyır, ona böyük hörmət bəsləyirdilər.

Bu müdrikliyin, hörmətin nəticəsi idi ki, Azərbaycan xalqı ən çətin günlərində - parçalanmaq, məhv olmaq ərəfəsində olduğu 1993-cü ildə yenidən Heydər Əliyevi köməyə çağırdı, ona etimad göstərdi, onu ikinci dəfə hakimiyyətə dəvət etdi. Ümummilli Lider həmin illərdə Azərbaycanı yalnız

parçalanmadan, dövlət çevrilişindən, aclıqdan, qarşıdurmadan xilas etmədi, həm də xalqımıza yeni, firavan, ildən-ilə gözəlləşən bir həyat, müstəqil dövlətçilik bəxş etdi.

"Əsrin müqaviləsi"nin imzalanması, əhəmiyyətli layihələrin həyata keçirilməsi, dünya birliyi ölkələri ilə əlaqələrin möhkəmləndirilməsi, atəşkəsə nail olunması, iqtisadiyyatda, siyasətdə, mədəniyyətdə, mənəviyyatda əsaslı dəyişikliklərin baş verməsi Heydər Əliyevin böyük xidmətlərinin nəticəsi idi.

Dahi şəxsiyyət bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatının idarə edilməsində də zəngin biliyə və təşkilatçılığa malik idi. O, yaxşı bilirdi ki, torpağı əsl sahibinə - kəndliyə qaytarmadan böyük nailiyyətlər əldə etmək mümkün olmayacaq. Məhz bu uzaqgörənliyin sayəsində Azərbaycanda şəffaf və ədalətli torpaq islahatı həyata keçirildi. 1994-cü ildə ölkədə aqrar islahatların aparılması üçün normativ hüquqi sənədlər və qanunlar hazırlandı. 1995-ci ilin əvvəllərindən aqrar islahatlara başlanıldı. "Aqrar islahatların əsasları", "Sovxoz və kolxozların islahatı", "Torpaq islahatı" haqqında qanunların, digər vacib hüquqi aktların qəbulu aqrar-sənaye kompleksində köklü dəyişikliklər aparılması üçün əsaslı imkanlar yaratdı, ölkədə özəl mülkiyyətin formalaşmasında və sahibkarlığın inkişafında xüsusi rol oynadı. İslahatlar nəticəsində 1970 kolxoz və sovxozun hamısında torpaq və əmlak 3 milyon 500 minə yaxın vətəndaş arasında bölüşdürüldü.

Heydər Əliyevin 22 mart 1999-cu il tarixli "Aqrar sahədə islahatların sürətləndirilməsinə dair bəzi tədbirlər haqqında" Fərmanı xüsusilə mühüm əhəmiyyətə malikdir. Çünki bu sənədə əsasən Nazirlər Kabineti kənd təsərrüfatı



məhsulları istehsalçılarına dövlət büdcəsi hesabına güzəştli pərakəndə satış qiyməti ilə neft məhsullarının (benzin, dizel yanacağı və motor yağları) satılması barədə qərar qəbul etdi. Milli Məclis isə həmin fərmana uyğun təqdim olunmuş layihəni müzakirə edərək kənd təsərrüfatı məhsulları istehsalçılarının torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad edilməsi barədə qanun qəbul etdi. Bu güzəştlər bəzi MDB ölkələrində hələ də tətbiq edilmir.

Müdrik rəhbərin əsrin sonlarında həyata keçirdiyi aqrar islahatı - kolxoz və sovxozların ləğv edilərkən torpaqların öz sahiblərinə paylanması inqilabi gediş idi və Ulu Öndər bununla ölkədə sahibkarlığın inkişafına, kənd təsərrüfatı məhsullarının artımına imkan yaratmış oldu. Torpağın kəndliyə - sahibinə verilməsi gələcəyin uğurları üçün hesablanmışdı və bu gün kənd təsərrüfatı sahələrində əldə olunan nəticələr bu islahatların əhəmiyyətini bir daha sübut edir.

Heydər Əliyev kənd zəhmətkeşlərinin ən yaxın məsləhətçisi və dostu idi. Bu sahədə çalışanlara qayğı və diqqətini əsirgəmirdi. Hakimiyyətdə olduğu illərdə minlərlə kənd təsərrüfatı işçisi yüksək təltiflərə, fəxri adlara layiq görülmüşdü. Həmin illərdə Azərbaycan kəndinin mədəni siması tamamilə dəyişmiş, insanların rifah halı yüksəlmişdi. Ulu Öndər pambıq sahələrini, taxıl zəmilərini, üzüm plantasiyalarını, heyvandarlıq komplekslərini gəzməkdən, işlərin gedişi ilə tanış olmaqdan, insanlarla görüşərkən onları dinləməkdən xüsusi zövq alırdı. O, zəhmət adamlarının əməyini yüksək qiymətləndirirdi, onların problemləri ilə tanış olur, həlli üçün tapşırıqlar verirdi.



Heydər Əliyev Ağcabədiyə altı dəfə səfər etmişdi və həmin səfərlərin hər biri, sözsüz ki, yerli insanlar üçün əsl bayram idi. Rəhbərin gəlişi təsərrüfatların inkişafına, problemlərin aradan qaldırılmasına, nəzarətin gücləndirilməsinə imkan yaradır, insanlara daha yaxşı işləmək üçün stimul verirdi. Bugünkü Ağcabədinin simasına xüsusi gözəllik qatan dəmir yolunun çəkilməsi, pambıq və çörək zavodların, məktəb, mədəniyyət, tibb müəssisələrinin tikilməsi, yolların çəkilməsi, su təminatının yaxşılaşdırılması məhz bu səfərlərin nəticəsi kimi dəyərləndirilə bilər.

Mən bu xatirələri toplamaq və kitab halında çap etdirmək qərarına gəldim. Kitab gözlədiyimdən də yaxşı alındı. Heydər Əliyevlə bağlı əmək adamlarının, təsərrüfat rəhbərlərinin söylədiyi hər bir xatirə canlı tabloya bənzəyir və oradan Ulu Öndərin müdrik siması boylanır. Heydər Əliyevin kənd əməkçisinə qayğısını və fenomen yaddaşa malik olmasını xarakterizə edən bir görüşün epizodunu nümunə gətirmək yerinə düşərdi. 1982-ci ildə kolxoz sədri işləmiş Aqil Muradov Heydər Əliyevlə görüşlərindən birini belə xatırlayır: "1982-ci il iyul ayının 12-də Heydər Əliyev rayona gələndə mən Lenin adına kolxozda sədr işləyirdim. Həmin gün görüş yerinə "Tacikistan" və "Çkalov" kolxozlarından da gəlmişdilər. Görüşdə 5 mindən çox adam iştirak edirdi. Heydər Əliyev səhər saat 11-də gəldi. Onu birinci mən qarşıladım və 10 dəqiqə kolxozun fəaliyyəti haqqında məlumat verdim, sonra o biri kolxoz sədrləri çıxış etdilər. O, bizim kolxozun pambıq sahəsinə baxdı, razılığını bildirdi. Mənə dedi ki, gəl, bu işgüzar qadınlarla şəkil çəkdirək. Şəkil çəkdirdik. Həmin anda bir nəfər qadın şəxsi həyatı ilə əlaqədar ərizə təqdim etdi. Heydər Əliyev məndən həmin qadının nə problemi olduğunu soruşdu. Mən cavab verdim ki, onun həyat yoldaşı Rusiyada yaşayır və bir neçə ildir ki, qayıdıb gəlmir. O, gülümsəyərək dedi:

- Bu məsələ ilə ciddi məşğul olmaq lazımdır...

1999-cu il iyunun 14-də Bakıda Heydər Əliyevin siyasi hakimiyyətə gəlməsinin 30-cu ildönümü ilə əlaqədar tədbirə dəvət olunmuşdum. Fasilə zamanı hörmətli Prezidentimiz foyedə bir qrup tədbir iştirakçısı ilə görüşüb söhbət etdi.

Mən də iştirakçılar arasında idim. Heydər Əliyev məni dərhal tanıdı:

- Siz Ağcabədidənsiniz?

- Cavab verdim ki, bəli.

- O vaxt mənə müraciət edən o qadının məsələsi həll olundumu? Mən cavab verdim ki, bəli, cənab Prezident, həll olundu. Bu günəcən də onun möcüzəvi yaddaşına heyran qalmışam. 17 il əvvəl olmuş kiçik bir hadisə yaddaşında necə dəqiq qalmışdı".

Mən özüm də hər dəfə "Heydər Əliyev və Ağcabədi" kitabındakı xatirələri oxuyarkən dönə-dönə bu dahi şəxsiyyətin müdrikliyinə, insanpərvərliyinə, zəkasına, vətən, xalq sevgisinə heyran qalır, Ulu Öndərimizin ruhu qarşısında bir daha baş əyirəm.

Sevinirik ki, Heydər Əliyevin arzuları, əməlləri çiçəklənir, onun ideyaları hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən sədaqətlə, cəsarətlə, qətiyyətlə həyata keçirilir. Ulu Öndərimizin canı qədər sevdiyi, qiymətləndirdiyi, ağrı-acısını yaşadığı Qarabağ torpaqları bu gün azaddır, düşməndən təmizlənib, qatillər, cəlladlar öz cəzalarını alıblar.

Bütün sahələrdə olduğu kimi, ölkənin aqrar sektoru da sürətli inkişaf yolundadır. Prezident seçildiyi ilk gündən cənab İlham Əliyev ölkədə kənd təsərrüfatının yenidən qurulması, müasirləşdirilməsi, sahibkarlığın inkişafı və kənd adamlarına qayğının artırılması barədə öz mövqeyini aydın şərh etmiş, Ulu Öndərimiz tərəfindən həyata keçirilən islahatların əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: "Kənd təsərrüfatında aparılan islahatların nəticəsində böyük uğurlar qazanılmışdır. Torpaq özəl mülkiyyətə verilibdir. Bu ənənə davam etməlidir və kənd təsərrüfatında islahatların ikinci mərhələsi başlanmalıdır".

İlham Əliyevin aqrar sektorda islahatların aparılmasına önəm verməsi, mühüm fərmanların, sərəncamların, əsasnamələrin qəbul edilməsi, əməli tədbirlərin görülməsi bu sahənin inkişafında mühüm əhəmiyyətə malikdir. Xüsusilə son illərdə "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" (19 dekabr 2018-ci il), "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında", "Aqrar sahədə yeni subsidiya mexanizminin yaradılması haqqında", "Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında", "Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında" və digər imzalanmış fərmanlar, "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair strateji yol xəritəsi", "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyalarının inkişafına dair Dövlət Proqramı", aqrar sahədə elektron kənd təsərrüfatı informasiya sisteminin tətbiqi bilavasitə bu sektorun inkişafına hesablanmış və öz töhfələrini verməkdədir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi, kənd təsərrüfatı məhsullarının istehsal potensialının artırılması, aqrar sektorda istehsal vasitələri bazarının inkişafı, maliyyəyə çıxışın asanlaşdırılması, yeni texnologiyaların tətbiqi və istifadə mexanizmlərinin formalaşdırılması, biznes mühitinin təkmilləşdirilməsi, sahibkarlığa qayğının artırılması, kənd yerlərində rifahın yüksəldilməsi bu sənədlərin ana xəttini təşkil edir.

> **"Özəl sektorun inkişafı dövlət mülkiyyətinin dağıdılması yolu ilə yox, dövlət mülkiyyətinin qanun-qayda ilə, ədalətli özəlləşdirilməsi yolu ilə getməlidir".**
>
> **Heydər Əliyev**

Bu il də dövlət büdcəsində aqrar sektora xərclərin 20,5 faiz artırılması nəzərdə tutulmuşdur. Xarici ölkələrə ixrac edilən kənd təsərrüfatı məhsullarının həcmi ildən-ilə artır. Ölkədə kənd təsərrüfatının əkin suyuna olan tələbatının ödənilməsi, toxumçuluq təsərrüfatlarının inkişaf etdirilməsi, heyvanların cins tərkibinin yaxşılaşdırılması, məhsuldarlığın yüksəldilməsi üçün müasir texnologiyaların tətbiq olunması, kadrların hazırlanması, ərzaqlıq buğda istehsalının artırılması, güzəştli kreditlərin verilməsi, işğaldan azad olunmuş ərazilərin əkin dövriyyəsinə daxil edilməsi istiqamətində mühüm işlər görülür.

Azərbaycan iqtisadiyyatının inkişafında aqrar sektorun mühüm rol oynadığını nəzərə alaraq bu sahəyə qayğı və diqqət ildən-ilə artırılır, yeni layihələr, proqramlar, yol xəritələri hazırlanır. Bildirmək istəyirəm ki, Azərbaycan Respublikası Milli Məclisi tərəfindən aqrar sektorun hüquqi bazasını möhkəmləndirmək məqsədi ilə 1995-ci ildən bu günə kimi mühüm qanunlar qəbul etmiş, sazişlər təsdiqlənmiş, qanunlara əlavə və dəyişikliklər edilmişdir. Sayı 300-dən artıq olan bu qanunvericilik aktları ölkədə kənd təsərrüfatının hüquqi əsaslarla idarə edilməsində başlıca əhəmiyyətə malikdir.

Ölkə rəhbəri cənab İlham Əliyev tərəfindən hazırlanan yeni fərmanlar, sərəncamlar bir daha göstərir ki, Ulu Öndər Heydər Əliyevin aqrar siyasət xətti uğurla davam etdirilir, daim inkişafdadır və gələcək uğurlarımıza öz töhfələrini verəcəkdir.

# Heydər Əliyev və Azərbaycanda sosial dövlət quruculuğu



**Musa Quliyev**
Milli Məclisin Əmək və
sosial siyasət komitəsinin sədri

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri heç bir tarixi şəxsiyyətlə müqayisəolunmaz dərəcədə böyükdür, çoxşaxəlidir, qiymətlidir. Məhz bu dühanın siyasi iradəsi, enerjisi, ağlı, təcrübəsi, xarizması kimi mühüm dövlət xadiminə xas olan keyfiyyətləri, yorulmaz fəaliyyəti, xalqına və vətəninə sevgisi sayəsində müstəqil Azərbaycan dövləti quruldu, möhkəmləndi, əbədiyaşarlıq qazandı.

Heydər Əliyevin müasir dövlətçilik siyasətinin başlıca prinsipi "dövlət xalq üçündür" ideyası idi. Ümummilli Liderin müəllifi olduğu Konstitusiyamızda bu ideyanın sosial mahiyyəti bariz şəkildə öz təsdiqini tapmışdır. Ulu Öndərin qurduğu müasir Azərbaycan dövlətinin daxili siyasətində sosial ədalət, sosial rifah, sosial müdafiə xətti həmişə prioritet istiqamət kimi müəyyən olunur. Heç təsadüfi deyildir ki, bizim dövlət büdcəmizdə sosial xərclərin payının 30 faizdən çox olması artıq ənənə halını almışdır.

Ümummilli Lider müstəqil Azərbaycanın dövlət quruculuğu və inkişafı strategiyasını müəyyən edərkən sosial siyasəti prioritet istiqamətlərdən biri kimi müəyyən etmiş, milli sərvətlərin xalqın bütün təbəqələrinə mənsub olması, sosial ədalət prinsipinin qorunması, əhalinin aztəminatlı hissəsinə dövlət qayğısının artırılması məsələlərini həmişə diqqət mərkəzində saxlamışdır.

Sosial siyasət hər bir dövlətin daxili siyasətinin mühüm tərkib hissəsi olub, cəmiyyətin müxtəlif təbəqələri arasında münasibətlərin tənzimlənməsinə, əhalinin yaşam keyfiyyətlərinin və həyat səviyyəsinin yüksəldilməsinə yönəldilmiş tədbirlər sistemidir. Sosial siyasətin əsas məqsədi cəmiyyətin müxtəlif sosial qrupları arasındakı qeyri-bərabərliyin tədricən aradan qaldırılması, maddi-mənəvi sərvətlərin bölüşdürülməsində sosial ədalətin təmin edilməsidir.

Sosial siyasətin təminatlı və əhatəli olması üçün möhkəm iqtisadi təməl və hüquqi bazanın mövcudluğu mühüm şərtdir. Məhz buna görə də müstəqil Azərbaycanın sosial siyasət strategiyasını müəyyənləşdirən zaman Ümummilli Lider Heydər Əliyev bir tərəfdən sosial siyasətin ölkənin real iqtisadi imkanlarına uyğunlaşdırılmasına, digər tərəfdən isə müvafiq normativ hüquqi bazanın yaradılmasına ciddi önəm verirdi.

Modern dövlət quruculuğu yoluna qədəm qoymuş müstəqil Azərbaycanın sosial siyasətinin təməlində iki klassik prinsip dayanırdı: sosial ədalət və sosial rifah. Heydər Əliyev sosial sahədə dövlətin vəzifəsini bunda görürdü:"Bir dövlət olaraq, hökumət olaraq biz xalqımızın, millətimizin, vətəndaşlarımızın sosial tələblərini təmin etməliyik".

1995-ci ildən başlayaraq ölkədə iqtisadi tənəzzül dayandı və sosial sahədə siyasətin konkret istiqamətlərinin müəyyənləşməsinə, islahatlar aparılmasına, sosial siyasətin geniş hüquqi bazasının yaranmasına təkan verildi.

Hazırda Azərbaycanda sosial siyasətin əsas istiqamətləri liberal iqtisadiyyata, insan haqlarına, demokratik dəyərlərə əsaslanan sosial dövlətin iqtisadi-siyasi sisteminə uyğundur və başlıca olaraq aşağıdakı sahələri əhatə edir:

- əhalinin pul gəlirləri siyasəti (həyat səviyyəsi, istehlak səbəti, rifah halı);



- əmək və əmək münasibətləri sahəsində siyasət (əməyin ödənilməsi, sosial sığorta, əməyin mühafizəsi, məşğulluq);
- sosial dəstək və aztəminatlı təbəqənin (əlillər, pensiyaçılar, qaçqın və məcburi köçkünlər, şəhid ailələri və s.) sosial müdafiəsi, pensiya təminatı, sosial müavinətlər, yardımlar, sosial xidmət;
- sosial sahələrin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi (sağlamlığın qorunması, təhsil, elm, mədəniyyət, turizm, bədən tərbiyəsi və idman);
- sosial ekoloji siyasət;
- sosial infrastruktur siyasəti (mənzil, nəqliyyat, yol, rabitə, ticarət və məişət xidməti);
- miqrasiya siyasəti;
- işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış.

Müstəqil Azərbaycan dövlətinin sosial siyasətinin iqtisadi konturları və hüquqi əsasları XX əsrin sonralarında tamamlanmaq üzrə idi. Gələn yeni əsr və minillik sosial sahələrdə böyük islahatlar və uğurlar vəd edirdi. Məhz bu uğurları uzaqgörənliklə müəyyən edən Heydər Əliyev söyləyirdi:"Biz XXI əsrə daha da qüdrətli müstəqil Azərbaycan dövləti çatdırmaq istəyirik. Gələcək nəsillərə daha xoşbəxt həyat yaratmaq istəyirik. Azərbaycanın imkanlarından səmərəli istifadə edib, iqtisadiyyatı inkişaf etdirib, Azərbaycan xalqının rifah halını yüksəltmək üçün çalışırıq".

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə dövlət mülkiyyətində olan əmlakın ədalətli bölgüsünə - özəlləşdirilməsinə başlanıldı. Hər bir Azərbaycan vətəndaşına ümumi mülkiyyətdən bərabər pay - özəlləşmə çekləri verildi, kəndlərdə yaşayanlara isə torpaq payı eyni prinsiplə bölüşdürüldü. Bazar münasibətlərinə əsaslanan, eyni zamanda, sosial ədalətə söykənən sığorta sisteminin yaranması, bunun üçün qanunvericilik bazasının formalaşması ("Sosial sığorta haqqında", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İcbari tibbi sığorta haqqında" və digər qanunlar), sığorta prinsipinə əsaslanan yeni pensiya sisteminin yaranmasının konseptual əsaslarını müəyyən edən "Azərbaycan Respublikasında pensiya islahatları Konsepsiyası"nın Ümummilli Lider Heydər Əliyevin 2001-ci il 17 iyul tarixli Sərəncamı ilə təsdiq olunması, əlillərin problemlərinin kompleks şəkildə həlli məqsədi ilə Prezidentin 14 may 1998-ci il tarixli Sərəncamı ilə "1998-2001-ci illər üçün əlilliyin qarşısının alınması, "Əlillərin reabilitasiyası və sosial müdafiəsi üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi və bu kimi sənədlər müasir Azərbaycan dövlətinin sosial siyasətinin yeni dövrün çağırışına uyğun formalaşmasına xidmət edirdi.



Ümummilli Lider Heydər Əliyevin başladığı sosial islahatlar 2003-cü ildən sonra cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Proqramlarla idarə etmək metoduna üstünlük verən cənab Prezident İlham Əliyevin fərmanları ilə regionların sosial iqtisadi inkişafı üzrə dövlət proqramları, təhsil, səhiyyə, sosial müdafiə, demoqrafik inkişaf, məşğulluq, yoxsulluğun azaldılması, sosial evlər, məcburi köçkünlərin məskunlaşması, ünvanlı sosial yardım, özünəməşğulluq və digər sahələrdə onlarla proqramlar qəbul edilmiş və həyata keçirilmişdir. "ASAN", "ABAD", "DOST" xidmətlərin, özünəməşğulluq proqramlarının uğurla icra edilməsi də sosial islahatların əməli nəticəsi kimi qiymətlidir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev hər zaman söyləyir ki, bizim siyasətin mərkəzində Azərbaycan xalqı və onun sosial rifahı dayanır. Uğurla aparılan sistemli islahatlar nəticəsində 2009-cu ildə ölkəmizdə iqtisadi sahədə keçid dövrü başa çatdı, 2013-cü ildə isə dövlət başçımız Azərbaycanın sosial dövlət olduğunu ölkə vətəndaşlarına və dünya ictimaiyyətinə bəyan etdi.

2018-ci ildə növbəti dəfə xalqın böyük etimadını qazanaraq Prezident seçilən cənab İlham Əliyev iqtisadi sahədə islahatların davamı olaraq 2019-cu ildə də dərin sosial, idarəetmə və struktur islahatları apardı. Sonrakı dövrdə dövlət başçısının imzaladığı 60-dan çox fərman və sərəncamlarla ölkə əhalisinin əksəriyyətini əhatə edən 4 sosial islahat zərfi icra olunmuşdur və bunun illik maliyyə dəyəri 6,5 milyard manat təşkil edir. Bu islahatlar nəticəsində son 5 ildə minimum əmək haqqı 2,7 dəfə, orta aylıq əmək haqqı 1,7 faizə yaxın, median əmək haqqı 76 faiz artmışdır. Minimum pensiya məbləğində 2,5 dəfə, orta pensiyada 2 dəfə, müavinət və təqaüdlərdə 2,8-3 dəfə artım baş vermişdir.

Aparılan islahatlar sosial ədalətə və sosial rifaha hədəflənməklə çoxşaxəlidir, ardıcıldır və şəhid ailələrini, Qarabağ qazilərini, veteranları, valideyn himayəsindən məhrum uşaqları, eləcə də digər həssas qrupları tam əhatə edir.

Bunlarla yanaşı, əmək pensiyası almaq hüququ olmayan şəxslərə verilən sosial müavinətin, uşaqlar üçün nəzərdə tutulan 2 istiqaməti əhatə edin müavinətlərin ilbəil artırılması onların yaşayışını minimal səviyyədə təmin etmək və konkret ehtiyaclarını qarşılamaq üçün imkanlar yaradır.

Əmək haqqı siyasəti və pensiya təminatı sahəsində aparılan islahatlar nəticəsində Dövlət Sosial Müdafiə Fondunun gəlirləri 2018-2023-cü illərdə 2.511,8 milyon manat, yaxud 67 faiz artmışdır.

2023-cü ildə DSMF-nin gəlirləri və xərcləri 6.264 milyon manat nə-

zərdə tutulmuşdur ki, bu da əvvəlki ildəkindən 11,7 faiz çoxdur. Hazırda ölkə üzrə yaşa görə pensiyaların orta aylıq məbləğinin 455 manata, əlilliyə görə pensiyanın 369 manata, ailə başçısını itirməyə görə pensiyanın isə 374 manata çatdırılması proqnozlaşdırılır.

Əmək pensiyalarının minimum məbləği 119 manatdan 280 manata yüksəlmiş, başqa sözlə, 2,4 dəfə artmışdır. Bu artım 600 min nəfər pensiyaçının həyat səviyyəsinin yüksəlməsinə xidmət etmişdir. İslahatlar nəticəsində minimum orta pensiyanın alıcılıq qabiliyyətinə görə Azərbaycan MDB məkanında ilk yerlərə yüksəlmişdir.

Azərbaycanın qüdrətinin, ordumuzun qəhrəmanlığının, xalqımızın birliyinin, Ali Baş Komandanın müdrikliyinin və cəsarətinin tarixi təntənəsi olan 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə sosial siyasətdə iki istiqamət prioritet olaraq önə çıxmışdır:

- postmüharibə dövründə həssas qrupa daxil olan kontingentə xüsusi qayğı;
- işğaldan azad olunan ərazilərin məskunlaşması üzrə Böyük Qayıdışın həyata keçirilməsi.

Postmüharibə dövründə 122 min vətəndaş 264 min sosial dəstək tədbiri ilə əhatə olunmuşdur, o cümlədən 3038 şəhidin 8018 ailə üzvünə 16011 sosial ödəniş təyin edilmiş, 4500 şəhid ailəsi və qazi mənzillər ilə təmin olunmuş, 324 nəfər müharibə əlilinə minik avtomobili verilmiş, 1793 nəfər müharibə ilə əlaqədar əlilliyi olan şəxs 30675 ədəd reabilitasiya vasitələri ilə təmin edilmişdir. Bu qəbildən olan vətəndaşların orta aylıq əmək haqqı 2018-2020-ci illərdə 30 faiz, orta aylıq pensiyası isə 60 faiz artmışdır.

Ötən il uğurla həyata keçirilən "Məşğulluq marafonu" çərçivəsində 2538 şəhid ailəsi üzvü və qazi işlə təmin olunmuşdur.





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılan DOST mərkəzləri uğurla fəaliyyət göstərməkdə və genişlənməkdə davam edir. Bakı şəhəri və Abşeron rayonu üzrə fəaliyyət göstərən 6 DOST mərkəzi 3 milyona yaxın vətəndaşa sosial xidmət göstərmişdir, məmnunluq göstəricisi 98 faiz olmuşdur. DOST mərkəzlərinin açılışında cənab Prezident çox doğru olaraq vurğulamışdır ki, "DOST mərkəzləri sosial sahədə "ASAN xidmət"in analoqudur. Bu, ən yeni yanaşma üsuludur və dünyada heç yerdə yoxdur. DOST mərkəzlərinin yaradılması ilə qısa müddətdə Azərbaycan vətəndaşları müsbət dəyişiklikləri hiss edəcəklər".

İşğaldan azad edilmiş rayonlarımızın əhalisinə xidmət göstərmək məqsədi ilə "Zəngəzur və Qarabağ DOST proqramı" hazırlanmış və 2022-ci il mayın 27-də Zəngilanın Ağalı kəndində cənab Prezident İlham Əliyevin və hörmətli Mehriban xanımın iştirakı ilə ölkədə ilk "Smart DOST" xidmət məntəqəsi istifadəyə verilmişdir.

Sosial xidmətlərin elektronlaşdırılması sahəsində uğurlu fəaliyyəti qeyd edərək bildirmək istəyirəm ki, vətəndaşlara 153 istiqamətdə göstərilən sosial xidmətlərin 138-i artıq





elektronlaşmış, 51 xidmət isə proaktiv qaydada həyata keçirilir.

Əhalinin xidmət sahələrində məmnunluğun təmin edilməsi üçün məmur-vətəndaş kontaktlarının minimuma endirilməsi, vətəndaşların müraciətlərinə yüksək mədəniyyətlə, şəfqətlə yanaşılması, eyni zamanda, bu müraciətlərin qısa müddət ərzində baxılması və təmin olunması onların dövlətə olan inamını, sevgisini artıran amillərdir. Buna görə Prezident İlham Əliyev sosial sahələrdə olan problemlərin günümüzün çağırışlarına uyğun şəkildə həlli üçün çox ciddi islahatların aparılmasına start vermişdir.

Müharibə dövründə erməni terroru, raket hücumları nəticəsində əmlaklarını itirmiş mülki əhali üçün yüzlərlə yeni ev tikilmişdir.

Prezident İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə yaradılmış "YAŞAT" fondu qısa müddət ərzində Qarabağ qazilərinin və şəhid ailələrinin məişət və sosial problemlərinin həlli istiqamətində olduqca geniş və faydalı işlər görmüşdür. Bu müddət ərzində "YAŞAT" fondu 11646 nəfərin 17376 müraciətini reallaşdırmış, bu məqsədlərə 53 milyon manatdan çox vəsait xərclənmişdir və bu sosial dəstək proqramları hələ də davam etdirilir.

Azərbaycanda sosial siyasətin və geniş spektrli sosial dəstək proqramlarının həyata keçirilməsində respublikamızın Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın yaratdığı və rəhbərlik etdiyi Heydər Əliyev Fondunun böyük tarixi rolu və əhəmiyyəti vardır. 2004-cü ildə müasir Azərbaycan dövlətinin banisi və qurucusu, Ümummilli Lider Heydər Əliyevin siyasi irsinin öyrənilməsi və təbliğ edilməsi, onun azərbaycançılıq ideyasının və dövlətçilik baxışlarının yeni nəsillərə çatdırılması məqsədi ilə yaradılan fond hörmətli Mehriban xanımın yüksək təşkilatçılıq qabiliyyəti

və yorulmaz fəaliyyəti sayəsində müasir Azərbaycanın ictimai-siyasi həyatının mühüm atributuna çevrildi.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bir çox sosial, humanitar layihələr, o cümlədən ailə quran şəxslərin nikah öncəsi icbari tibbi müayinəsinin həyata keçirilməsi, ana və uşaqların mühafizəsi, talassemiya və hemofiliya xəstələrinə dəstək haqqında, habelə valideyn himayəsindən məhrum uşaqların, I və II qrup əlil uşaqların təhsil haqlarının ödənilməsinin dövlət büdcəsi tərəfindən həyata keçirilməsini təmin edən qanunvericilik aktlarının qəbul edilməsi sosial sahədə islahatların növbəti addımı kimi olduqca əhəmiyyətlidir.

Koronavirusla mübarizə və postmüharibə dövründə Heydər Əliyev Fondu dəfələrlə 100 mindən artıq ailəyə ərzaq yardımı göstərdi, yüzlərlə şəhid ailəsi ziyarət olundu, himayəyə götürüldü, qazilərimizin ən müasir protezlərlə və digər reabilitasiya vasitələri ilə, motorlu arabalarla təmin olunmalarına, o cümlədən respublikadan kənarda müalicə və bərpa kursu keçmələrinə əməli dəstək verildi.

Təhlükəsiz ərzaq təminatı, ekoloji salamatlıq, sosial rifah, səhiyyə və təhsil kimi həyat keyfiyyəti üçün zəruri olan şərtlər insan həyatının, ömür uzunluğunun müsbət inkişafına təsir edən amillərdir.

Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nə görə 2025-ci ildən sonrakı dövrdə yoxsulluq tam şəkildə aradan qaldırılacaq, qeyri-məşğul əhalinin sayı minimuma endiriləcək, ölkə üzrə yaşayış minimumundan aşağı olmayan səviyyədə pensiya, əmək haqqı və sosial müavinətlər tam həyata keçiriləcəkdir.

Bu məqsədlə qəbul olunmuş pensiya islahatları konsepsiyası uğurla həyata keçirilir. Bu islahatların nəticəsində əhalinin sosial müdafiəsi daha da güclənəcək, sosial ədalət və şəffaflıq tam təmin olunacaqdır. Yeni iş yerlərinin açılması, yeni texnologiyaların tətbiqi nəticəsində fiziki əməyin yüngülləşdirilməsi, iş saatlarının və iş günlərinin azaldılması, bunun nəticəsində vətəndaşların istirahət və ailədə daha çox vaxt keçirmək imkanları genişlənəcəkdir.

Həyat keyfiyyətinin yüksəldilməsi üçün vacib şərtlərdən biri də insanların mənzil təminatının yaxşılaşdırılmasıdır. Bu sahədə də görülən işlər daha yüksək nəticələr əldə etməyə imkan verəcəkdir. Hazırda sosial müdafiəyə daha çox ehtiyacı olan vətəndaşlarımız - qaçqın və məcburi köçkünlər, şəhid ailələri və Qarabağ qaziləri, əlillər, müharibə veteranları dövlət büdcəsi vəsaiti hesabına tikilən mənzillərlə təmin olunublar. Digər kateqoriyadan olan vətəndaşların mənzil təminatının həyata keçirilməsi üçün İpoteka Fondu fəaliyyət göstərir. Cənab Prezidentin fərmanı əsasında yaradılmış Mənzil İnşaatı Dövlət Agentliyi ölkəmiz üçün yeni olan sosial mənzillər layihəsini uğurla həyata keçirir.

> **"Azərbaycanın iqtisadi potensialı, yeraltı və yerüstü sərvətləri, elmi intellektual potensialı ilə yanaşı, onun digər dövlətlərlə iqtisadiyyat sahəsində əməkdaşlığı üçün daha əlverişli şərait yaradan cəhətlərindən biri də ölkəmizin coğrafi mövqeyidir".**
>
> **Heydər Əliyev**

Dünyanı cənginə almış koronavirus pandemiyası 2020-ci ilin əvvəllərindən başlayaraq bütün dövlətləri və xalqları sınağa çəkdiyi günlərdə bir çox ölkələrin liderləri "öncə iqtisadiyyatı, yoxsa insanları xilas etməli?" dilemmasını müzakirəyə çıxaranda Azərbaycan Prezidenti öz dogma xalqının əsl lideri kimi qəti şəkildə söylədi: "Burada biz iki amil arasında seçim etməliyik - iqtisadi fəallıq, insan sağlamlığı. Mənim seçimim birmənalıdır - insanların sağlamlığı!"

Daxili siyasətində vətəndaşlarının sosial müdafiəsini və sosial rifahını prioritet istiqamət kimi müəyyən edən Azərbaycan dövləti hər zamankı kimi bu çətin vaxtda da xalqın yanında olduğunu oz əməli fəaliyyəti ilə bir daha təsdiq etdi. Koronavirusla mübarizədə Azərbaycanın adı ən uğurlu ölkələrdən biri kimi tarixə yazıldı.

Azərbaycan sosialyönümlü bir dövlətdir. Cənab Prezidentin də siyasəti həmişə ondan ibarətdir ki, bizim iqtisadiyyatımız inkişaf etdikcə, əhalimizin sosial müdafiəsi də gücləndirilsin. Yəni iqtisadiyyatdan əldə olunan gəlirlər əhalinin sosial müdafiəsinə, rifah halının güclənməsinə yönəldilsin. Bu, hər zaman belə olub, həmişə Azərbaycanın siyasətində sosial siyasət prioritet istiqamət təşkil edib.

Bu gün Azərbaycan vətəndaşı inamlı və sabahından arxayındır. Xalq inanır ki, dövlət hər an vətəndaşının arxasındadır və bu xalqın rəhbəri daim öz vətəndaşının sosial rifah halının güclənməsi barədə düşünür.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev öz qurduğu dövlətin İlham Əliyevin rəhbərliyi ilə daha da inkişaf edərək qüdrətli bir ölkəyə çevriləcəyini hiss edir və böyük uzaqgörənliklə söyləyirdi:"Azərbaycan dünyaya günəş kimi doğacaq!" Ulu Öndərin müdrikliklə söylədiyi sözlər bu gün real həyatda öz təsdiqini tapmış, onun qurduğu Azərbaycan dünyanın ən azad, demokratik, inkişaf etmiş, sosial rifah dövlətinə çevrilmişdir.

# Müstəqil Azərbaycan səhiyyəsinin memarı



**Əhliman Əmiraslanov**
Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik

Müstəqil Azərbaycan Respublikasının sosial sahələrinin, o cümlədən səhiyyə və tibb təhsili sistemlərinin tarixlərinin ayrı-ayrı mərhələlərinə nəzər salsaq görərik ki, bu proses sadəlikdən mürəkkəbliyə, primitivlikdən aliliyə, müstəmləkəçilikdən müstəqilliyə doğru böyük bir tərəqqi yolu keçmişdir. Belə yüksəlişin ən mühüm, ən sürətli və ən keyfiyyətli inkişafının, tarixin səhifələrinə qızıl hərflərlə həkk olunan mərhələsinin məhz Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlı olması heç bir şərhə ehtiyacı olmayan aydın həqiqətdir. Gözlərimiz önündə şərəflə yaşanan ömrün 35 ilə yaxın bir dövründə Azərbaycana rəhbərlik edən, bu dövlətin yaradıcısı, ilhamverici qüvvəsi olan, əbədiyaşarlıq rəmzinə çevrilən Ulu Öndər Heydər Əliyev bütövlükdə Azərbaycan Respublikası ilə birlikdə həm də söhbət açacağımız insanların sağlamlığına keşik çəkən ölkə səhiyyəsinin ən parlaq memarı, qurucusu, dinamik inkişafının tənzimləyicisi kimi şüurlara, yaddaşlara əbədi həkk olunub.

Ulu Öndər XX əsrin ikinci yarısından etibarən yalnız ona xas olan fenomenlik xüsusiyyətləri ilə həm özü dünya diplomatiyasının ön sıralarına ucalaraq başərilik qazandı, həm də Azərbaycanın dünyaya günəş kimi parlamasının möhkəm təməlini yaratdı.

Heydər Əliyevin 1969-cu il iyulun 14-də Azərbaycanda ilk dəfə siyasi rəhbərliyə gəlməsi qədirbilən xalqımızı səmimi qəlbdən məmnun etdi və bu yenilməz millətin öz dahi liderinə qovuşmasının, onun ətrafında sıx birləşməsinin təminatçısına çevrildi.

Ulu Öndər XX əsrin 70-80-ci illərində həmin siyasətin tərkib hissəsi kimi elm, təhsil və səhiyyə sistemlərinin də yüksəlişini təmin edərək bu sahələrin hərtərəfli inkişafı üçün dövlət səviyyəsində bütün mümkün tədbirləri gerçəkləşdirmişdi. Dahi rəhbər həmin dövrdə, ilk növbədə, tibb üzrə xarici mütəxəssislərin diqqətini Azərbaycana cəlb etməyə, onlarla yerli mütəxəssislər arasında əlaqə yaratmağa çalışmış, bununla da səhiyyə, tibb elmi və tibb təhsili sahələrində mövcud durğunluğun aradan qaldırılmasına nail olmuşdu. Keçən əsrin 60-cı illərinin sonu, 70-ci illərinin əvvəllərindən etibarən tibb üzrə beynəlxalq qurultay, simpozium, konqres və konfransların Bakıda keçirilməsini təşkil edən Heydər Əliyev respublikamızın səhiyyə sistemi sahələrinin beynəlxalq miqyasa çıxmasına, onların dayanıqlı və sabit inkişafına əlverişli şərait yaratmışdı. Həmin illərdə Azərbaycanın sözügedən sistemlərində ölçüyəgəlməz islahatlar aparılırdı. O zamankı Azərbaycan Dövlət Tibb İnstitutu keçmiş Sovetlər İttifaqında sayılıb-seçilən elm və təhsil məbədlərindən birinə çevrilmişdi, tibbi kadr hazırlığında öz sözünü cəsarətlə deyə bilirdi.

Heydər Əliyev ölkəyə rəhbərlik etdiyi illərdə yüzlərlə gənc azərbaycanlı alimin müxtəlif ixtisaslar üzrə keçmiş Sovet İttifaqı səviyyəsində doktoranturaya qəbul edilməsinə də nail olmuşdu. Tibb sahəsində mütəxəssislərin yeni nəslinin nümayəndələri yetkin tədqiqatçılar kimi vətənə qayıdıb fəaliyyətlərini genişləndirirdilər. Zərifə Əliyeva,



İbrahim Topçubaşov, Həmidbəy Mahmudbəyov, Tamerlan Əliyev, Tağı Tağızadə, Adilə Namazova, Böyükkişi Ağayev və başqalarının adları bu gün səhiyyəmizin inkişaf tarixində ən mötəbər yerləri tutur, onların elmi məktəbləri dərindən öyrənilir.

Eyni zamanda, həmin illərdə tibbin müxtəlif elmi istiqamətləri - cərrahiyyə, terapiya, mikrobiologiya, urologiya, oftalmologiya, allerqologiya, immunologiya, pediatriya, kardiologiya, onkologiya, anesteziologiya, reanimatologiya, epidemiologiya, ginekologiya, stomatologiya və s. üzrə beynəlxalq səviyyəli elmi-tədqiqat işləri aparılır, alınan nəticələr dünya alimləri tərəfindən yüksək dəyərləndirilirdi.

Ulu Öndər o dövrdə respublikanın səhiyyə sisteminin və Azərbaycan Dövlət Tibb İnstitutunun maddi-texniki bazasının möhkəmləndirilməsini də diqqətdə saxlayırdı. O zaman yüzlərlə iri müasir səhiyyə obyektləri inşa edildi, respublikada olan tibb müəssisələrinin yarıdan çoxu yeniləndirildi, elmi-tədqiqat institutları, sağlamlıq və müalicə-profilaktika müəssisələri fəaliyyətə başladı. O dövrün, yəni Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ilk dəfə siyasi hakimiyyətə gəldiyi zamanın tələbələrindən olduğuma görə onun ölkədə gənclərə göstərdiyi qayğı və diqqətdən mənə də pay düşdü. Mən də 1974-cü ildə Moskvada SSRİ Tibb Elmləri Akademiyasının Onkoloji Elmi Mərkəzinin aspirantı oldum. O vaxtlar Moskvanın müxtəlif ali tibb təhsili müəssisələrində mənim kimi gənclər çox idi və Ümummilli Liderin gənclər üçün yaratdığı əlverişli şərait hər birimizin həyatının mənasına çevrilmişdi.

Heydər Əliyev Moskvada çalışdığı illərdə də SSRİ-nin səhiyyə sahəsinə nəzarət edirdi və Sovetlər İttifaqının yüksək rütbəli tibb alimləri, səhiyyə işçiləri ilə tez-tez görüşlər keçirir, səhiyyədə olan problemlərin müzakirəsini aparır, bu problemlərdən irəli gələn məsələlərin həlli yollarını peşəkarcasına göstərirdi. O vaxtlar SSRİ səhiyyə sisteminin və dünya tibb elminin görkəmli nümayəndələrindən olan akademik N.N.Bloxin həm də mənim çalışdığım SSRİ Tibb Elmləri Akademiyasının Ümumittifaq On-

koloji Elmi Mərkəzinin baş direktoru idi. O, hər dəfə Heydər Əliyevin SSRİ Səhiyyə İdarələri başçılarının iştirakı ilə keçirilən toplantılardakı çıxışlarından sonra Onkoloji Elmi Mərkəzin işçilərini toplayaraq onun tapşırıqlarını əməkdaşlara çatdırardı. Akademik N.N. Bloxin, adətən, ünsiyyətdə olduğu insanlar barədə tərifli sözlər deməkdə bir qədər “xəsislik” edərdi. Lakin o, Heydər Əliyev haqqında danışanda ürəkdən gələn ən xoş sözləri səmimiliklə söyləməkdən çəkinməzdi. Ulu Öndərin çıxışları akademikdə, sözün həqiqi mənasında, böyük təəssürat oyatmışdı. Akademik N.N.Bloxin deyirdi ki, Heydər Əliyev səhiyyənin problemlərini, onlardan çıxış yollarını ən titullu səhiyyə mütəxəssislərindən də gözəl bilir və ona görə də ona böyük hörmət və ehtiramla yanaşıram.

Vətəndən uzaqlarda yad bir millətin dünya şöhrətli aliminin həkimlər, alimlər, səhiyyə işçiləri qarşısında Azərbaycanın böyük oğlu Heydər Əliyev haqqında ağızdolusu xoş sözlər deməsi məni və mənim kimi azərbaycanlı gəncləri qürurlandırır, fəxarətləndirirdi.

Akademik N.N.Bloxindən sonra Rusiya Tibb Elmləri Akademiyasının Onkoloji Elmi Mərkəzinin baş direktoru vəzifəsində çalışan akademik N.N.Trapeznikov Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra bir neçə dəfə Bakıda olmuşdu. Hər dəfə Ümummilli Lider Heydər Əliyev şəxsən tanıdığı akademik ilə görüşərkən akademik Cəmil Əliyevi və məni də dəvət edər, birlikdə səhiyyənin problemləri, onkologiya elminin müasir səviyyəsi haqqında müzakirələr aparardıq. Dahi şəxsiyyət təmkinlə təklifləri dinləyər, onlara öz lakonik, məntiqli münasibətini bildirərdi.

Ulu Öndər Heydər Əliyev səhiyyənin, tibb elminin başqa sahələrində fəaliyyət göstərən digər aparıcı mütəxəssislərlə sıx əlaqə saxlayar, onların diqqətini Azərbaycana cəlb edər, bununla da ölkəmizdə səhiyyə sahəsinin inkişafına güclü təkan verilməsinə möhkəm zəmin yaradardı.

Heydər Əliyev 1998-ci il sentyabrın 28-də Azərbaycan Tibb Universitetinin yeni 11 mərtəbəli tədris binasının açılışında çıxış edərkən Azərbaycan səhiyyəsinin inkişafına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə göstərdiyi saysız-hesabsız amillərə toxunaraq demişdir: “Mən o vaxt Sovetlər İttifaqının Moskvada yerləşən ən böyük, ən mötəbər tibb ocaqları, müəssisələri ilə yaxından tanış idim, onların yaranmasında, inkişaf etməsində xidmətlər göstərirdim. Mənim o vaxt həm Onkoloji Mərkəzin, həm Kardioloji Mərkəzin, həm Ürək Cərrahiyyəsi Mərkəzinin, həm Oftalmoloji mərkəzlərin, başqalarının yaranmasında, inkişaf etməsində, onların maddi-texniki bazasının yaranmasında çox səylərim olmuşdur. Mən bu gün böyük məmnuniyyətlə xatırlayıram ki, o vaxt SSRİ Tibb Elmləri Akademiyasının 40 illik yubileyində Sovet İttifaqının rəhbərliyi adından iştirak etdim. Mən bir də bunları edərək o vaxt SSRİ dövləti tərkibində Azərbaycanın səhiyyəsinə marağı, qayğını daha da artırırdım. Moskvada yerləşən o böyük tibb elmi mərkəzlərinin diqqətini Azərbaycana cəlb edirdim və Azərbaycana yardım etməyə çalışırdım”.

> **“Səhiyyə bizim üçün, hər bir cəmiyyət və dövlət üçün çox lazımlı, həyatın bütün sahələrini əhatə edən sahədir”.**
>
> **Heydər Əliyev**

Heydər Əliyevin xarici ölkələrdə oxutdurduğu gənclər bu gün Azərbaycanda aparıcı mütəxəssislərə çevriliblər. Onun qoyduğu təməllərin bəhrəsi Azərbaycan Tibb Universitetinin timsalında da özünü daha dolğun şəkildə göstərir. Tarixi dəlillər sübut edir ki, bu ali tibb təhsil ocağı yarandığı gündən həmişə milli kadr qıtlığından əziyyət çəkib. Lakin bu gün tam əminliklə deyirəm ki, həm mənim, həm də ölkəmizin tibb kadrlarının həyatında əsaslı rol oynayan Ulu Öndərin sayəsində Azərbaycanda tibb elmi və tibb təhsili sahəsinin, eləcə də Azərbaycan səhiyyəsinin bütün sahələri üzrə çox sanballı, yüksək səviyyəli milli kadrlar yetişib və onlar da öz məktəblərini yarada biliblər. Tibb sahəsində beynəlxalq səviyyəli mütəxəssis məktəbləri yaratmaq o qədər də asan məsələ deyildir. Belə məktəblər bir ilin, beş ilin ərzində yarana bilməz. Əgər Azərbaycanda səhiyyə, eləcə də tibb elmi və təhsili sahəsində bu cür fundamental məktəblər yaranıbsa, demək, Heydər Əliyev ideyalarının çiçəklənməsi, xoş bəhrələr verməsi haqqında ağızdolusu danışmağa haqqımız var.

Bu gün Azərbaycanın milli tibb kadrları nəinki ölkəmizdə, hətta dünyanın bir sıra inkişaf etmiş ölkələrinin tanınmış tibb müəssisələrində müvəffəqiyyətlə fəaliyyət göstərirlər. Ümummilli Liderimizin uzaqgörən siyasəti nəticəsində tibb mütəxəssislərimizin xaricə ixrac olunmasının dünya azərbaycanlılarının maddi və mənəvi dayağının artmasına, milli diasporun möhkəmlənməsinə zəmin yaratmasının özü də mənim həyatımda baş verən dəyişikliklərlə sıx vəhdət təşkil edir. Çünki mən də dahi Heydər Əliyevin qayğısı ilə qaynaqlanan bu elin, bu millətin, bu vətənin övladlarından, onun zərrələrindən biriyəm.



Ümummilli Lider qlobal proseslər fonunda tam fərqli - xalqın demokratik idealları, milli dövlətçilik təfəkkürü ilə uzlaşan, hər bir mərhələ üçün konkret fəaliyyət prioritetləri, taktiki və strateji məqsədləri olan milli inkişaf strategiyasını irəli sürərək uğurla həyata keçiribdir.

Heydər Əliyevin bütün zəngin və mənalı ömrü Azərbaycan üçün yaşanıb. Bu dahi şəxsiyyət həyatını Azərbaycanı və azərbaycançılığı dünyaya tanıtmağa sərf edibdir.

Ulu Öndər müstəqil Azərbaycana rəhbərliyi dövründə məhz bu zəngin potensiala, elmi və maddi-texniki bazaya istinad edərək səhiyyə islahatlarını da uğurla həyata keçiribdir. 1993-2003-cü illərdə yenidən ölkəyə rəhbərlik edən Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında Milli Məclisdə "Əhalinin sağlamlığının qorunması haqqında", "Qan və onun komponentlərinin donorluğu haqqında", "Əczaçılıq fəaliyyəti haqqında", "Tibbi sığorta haqqında", "Xüsusi tibbi fəaliyyət haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "Sanitar-epidemioloji sağlamlıq haqqında" və digər qanunların, eləcə də "Dövlət sığortası haqqında" Əsasnamənin qəbulu bu baxımdan xüsusi vurğulana bilər. Bundan başqa, 1993-cü ildə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Ümumdünya Səhiyyə Təşkilatının poliomielitə qarşı mübarizə, 1995-ci ildə "MEKAKAR" proqramlarına qoşulmuşdur. 1998-ci il martın 13-də isə Heydər Əliyev "Səhiyyə sahəsində islahatlar üzrə Dövlət Komissiyasının yaradılması haqqında" Sərəncam imzalamaqla bu sahənin inkişafına böyük töhfə vermişdir.

1993-2001-ci illərdə elmi-tədqiqat institutlarının işində və elmi araşdırmaların təşkilində də müsbət dəyişikliklər olmuşdur. Ulu Öndərin tibbi kadrların hazırlanması sahəsində ixtisaslaşmış təhsil və elm məbədi olan Azərbaycan Tibb Universitetinə diqqət və qayğısını da onun ruhuna böyük ehtiramla xatırlatmaq istərdim. Nəticədə ölkəmizin bütün sahələrində olduğu kimi Azərbaycan səhiyyə sistemi, o cümlədən Azərbaycan Tibb Universiteti müstəqilliyin ilk illərindən dövlət rəhbərinin dəstəyi ilə özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. 1998-ci il sentyabrın 28-də Ulu Öndərin ATU-nun yeni tədris binasının açılışında şəxsən iştirak etməsi isə bu elm ocağının tarixində ən unudulmaz hadisələrdən biri kimi qalmışdır. Heydər Əliyev 2000-ci ildə Azərbaycan Tibb Universitetinin 400 yerlik akt zalının açılışında, eləcə də universitetin yaradılmasının 70 illik yubileyinə həsr edilmiş təntənəli mərasimdə də iştirak etmişdir. Yeni istifadəyə verilmiş unikal akt zalının tribunasından çıxış edən Heydər Əliyev yeni dövrdə tibb təhsilinin qarşısında duran vəzifə-





lərdən söz açmışdır. Azərbaycanın müharibə şəraitində olduğunu nəzərə alan Ümummilli Liderin göstərişi ilə 2000-ci ildə ATU-nun nəzdində strateji əhəmiyyətli hərbi tibb fakültəsi yaradılmışdır. Həmin illərdə Azərbaycan Tibb Universiteti Qara dəniz hövzəsiətrafı Ölkələrin Ali Məktəblər Birliyinin, Beynəlxalq Ali Məktəblər Assosiasiyasının, Avropa Universitetlər Assosiasiyasının tamhüquqlu üzvü seçilmişdir. Ümummilli Liderin qayğısı sayəsində 2002-ci ildə Azərbaycan Tibb Universitetinin nəzdində ilk stomatoloji klinika təşkil edilib ki, bununla da universitetin klinikalarının yaradılması ənənəsinin bünövrəsi qoyulubdur. Bu gün həmin klinika istər təcrübəli kadr potensialına, istərsə də müasir maddi-texniki bazasına görə Azərbaycanda aparıcı tibb müəssisələri sırasındadır. Tibb Universitetinin stomatoloji kafedraları məhz həmin klinikada yerləşir. Orada ən müasir tibbi avadanlıqlardan istifadə edilməklə müxtəlif əməliyyatlar icra olunur. Əminliklə demək olar ki, maddi-texniki bazasına görə bu klinika MDB məkanında öncül yerlərdən birini tutur.

Ümummilli Lider müstəqil və sabit inkişaf edən müasir Azərbaycan dövlətini yaradıb, xalqımız qarşısında daha bir əvəzsiz xidmət göstərib milli ideologiya məktəbi formalaşdıraraq ölkəmizin gələcək inkişafını təmin edəcək layiqli siyasi varis yetişdirib. Bu, Heydər Əliyev dühasının zirvəsi idi.

2003-cü ildə Ulu Öndər xalqa müraciətində deyirdi: “İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.

Ölkəmiz üçün milli transformasiyanın zamanın çağırışlarına adekvat olan yeni dövrü başlanıb. Azərbaycan öz tərəqqisinin daha sürətli mərhələsindədir, iqtisadi strukturun intensiv formalaşması prosesinə start verilib. Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasət müstəqil Azərbaycanın iqtisadi-sosial inkişafına, əhalinin sosial müdafiəsi sahəsində tarixi nailiyyətlər əldə etməsinə gətirib çıxarıbdır. Fəaliyyətində ənənə ilə novatorluğun, keçmişlə gələcəyin üzvü vəhdətinə nail olan cənab İlham Əliyevin qarşıya qoyduğu əsas məqsəd və vəzifələr sırasında əhalinin həyat səviyyəsinin yüksələn xətt üzrə inkişaf etdirilməsi, ölkədə yoxsulluq probleminin birdəfəlik həllinə nail olunması, insanların layiqli həyat tərzinin təmin edilməsi, sağlamlıqlarının qorunması prioritetlik təşkil edən məsələlərdəndir. Bu problemlərin həll olunması və həyata keçirilməsi ölkə Prezidentinin qayğısı sayəsində ölkəmizin Milli Məclisinin Səhiyyə komitəsinin, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin, TƏBİB-in, eləcə də digər tibb müəssisələrinin birgə fəaliyyətləri ilə yerinə yetirilir. Məhz bunun nəticəsidir ki, sürətli inkişaf hər bir ölkə vətəndaşının həyatında özünü qabarıq şəkildə büruzə verir. Bu gün beynəlxalq miqyasda açıq etiraf olunduğu kimi, ölkəmizdə son bir neçə ildə əhalinin həyat səviyyəsi davamlı olaraq yüksəlib, insanların maddi gəlirləri mütəmadi olaraq artırılıb, sosial xidmətlər əsaslı şəkildə genişlənib.

Prezident İlham Əliyevin sosial siyasətində nəticəyə deyil, problemləri yaradan səbəblərə qarşı mübarizəyə diqqət yetirilir və bu səbəbləri aradan qaldırmaq üçün tədbirlər həyata keçirilir, müvafiq dövlət proqramları qəbul olunur. Problemlərə bu cür kompleks yanaşma, onları doğuran səbəblərin aradan qaldırılması mümkün neqativ nəticələrin baş verməsinin qarşısını alır.

İqtisadiyyatın sahəvi və coğrafi şaxələndirilməsi, bunların konkret dövlət proqramları ilə təminatı da Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi siyasətin vacib məqamlarındandır. Dövlət büdcəsində nəzərdə tutulan vəsaitlərin son illər sosial müdafiə, elm, təhsil, səhiyyə və digər sahələrdə qəbul edilmiş məqsədli dövlət proqramlarının icrasına yönəldilməsi bunun real təsdiqidir. Ölkə rəhbərliyinin milli səhiyyə sisteminə xüsusi diqqət və qayğısı daim yaxından hiss edilir. Bu siyasətin nəticəsidir ki, son illərdə ölkəmizin bütün səhiyyə obyektlərinin, tibb elmi və tibb təhsili müəssisələrinin maddi-texniki bazası, infrastrukturu müasirləşib, elmi potensialı daha da güclənibdir. Bu istiqamətdə aparılan işlərə müvafiq olaraq cənab Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində 2007-ci ildə ATU-da daha bir möhtəşəm klinikanın - Onkoloji Klinikanın açılışı oldu. Bu da ölkəmizdə onkoloji xidmətin, eləcə də tibb elmi və tibb təhsilinin inkişafına güclü təkan verdi.

Möhtərəm İlham Əliyevin 11 sentyabr 2007-ci il tarixində imzaladığı "Azərbaycan Tibb Universitetinin Tədris-Terapevtik Klinikasının yaradılması haqqında" Sərəncamı da dövlət başçısının təhsil və səhiyyə məsələlərinə necə böyük həssaslıqla yanaşdığını bir daha təsdiqləyir. Universitetin cəmiyyətdəki yerini yüksək dəyərləndirən Azərbaycan Prezidenti İlham Əliyev 2010-cu il aprelin 28-də "Azərbaycan Tibb Universitetinin 80 illik yubileyinin keçirilməsi haqqında" da Sərəncam imzaladı. Bu yubileylə əlaqədar ölkə başçısının və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın iştirakı ilə 2010-cu ilin oktyabr ayında bu ali təhsil ocağının ən müasir standartlara cavab verən Tədris-Terapevtik Klinikasının təntənəli açılışı oldu. Ölkə başçısının 13 mart 2008-ci il tarixli sərəncamı əsasında universitetin Tədris-Cərrahiyyə Klinikası da inşa edildi və 2013-cü il sentyabrın 12-də klinikanın təntənəli açılış mərasimi keçirildi. 500 çarpayılıq Tədris-Cərrahiyyə Klinikasının müasir səviyyədə inşası dövlətimizin təkcə bu ali təhsil ocağının deyil, bütövlükdə Azərbaycan Respublikasının səhiyyə sisteminin inkişafına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə yönəldilmiş diqqət və qayğısının əyani göstəricisidir.

2011-2012-ci tədris ilində Ulu Öndər Heydər Əliyevin ideyalarının yaşaması və çiçəklənməsi sayəsində Azərbaycan Tibb Universiteti kollektivinin həyatında daha bir yenilik baş verdi və yolunu səbirsizliklə gözlədiyimiz daha bir arzumuz yerinə yetdi. Belə ki, ATU-da diplomdansonrakı hazırlığın rezidentura sisteminə keçidi baş tutdu.

Bütün bunlar bir daha sübut edir ki, Ulu Öndər Heydər Əliyevin mütərəqqi ideyalarının doğma vətənimizin, müstəqil Azərbaycan Respublikasının həyatında yaratdığı uğurlu dəyişikliklər bu gün də böyük müvəffəqiyyətlə davam etdirilir.

Anadan olmasının 100-cü ildönümünü qeyd etdiyimiz dahi şəxsiyyət, Ümummilli Lider, müstəqil dövlətçiliyimizin qurucusu və memarı Heydər Əliyev Azərbaycan xalqının tarixində şanlı salnamələr yaratmışdır. Bu gün Heydər Əliyev dühası həyatının mənasını xalqa və dövlətə təmənnasız xidmətdə görən, bu müqəddəs amal uğrunda ən çətin maneələrə, problemlərə mərdliklə sinə gərən millət atası kimi hər bir azərbaycanlının qəlbində yaşayır və dərin rəğbətlə yad edilir.

# Vətənə sədaqət nümunəsi Heydər Əliyev



**Hicran Hüseynova**
Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri

"Nə qədər Azərbaycan var, mən də olacağam!"- deyən və daim canından çox sevdiyi milləti üçün, xalqın gələcəyi üçün çalışan Ümummilli Lider Heydər Əliyev, sözün əsl mənasında, bugünkü qüdrətli Azərbaycanın memarıdır. "Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim vətənimdir, mənim torpağımdır". Bu fikirlər onun həyat fəlsəfəsi idi. Hər bir addımında, hər bir qərarında Azərbaycan üçün, onun inkişafı və gələcəyi üçün çalışırdı. Bütün həyatını bu müqəddəs məqsədə həsr etmişdi. Ulu Öndərin zəngin irsini araşdırarkən bir nəticəyə gəlmək olur: sözün əsl mənasında, vətəndaş!

Dünyada layiqli hörmət və nüfuz qazanmış görkəmli şəxsiyyət ölkəmizi bir dövlət və xalqımızı bir millət kimi tarixin ağır və sərt sınaqlarından çıxarmışdı. Ümummilli Liderin uzaqgörən və müdrik siyasəti nəticəsində Azərbaycanın müstəqil dövlət olması üçün real təməllər qoyulmuşdu.

Dahi şəxsiyyətin sovet dönəmində Azərbaycana rəhbərlik etdiyi dövr tariximizə quruculuq illəri kimi daxil olub. Məhz onun müdrikliyi, qətiyyəti, təşkilatçılığı sayəsində ən qısa vaxtda iqtisadi böhran şəraitində olan respublika sürətli sosial-iqtisadi yüksəliş mərhələsinə daxil ola bilmişdi. Cəmi bir neçə il ərzində Azərbaycan ən geridə qalan respublikadan ən qabaqcıl ölkəyə çevrildi, sənayesi inkişaf etdirildi, güclü aqrar-sənaye kompleksi formalaşdı, Azərbaycanın iqtisadi inkişafı xalqın özünəinamını artırdı, milli özünüdərk hissini gücləndirdi, hər bir sahədə tərəqqi sürətləndi, elmin, mədəniyyətin, təhsilin inkişafında böyük nailiyyətlər əldə edildi, milli kadrlar yetişdirildi. Bu, əslində Azərbaycanın intibah dövrü idi və o zaman yaradılan bünövrə ölkənin gələcək taleyində müstəsna rol oynadı.

Sovet ideologiyasının hakim olduğu bir zamanda Heydər Əliyev milli düşüncə tərzinin, azərbaycançılıq məfkurəsinin formalaşması istiqamətində məqsədyönlü iş aparırdı. Bu isə müstəqil dövlət qurmaq üçün mühüm amil idi. O, həmişə bir prinsipi əsas götürürdü: "Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın". Hələ sovet dövründə Azərbaycan tarixinin və mədəni irsinin yaşadılması üçün tanınmış alimlərin, tarixi şəxsiyyətlərin, yazıçı və şairlərin, bəstəkar və incəsənət xadimlərinin ev muzeyləri yaradılır, abidələr qoyulur, məqbərələr tikilirdi.

Azərbaycan xalqı haqlı olaraq Ümummilli Lideri xilaskar adlandırır. Çünki məhz 1993-cü ildə Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıdışı ölkəni parçalanmaqdan, xaos və anarxiyadan, iqtisadi böhrandan xilas etdi. Ulu Öndər deyirdi:"Biz nazik sapın üstü ilə gedirik. Odur ki, biz gərək bu siyasəti o qədər ağılla, o qədər məharətlə aparaq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun, ərazi bütövlüyümüz təmin edilsin, Azərbaycan müharibə şəraitindən çıxa bilsin".

Bütün strateji məqsədlərə və məramlara yetmək üçün ölkəyə Ümummilli Liderin uzaqgörənliyi, dövlətçilik səriştəsi lazım idi. Çox



mürəkkəb olan şəraitdə, yorulmaz zəhmət və tükənməz millətçilik sevdası nəticəsində Azərbaycanın iqtisadi inkişafına və təhlükəsizliyinə təminat verən iri addımlar atıldı. İqtisadi, sosial və siyasi islahatlar strategiyası hazırlanaraq ardıcıl surətdə həyata keçirilməyə başladı, böyük neft sazişləri imzalandı. Yeni müstəqil Azərbaycan dövləti quruldu, dövlətçiliyin ideologiyası və təməl prinsipləri yaradıldı. Ulu Öndər dəfələrlə demişdi ki, "sülh danışıqlarını cəsarətlə apara bilmək üçün güclü orduya malik olmaq lazımdır". Ordu quruculuğu möhkəmləndirildi. Bu siyasəti daha da gücləndirən isə Prezident, Ali Baş Komandan İlham Əliyev oldu. O, elə bir ordu yaratdı ki, 30 illik erməni işğalına 44 gündə son qoyuldu.

Müstəqilliyin ilk illərində mühüm qanunvericilik aktlarının qəbul olunmasına baxmayaraq, Milli Məclisin fəaliyyəti də xaotik idi. Parlament sanki müxtəlif siyasi qrupların çəkişmə meydanına çevrilmişdi. Lakin 1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə qayıdan Ümummilli Liderin səyləri nəticəsində qanunvericilik sahəsində də böyük islahatlar edildi. Xüsusi ilə o dövrdə Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbul olunması mühüm tarixi hadisə idi.

Bu hadisələrə bir də tarixi rakursdan baxsaq, görərik ki, Ulu Öndər vaxtı ilə Azərbaycan Xalq Cümhuriyyəti zamanı başlanan və yarımçıq qalan ideyaları bir-birinin ardınca reallığa çevirdi. Tarixi varislik prinsiplərini əsas götürməklə bir çox mühüm siyasi, tarixi, strateji, iqtisadi əhəmiyyət kəsb edən məsələləri yenidən canlandırdı. Nümunələr saysızdır: ordu quruculuğu, Azərbaycan dilinin qorunması, iqtisadiyyatda, diplomatiyada, insan hüquq və azadlıqlarının müdafiəsində, dövlət atributlarının təbliğ olunmasında biz təməlini Heydər Əliyevin qoyduğu ideologiyaya əsaslanan fəaliyyətin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla inkişaf və davam etdirilən layiqli siyasi varisliyini aydın görə bilirik.

Bayrağımıza, mənəvi dəyərlərimizə sədaqətini ifadə edən Heydər Əliyev fiziki varlığını təhlükə qarşısında qoyaraq öz millətinə xidmət etməyi hər şeydən üstün tutdu. Bu yolda heç bir çətinlikdən qorxub çəkinmədi. Bunu isə yalnız xalqına, millətinə sonsuz sədaqəti, məhəbbəti olan lider edə bilərdi.



Heydər Əliyev təkcə öz ölkəsində deyil, bütün dünyada hörmət və nüfuz qazanmış görkəmli ictimai-siyasi dövlət xadimidir. Ulu Öndərin gözəl bir kəlamı vardı:"Mənim əsas silahım sözdür". Bu silah sayəsində Ümummilli Lider insanlara özlərinə güvənməyi öyrətdi. O, xalqı inandırdı ki, Azərbaycanın gələcəyi də, onun iqtisadiyyatı və mədəniyyəti də öz əlindədir. Heydər Əliyevin sülh məramlı daxili və xarici siyasəti xalqımızın haqq səsini dünya ictimaiyyətinə çatdırdığı üçün bu gün Azərbaycan tanınır.

Ulu Öndərin ailə institutunun möhkəmləndirilməsi, qadın və uşaq hüquqlarının qorunması sahəsində gördüyü işlər xüsusi ilə qeyd olunmalıdır. Baxmayaraq ki, çətin bir dövr idi, o, qadın və uşaq hüquqları ilə bağlı bütün zəruri beynəlxalq konvensiyalara qoşulmaq üçün çağırışlar edirdi. BMT Uşaq və Əhali Fondunun, eləcə də digər qurumların Azərbaycanla əməkdaşlığına şərait yaradırdı.

> **"Azərbaycan qadını tarix boyu öz ağlı, zəkası, namusu, qeyrəti, fədakarlığı, çalışqanlığı, mərdliyi, vətənpərvərliyi və millətinə, torpağına olan hədsiz məhəbbət və gözəlliyi ilə tanınmışdır".**
>
> **Heydər Əliyev**

Bu, nə üçün lazım idi? İnformasiya blokadası vəziyyətində olan bir ölkə üçün bundan yaxşı fürsət ola bilməzdi. 1995-ci ildə Azərbaycan qadınları Pekin Konfransında çıxış edərək ilk dəfə ölkəmizin qaçqın və məcburi köçkün qadın və uşaqlarının vəziyyətini yüksək tribunadan səsləndirdilər. Bu, tarixi bir şans idi.

Ulu Öndər Heydər Əliyev hər zaman qadınların cəmiyyətdə yüksək mövqelərdə olmasına, qadın-kişi bərabərliyinin təmin edilməsinə, bu sahədə ayrı-seçkiliyə yol verilməməsinə çalışırdı. Ümummilli Liderin "Azərbaycanda qadınların rolunun artırılması", "Azərbaycan Respublikasında dövlət qadın siyasətinin həyata keçirilməsi haqqında" imzaladığı sərəncamlar qadınların istənilən sahədə fəaliyyət göstərməsi üçün münbit şərait yaratdı. Bu siyasəti davam etdirərək 2006-cı ildə Prezident İlham Əliyev "Gender - kişi və qadınların bərabərliyi təminatları haqqında" Qanun imzaladı. Bu, regionda analoqu olmayan çox mühüm sənədə əsasən Azərbaycan qadınları geniş hüquqi təminatlar əldə etdilər. Bu qanun kişi və qadınların dövlətin



idarə olunmasında və mühüm qərarların qəbul edilməsində bərabər təmsilçiliyinə, ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına təminat verdi.

Ölkə başçısı 2010-cu ildə daha bir cəsarətli addım ataraq "Qadınlara qarşı məişət zorakılığının aradan qaldırılması" haqqında Qanunu təsdiqləməklə qadın hüquqlarının müdafiəsi sahəsində mühüm mərhələnin əsasını qoydu. Bir məqamı isə xüsusi ilə vurğulamaq istərdim ki, bu qanunun qəbul olunmasında respublikanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın danılmaz əməyi vardır.

Ölkədə həyatın hansı istiqamətinə nəzər salsaq, orada Ulu Öndərin atdığı möhkəm əsasları görürük. Bu möhkəm əsaslar Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da gücləndirilir. Məhz bu siyasətin nəticəsində ölkə iqtisadiyyatı, insanların rifahı əhəmiyyətli dərəcədə yüksəlir, respublikanın hərbi qüdrəti daha da artır. Azərbaycan müasirləşir, şəhər və kəndlərin siması kökündən dəyişir.

Bu gün Azərbaycan dünyanın ən uğurlu dövlətlərindən biri kimi qəbul olunur. 44 günlük Vətən müharibəsindən 2 il yarım keçməsinə baxmayaraq, hazırda azad olunmuş ərazilərdə yol, nəqliyyat, enerji və digər mühüm sosial infrastruktur bərpa olunur, yenidənqurma işləri sürətlə davam etdirilir, "ağıllı kəndlər" və "ağıllı şəhərlər" salınır. Artıq Füzuli və Zəngilan beynəlxalq hava limanları istifadəyə verilib. Bundan başqa həmin ərazilərdə "yaşıl iqtisadiyyat" konsepsiyasına uyğun layihələr həyata keçirilir, insanlar öz dədə-baba yurdlarına qayıdırlar. Bir sözlə, Qarabağda həyat yenidən canlanır. Bütün bunlar bir daha ölkəmizin iqtisadi imkanlarından, dövlət başçısının güclü iradəsindən xəbər verir.

Azərbaycanın nüfuzunun artması, mövqeyinin güclənməsi, bir çox beynəlxalq reytinqlərdə ən mötəbər yerlərdə qərar tutması insanların qürur mənbəyinə çevrilib. Əminliklə deyə bilərəm ki, həyatı boyu qabaqcıl və mütərəqqi qüvvələrə arxa, dayaq olmuş, xalqı ardınca aparmış Ümummilli Lider Heydər Əliyevin miras qoyduğu siyasi kursun, strateji inkişaf xəttinin ömrü əsrlərlə davam edəcək. Bu gün xalqımız bu dahi şəxsiyyətin siyasi varisi, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını dərindən bilən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşmişdir və xalq-lider vəhdətini daim yaşadacaqdır.

# Azərbaycanı parlaq və xoşbəxt gələcəyə aparan əvəzsiz miras



**Siyavuş Novruzov**
Milli Məclisin Regional məsələlər komitəsinin sədri

"Heydər Əliyev İli" çərçivəsində həm Azərbaycanda, həm də bir çox xarici ölkələrdə Ümummilli Liderin əziz xatirəsinə ehtiram əlaməti olaraq çoxsaylı tədbirlər keçirilir, Ulu Öndərin zəngin və çoxşaxəli dövlətçilik irsinə dair hərtərəfli tədqiqatlar aparılır. Bu araşdırma və təhlillər bir daha tam təsdiqləyir ki, müasir müstəqil Azərbaycan Respublikası Heydər Əliyevin şah əsəridir.

Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısındakı əvəzedilməz xidmətləri onun fəaliyyətinin bütün mərhələlərini əhatə edir. Ümummilli Liderin həm SSRİ dövründə, həm də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi dönəmdə gördüyü işlər respublikamızın qüdrətinin artmasına, Azərbaycanın tarixi nailiyyətlər qazanmasına xidmət etmişdir.

Heydər Əliyevin rəhbərliyi ilə bütün sahələrdə olduğu kimi, regionların sosial-iqtisadi inkişafı istiqamətində də ardıcıl tədbirlər həyata keçirilmişdir. Onun SSRİ dövründə ölkəmizə rəhbərlik etdiyi 1969-1982-ci illərdə respublika ərazisində, o cümlədən bölgələrdə dövrün çağırışlarına uyğun zavod, fabrik, istehsalat müəssisələri inşa edilmiş, 200-dən artıq iri sənaye obyekti fəaliyyətə başlamışdı. Azərbaycanın bütün guşələrində yeni infrastruktur yaradılmış, nəhəng sənaye obyektlərinin, istehsal komplekslərinin, müasir yol-nəqliyyat sisteminin formalaşması sosial-iqtisadi inkişafa təkan vermişdi.

Müstəqillik dövründə isə Heydər Əliyevin müasir çağırışlara adekvat strateji kursu nəticəsində iqtisadi inkişafın təmin olunması regionların dirçəldilməsi üçün geniş imkanlar yaratmışdır. 1993-2003-cü illərdə Azərbaycanın bölgələrində kənd təsərrüfatının, sənayenin və digər sahələrin inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, böyük tikinti-quruculuq işləri aparılmış, əhalinin məşğulluğunun təmin olunması, rifahının yüksəldilməsi diqqət mərkəzində saxlanılmışdır. Bütün bunlar isə ümumilikdə Azərbaycan iqtisadiyyatının inkişafına etibarlı zəmin yaratmışdır.

Bu gün də Heydər Əliyev ideyaları əsasında davamlı nailiyyətlər qazanan respublikamızın ən böyük uğurlarından biri dayanıqlı iqtisadi inkişafın təmin olunması, nümunəvi sosial-iqtisadi inkişaf modelinin yaradılmasıdır. Ümummilli Lider Heydər Əliyevin qurub yaratdığı müasir Azərbaycan dövləti ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edir, müxtəlif sahələri əhatə edən kompleks islahatlar davam etdirilir, iqtisadiyyatın dayanıqlı və davamlı inkişafı istiqamətində mühüm addımlar atılır, sosial-iqtisadi tərəqqiyə hədəflənən layihələr gerçəkləşdirilir.

Azərbaycan XXI əsrdə inkişafın milli modelini yaradıb. Bir çox ölkələr üçün nümunə olan bu modelin bir sıra səciyyəvi xüsusiyyətləri var. Bunlardan biri bütün sahələrdə və ölkə miqyasında tarazlı inkişafa nail olunmasıdır. Regionların sosial-iqtisadi inkişafının davamlılığının təmin edilməsi isə bu baxımdan xüsusi yer tutur.

2004-cü ildən etibarən Azərbaycan Prezidenti cənab İlham Əliyevin təşəbbüsü və müvafiq



tapşırıqları ilə qəbul olunan, icrası uğurla təmin edilən regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının səmərəli nəticələri göz önündədir. Bu proqramların uğurlu icrası nəticəsində əhalinin məşğulluq səviyyəsi, iqtisadiyyatın rəqabət qabiliyyətliliyi artıb, insanların rifahı daha da yaxşılaşıb, müxtəlif sahələrdə inkişaf dinamikası sürətlənib. Beləliklə, əldə olunmuş nailiyyətlər gələcək inkişaf üçün də mühüm sosial-iqtisadi baza yaradıb.

Regional inkişaf konsepsiyasından bəhs edərkən yerli özünüidarəetmənin təkmilləşdirilməsini də xüsusi vurğulamaq lazımdır. Bələdiyyələrə ilk seçkilərin keçirildiyi vaxtdan qanunvericilik sahəsində kifayət qədər irəliləyişin olması bələdiyyə idarəçiliyi sahəsində müəyyən uğurların qazanılmasına gətirib çıxarmışdır. Ötən dövr ərzində bələdiyyələr və ya onların bilavasitə fəaliyyəti ilə bağlı xeyli sayda qanun, əsasnamə, qanunvericilik aktının qəbul olunması bu sahənin inkişafına dövlətin diqqətinin bariz nümunəsidir.

Yeni çağırışlar və hədəflər fonunda daha bir mühüm məqama da xüsusi diqqət etmək lazımdır. Bu, Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunmasıdır ki, həmin böyük Zəfər Azərbaycanın inkişafında yeni mərhələnin əsasını qoydu.

Bu gün qalib Azərbaycan postmüharibə reallıqlarına uyğun strateji fəaliyyətini davam etdirir. Dövlət başçısının imzaladığı müvafiq fərman və sərəncamlar əsasında görülən işlər yeni regional idarəetmə modelinin yaradılması baxımından olduqca əhəmiyyətlidir. Cənab Prezidentin "Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında" Fərmanı əsasında yeni bölgünün müəyyən edilməsi və 14 iqtisadi zona sırasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının olması təkcə tarixi və siyasi-strateji önəm daşımır, həm də mühüm sosial-iqtisadi perspektivlər yaradır.

Yeni quruculuq konsepsiyasında işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işləri







aparmaq, yeni infrastrukturların yaradılmasına, sərmayələrin cəlb edilməsinə nail olmaq xüsusi yer tutur. Artıq bu prosesə başlanıb, əsas infrastruktur layihələrinə start verilib. İşğaldan azad edilmiş ərazilərdə “ağıllı şəhər”, “ağıllı kənd” layihələrinin həyata keçirilməsi isə, sözün əsl mənasında, regional inkişafın yeni nümunəsinin yaradılmasıdır. Sakinlər üçün rahat həyat şəraitinin və əlçatanlığın təmin olunmasına xidmət edən bu layihələr həm də vətəndaş məmnunluğunun artırılması baxımından çox önəmlidir.

Əlbəttə, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən işlər strateji əhəmiyyətə malikdir. Bu, bütövlükdə Azərbaycanda regional inkişafın yeni mərhələsinin başlanmasına təkandır. Sözügedən modeldən, şübhəsiz, gələcəkdə daha geniş miqyasda istifadə olunacaq ki, bu da ölkəmizin inkişafını daha da sürətləndirəcək. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: “Azad edilmiş torpaqlarda bütün bərpa işləri ən yüksək səviyyədə təşkil olunacaq. Mən demişəm, biz bu bölgəni - Qarabağı cənnətə çevirəcəyik. Artıq bütün göstərişlər verilib, bütün işlər görülür, planlı şəkildə görüləcək və biz bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Heç kim bizi bundan sonra bu torpaqlardan tərpədə bilməz”.

Bu gün müasir müstəqil Azərbaycan Ulu Öndərin ideyaları əsasında tərəqqi yolunda əmin addımlarla irəliləyərək zirvələr fəth edir. Ona görə də iftixarla qeyd edirik ki, Ümummilli Lider Heydər Əliyevin zəngin dövlətçilik irsi əbədiyaşar sərvət kimi hər bir azərbaycanlının qürur mənbəyini təşkil edir. Bu tükənməz sərvət gələcək nəsillər üçün zəngin xəzinədir və onun öyrənilməsi vacibdir. Çünki Heydər Əliyev irsi Azərbaycanı parlaq və xoşbəxt gələcəyə aparan əvəzsiz mirasdır.

# Heydər Əliyevin həmişəyaşar irsi milli təhsilimizin məhək daşıdır




**Bəxtiyar Əliyev**
Milli Məclisin Elm və təhsil komitəsinin sədri

Azərbaycan Respublikasının demokratik, milli və bəşəri dəyərlərə sadiq müstəqil dövlət kimi təşəkkülü Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər müasir müstəqil Azərbaycanın memarı və qurucusudur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamında deyilir: "Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir".

1969-cu ildə respublika rəhbərliyinə irəli çəkilən Heydər Əliyev mövcud rejimin sərt qanunları çərçivəsində Azərbaycanın tərəqqisi, elm, təhsil və mədəniyyətin yüksəlməsi üçün çox məharətlə düşünülmüş strategiya və taktika seçməyə nail oldu.

Bu illər ərzində Azərbaycanda təhsilin inkişafı geniş vüsət almışdı. Məktəbəqədər tərbiyə müəssisələrindən tutmuş ali məktəblərədək bütün təhsil ocaqları əvvəlki illərlə müqayisədə yeni inkişaf pilləsinə çıxaraq Azərbaycan əhalisinin təhsil, mədəni və intellektual səviyyəsinin yüksəldilməsində böyük rol oynadı.

Ulu Öndər Heydər Əliyev deyirdi: "Təhsil həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, milli mənafelər əsasında qurulmalıdır. ...Bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır. Amma bununla yanaşı, ən böyük məqsədi Azərbaycan vətəndaşını hazırlamaqdır, müstəqil cəmiyyətin ləyaqətli üzvünü hazırlamaqdır. Hər bir insan gərək, eyni zamanda, vətəndaş olsun. Mütləq vətəndaş olsun!" Əminliklə demək olar ki, ölkədə bu məqsədlərə xidmət edən təhsil islahatları bilavasitə Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilməyə başladı.

1993-cü ilə qədər Azərbaycanda mövcud olan təhsil müəssisələrinin böyük əksəriyyəti 1970-1982-ci illərdə yaradılmışdı. Həmin dövrdə Azərbaycanın 35 şəhər və 54 rayonunda yeni texniki peşə məktəbləri fəaliyyətə başladı. Əgər 1970-ci ilə qədər respublikada 76 texniki peşə məktəbi mövcud idisə, 1982-ci ildə bu rəqəm 184 oldu və bu təhsil ocaqlarında oxuyan tələbələrin sayı 2,3 dəfədən çox artdı. Bu illərdə 5276 yerlik texniki peşə təhsili kompleksləri, 2400 yerlik tədris binaları, 2800 yerlik laboratoriya - təcrübə kursları, ümumi sahəsi 15 559 kvadratmetr olan yataqxana binaları tikildi, 194 tədris-istehsalat emalatxanası, 786 tədris kabineti, 22 təlim təsərrüfatı yaradıldı.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında", 1973-cü ildə isə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qərarlar qəbul edildi. Bu qərarların icrası nəticəsində ümumtəhsil məktəblərinin sayı 765-dən 2117-ə, 1982-ci ildə isə 3750-ə çatdırıldı. Ümumtəhsil məktəblərində şagirdlərin sayı 1980-ci ildə 710 min nəfərə çatmışdı ki, bu da 1969-cu illə müqayisədə iki dəfə çox idi. Həmin illər ərzində 5 yeni ali təhsil müəssisəsi yaradıldı və ali təhsil alanların sayı 70000 nəfərdən 100000 nəfərə çatdırıldı. Bununla yanaşı, həmin illərdə SSRİ-nin ən nüfuzlu ali məktəblərin-



də respublikanın inkişafı üçün zəruri ehtiyac duyulan 250 ixtisas üzrə 15000 nəfər ali təhsil almışdır. Bu, çox böyük nailiyyət idi.

1970-1980-ci illərdə Azərbaycanda yeni texnologiyalara əsaslanan istehsal sahələrinin yaradılması həm də həmin sahələr üzrə ali və orta ixtisas təhsili müəssisələrinin, Elmi Tədqiqat İnstitutlarının yaradılmasına imkan verirdi.

Heydər Əliyevin 1969-cu il noyabrın 1-də Bakı Dövlət Universitetinin 50 illik yubileyində öz ana dilində geniş nitqlə çıxışı və 1978-ci ildə Azərbaycan SSR-in yeni Konstitusiyasına Azərbaycan dilinin dövlət dili kimi daxil edilməsi milli mənlik şüurunun, azərbaycançılıq məfkurəsinin təşəkkülünə güclü təkan verdi. Bu, milli oyanış, soy kökünə yeni baxış təhsil ocaqlarında milli ədəbiyyatımızın, tariximizin və mədəniyyətimizin tədqiqini, öyrənilməsini gücləndirdi.

1993-cü ildə xalqın təkidi ilə yenidən siyasi hakimiyyətə gələn və prezident seçkilərində Azərbaycan xalqının yekdil səsini qazanan Heydər Əliyev təhsil siyasətinin prioritet sahə olduğunu bir daha bəyan edərək bu istiqamətdə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsinə başladı. Ulu Öndər əvvəlcə müstəqil dövlətimizin ilk milli Konstitusiyasının hazırlanması ilə bağlı təşəbbüs irəli sürdü və özünün sədrliyi ilə Konstitusiya layihəsini hazırlayan komissiya yaradıldı. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilən Ana qanunumuzun 42-ci maddəsi məhz müstəqil və suveren Azərbaycan vətəndaşlarının təhsil hüququnu təsbit edirdi. Bununla da, ölkəmizdə təhsil sahəsində həyata keçiriləcək islahatların hüquqi əsası yaradıldı. Bu sahədə ardıcıl, davamlı dövlət siyasəti müəyyən olundu. Ulu Öndərin qəbul etdiyi qərarlara, imzaladığı fərman və sərəncamlara uyğun olaraq təhsil sahəsində düşünülmüş addımlar atıldı. Avropa təhsil məkanına inteqrasiya və ölkənin iqtisadi inkişafını təmin edə biləcək mütəxəssis hazırlığı ilə bağlı köklü islahatlara başlanıldı.

Ümummilli Lider 1999-cu il iyunun 15-də “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı”nı təsdiq etdi. Üç mərhələdən ibarət olan bu islahat proqramı miqyasına, əhatə dairəsinə, müddətinə görə ən böyük dövlət proqramı idi və təhsilin sisteminin XXI əsrin çağırışlarına, iqtisadi inkişafın davamlı və dayanıqlı olmasına, Avropa əmək bazarına çıxışın, müstəqil dövlətin təhsil sisteminin XXI əsrin çağırışlarına uyğun yenidən qurulmasının təmin edilməsinə yönəlmişdi. Bu islahat proqramı, eyni zamanda, Ulu Öndərin 1969-cu ildə Azərbaycana birinci dəfə rəhbərliyə gəldikdən sonra başlatdığı, amma 1987-1993-cü illərdə gerçəkləşməsinə imkan verilməyən təhsil strategiyasının davamı kimi də qiymətləndirilə bilər.

Azərbaycanda vətəndaşların təhsil hüququnu tam təmin etmək, milli



təhsil konsepsiyasının müddəalarını gerçəkləşdirmək, təhsil sistemində aparılan islahatları sürətləndirmək, idarəetmə mexanizmini təkmilləşdirmək, pedaqoji kadrların müasir tələblər səviyyəsində və yenidən hazırlanmasını təmin etmək, təhsildə maddi-texniki və kadr potensialından istifadənin səmərəliliyini artırmaq məqsədi ilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 13 iyun 2000-ci ildə "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Fərman imzaladı. Bu fərmanda nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi yeni minilliyin milli təhsil sisteminin yaradılmasına yönəlmişdi. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən tədbirlər nəticəsində qısa müddətdə - 1993-2003-cü illərdə Azərbaycan təhsilinin davamlı inkişafının dayanıqlı bünövrəsi yaradıldı.

Dahi şəxsiyyət 2002-ci il oktyabrın 4-də "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" Sərəncam imzaladı. Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratmışdır. Heydər Əliyevin 17 fevral 2003-cü il tarixli "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Sərəncamı isə ümumtəhsil müəssisələrinin şəbəkəsinin genişləndirilməsində və müasirləşdirilməsində əhəmiyyətli rol oynadı. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 9 avqust, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun tətbiq edilməsi barədə" 2003-cü il 2 yanvar tarixli fərmanlar da təhsilin inkişafında böyük əhəmiyyətə malik idi. Tarixi, siyasi və milli əhəmiyyət kəsb edən latın qrafikasına keçidin təmin edilməsi türkdilli dövlətlərin gələcək birliyi istiqamətində həyata keçirilmiş ən uğurlu layihələrdən biri oldu.

Azərbaycan Respublikasında təhsil sahəsində yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək, onların təhsil alması üçün daha əlverişli şərait yaradılmasını təmin etmək və təhsilə olan həvəslərini artırmaq məqsədi ilə Azərbaycan Respublikasının ali məktəblərinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş 102 nəfər tələbə üçün Prezident təqaüdünün təsis edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin "Ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 2001-ci il 3 sentyabr tarixli Fərmanı da Ulu Öndərin gənclərin ali təhsil almalarına böyük dəstəyinin bariz təzahürü idi. Prezident təqaüdü gənclər arasında yüksək bilik, bacarıq, səriştə və yüksək əxlaqi dəyərlər qazanmaq uğrunda yarışa çevrildi.

Bu, xalqa, müstəqil dövlətə sədaqətlə xidmət edəcək yaradıcı şəxsiyyətin formalaşdırılmasına verilən böyük töhfələrdən biri idi.

Ümummilli Lider Heydər Əliyev 1997-ci il avqustun 29-da Azərbaycanın və xarici ölkələrin ali məktəblərinə qəbul olunmuş bir qrup tələbə və onların valideynləri ilə görüşündə demişdi: "Biz 1970-ci ildən başlayaraq Azərbaycandan olan gənclərin keçmiş Sovetlər İttifaqının ən böyük universitetlərinə, ali məktəblərinə oxumağa göndərilməsinə nail olduq. Onların sayı hər il artırıldı. Mənim xatirimdədir, 1970-ci illərin sonunda ildə 800-900 nəfər və 1980-ci illərin əvvəlində ildə 1000-1400 nəfərə qədər gənclərimiz respublikamızdan kənardakı ali məktəblərə göndərildi. Bunun böyük əhəmiyyəti var idi. İndi biz bunun müsbət nəticələrini görürük".

Mən hər zaman Ulu Öndərin təhsil siyasətindən danışanda fikrən 1978-ci ilin avqustuna qayıdıram. Moskva Dövlət Universitetinə qəbul olunmuşdum. Heydər Əliyev respublikanın rəhbəri kimi növbəti dəfə Azərbaycandan kənarda ali məktəblərə təhsil almağa göndərilən gənclərlə görüş keçirdi. Mən də o xoşbəxt gənclər arasında idim. Ulu Öndər bizə uğurlar arzuladı və respublikanın gələcək inkişafında fəal iştirak etmək üçün dəyərli tövsiyələrini verdi. Çox xoşbəxtəm ki, bu gün Ulu Öndərin görmək istədiyi və qurduğu müstəqil, qüdrətli Azərbaycan dövlətinin daha da inkişaf etməsinə, xalqımızın daha da yaxşı yaşamasına xidmət edirəm.

1970-1982-ci illərdə hazırlanan həmin mütəxəssislər bu gün də böyük şövqlə fəaliyyət göstərirlər, müstəqil Azərbaycanın iqtisadi, siyasi, mədəni inkişafına öz töhfələrini verirlər. Müstəqillik əldə edildikdən sonra da azərbaycanlı gənclərin digər ölkələrə ali təhsil almağa göndərilməsi dövlətin mühüm vəzifələrindən birinə çevrildi.

Milli təhsil sistemi üçün Azərbaycan əlifbasının qəbulu və Azərbaycan dilinin inkişaf etdirilməsi olduqca əhəmiyyətli hadisə idi. Ulu Öndər ümumi təhsilin qarşısında duran vəzifələri müəyyən edərkən bir məsələyə xüsusi diqqət ayrılmasını mühüm hesab edirdi. Onun fikrincə, uşaqlar tədris edilən fənlərin hamısını yaxşı mənimsəməlidirlər, bilikli olmalıdırlar, ancaq hamısından daha çox ana dilini, ədəbiyyatımızı, tariximizi və mədəniyyətimizi bilməlidirlər. Ana dilinin şəxsiyyətin yaradıcı təfəkkürünün inkişafında oynadığı rolu Heydər Əliyev belə ifadə edirdi: "Bir var ki, Azərbaycan dilində oxuyursan, bir də var ki, dilinin incəliklərini bilirsən, Azərbaycan dilində yüksək səviyyəli söz deyə bilirsən, fikrini ifadə edə bilirsən, nitq söyləyə bilirsən. Bu, hələ bizdə çox çatışmayan bir sahədir".

**"Cəmiyyət təhsilsiz inkişaf edə bilməz".**
**Heydər Əliyev**

Ulu Öndər Heydər Əliyevin 9 avqust 2001-ci il tarixli "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" Fərmanı ilə avqustun 1-i Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi müəyyən edildi. Prezidentin 30 sentyabr 2002-ci il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu təsdiq edildi. Latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkədə 2001-ci ilin avqustunda bütövlükdə təmin edilməsi, yeni əlifbadan istifadə müstəqil Azərbaycanın ictimai-siyasi həyatında əlamətdar hadisə, Ümummilli Lider Heydər Əliyevin uğurlu siyasətinin təntənəsi idi.

İstedadlı uşaq və gənclərin aşkara çıxarılması, onların potensial imkanlarının inkişaf etdirilməsi ötən əsrin 70-ci illərindən etibarən diqqət mərkəzində olmuş, bu vacib iş sahəsinin mühüm prioritetlərdən biri kimi irəli sürülərək reallaşdırılması istiqamətində ciddi addımlar atılmışdır.

Ulu Öndərin müəyyənləşdirdiyi təhsil siyasəti bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva və onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən də uğurla davam etdirilir. Azərbaycanda ilk dəfə fondlar tərəfindən yeni məktəb binalarının inşasının və ya əsaslı təmirinin, maddi-texniki bazasının möhkəmləndirilməsinin əsası məhz həmin fond tərəfindən qoyuldu. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu Azərbaycan mədəniyyətinin, musiqisinin təbliğinə və təhsilinin inkişafına da özünün böyük töhfələrini verir.

Ölkəmizdə elmin, təhsilin, mədəniyyətin və incəsənətin inkişafında, milli-mənəvi dəyərlərin dünya miqyasında tanınmasında Heydər Əliyev Fondunun xüsusi əməyi var. Fond Azərbaycanın sosial-iqtisadi inkişafının ən mühüm və zəruri sahələrindən biri kimi müəyyən edilmiş təhsil sahəsinin inkişafına daim diqqət və qayğı ilə yanaşaraq bu istiqamətdə mühüm əhəmiyyət kəsb edən tədbirlər həyata keçirir. Ölkədə böyük rəğbətlə qarşılanan "Yeniləşən Azərbaycana yeni məktəb", "İnternat məktəblərinin inkişaf proqramı", "Uşaq evləri və internat məktəblərinin inkişafı" Proqramı, "Təhsilə dəstək" kimi dövlət maraqları baxımından xüsusi əhəmiyyət daşıyan bir sıra layihələri fond uğurla gerçəkləşdirir. İnteqrasiyalı və inklüziv təhsil sahəsində də Heydər Əliyev Fondunun fəaliyyəti nəinki təqdirəlayiqdir, həm də ən yaxşı örnəkdir.

Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2013-cü ildə Bakı şəhərinin Nizami rayonunda Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi, Nərimanov rayonunda Psixonevroloji Uşaq Evi, beyin iflici və poliomielit keçirmiş uşaqlar üçün 16 nömrəli İnternat Məktəbi, Nərimanov rayonunda Autizm



Mərkəzi, əqli və fiziki cəhətdən qüsurlu uşaqlar üçün bir çox xüsusi məktəblər və müəssisələr inşa olunmuş və ya yenidən qurulmuşdur. Sağlamlıq imkanları məhdud uşaqların təhsilinin təşkili üçün "Sağlam təhsil sinifləri" layihəsi respublikanın 35 məktəbində fəaliyyət göstərir. Eyni zamanda, son illər müvafiq qanunlarda dəyişikliklər edilərək xüsusi təhsilin konseptual baxımdan tibbi modelindən sosial modelinə, o cümlədən şəxsiyyət mərkəzli təhsilə keçidin hüquqi bazası xeyli möhkəmləndirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev yeni dövrün yeni təhsil sisteminin, o cümlədən yeni ali təhsil sisteminin formalaşması məqsədi ilə insan kapitalının yaradılması konsepsiyasını irəli sürdü. Təhsilin inkişaf etdirilməsi ilə bağlı yeni dövlət proqramları təsdiq edildi. Azərbaycanda ali təhsilin inkişafını təmin etmək, Avropa təhsil və əmək məkanına sərbəst çıxış əldə edə biləcək mütəxəssis hazırlığına  nail olmaq məqsədi ilə ölkəmizin Bolonya prosesinə qoşulması ilə bağlı qərar qəbul edildi və bu, 2005-ci ildə həyata keçirildi. Bununla da faktiki olaraq ali təhsildə aparılacaq islahatların istiqaməti müəyyənləşdirildi.

Son 20 il ərzində təhsilin inkişafı üçün çox sayda dövlət proqramları hazırlanıb həyata keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında" 31 yanvar 2008-ci il tarixli Sərəncam imzaladı. Bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 22 may tarixli Sərəncamı ilə "2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı" təsdiq edildi.

İslahatların daha da genişləndirilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə 2013-cü il oktyabrın 24-də "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", 2015-ci il yanvarın 19-da  "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı" və 2018-ci il noyabrın 16-da "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" təsdiq edildi.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən təhsil islahatları nəticəsində "maddi dəyərlərin, iqtisadi potensialın insan kapitalına çevrilməsi" siyasəti Azərbaycanın davamlı inkişaf strategiyasının əsas istiqamətlərindən biri kimi gerçəkləşdirilir. Prezidentin təhsilə olan xüsusi diqqəti, qarşıya qoyulan vəzifələrin ardıcıl surətdə həlli, təhsil sahəsində genişmiqyaslı dövlət proqramlarının təsdiqi və icrası, həyata keçirilmiş islahatlar keyfiyyətli təhsilin maddi-texniki bazasını və kadr potensialını möhkəmləndirmişdir. Artıq ölkəmizdə təhsil sahəsində islahatlar davamlı xarakter daşıyır və dövlətin bu sahə üzrə strategiyası ən müasir təhsil müəssisələrinin yaradılmasını, keyfiyyətli təhsil almanı təmin edir.

Azərbaycan parlamentində 2009-2019-cu illər ərzində "Təhsil haqqında", "Peşə təhsili haqqında", "Ümumi təhsil haqqında", "Məktəbəqədər təhsil haqqında", "Elm haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur. Bununla da təhsilin inkişafının qanunvericilik əsasları möhkəmləndirilmiş, təhsilverənlərin və təhsilalanların hüquqları, sosial müdafiəsi təmin edilmişdir.

Ali təhsildə əlçatanlığa nail olmaq məqsədi ilə ali məktəblərdə təqaüd alan tələbələrin sayı 2019-2020-ci tədris ilində 45 faiz, 2020-2022-ci tədris ilindən başlayaraq isə 50 faiz çox olmuşdur. Bununla yanaşı, doktorantlara, ali, orta ixtisas və peşə təhsili müəssisələrində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləği də orta hesabla 20 faiz artırılıb. Bu tədbirlər 110 mindən çox tələbəni və doktorantı əhatə edib. Eyni zamanda, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə dövlət sifarişi yerləri 66 faiz artaraq 12300-dən 20500-ə çatdırılıb.

Prezident İlham Əliyevin neft kapitalının insan kapitalına çevrilməsi

strategiyasına uyğun olaraq gənclərin dünyanın aparıcı ali təhsil müəssisələrində təhsilini təşkil etmək məqsədi ilə bir neçə dövlət proqramı qəbul edilib. Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 16 aprel tarixli Sərəncamı ilə təsdiq olunmuş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın əsas hədəfi ayrılan maliyyə vəsaitləri çərçivəsində bakalavriat, magistratura, rezidentura, doktorantura təhsil səviyyələri üzrə xaricdə və ali təhsil müəssisələri arasında beynəlxalq tələbə mübadiləsi əsasında mütəxəssis hazırlığının respublikanın iqtisadi inkişaf prioritetləri nəzərə alınmaqla təmin edilməsidir. Bu Dövlət Proqramı uğurla başa çatdıqdan sonra yeni dövlət proqramları da qəbul olundu. Azərbaycan Respublikası Prezidentinin 28 fevral 2022-ci il tarixli Sərəncamı ilə "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" təsdiq edildi. Hazırda yüzlərlə gənc dövlət hesabına dünyanın ən qabaqcıl universitetlərində təhsil alır.

Azərbaycan təhsilində sistemli islahatların uğuru həm də bu sahəyə dövlət tərəfindən ayrılan vəsaitin həcmi ilə şərtlənir. Statistik məlumatların təhlili göstərir ki, təhsilə dövlət tərəfindən ayrılan xərclərin həcmi ölkənin ümumi iqtisadi inkişafına uyğun olaraq dəfələrlə artıb. Həmin xərclərin sürətli artımı 2005-ci ildən etibarən başlayıb. Belə ki, 2006-cı ildə dövlət büdcəsindən təhsilə ayrılan xərclər 480 milyon manata yaxın idisə, 2011-ci ildə bu məbləğ 1,27 milyard manata, 2023-cü ilin dövlət büdcəsində isə 4,5 milyard manata çatdırılmışdır.

Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində də elm və təhsil prioritet istiqamətlərdən biridir. Cari ilin dövlət büdcəsində təhsil xərcləri 4423,1 milyon manat təşkil edir. Bu vəsait 2022-ci illə müqayisədə 536,5 milyon manat çoxdur. ÜDM-də



xüsusi çəkisi 4,2 faiz, dövlət büdcəsi xərclərinin tərkibində isə xüsusi çəkisi 13,3 faiz təşkil edir. Müəllimlərin əmək haqlarının, dövlət hesabına ali təhsil müəssisələrinə qəbulun, tələbələrin təqaüdlərinin və təqaüd yerlərinin artırılması nəzərdə tutulur. Ali təhsilin əlçatanlığını təmin etmək məqsədi ilə Təhsil Tələbə Krediti Fondunun vəsaiti 110 milyon manat təşkil edir. Elmi tədqiqatları sürətləndirmək və nəticəyönümlüyünü təmin etmək, gənc alimlərin fəaliyyətini dəstəkləmək məqsədi ilə 228,5 milyon manat, o cümlədən Elm Fonduna 8,7 milyon manat vəsait ayrılmışdır.

Heydər Əliyev Azərbaycan təhsilinin məqsəd və vəzifələrini müəyyən etməklə yanaşı, həm də çıxışlarında müəllimlərin özlərinin vətənpərvər, dövlətə və millətə sadiq insan olmalarını xüsusi vurğulayırdı: "Biz keçmişlərdən fərqli olaraq indi müstəqil Azərbaycanın gələcəyini formalaşdırırıq, müstəqil Azərbaycanın gələcək fəaliyyətini formalaşdırırıq, müstəqil Azərbaycanın vətəndaşlarını formalaşdırırıq. Məktəbdə, universitetdə formalaşan gənc, Azərbaycanın gələcək fəal vətəndaşı, birincisi, gərək mənəviyyatca saf olsun. Ona görə də gərək mənəvi saflıq ali məktəblərdə, orta məktəblərdə hökm sürsün. Gərək o, vətənpərvərlik hissi yaşasın, vətənpərvərlik hissi ilə tərbiyə olunsun. Ona görə də gərək onun müəllimləri, tərbiyəçiləri özləri vətənpərvər olsunlar, vətənpərvərliyi gənclərə aşılaya bilsinlər".

Sevindiricidir ki, əsası Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilən Azərbaycanın təhsil strategiyası uğurla davam etdirilir. Vətənpərvərlik ruhunda tərbiyə olunan, formalaşan Azərbaycan gəncləri müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə igid əsgər və zabitlərimiz qəhrəmanlıqla döyüşdülər və 44 günlük Vətən müharibəsində ərazilərimizi erməni-faşist işğalçılarından azad etdilər. Məhz bu gənclərin iştirakı ilə Azərbaycanın şanlı Zəfər tarixi yazıldı və Heydər Əliyevin vəsiyyəti yerinə yetirildi. Hesab edirik ki, bu, həm də Azərbaycan təhsilinin uğurudur.

# Mədəniyyətimizin böyük himayədarı



**Qənirə Paşayeva**
Milli Məclisin Mədəniyyət komitəsinin sədri

Böyük ictimai-siyasi və dövlət xadimi, ədəbiyyatın, mədəniyyətin yaxın dostu, himayədarı Ümummilli Lider Heydər Əliyevin bütün həyat və fəaliyyəti canından çox sevdiyi Azərbaycanın inkişafı, çiçəklənməsi ilə sıx bağlı olub. Bu bağlılıq yalnız dünən deyil, yaşanan bu gündür, inandığımız gələcəkdir. Ulu Öndərdən danışarkən biz yalnız tarixdən, irsdən danışmırıq, o tarixi, o mirası yaşadan, doğruldan bugünkü qüdrətli Azərbaycandan danışırıq, daha böyük gələcəyin ölkəsini düşünürük. Bu anlamda, Heydər Əliyev adı, onun irsi bu gün ictimai-siyasi fəaliyyətimizə nizam verdiyi kimi, sabahımıza da işıq salır, yol göstərir, yön verir. Gəlin, Şuşanın azad olunması münasibəti ilə Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciətində dediyi tarixi sözləri bir daha xatırlayaq: "Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik. Bu, böyük qələbədir. Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır. Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!"

Heydər Əliyevin titanik səylərini, böyük çalışmalarını biz - mən və yaşıdlarım, yeni nəsillər müstəqillik illərində daha çox müşahidə edə bildik, öyrəndik. Lakin ölkəmizdə dayanıqlı inkişaf üçün möhkəm zəmin o müdrik şəxsiyyətin hələ 1969-1982-ci illərdə gördüyü işlər sayəsində yaranmışdı. Onun əsasını qoyduğu böyük layihələr müstəqilliyin əldə edilməsində də müstəsna rola malik olub. Birincisi, Ulu Öndər milli ruhun qorunması, dirçəlməsi üçün yaradıcı insanları, milli mövqeli şair və yazıçıları dəstəkləməklə, habelə intellektual potensialın qorunması və inkişafı üçün irimiqyaslı layihələrlə çıxış etməklə də millətə xidmətin parlaq örnəyini yaratmışdı. Məhz onun dövründə çiçəklənən, iqtisadi uğurlara imza atan respublikamızın şan-şöhrəti əhalidə özünəinam və qürur hissləri aşılayırdı.

Keçmiş SSRİ-nin qabaqcıl ali məktəblərinə hər il göndərilən çoxsaylı azərbaycanlı gənclər həm yeni biliklərə yiyələnərək respublikamızda müxtəlif təsərrüfat sahələrində keyfiyyət dəyişikliyinə nail olur, həm də cəmiyyətdə ümumi intellektual, mədəni səviyyənin yüksəlməsinə imkan yaradırdılar. O gənclər, eyni zamanda, təhsil aldıqları şəhərlərdə mədəniyyətimizin, ölkə həqiqətlərinin carçıları olurdular.

Heydər Əliyev respublikaya rəhbərlik etməyə başlayanda Azərbaycan Sovet İttifaqının respublikaları arasında bir çox əməli fəaliyyət göstəricisində axırıncı yerlərdə idi. Məhz onun ölkəyə rəhbərlik etdiyi dönəmdə mədəniyyət, sənət, ümumi yaradıcılıq sahələri, elm-təhsil, eləcə də sənaye və kənd təsərrüfatı ən parlaq inkişaf dönəmini yaşadı.

Bəli, Ulu Öndərin adı bütün əməli fəaliyyət sahələri üzrə böyük işlərlə, hadisələrlə qoşa çəkilir: "Heydər Əliyev və Azərbaycan dövlətçiliyi", "Heydər Əliyev və Azərbaycan iqtisadiyyatı", "Heydər Əliyev və xarici siyasət", "Heydər Əliyev və gənclik" və s.

Mədəniyyət bu planda özəl yerə və mövqeyə sahibdir. Mənə Ulu Öndərimizlə birgə xarici səfərlərdə jurnalist kimi iştirak etmək qismət olub. O böyük şəxsiyyət səfərlərdə biz jurnalistlərlə, operatorlarla, nümayəndə heyətinin üzvü olan şair, yazıçı, bəstəkar, rəssamlarla da eyni



həssaslıqla rəftar edirdi. Bu münasibət məhz Heydər Əliyevin özü tərəfindən əsası qoyulmuş ənənələrə söykənirdi. Hələ sovet dönəmində SSRİ-nin Xalq artisti, Xalq rəssamı, Dövlət Mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı kimi adlara layiq görülmüş, nüfuzlu ordenlərlə təltif olunmuş azərbaycanlıların siyahıları buna sübutdur.

Sənət, mədəniyyət, ədəbiyyat nümayəndələrinə verilən belə dəstək qərarları yanar bir ürəyin, vətənə bağlılığın, sənətə, estetik dəyərlərə məhəbbətin yüksək ifadəsi idi. Burada önəmli bir istiqamət isə Heydər Əliyevin sənətə, istedadlı insanlara vurğunluğunun, kimlərin xalqımızı və mədəni irsimizi ümumittifaq miqyasında təmsiletmə haqqına sahib olmasının dəqiq müəyyənləşdirməsinin təzahürü idi. Heydər Əliyev Hüseyn Cavid irsinə, Səməd Vurğun şəxsiyyətinə, eləcə də Rəsul Rzaya, Niyaziyə, Müslüm Maqomayevə, Rəşid Behbudova, Zeynəb Xanlarovaya, Bəxtiyar Vahabzadəyə, Nəbi Xəzriyə, Qabilə, Anara, Elçinə və başqalarına nə üçün dəstək durduğunu çox yaxşı bilirdi. Bilirdi ki, xalqı, ölkəni onun mədəniyyəti, sənətkarları ilə uca tutmaq xüsusi hadisədir.

> **"Mahnı, musiqi qədər, incəsənət, mədəniyyət qədər insanları bir-birinə heç nə bağlamır. İncəsənətin, mədəniyyətin, xüsusən də, mahnının, musiqinin oynadığı rolu heç bir vasitə oynaya bilməz".**
>
> **Heydər Əliyev**

Ulu Öndər istedadlı insanların yetişməsi üçün hər bir şərait yaradırdı. Bu siyasətini müstəqil Azərbaycanda daha şövqlə, yeni məzmunda, formada davam və inkişaf etdirdi. Heydər Əliyevin Prezident kimi imzaladığı sərəncamlar, fərmanlar içərisindən ədəbiyyata, mədəniyyətə, incəsənətə aid olanlarını, bu sahə ilə bağlı çıxışlarını toplasaq, bir neçə cildlik kitab alınar.

"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir". Bu, Heydər Əliyevin kəlamıdır. Biz iqtisadi amili ona görə vurğulayırıq ki, yaradıcılıq birliklərinə, onların mətbu orqanlarına, ümumən mədəniyyətə, sənətə dövlət dəstəyinin təmin olunması bir tərəfdən siyasi iradənin nəticəsi idisə, digər tərəfdən də məhz iqtisadi imkanların hesabına mümkün olurdu.

Başqa bir kəlamında isə Ulu Öndər deyirdi: "Yol iqtisadiyyat, mədəniyyət, bir sözlə, həyat deməkdir". O böyük insan az qala bütün əməli fəaliyyət sahələri üzrə istiqamətlərdə məhz mədəniyyət əsaslı yanaşma, xalqın mədəni səviyyəsini düşünən fəlsəfə ilə addım atırdı.

Heydər Əliyevin teatr tamaşalarına, filmlərə, sənətçilərin çıxışlarına əsl peşəkar rəy bildirməsi unudulmaz xatirələrdir. Onun şair və yazıçılarla, ədəbiyyatşünaslarla, mədəniyyət işçiləri və incəsənət xadimləri ilə görüşləri, söhbətləri, rəyləri özü ayrıca bir mədəniyyət hadisəsidir. Heç təsadüfi deyil ki, Xalq yazıçısı Anar Ulu Öndərə həsr etdiyi kitabı məhz "Unudulmaz görüşlər" adlandırıb.

Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən ali siyasi hakimiyyətə qayıtması bütün sahələrdəki kimi, mətbuatın inkişafında da önəmli dəyişikliklərə səbəb oldu. Respublikamızda ictimai-siyasi sabitliyin yaradılması, vətəndaşların təhlükəsizliyinin təmini, sosial-iqtisadi üzüntülərin həlli, söz, fikir azadlığının qorunması sahəsində əsaslı irəliləyişlərə əlverişli mühit quruldu. Mətbuat orqanlarının azad fəaliyyətinə yaradılan münbit şərait, qanunvericilik bazasının təkmilləşdirilməsi yönündə görülən təxirəsalınmaz təsirli tədbirlər ölkəmizdə fikir plüralizminin genişlənməsinə yol açdı. Müstəqil KİV-lərin təsisi milli mətbuat ənənələrinin davam və inkişaf etdirilməsinə rəvac verdi.

Mətbuata verilən dəyər Ümummilli Liderimizin başçılığı ilə hazırlanan müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasında da öz əksini tapdı. O cümləni olduğu kimi xatırlayaq: "Demokratiyanın, siyasi plüralizmin və vətəndaş cəmiyyətinin əsas atributlarından hesab olunan söz və məlumat azadlığının başlıca daşıyıcıları kütləvi informasiya vasitələridir".

1998-ci ildə imzalanan "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman ölkə mətbuatının inkişaf tarixində yeni, önəmli hadisəyə çevrildi. Bu fərman KİV-lərin sərbəst inkişafı, onların cəmiyyətin dinamik formada demokratikləşməsinə təsir edən önəmli platformaya çevrilməsi üçün müvafiq dövlət siyasətinin tətbiqi baxımından vacib addım sayıldı və bu sənədlə KİV-lərdə Dövlət Sirlərini Mühafizə Baş İdarəsi ləğv edildi, hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli Fərman və bütün informasiya yayımları üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli Sərəncam qüvvədən düşdü. 1999-cu ilin sonunda qəbul olunan "Kütləvi informasiya vasitələri haqqında" yeni Qanun mətbuatda demokratik prinsiplərin daha da gücləndirilməsinə xidmət etdi. Bu sənəd Azərbaycanda mətbuatın inkişafına mane olan bir sıra bürokratik əngəllərin aradan qaldırılmasına yol açdı və yeni mətbuat orqanlarının təsis edilməsi proseduru asanlaşdı.

Ümummilli Liderin mətbuatın inkişafı ilə bağlı tədbirləri davamlı şəkil aldı. 2000-ci ilin martında onun sərəncamı ilə "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üzrə tədbirlər Proqramı" təsdiq olundu, Mətbuat və İnformasiya Nazirliyi ləğv edildi, Milli Mətbuat, Teleradio və İnternet Şurası yaradıldı.

2001-ci ildə kütləvi informasiya vasitələrinin rəhbərləri ilə görüşən Heydər Əliyev demişdi: "Biz mətbuat haqqında bir neçə ciddi addım atmışıq: söz və mətbuat azadlığının təmin olunması, senzuranın aradan qaldırılması, bütün mətbuat orqan-



larına sərbəstlik verilməsi. Əgər bu gün hansısa yeni bir şey varsa, biz onu edirik və edəcəyik”.

Bəli, biz o dövrün canlı şahidləri olaraq bilirik ki, Ulu Öndər Azərbaycan jurnalistikasının inkişafında xüsusi yeri, rolu olan şəxsiyyətdir. Tanınmış jurnalistlərlə keçirdiyi görüşlərdə Heydər Əliyev mətbuatın problemləri ilə daha yaxından tanış olurdu. Dahi şəxsiyyət bir sıra qəzetlərin “Azərbaycan” nəşriyyatına olan borclarını ləğv etməklə iqtisadi böhranın girdabında boğulan mətbuat orqanlarını xilas etdi və daim cəmiyyətdə jurnalistlərə layiqli münasibətin formalaşmasında önəmli rol oynadı. Ölkə jurnalistləri Ümummilli Lideri hər zaman bir dost, onların zəhmətinə yüksək





dəyər verən yaxın sirdaş kimi qəbul edirdilər. Şəxsən mən də belə doğmalığı görmüş xoşbəxtlərdənəm.

Heç təsadüfi deyil ki, Heydər Əliyev 2003-cü ildə respublikamızda ən nüfuzlu ictimai mükafat olan Çingiz Mustafayev Fondu tərəfindən “Jurnalistlərin dostu” adına layiq görüldü.

* * *

Ümummilli Lider daim deyirdi ki, reallığı düzgün qiymətləndirən, keçmiş təcrübədən yaradıcılıqla istifadə edən, sosial-siyasi və iqtisadi problemlərin bütün spektrini, mürəkkəbliyini nəzərə alan, qəbul olunan qərarların mümkün nəticəsini öncədən görməyə imkan verən siyasi xətt hökmən uğur qazanmalıdır. Belə siyasət cəmiyyətin sabitliyinə, irəliyə doğru hərəkətinə və tərəqqisinə xidmət edir. Dediyi kimi də oldu. Bu gün Heydər Əliyevi qalib ölkənin qürurlu vətəndaşları olaraq şükranlıqla yad edirik.

Heydər Əliyev tarixi Zəfərimizi görmədi, amma inanırıq ki, ata vəsiyyətini yerinə yetirən sədaqətli oğlunun müzəffər Ali Baş Komandanı olduğu şanlı ordumuzun qələbəsi onun əziz ruhuna agahdır.

Tarixi Zəfərimizdən sonra Qarabağda, Şərqi Zəngəzurda sürətli quruculuq, təmir-bərpa, abadlıq işləri yenə Heydər Əliyevi yada salır. Şuşada Vaqifin məqbərəsi bərpa olundu. Bir tək bu məqbərədən, onun bərpasından, Vaqif Poeziya Günlərindən bir dastan yazmaq olar.

Azərbaycanın yalnız quruculuq işində deyil, müharibədə də ləyaqət göstərməsi Heydər Əliyevin mədəniyyət anlayışını nə qədər geniş tutmasını və necə zəngin bir irs qoyub getməsini nümayiş etdirir. Ulu Öndərin siyasi kursunu uğurla, ləyaqətlə davam və inkişaf etdirən Prezident İlham Əliyev, Heydər Əliyevin adını daşıyan fonda uğurla rəhbərlik edən Mehriban xanım Əliyeva mədəniyyət strategiyasını yeni zirvələrə daşımaqdadırlar. Fəxrlə deyə bilərik ki, daim köklü məsələlərə fəlsəfi, ictimai, mənəvi planda yanaşan dahi şəxsiyyətin mədəniyyətə, incəsənətə strateji məzmun daşıyan baxışları bu gün də təsirlidir, sirayətedicidir, yaşarıdır.

# Heydər Əliyev və Azərbaycanın xarici siyasəti




**Səməd Seyidov**
Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri

Hər bir millətin taleyində müəyyən və zamanında verilmiş tarixi qərarlardan asılı olan bir dövr olur. Hər bir xalq düzgün qərarverməni - necə irəliləyəcəyini, kiminlə dost olacağını, kimə inanıb-inanmayacağını təxmin etmənin nə qədər mürəkkəb olduğunu yaxşı bilməlidir. Bu məsələ fərdi səviyyədə yanlış olduqda biz o zaman insan faciəsi ilə üzləşirik. Amma bu, bütöv bir xalqın başına gələrsə, ümummilli fəlakətə çevrilər.

1980-ci illərin sonu, 1990-cı illərin əvvəllərində məhz belə bir fəlakətlə üz-üzə qalan Azərbaycan xalqı faktiki olaraq öz dövlətini yalnız dövlət kimi deyil, həm də xalq, etnos kimi itirmək təhlükəsinin astanasında idi. O dövrdə hakimiyyətdə olan qüvvələr xalqın azadlıq, müstəqillik arzularını doğrulda bilmir, insanları aldadırdılar; ölkəmizi dünyanın siyasi xəritəsindən silinmə həddinə çatdırmışdılar.

Ancaq Azərbaycan xalqı müdrik bir addım ilə hakimiyyətə millətin gələcəyini düşünmək üçün deyil, öz dar düşüncələri, şəxsi mənfəətləri naminə gələn insanların mahiyyətini anlamağa və onları lazımsız element kimi öz tarixi inkişaf yolundan çıxarmağa nail oldu. Xalqımızın insanları öz ətrafında birləşdirə biləcək şəxsiyyətə, dövlətin gələcəyinin təhlükə altında olduğu bir şəraitdə arxasınca gediləcək, etimad göstəriləcək, yalnız sözlərinə deyil, hərəkətlərinə, qərarlarına, fəaliyyətinə inanılacaq rəhbərə ehtiyacı var idi. Belə bir insan məhz Ümummilli Lider Heydər Əliyev oldu. Uzun müddət Azərbaycan Kommunist Partiyasının birinci katibi, sonra isə sovet hökumətinin mərkəzi aparatında fəaliyyət göstərən Heydər Əliyev bütün həyat hekayəsi ilə sübut etmişdi ki, hətta kommunist ideologiyasının nümayəndəsi, dövlət təhlükəsizlik komitəsinin zabiti olduğu zaman belə o, öz kökünü, xalqının arzularını heç vaxt unutmamış, daim onun gələcəyini düşünmüşdür.

Təsadüfi deyil ki, 1990-cı il yanvarın 20-də sovet tankları Bakı küçələrində dinc əhalini güllələbaran edəndə Ulu Öndər ailəsi ilə birlikdə həmin vaxt hələ də kifayət qədər güclü olan sovet hökumətinə qarşı çıxaraq, əslində, vətəndaş şücaəti göstərdi. Biz heç vaxt onun bu hadisələrlə bağlı Azərbaycanın Moskvadakı nümayəndəliyində o zamankı mərkəzi hakimiyyət orqanlarının xalqımıza qarşı törətdiyi cinayətləri bütün dünyaya ifşa edən çıxışını unutmayacağıq. Daha sonra Ümummilli Lider Naxçıvana yola düşdü, burada ilk dəfə müstəqil Azərbaycanın üçrəngli bayrağını dalğalandırdı.

Uzun müddət beynəlxalq münasibətlər sahəsində çalışan bir şəxs olaraq mənim üçün Azərbaycanın yeni xarici siyasətinin təməlində qoyulan məqamları oxuculara təqdim etmək son dərəcə maraqlıdır. İlk növbədə, anlamaq lazımdır ki, Heydər Əliyevə qədər məhsuldar, səmərəli və işlək xarici siyasət mövcud deyildi, aparılan xarici siyasət isə onun çökməsinə və Azərbaycanın bütün dünyadan təcrid olunmasına gətirib çıxarmışdı.

Ulu Öndər Heydər Əliyev 1993-cü ildə rəhbərlik etməyə başladığı Azərbaycanın hansı vəziyyətdə olduğunu çox gözəl dərk edirdi. Əslində, onu yenidən hakimiyyətə qayıtmaq qərarını verməyə vadar edən həlledici amil də məhz bu, idi. Bu, nə onun Moskvaya yollandığı zaman qoyub getdiyi, nə də bugünkü Azərbaycan deyildi. Bu, alovlar içində yanan, erməni silahlı birləşmələrinin hücumlarına məruz qalan, vətəndaş müharibəsi, dağıntılar, aclıq nəticəsində parçalanma təhlükəsi



ilə üzləşən, perspektivləri, dostları, əlaqələri olmayan, beynəlxalq ictimaiyyət tərəfindən anlaşılmazlıqla qarşılanan Azərbaycan idi və ölkənin xilas edilməsində xarici siyasətinin dəyişdirilməsinə ehtiyacı var idi.

Ümummilli Lider Azərbaycanın yeni xarici siyasətini milli maraqlara əsaslanaraq qurmağa başladı. Bu prosesin mahiyyətini dərindən dərk etməsi dahi şəxsiyyətə Azərbaycanın xarici siyasətinin əsas prinsiplərini formalaşdırmağa imkan verdi. Lakin bütün bunları həyata keçirməyə başlamazdan əvvəl Heydər Əliyev son dərəcə mühüm bir məsələni həll etməli idi. O zaman Azərbaycanda demək olar ki, bütün region ölkələrinin maraqları, sözün əsl mənasında, toqquşurdu. Onlar özlərini Cənubi Qafqazda hakim liderlər kimi göstərməyə çalışırdılar.

Heydər Əliyev üçün xarici siyasətin əsas vəzifəsi həm Azərbaycanı əhatə edən, həm də ondan uzaqda olan dövlətlərin müxtəlif milli maraqlarının bir-biri ilə ümumi təmas nöqtələrinin tapılması oldu. Əsas məqsəd həm ölkə daxilində, həm xaricində, həm ən yaxın qonşularla, həm də uzaqda olub regiona təsir gücünə malik olan dövlətlərlə normal münasibətlərin qurulmasına şərait yarada biləcək ortaq məxrəci tapmaq idi. Bu, özünü daha da gücləndirmək üçün başqalarının gücündən istifadə etməyi, eyni zamanda, regiondakı digər güc vektorlarının uduzmayacağı, əksinə, əlavə dividentlər qazanacağı şəkildə ondan istifadə etməyi nəzərdə tutan ən düzgün qərar idi. Onu yalnız unikal qabiliyyətlərə malik olan şəxsiyyət edə bilərdi. Çünki bu qədər dağıdılmış, parçalanmış, zəif, hər hansı bir güc nümayiş etdirə bilməyən Azərbaycanın həyatda qalmasının yeganə yolu bu, idi.

Amma bu prosesin başladılması üçün ona təkan verəcək, tətikləyəcək bir işəsalma mexanizmi lazım idi ki, onun sayəsində dünya Azərbaycana nəzər salsın. Açıq desək, Azərbaycan da o vəziyyətdə dünya güclərini elə də çox maraqlandırmırdı.

Bunu çox yaxşı dərk edən Heydər Əliyev ölkəni təmsil etmək üçün özünün zəngin potensialından istifadə etməyə başladı. Ölkə zəif idi, Heydər Əliyevin şəxsi nüfuzu isə daha güclü, qüdrətli və böyük idi. O, ölkədən daha yaxşı tanınırdı. Buna görə də Ulu Öndər Azərbaycanın potensialını artırmaq məqsədi ilə öz potensialından istifadə etməyə başladı. Bunu başqa heç kim edə bilməzdi, başqa heç kimin belə potensialı yox idi.

Heydər Əliyevin dövlət başçısı olması faktı Azərbaycana münasibətin dəyişməsi üçün həlledici şərt oldu. Onun şəxsiyyətinin gücü və potensialı regional və beynəlxalq aktorlara belə görkəmli siyasi xadimin rəhbərlik etdiyi dövlətin gələcəyinə şübhə ilə yanaşmağa imkan vermirdi. Dahi şəxsiyyət ölkəmizə münasibəti kökündən dəyişdirərək ona istismarçı gözü ilə baxanları onunla etibarlı münasibət qurmaq istəyinə çevirdi.

Bu fundamental vəzifənin öhdəsindən bacarıqla gələn və öz şəxsiyyəti ilə







dünya ictimaiyyətinin diqqətini Azərbaycana cəlb edən Heydər Əliyev bütün potensialını ölkəmiz haqqında həqiqətlərin yayılmasına yönəltdi. Xarici siyasətin birinci prioritet məsələsi işğal faktının - Ermənistanın Azərbaycana qarşı müharibəsinin və Qarabağ haqqında həqiqətlərin dünyaya çatdırılması oldu. Bizim "təcavüzkar", "işğalçı", "Qarabağdan olan insanları etnik təmizləməyə məruz qoymağımız" kimi saxta erməni tezisləri məhv olmağa başladı. Azərbaycan xalqının başına gələn faciə - müharibə ilə bağlı əsl həqiqətlər xarici siyasətin prioritet istiqamətinə çevrildi.

Heydər Əliyev öz zəngin təcrübəsindən, şəxsi əlaqələrindən, imkanlarından, güclü intellektindən istifadə edərək ölkəmiz haqqında daha bir faktı da dünyaya çatdırmağa nail oldu: Azərbaycanın təbii sərvətlərlə nə qədər zəngin, neft və qaz imkanları baxımından bütün dünya üçün cazibədar olduğunu.

Məsələn, sirr deyil ki, Sovet İttifaqının koalisiya ilə birlikdə İkinci Dünya müharibəsində qalib gəlməsinin məhz Azərbaycan qazı və neftinin sayəsində mümkün olmasına baxmayaraq, bu barədə çoxlarının ətraflı məlumatı yox idi. Olsa belə, çox məhdud idi və bəzi hallarda məqsədyönlü şəkildə unutdurulurdu. Beləliklə, Heydər Əliyevin xarici siyasət prioritetlərinin müəyyən olunmasında əldə etdiyi ikinci əhəmiyyətli nailiyyət Azərbaycanın nəhəng iqtisadi potensialının mövcudluğunun və cazibədarlığının beynəlxalq aləmə inamlı sübutu idi.

Xarici siyasətin əsas məqamlarından olan çox mühüm prioriteti - Azərbaycan xalqının mentallığının özünəməxsusluğunu Heydər Əliyevin bütün dünyaya göstərə bilməsi oldu. Burada insanpərvərlik baxımından unikallıq, multikulturallıq, hərtərəflilik, başqa dinlərin və millətlərin nümayəndələri ilə sülh və dostluq şəraitində yaşamaq bacarığı nəzərdə tutulur. Bu, düşmənlərimizin guya azərbaycanlıların başqa millətlərlə etnik uyğunsuzluğu haqqında tezislərini tamamilə alt-üst edirdi. Bu, Azərbaycanı ümumbəşəri dəyərlərə yaxınlaşdırır, onu multikultural dünyanın ayrılmaz hissəsinə çevirirdi.

Ulu Öndərin xarici siyasətinin digər prioriteti bu siyasətə elmi yanaşma idi. Onun bütün idarəetmə üsullarına, Qərb metodlarının elmi-ideoloji prinsiplərinə yaxşı bələd

olması öz siyasətində qlobalizm ilə Şərq ənənəçiliyinin bütövlükdə inteqrasiyasının zərurətini tam düzgün hiss etməsinə şərait yaradırdı. Heydər Əliyev milli ideya ilə Qərb praqmatizmi, milli ruhun gücü ilə demokratiyanın ümumbəşəri dəyərləri, insan haqları ilə qanunun aliliyi, bir sözlə, lokal proseslərin qlobal kontekstə inteqrasiyası və uyğunlaşmasını təcəssüm etdirən qloballaşma və lokal dəyərlərin qlobal proseslərə inteqrasiyası arasında sinergetik əlaqə tapa bildi.

Mən xarici siyasətin dörd fundamental prioritetini sadaladım. Bunlar Qarabağla bağlı həqiqət, Azərbaycanın iqtisadi potensialının və cazibədarlığının üzə çıxarılması, ölkəmizin multikulturallıq baxımından demokratiyanın, insan haqlarının ümumbəşəri dəyərlərinə daxil edilməsi və onun nəhəng qlobal proses daxilində öz bənzərsizliyini - qlokallığını qoruyub saxlaya bilməsidir.

Heydər Əliyev yuxarıda sadaladığım xarici siyasət prioritetlərini daimi, dəyişməz, aktual və ardıcıl şəkildə yerinə yetirdi, prioritetə çevirdi. Amma bunun üçün bütün bu prosesləri siyasi varəsəlik baxımından təmin etmək lazım idi. Bu varəsəliyi həmin prinsipləri dərindən dərk edən şəxs, yəni İlham Əliyev təmin edə bilərdi. İlham Əliyev isə ölkə Prezidenti kimi bu prinsipləri nəinki inkişaf etdirdi, həm də onlara olduqca zəruri bir element əlavə etdi: Azərbaycanın qardaş Türkiyə və türk dünyası ilə dərin strateji inteqrasiyasını.

Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə regionun ən güclü və dünyanın çox nüfuzlu dövlətinə çevrilən Türkiyə ilə münasibətlər yeni mərhələyə yüksəlməyə başladı. Təsadüfi deyil ki, Şuşa Bəyannaməsinin imzalanmasından sonra Türkiyə Prezidenti Azərbaycan parlamentində bu bəyannamənin hər iki ölkəyə güc verdiyini vurğulamışdı.

Bu gün regionun heç bir ölkəsi bu amili nəzərə almaya bilməz, çünki hazırda tamam başqa Azərbaycan mövcuddur, zəif, parçalanmış, dağıdılmış Azərbaycan yox, güclü, qüdrətli, nüfuzlu Azərbaycan var. Bu, Heydər Əliyevin bizə miras qoyduğu həmin ideyalar, bu fəlsəfə əsasında qurulmuş ölkədir.

Məlum olduğu kimi, 44 günlük Vətən müharibəsində ərazilərimiz işğaldan azad edildikdən sonra xarici siyasətimizdə əsaslı dəyişikliklər baş verdi. Bu gün ölkəmizin 30 illik işğalı ilə bağlı həqiqəti işğal altında olan ölkə deyil, işğaldan azad edilmiş Azərbaycan yayır. Biz bu həqiqəti dünya ictimaiyyətinə daha böyük əzmlə təqdim edirik. Bu həqiqəti nəinki çatdıra bilirik, həm də izah və təsdiq edərək onları inandıra da bilirik.

Biz artıq təkcə öz iqtisadiyyatımızın cəlbediciliyini göstərmirik. İndi iqtisadiyyatımız dünya iqtisadiyyatına, dünya iqtisadiyyatı isə bizim iqtisadiyyatımıza töhfə verir. Orta Dəhliz, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Qars, Cənub Qaz Dəhlizi, TANAP, TAP və bütün digər layihələr artıq reallığa çevrilib. Azərbaycanın iqtisadi potensialı dünyaya yaxşı məlumdur və bununla yanaşı, hərbi, maliyyə, infrastruktur potensialı da var ki, bu da bizə inkişaf etməyə və milli maraqlarımızın təmin olunmasına imkan verir.

Azərbaycanın multikultural dəyərləri dünyada hər kəs üçün ölkəmizin faktiki brendinə çevrilib. Burada da müxtəlif xalqların və dinlərin nümayəndələrinin bir-birinə olan münasibəti hər kəsə məlumdur və Ermənistanın yalançı təbliğatı artıq işləmir, keçmir.

Azərbaycan Qoşulmama Hərəkatına rəhbərliyi ilə də bütün dünya birliyini ölkəmizin rolunu və əhəmiyyətini dərk etməyə faktiki olaraq cəlb edir. Yaxud, NATO-ya daxil olmaq fikrində olmadan biz öz silahlı qüvvələrimizi NATO prinsiplərinə uyğun qururuq. Bununla yanaşı, Avropa İttifaqının da tərkib hissəsi olmadan ölkəmizin inkişafı üçün Avropa standartlarını tətbiq edirik. Dini fundamentalizmi qəbul etmədən və onunla mübarizə apararaq dini adət-ənənələrimizə hörmətlə yanaşırıq, lokal, mədəni, mental, ədəbi, bədii, musiqi dəyərlərimizi dünya mədəniyyətinin ayrılmaz hissəsinə çeviririk. İndi kimin haqlı, kimin haqsız olduğunu açıq şəkildə bəyan edə bilirik. Bütün bunlara sübut kimi Mehriban xanım Əliyevanın bu yaxınlarda atdığı cəsarətli addım isə onu göstərir ki, hətta UNESCO kimi bir təşkilat belə Azərbaycanın dünya miqyasında tanınmış lokal dəyərlərini nəzərə almalıdır.

Bu gün biz qüdrətli bir ölkə kimi ərazilərimizi erməni qəsbkarlarından azad edərək bayrağımızı Şuşada dalğalandırmış, sülhü xarici siyasətimizin prioritet istiqamətinə çevirmişik. Biz sülh üçün mübarizə aparırıq, müharibə və təxribat fikrində olanları barışa məcbur edirik. Fransa Senatı və onunla şərik olanlar isə burada yenidən xaos görmək arzusu ilə qətnamələr qəbul edirlərsə, buna nail olmayacaqlar. Çünki Azərbaycan artıq başqadır - güclü və nüfuzlu, dostları olan və onu dəstəkləyənlərin çox olduğu bir ölkədir. İndi Azərbaycan üzv dövlətlərin sayına görə ikinci ən böyük təşkilat olan Qoşulmama Hərəkatına sədrlik edən ölkə kimi artıq Birləşmiş Millətlər Təşkilatının qərarlarına təsir göstərən, koronovirusla mübarizə məqsədi ilə özünün xüsusi sessiyalarını keçirən, Afrikada aclıq və yoxsulluq içində olanlara pul yardımı edən Azərbaycandır.

Hətta əgər Ermənistanın daxilindəki revanşist qüvvələr hansısa planlar qursalar da, İranın timsalında bəzi qonşularımız hansısa yolla gündəmə təsir göstərməyə çalışsalar da, Azərbaycanın yaratdığı yeni reallıqlar bizimlə hesablaşmalı və hörmət etməli olduqlarını onlara göstərir. Əminəm ki, ölkəmizin qarşıda daha böyük nailiyyətləri olacaq və Heydər Əliyevin nəhəng Azərbaycan arzusu gerçəkləşəcək. Çünki niyyətimiz təmizdir, xalqımız müdrikdir, ordumuz güclüdür. Ulu Öndərin siyasi varisi və ləyaqətli davamçısı olan Prezident İlham Əliyevin isə dəmir iradəsi, möhtəşəm intellekti və idealları reallığa çevirmək üçün zəruri olan bütün şəxsi xüsusiyyətləri var.

# Azərbaycan tarixində əbədi qalacaq dahi şəxsiyyət



**Eldar İbrahimov**
Milli Məclisin İntizam komissiyasının sədri

2023-cü il may ayının 10-da XX əsrdə xalqımızın yetirdiyi nadir şəxsiyyət, Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 ili tamam oldu. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 29 sentyabr 2022-ci il tarixində Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncam imzalamışdır.

Heydər Əliyevin fəaliyyətini dövlət təhlükəsizliyi orqanlarındakı dövr istisna olmaqla 4 mərhələdə, yəni Azərbaycan Respublikasına birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illəri, SSRİ rəhbərliyində təmsil olunduğu 1982-1987-ci illəri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı və sədri olduğu 1990-1993-cü illəri və müstəqil Azərbaycan Respublikasına ikinci dəfə rəhbərlik etdiyi 1993-2003-cü illəri əhatə edən dövrdəki gördüyü işlərə əsasən xarakterizə etmək olar.

Azərbaycan Respublikasına birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illər ərzində Heydər Əliyevin apardığı hərtərəfli və əhatəli işlərin, yüksək işgüzarlığın sayəsində neft, maşınqayırma və kimya sənayesi inkişaf etdi. O dövrdə Azərbaycan istehsal etdiyi rəqabət qabiliyyətli məhsulları 65 xarici ölkəyə ixrac edərək beynəlxalq aləmdə tanınmağa başladı. Məhz həmin illərdə Azərbaycan Respublikasının gələcəkdə müstəqil bir ölkə kimi fəaliyyət göstərməsi üçün möhkəm elmi-praktik təməl yaradıldı.

Heydər Əliyevin gərgin əməyi, uzaqgörənliklə həyata keçirdiyi iqtisadi siyasət, göstərdiyi əzmkarlıq, tələbkarlıq və yüksək idarəetmə qabiliyyəti nəticəsində həmin illərdə sosial obyektlərin tikintisi də geniş vüsət aldı, bölgələrdə yeni müasir məktəblər, xəstəxanalar, mədəniyyət evləri, kinoteatr və yaşayış binaları, digər sosial obyektlərin inşa edilməsi xüsusi nəzarətə götürüldü və uğurlu nəticələr əldə olundu.

Heydər Əliyevin təşəbbüsü ilə respublikamızda ağır sənayenin inkişafında da əhəmiyyətli dönüş yarandı. Sovet İttifaqında yeganə olan Bakı Kondinsionerlər Zavodu, Bakı Neftayırma Zavodu, "Azərelektroterm" Zavodu, habelə Gəncədə, Sumqayıtda və digər şəhərlərdə müxtəlif təyinatlı yeni maşınqayırma zavodları, fabriklər tikilib istifadəyə verildi. Bir çox mövcud zavodlar müasir avadanlıqlarla təchiz edilərək modernləşdirildi. Bununla da respublikamız ittifaq miqyasında subsidiya alan respublikadan donor respublikaya çevrildi.

Heydər Əliyevin Azərbaycan Respublikasına həmin dövrdə rəhbərliyi sayəsində əldə edilən nailiyyətlər hörmətli Prezidentimiz İlham Əliyev cənablarının "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 85 illik yubileyi haqqında" Sərəncamında öz əhatəli əksini tapmışdır. Sərəncamda deyilir:"1969-1982-ci illərdə həyatımızın bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir. Ölkəmizin müstəqilliyinin və dünya iqtisadiyyatına inteqrasiya proseslərinin hazırkı möhkəm təməli Heydər Əliyev tərəfindən həmin illərdə yaradılmış potensiala əsaslanır". Hesab edirik ki, bu, Heydər Əliyevin Azərbaycan Respublikasına 1969-1982-ci



illərdə rəhbərlik etdiyi dövrə verilən ən real və obyektiv qiymətdir.

Heydər Əliyevin 1982-1987-ci illərdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işlədiyi müddətdə ittifaqda mövcud olan ən problemli sahələrin, o cümlədən dünyada ən böyük maliyyə tutumlu Baykal-Amur Magistralının (BAM) tikintisi, SSRİ-də səhiyyənin və nəqliyyatın inkişafı və digər sosial problemlərin həlli məsələlərinə dərindən nüfuz edərək yüksək səviyyədə rəhbərliyi sayəsində qısa müddətdə bu sahələrdə əsaslı dönüş yarandı. Heydər Əliyev artıq SSRİ-nin bütün bölgələrində bacarıqlı və işgüzar bir rəhbər kimi tanınaraq yüksək nüfuz sahibi idi. O, tez-tez inkişaf etmiş və dünyada böyük təsirə malik xarici ölkələrdə olur, onlarla əməkdaşlıq problemlərini müzakirə edir, dünyanın siyasi elitasında hörmətlə qarşılanırdı.

Heydər Əliyev məlum səbəblərdən SSRİ Nazirlər Sovetinin sədr müavini vəzifəsindən istefa verdikdən sonra 1990-cı il iyulun 22-də öz ana vətəni olan Naxçıvana gəldi. Naxçıvan əhalisi onu Naxçıvan Muxtar Respublikasının və Azərbaycan SSR-nin Ali Sovetinə deputat seçdi. 1990-cı ilin noyabrın 17-də muxtar respublikanın Ali Sovetinin birinci sessiyasında Heydər Əliyevin təşəbbüsü ilə doğma Azərbaycanımızın üçrəngli bayrağı qaldırıldı və bununla da həmin vaxtdan müstəqilliyimizin ikinci dəfə əsası qoyuldu. Bundan başqa onun təklifi ilə muxtar respublikanın adından "sovet", "sosialist" sözləri çıxarıldı və Naxçıvan MR Ali Soveti Ali Məclis adlandırıldı, dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edildi. 1991-ci il sentyabrın 3-də xalqın istəyi və arzusu reallaşdı və Heydər Əliyev muxtar respublikanın Ali Məclisinə sədr seçildi.

Həmin dövrdə - 1991-ci il oktyabrın 18-də Bakıda Azərbaycan SSR Ali Sovetinin iclasında Azərbaycan Respublikasının ikinci dəfə öz müstəqilliyi və suverenliyi haqqında Konstitusiya aktı qəbul olundu. Lakin müstəqilliyin ilk illərində hakimiyyətdə olan qüvvələrin səbatsızlığı, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək və proqnozlaşdırmaq imkanlarından məhrum olmaları cəbhədə və ölkə daxilində mövcud gərginliyi daha da artırırdı. Artıq müstəqil Azərbaycan Respublikası öz tarixinin ən ağır çağlarını yaşayırdı, suverenliyini itirmək təhlükəsi qarşısında idi. Bunun məntiqi nəticəsi kimi, 1993-cü il iyunun 4-də Gəncədə iqtidara tam etimadsızlıq göstərilərək qiyam baş verdi, qardaş qanı axıdılmaqla, demək olar ki, vətəndaş müharibəsi başlandı. Bunu görən Azərbaycan xalqı böyük dövlətçilik təcrübəsi olan, tanınmış siyasi xadim Heydər Əliyevi təkidlə ikinci dəfə Azərbaycan Respublikasına rəhbərliyə dəvət etdi.

Xalqın çağırışını qəbul edən Heydər Əliyev 1993-cü il iyunun 15-də



ölkənin ali qanunvericilik orqanının sədri, həmin ilin oktyabr ayının 3-də isə Azərbaycan Respublikasının Prezidenti seçildi. Separatçı ermənilər tərəfindən başlanmış Ermənistan-Azərbaycan müharibəsində 1994-cü il mayın 12-də Heydər Əliyevin təşəbbüsü ilə atəşkəsə nail olundu. Bundan sonra ölkədə siyasi və iqtisadi sabitlik bərqərar edildi, siyasi sistemin təkmilləşdirilməsi istiqamətində möhkəm addımlar atıldı. 1995-ci ildə Heydər Əliyevin təşəbbüsü və bilavasitə iştirakı ilə müstəqil Azərbaycan Respublikasının ilk yeni Konstitusiyası qəbul olundu.

Heydər Əliyev müstəqil və suveren dövlətimizin daxili məsələlərini ustalıqla həll etməklə yanaşı, xarici siyasətini də formalaşdırmağa başladı. Azərbaycan həm Rusiya, həm də ABŞ və Avropa ölkələri ilə yaxın qonşuluq, dostluq və strateji tərəfdaşlıq münasibətləri yaratmağa nail oldu. Türkiyə ilə "bir millət, iki dövlət" prinsipi əsasında əlaqələr daha da möhkəmləndi.

Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın gələcəyini müəyyənləşdirən neft strategiyası işlənib hazırlandı və həyata keçirilməyə başlandı. Ciddi təzyiqlərə, bəzi böyük dövlətlərin etirazlarına baxmayaraq, Ulu Öndərin səyi nəticəsində Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" neft yataqlarının birgə işlənməsinə dair öz əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adını almış beynəlxalq müqavilə dünyanın 8 ölkəsini təmsil edən 13 iri transmilli şirkət tərəfindən imzalandı. 1996-cı ildə isə "Şahdəniz" qaz yatağının işlənməsinə dair müqavilə imzalandı. Bundan sonra Azərbaycanın enerji resurslarını dünya bazarlarına çıxarmaq üçün Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərlərinin tikintisinə başlandı. Bütün bunlar Ümummilli Liderin özünün dediyi kimi, Azərbaycanın müstəqilliyinin dönməz və əbədi olmasını təmin edən mühüm addımlar idi.

Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətləri olan Heydər Əliyev, sözün əsl mənasında, dahi şəxsiyyətdir. Qədirbilən xalqımız Ulu Öndəri özünün Ümummilli Lideri elan etmişdir. Çünki Heydər Əliyevin dediyi kimi: "İstər bir azərbaycanlı - Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri - Prezidenti kimi mənim həyat amalım yalnız sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur".

Məhz bu xidmətin nəticəsində Heydər Əliyev dünyanın tanınmış dahi simaları ilə bir cərgədə dayanmışdır. Dahilərin böyüklüyü isə ondadır ki, onlar hər şeyin əvvəlini bildikləri kimi, sonunu da görür və dərk edirlər. Heydər Əliyev də məhz belə dahilərdən idi.

Heydər Əliyevin 2003-cü il oktyabrın 1-də doğma xalqına ünvanladığı son müraciəti vətənə ləyaqətlə xidmətin son nümunəsi idi. Ulu

Öndər tarixi müraciətinin sonunda xalqa müəyyənləşdirdiyi siyasəti davam etdirə biləcək dəqiq ünvanı da göstərirdi: "Üzümü sizə - həmvətənlərimə tutaraq qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ulu Öndərin bu tarixi müraciətindən keçən iyirmi il ərzində dörd dəfə Azərbaycan xalqının əksəriyyətinin böyük dəstəyini qazanaraq Prezident seçilən İlham Əliyev Ümummilli Liderin layiqli varisi olduğunu və Azərbaycan Respublikasını gündən-günə daha firavan gələcəyə apardığını sübut etdi. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində işğalçı Ermənistan üzərində qazandığı parlaq qələbə isə ölkə Prezidentinin Azərbaycan xalqına və Ümummilli Liderin ata vəsiyyətini həyata keçirməklə onun 100 illik yubileyinə ən böyük töhfəsi oldu.



Ulu Öndər Heydər Əliyevin Azərbaycan Respublikasında fəaliyyətinin önəmli hissəsini onun həyata keçirdiyi aqrar siyasət təşkil edir. Belə ki, Azərbaycan Respublikasına birinci dəfə rəhbərlik etdiyi 14 il ərzində iqtisadiyyatın bütün sahələrində olduğu kimi aqrar-sənaye kompleksinin və onun aparıcı bölməsi olan kənd təsərrüfatının inkişafında möhtəşəm nailiyyətlər əldə olundu. Təkcə bir faktı qeyd etmək lazımdır ki, 1969-1982-ci illərdə Heydər Əliyevin rəhbərliyi sayəsində Azərbaycan Respublikası bütün növ kənd təsərrüfatı məhsulları istehsalına görə rekord nəticələr əldə etdi, üzüm istehsalında 2 milyon ton həddi keçərək SSRİ məkanında birinci yeri tutdu.

Ümummilli Liderin elmi nailiyyətlərə əsaslanan aqrar siyasəti müstəqillik illərində daha da təkmilləşərək uğurlu nəticələr verməyə başladı.

Hazırda Azərbaycan Respublikasının vətəndaşları, bütün dünya azərbaycanlıları, türkdilli və digər dövlətlərin əhalisi böyük fərəh hissi və coşğunluqla Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyini qeyd edirlər. "Nə qədər Azərbaycan var, mən də varam. Mən isə Azərbaycanda əbədi olacağam" - deyən Heydər Əliyevin ideyaları və əməlləri bu gün yaşayır və onun adı Azərbaycanla daim qoşa çəkiləcəkdir.

# Ulu Öndər Heydər Əliyev ideyalarına sadiq güclü və qalib Azərbaycan



**Eldar Quliyev**
Milli Məclisin Hesablayıcı komissiyasının sədri

Öz müstəqilliyini yenidən əldə edən Azərbaycan 1990-cı illərin əvvəllərində çox böyük çətinliklərlə üzləşmişdi, xalqımız tarixinin ağrılı günlərini yaşayırdı, ölkədə dərin böhran hökm sürürdü. Bir tərəfdən Ermənistanın torpaqlarımızı işğal etməsi, digər tərəfdən ölkə daxilində mövcud olan siyasi böhran və xaos ciddi təhlükələrə yol açmışdı. AXC-Müsavat iqtidarının səriştəsizliyi, dövlət idarəçilik sisteminin olmaması, ölkədə fəaliyyət göstərən silahlı dəstələrin 1993-cü ilin əvvəllərindən başlayaraq yol verdikləri başıpozuq əməllər, ciddi nöqsanlar, ayrı-ayrı bölgələrimizdə separatçılıq, parçalanma meyillərinin baş qaldırması və bütün bunların ölkənin daxilində qardaş qırğınına, vətəndaş müharibəsinə zəmin yaratması Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu.

Dövlətimizi bu böhranlı və təhlükəli vəziyyətdən yalnız böyük siyasi xadim, dahi şəxsiyyət Heydər Əliyev xilas edə bilərdi. Məhz belə bir zamanda xalqın təkidli tələbi ilə Ümummilli Lider Heydər Əliyev Naxçıvandan Bakıya gəldi və iyunun 15-də Azərbaycan parlamentinin sədri seçildi. Böyük risklərə baxmayaraq, Ulu Öndər dövlətin qorunması məsuliyyətini öz üzərinə götürdü. Onun zəngin dövlətçilik təcrübəsi əsasında atdığı praqmatik addımlar sayəsində ölkədə hökm sürən dağıdıcı proseslərin aradan qaldırılmasına nail olundu.

Ulu Öndər müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, qarışıq seçki sistemi əsasında parlament seçkilərinin keçirilməsi, dövlətin hüquqi əsaslarının gücləndirilməsi, müasir dövlətçilik sisteminin qurulması üçün möhkəm hüquqi baza yaratdı. Kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, insan və vətəndaş hüquq və azadlıqları təmin edildi. Bununla yanaşı, məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin və digər mühüm təsisatların yaradılması ölkədə demokratikləşmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı. Azərbaycanda hüquqi, demokratik və dünyəvi dövlət quruldu, vətəndaş cəmiyyətinin bərqərar edilməsi istiqamətində ciddi addımlar atıldı, Ombudsman təsisatı yaradıldı, ölüm hökmü ləğv edildi.

Ölkəmizdə milli həmrəyliyi yarada biləcək ideologiya 1993-cü ildən sonra yalnız Azərbaycan xalqının Ümummilli Liderinin müəllifi olduğu azərbaycançılıq məfkurəsi əsasında müəyyənləşdirildi. Bu ideoloji baza özündə ümumbəşəri səciyyə daşıyan və milli dəyərlərə cavab verən prinsipləri ehtiva etməklə milli həmrəyliyi formalaşdıran mühüm faktor oldu. Bir sözlə, Ulu Öndər Heydər Əliyev Azərbaycanı, sözün əsl mənasında, müstəqil ölkəyə çevirdi, müstəqilliyimizi daimi və dönməz etdi.

Həyata keçirilən uğurlu praqmatik xarici siyasət nəticəsində Azərbaycan nüfuzlu dövlətə



çevrildi, ölkəmizin dostlarının və tərəfdaşlarının sayı artdı, respublikamız qlobal miqyasda söz sahibinə çevrildi. Ümummilli Liderin rəhbərliyi ilə həyata keçirilən siyasi kurs Azərbaycanın beynəlxalq mövqeyinin möhkəmlənməsini, ikitərəfli və çoxtərəfli əməkdaşlıq münasibətlərinin formalaşmasını təmin etdi.

Ulu Öndərin praqmatik xarici siyasət kursunun mühüm istiqamətlərindən birini enerji resurslarından səmərəli istifadə olunması və bu kontekstdə Azərbaycanın etibarlı strateji tərəfdaşa çevrilməsi təşkil edirdi. İlk növbədə 1994-cü il sentyabrın 20-də Bakıda "Gülüstan" sarayında dünyanın 8 ölkəsindən 13 iri neft şirkəti ilə "Əsrin müqaviləsi" adlanan beynəlxalq saziş imzalandı. Bununla da Azərbaycanın iqtisadi müstəqilliyinin və dünya iqtisadi sisteminə inteqrasiyanın möhkəm təməli qoyuldu. Heydər Əliyevin uzaqgörənliyi və qətiyyəti sayəsində imzalanmış "Əsrin müqaviləsi"ndən başlanan enerji siyasəti Azərbaycanın regional və qlobal miqyasda enerji təhlükəsizliyinin təminatına müstəsna töhfələr bəxş etməsini şərtləndirməklə yanaşı, ölkəmizin gücünü və nüfuzunu artıran faktor kimi çıxış etdi. Bundan sonra milli maraqlarımıza müvafiq enerji layihələri gerçəkləşdirildi və bütün bunlar Azərbaycanın etibarlı strateji tərəfdaş kimi ikitərəfli və çoxtərəfli xarici əlaqələrinin səmərəlilik səviyyəsini artırdı. Ölkəmiz miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli strateji layihələrin mərkəzi oyunçusuna çevrildi. Eyni zamanda, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu uğurlu xarici siyasət sayəsində Azərbaycan qısa zaman kəsiyində regionun güclü və nüfuzlu aktoru və qlobal miqyasda milli dövlətlərin etibarlı strateji tərəfdaşı kimi qəbul olundu. Bu, milli maraqların təmin edilməsi üçün fundamental strateji faktor idi.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən rasional xarici siyasət strategiyasının ən mühüm prioritetlərindən birini də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normaları əsasında, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunması təşkil edirdi. Ulu Öndərin əhəmiyyətli səyləri və gərgin əməyi sayəsində bu problemin həllinə yönəlik məqsədyönlü, sistemli və davamlı addımlar atılmağa başlandı. Məsələnin mahiyyətini ATƏT-in Minsk qrupunun, həmçinin dünya ictimaiyyətinin diqqətinə çatdıran Heydər Əliyev dünya dövlətlərini münaqişəyə yanaşmada diqqətli olmağa, məsələnin tezliklə, beynəlxalq hüquq normaları çərçivəsində





həll edilməsində yaxından iştirak etməyə çağırdı. Dahi şəxsiyyətin praqmatik, çoxvektorlu və rasional xarici siyasət kursu ölkəmizə diqqəti artırdı, Azərbaycanı nüfuzlu dövlətə çevirdi.

Əminliklə söyləmək olar ki, Ulu Öndərin əsasını qoyduğu daxili və xarici siyasət kursu onun siyasi varisi və layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildi və onun sayəsində Azərbaycan bugünkü yüksəlişə və inkişafa nail oldu, beynəlxalq müstəvidə nüfuzlu, güclü və qüdrətli bir dövlətə çevrildi.

Hazırda Azərbaycan dünya miqyasında dayanıqlı inkişafa və möhkəm ictimai-siyasi sabitliyə malik olan ölkə kimi tanınır. Milli inkişaf modelinin uğurla tətbiq edilməsi və hədəflənən nəticələrin əldə olunması, sosial-siyasi islahatların davamlı şəkildə həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyəti və hüquqi dövlətin inkişafına maksimum əlverişli şəraitin yaradılması, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin təminatı, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz, güc iyerarxiyasında sürətlə irəliləməsi və digər bu kimi nailiyyətlər müasir müstəqil Azərbaycanın gerçəkliklərini təşkil edir. Digər tərəfdən, Azərbaycan Cənubi Qafqaz regionunun lider dövləti olmaqla yanaşı, müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır. Prezident İlham Əliyevin rəhbərliyi ilə milli maraqlara uyğun reallaşdırılan xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli



münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri formalaşdırıb.

Dahi şəxsiyyətin müəyyənləşdirdiyi uğurlu siyasəti layiqincə həyata keçirən Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz 30 ilə yaxın işğal altında olan torpaqlarımızı 44 günlük Vətən müharibəsində azad etdi və ərazi bütövlüyümüz bərpa olundu. Bu, həm də Prezidentimizin ata vəsiyyətini yerinə yetirməsi demək idi. Ulu Öndərin ən böyük arzusu Azərbaycanı bütöv görmək idi. Heydər Əliyev məcburi köçkünlər qarşısında çıxışlarının birində böyük inamla demişdi: “Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir, mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İstisuyu - biz onlarsız yaşaya bilmərik”.

İndiki mərhələdə qarşıda duran əsas vəzifə erməni işğalından azad edilmiş ərazilərin bərpası və bunun fonunda insanların öz doğma yurdlarına qayıtmasının təmin olunmasıdır. Prezident, müzəffər Ali Baş Komandan bu torpaqlarda infrastruktur layihələrinin təməlini qoyur, Böyük Qayıdışın reallaşdırılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirir. Xalqımız əmindir ki, ölkəmiz Prezident İlham Əliyevin rəhbərliyi ilə daha uca zirvələrə yüksələcək, düşmənin yerlə-yeksan etdiyi Qarabağ dünyanın ən gözəl guşələrindən birinə çevriləcək. Azərbaycan dövləti Prezident İlham Əliyevin liderliyi ilə Heydər Əliyev ideyaları əsasında daha da inkişaf edərək yeni-yeni zəfərlər qazanacaq.

**“Arzu edirəm ki, sizinlə birlikdə gedək Şuşaya. Gedəcəyik, inanın ki, gedəcəyik. Şuşa Azərbaycanın gözüdür, hər bir azərbaycanlı üçün iftixar mənbəyidir, mədəniyyətimizin, tariximizin rəmzidir. Şuşa hamı üçün əzizdir. Amma təkcə Şuşa yox, Laçın dağları da əzizdir. Biz heç vaxt Laçınsız yaşaya bilmərik. Ağdam kimi gözəl bir şəhər, Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının, Kəlbəcərin o bulaqları, Kəlbəcərin o İstisuyu - biz onlarsız yaşaya bilmərik”.**

**Heydər Əliyev**

# Müasir Azərbaycan parlamentinin qurucusu



**Fərid Hacıyev**
Milli Məclis Aparatının rəhbəri

Xalqımızın Ümummilli Lideri Heydər Əliyev Azərbaycan dövlətinin müstəqilliyi naminə göstərdiyi misilsiz xidmətlər ilə hələ sağlığında canlı əfsanəyə çevrilmiş fenomenal bir şəxsiyyətdir. O, bugünkü Azərbaycan dövlətinin memarı olmaqla yanaşı, müasir Azərbaycan parlamentinin də qurucusudur.

Heydər Əliyev hələ Azərbaycana ilk dəfə rəhbərlik etdiyi dövrdə həyatın bütün sahələri sovet ideologiyasının təsiri altında olduğuna baxmayaraq, ölkəyə fikir plüralizmi, demokratik və azad düşüncə tərzi, güclü sosial ədalət duyğusu və milli özünüdərk hissi gətirmişdi. O vaxt Azərbaycan parlamentinin qəbul etdiyi qanunlar kommunist partiyasının ideoloji məqsədlərinə xidmət etsə də, dahi şəxsiyyət hakimiyyət orqanlarının, o cümlədən qanunvericilik orqanının fəaliyyətini xalqın iqtisadi, mədəni tərəqqisinə, milli dirçəliş siyasətinin reallaşmasına yönəldə bilmiş və nəticədə Azərbaycan parlamenti Heydər Əliyevin rəhbərliyi ilə aparılan böyük quruculuq işlərinin hüquqi bazasının yaradılmasına mühüm töhfələr vermişdi.

Təəssüf ki, 1987-ci ilin oktyabr ayında Ulu Öndər Sovetlər Birliyinin rəhbərliyində yüksək vəzifələrdən istefa verməyə məcbur edildikdən sonra Azərbaycanın o vaxtkı rəhbərliyi, xüsusən parlamenti SSRİ-nin süqutu ilə bağlı baş verən prosesləri vaxtında və düzgün qiymətləndirib nəzərə almaq, xalqı gözləyən təhlükələri qabaqcadan duymaq və zəruri tədbirlər görmək, vahid milli platforma yaratmaq vacib olduğu halda, bağışlanmaz passivlik, laqeydlik göstərdi. Erməni separatizmini faktiki olaraq müdafiə edən SSRİ rəhbərliyinin Azərbaycanın suveren hüquqlarını açıq-aşkar pozan qərarlarına qarşı respublika parlamenti heç bir etiraz bildirmədi. Əksinə, Azərbaycan parlamenti bu qərarların münaqişəni həll etmək baxımından əhəmiyyət kəsb etdiyini bildirmişdi. Belə mövqe xalqda respublika rəhbərliyinə və parlamentinə inamı tamamilə qırmışdı.

O zaman müxtəlif siyasi ambisiyalarını, hakimiyyəti ələ keçirmək niyyətlərini populist çıxışlarla pərdələyə bilən, siyasi təcrübəsi olmayan səbatsız qüvvələr irəli çıxdı və xalqı öz ardınca aparmağa çalışdı. SSRİ-nin süqutu nəticəsində Azərbaycanın dövlət müstəqilliyinin bərpasının böyük qurbanlar, itkilər ilə müşayiət olunması bir tərəfdən respublika rəhbərliyinin, parlamentin, digər tərəfdən meydana çıxan yeni siyasi qüvvələrin naşılığı üzündən baş vermişdi.

1991-ci il oktyabrın 18-də Azərbaycan parlamenti Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi və Azərbaycan Respublikasının müstəqilliyi elan olundu. Sonrakı proseslər hamıya məlumdur. Respublikada sürətlə dəyişən şəraitə adekvat münasibət göstərməyə qadir olan siyasi rəhbərliyin olmaması, müxtəlif qüvvələrin hakimiyyət uğrunda mübarizəsi, hərc-mərclik Azərbaycanı böyük təhlükələrə məruz qoymuşdu. Azərbaycanlıların Ermənistandan kütləvi surətdə qovulması, SSRİ və Ermənistan xüsusi xidmət orqanları tərəfindən təşkil edilmiş Sumqayıt hadisələri, 20 Yanvar faciəsi, xalqımızın yaratdığı zəngin potensialın dağıdılması, erməni şovinistləri tərəfindən Xocalıda və digər yaşayış məntəqələrində soydaşlarımızın soyqırımına məruz qoyulması, torpaqlarımızın işğal edilməsi, insanlarımızın öz vətənində didərgin salınması, faktiki olaraq vətəndaş müharibəsinin başlanması ölkəmizi fəlakət həddinə gətirib çıxarmışdı. Azərbaycanın müstəqil dövlət kimi varlığı sual altında idi.

Belə çətin, ağır, mürəkkəb bir şəraitdə xalqın mütləq əksəriyyətinin, o cümlədən hakimiyyət nümayəndələrinin təkidli tələbi ilə Heydər Əliyev Bakıya gəldi və Milli Məclisin 1993-cü il 15 iyun tarixli iclasında Ali Sovetin sədri seçildi. Ulu Öndərin ali hakimiyyətə qayıdışı Azərbaycanın müstəqil dövlətçiliyini, siyasi varlığını məhv olmaq təhlükəsindən xilas etməklə bərabər Azərbaycan parlamentinin tarixində yeni bir dövrün başlanğıcını qoydu.

Parlamentin iclasında proqram xarakterli çıxış edən Heydər Əliyev respublikanın o vaxtkı ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk etdiyini və bunun aradan qaldırılması üçün əlindən gələni əsirgəməyəcəyini bildirdi, qarşıda duran əsas vəzifələri müəyyənləşdirdi: "Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm". Bu vəzifələrin uğurla yerinə yetirilməsinin əsas şərtləri kimi o, ölkənin ərazi bütövlüyünün bərpasının, sülh yaradılmasının vacibliyini, beynəlxalq təşkilatlarla, xarici ölkələrlə səmərəli əməkdaşlıq əlaqələri qurulmasının zəruriliyini vurğuladı.





Heydər Əliyev Ali Sovetin sədri kimi, Azərbaycanda azad vətəndaş cəmiyyətinin qurulmasından, onun əsas atributlarının bərqərar edilməsindən danışaraq bildirirdi: "Müstəqil Azərbaycanda demokratiya inkişaf etdirilməlidir. Siyasi plüralizmə geniş yol verilməlidir. Azərbaycan Respublikasında Konstitusiyanın pozulmasına yol verilməməlidir. Dövlət quruculuğu və cəmiyyətin formalaşması məhz demokratik prinsiplər əsasında olmalıdır. Siyasətdə və iqtisadiyyatda sərbəstlik, hürriyyət, insan azadlığı, insan haqlarının qorunması və sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri bərqərar olmalıdır".

Həyatının mənasını xalqına xidmətdə görən Heydər Əliyevin Ali Sovetin sədri seçilməsi ilə Azərbaycan dövlətçiliyinin tarixində yeni bir dövr başlandı. Dövlət və cəmiyyət həyatının bütün sahələrini bürümüş sistemli böhran və gərginlik səngiməyə başladı.

Milli Məclisin 1993-cü il 23 iyun tarixli iclasında prezident səlahiyyətlərinin Ali Sovetin sədri Heydər Əliyevə verilməsi artıq respublikada baş verən bütün hadisələrin dövlətin nəzarətinə götürülməsi demək idi. Bu, hakimiyyətin ayrı-ayrı adamların şəxsi mənafeyinə və iddialarına deyil, xalqın iradəsinə tabe edilməsi idi. Bu, müstəqil Azərbaycanın tarixində anarxiyaya, özbaşınalığa, tənəzzülə son qoyan ictimai sabitliyin, iqtisadi tərəqqinin, beynəlxalq nüfuzun təməlinin qoyulması idi.

Heydər Əliyev parlament fəaliyyətində xalqla birbaşa təmasa keçdi. Milli Məclisin bütün iclasları, mətbuat konfransları, brifinqlər, problem məsələlərə həsr olunmuş müşavirələr birbaşa televiziya vasitəsilə xalqa çatdırıldı. Xalq hər şeydən xəbərdar oldu. Parlamentarizm ənənələri yeni nəfəs, yeni qüvvə aldı. Milli Məclis ölkədə baş verən mürəkkəb və ziddiyyətli ictimai-siyasi hadisələrin açıq və demokratik şəraitdə müzaki-





rə edildiyi real dövlət orqanına çevrildi. Tədricən problemlərin həlli ilə əlaqədar konstruktiv tədbirlər həyata keçirilməyə başlandı.

Xalqın itirilmiş inamı özünə qaytarıldı. Nüfuzlu dövlətlərlə pozulmuş münasibətlər bərpa edildi. Ordu quruculuğu sahəsində mühüm qərarlar qəbul olundu. Ölkədə sabitlik və əmin-amanlığın yaradılması, vətəndaş qarşıdurmasının aradan qaldırılması məqsədi ilə mühüm işlər görüldü.

Ali Sovetin sədri kimi Heydər Əliyev özünütəcrid xəttinin acı nəticəsi kimi dünyanın Azərbaycanı tanımamasını, problemlərimizi bilməməsini, haqq səsimizi eşitməməsini göstərir və belə siyasəti "özümüzün özümüzə vurduğumuz zərbə" adlandırırdı. Ölkənin mənafelərini qorumaq istiqamətində ölçülüb-biçilmiş addımların atılmasının gərəkliyini vurğulayan Heydər Əliyev Azərbaycanın dövlətçilik mənafelərini hər şeydən uca tutaraq müxtəlif dövlətlərin bütövlükdə Qafqaz və bilavasitə respublikamız üzərində qurulmuş iqtisadi maraq və nüfuz dairəsi uğrunda mübarizəsini də nəzərə almaqla, çevik manevrlər və xüsusi taktiki gedişlər etdi.

Beləliklə, xarici siyasət kursunda mövcud reallıqlara əsaslanan və ölkənin mənafelərinin qorunmasına yönələn əməli dəyişikliklər edildi. Müstəqil Azərbaycan dövlətinin beynəlxalq münasibətlər sistemində yeri, Avropa ölkələri və ABŞ-la, yeni müstəqil dövlətlər və Rusiya ilə, Türkiyə və türkdilli dövlətlər, müsəlman dünyası və İranla əlaqələrinin yaxın dövr üçün prioritetləri müəyyənləşdirildi və tədricən həyata keçirilməyə başlandı.

> "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub..."
>
> **Heydər Əliyev**

Beləliklə, Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin sədri vəzifəsində fəaliyyət göstərdiyi qısa zaman kəsiyində ölkənin həm daxili, həm xarici siyasəti ilə bağlı önəmli işlər görüldü, müstəqil Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət kimi gələcək inkişafının təməli qoyuldu. Dövlətçilik sahəsində tarixi ənənələrə söykənən Heydər Əliyev öz zəngin siyasi və idarəçilik təcrübəsi nəticəsində ölkənin çoxsaylı problemlərinin öhdəsindən məharətlə gəldi.

Heydər Əliyev Ali Sovetin sədri vəzifəsində cəmi dörd ay çalışsa da, qısa müddətdə parlamentin ruhunu kökündən dəyişdi, Milli Məclisə siyasi mədəniyyət gətirdi. Onun iclası aparmaq tərzi, fikirlərini dəqiq əsaslandırması, çıxışların məğzini tutmaq bacarığı, qiymətli fikirləri ümumiləşdirmək qabiliyyəti özlüyündə parlamentin üzvləri üçün əsl parlamentarizm məktəbi idi.

Heydər Əliyev Milli Məclis Aparatının müasir tələblər səviyyəsində fəaliyyət göstərən çevik bir struktur kimi formalaşması üçün də böyük əmək sərf etmişdir. Bu gün parla-







ment Aparatında çalışan dövlət qulluqçuları Ulu Öndər tərəfindən əsası qoyulmuş dövlət qulluğu mədəniyyətini hər bir sahədə örnək kimi qəbul edirlər.

1993-cü il oktyabrın 3-də Heydər Əliyev yekdilliklə Azərbaycan Respublikasının Prezidenti seçildi. Xalqımız öz taleyini tarixin imtahanlarından şərəflə çıxmış, onu düşdüyü ağır böhrandan qurtarmış dünya miqyaslı siyasi və dövlət xadimi ilə bağladı. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş müstəqil Azərbaycanın ilk Konstitusiyası hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunun əsaslarını müəyyən etdi, yeni siyasi və hüquqi sistemin yaradılmasına yol açdı. Azərbaycanda ilk dəfə olaraq real hakimiyyət bölgüsü təmin olundu. Dövlət hakimiyyəti sistemində Milli Məclisin yeri və rolu dəqiq təyin edildi.

Parlamentin formalaşdırılmasının müasir standartlara uyğun gələn mexanizmi yaradıldı. Demokratiya şəraitində Milli Məclisə indiyədək 6 dəfə keçirilmiş azad, ədalətli və şəffaf seçkilər Azərbaycanın demokratik inkişafında mühüm rol oynamışdır.

Ümummilli Liderin əsasını qoyduğu inkişaf strategiyası və onun milli məfkurəsi tezliklə Azərbaycanı davamlı inkişaf yoluna çıxardı. Onun təşəbbüsü ilə parlamentdə ilk kövrək addımlarını atmaqda olan müstəqil dövlətimiz üçün həyati əhəmiyyətli qanunlar qəbul edildi. Azərbaycanın təşəbbüsü və fəal iştirakı ilə bütöv bir regionun iqtisadi simasını dəyişə biləcək Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi neft və qaz kəmərlərinin çəkilişinə başlandı.

Azərbaycanın inkişafına xidmət edən möhtəşəm işlərin gerçəkləşdirilməsində Milli Məclis həmişə Ümummilli Liderimizin yanında olmuş, onun uzaqgörən daxili və xarici siyasətini fəal surətdə dəstəkləmişdir. Bu da qeyd edilməlidir ki, Ulu Öndər parlamentə daim böyük diqqət və qayğı göstərmişdir.

1995-ci il noyabrın 24-də Heydər Əliyev birinci çağırış Milli Məclisin ilk iclasında iştirak etmiş, qanunvericilik orqanının üzvlərinə öz xeyir-duasını vermişdir. Sonrakı dövrdə də Ulu Öndər parlamentin müxtəlif məsələlərə həsr olunan iclaslarında iştirak və çıxış etmişdir.

Azərbaycanda yeni siyasi və hüquqi sistemin yaradılması məqsədi ilə Milli Məclis Heydər Əliyevin təşəbbüsü ilə bir çox mühüm qanunvericilik aktları qəbul etmişdir. Ümumiyyətlə, ölkədə siyasi, iqti-



sadi, sosial və hüquq islahatlarının qanunvericilik mexanizminin yaradılmasına və təkmilləşdirilməsinə yönələn 1500-ə qədər qanun, qərar və digər aktlar Ümummilli Liderimizin imzası ilə parlamentə təqdim edilmiş və Milli Məclis tərəfindən qəbul olunmuşdur. Beləliklə, Azərbaycanın demokratik inkişafı, hüquqi dövlət quruculuğu üçün bütün təminatlar yaradılmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu Öndərin hakimiyyətə qayıdışından sonra göstərdiyi xidmətlər barədə belə demişdir: "1993–2003-cü illər ərzində Azərbaycanın dövlətçiliyi quruldu. Azərbaycanın inkişaf strategiyası müəyyən olundu. Bütün ölkələrlə xarici əlaqələrimiz qarşılıqlı hörmət və maraqlar əsasında quruldu və bu gün də bu, belədir. 1993-cü ildən başlanmış və bu günə qədər davam edən iqtisadi və siyasi islahatlar ölkəmizin dünya birliyinə layiqli üzv kimi daxil edilməsində çox mühüm rol oynadı. Azərbaycanda güclü sosial siyasətin əsasları da məhz o illərdə qoyulubdur. Ona görə Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında xidmətləri unudulmazdır, əvəzolunmazdır və onlar tarixi əhəmiyyət kəsb edir".

Ulu Öndərin əsasını qoyduğu milli inkişaf strategiyası bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 44 günlük Vətən müharibəsində əzəli və tarixi torpaqlarımızın erməni işğalından qurtarılması, tarixi ədalətin bərpa olunması və dövlətimizin ərazi bütövlüyünün təmin edilməsi Cənubi Qafqaz bölgəsində yeni reallıq yaratmışdır. Əminliklə söyləmək olar ki, dövlət başçısının həyata keçirdiyi uzaqgörən siyasət sayəsində Azərbaycan dövləti qarşıdakı illərdə yeni böyük uğurlara imza ataraq, dünyanın sayılıb-seçilən dövlətləri sırasında yerini daha da möhkəmləndirəcəkdir.

Bu gün Azərbaycan Respublikasının qanunvericilik orqanı dövlətin daxili və xarici siyasətinin parlament ölçüsünü təmin edir. Ölkədə uğurla həyata keçirilən hərtərəfli və əsaslı islahatların hüquqi mexanizmi daha da inkişaf etdirilir və təkmilləşdirilir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Konstitusiyada təsbit edilmiş qanunvericilik təşəbbüsü hüququna əsaslanaraq müasir dünya standartlarına uyğun qanun layihələrinin hazırlanmasını və parlamentə təqdim olunmasını təmin edir. Azərbaycan parlamentində qanunyaratma və qanunvericilik fəaliyyətinin daha da gücləndirilməsi və təkmilləşdirilməsi üçün həyata keçirilən tədbirlər dövlət başçısı tərəfindən fəal surətdə dəstəklənir.




Qanunyaratma və qanunvericilik məsələlərinin həllində Milli Məclis qabaqcıl dünya təcrübəsindən bəhrələnməyə çalışır. Qanunvericilik fəaliyyəti ilə yanaşı, parlament ölkəmizdə və beynəlxalq aləmdə baş verən mühüm siyasi hadisələrə münasibətini də bildirir.

Müasir dünyada parlament diplomatiyasının əhəmiyyəti və rolu getdikcə artır. Parlamentlərarası əməkdaşlığın keyfiyyətcə yeni bir sahəsi olan parlament diplomatiyası dövlətlərin qarşılaşdıqları problemlərin həllinə, sivilizasiyalararası dialoq üçün maneələrin aradan qaldırılmasına sanballı töhfə verir.

Məhz buna görə də Milli Məclisin beynəlxalq ikitərəfli və çoxtərəfli əlaqələrinin inkişafına xüsusi diqqət yetirilir. Bu məqsədlə parlamentlərarası əməkdaşlığın müxtəlif formalarından istifadə olunur. İndiyədək xarici ölkələrin qanunvericilik orqanları ilə əməkdaşlıq və qarşılıqlı əlaqə haqqında 10-dan artıq saziş bağlanmışdır. Milli Məclisdə 100-dən çox ölkənin parlamentləri ilə əlaqələr üzrə işçi qrupları yaradılmışdır.

Milli Məclis ölkəmizin üzv olduğu beynəlxalq təşkilatların parlament məclislərinin üzvüdür, bir neçə parlament təşkilatı ilə yaxından əməkdaşlıq edir. Milli Məclisin nümayəndə heyətləri beynəlxalq təşkilatların toplantılarında müntəzəm iştirak edir, dövlətimizin müxtəlif məsələlərə dair mövqeyini beynəlxalq aləmə çatdırmaq üçün bu vasitədən də səmərəli istifadə edirlər.

Azərbaycanın təşəbbüsü və fəal iştirakı ilə dünyada BMT-dən sonra ikinci ən böyük təşkilat olan Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi yaradılmışdır. Milli Məclisin sədri Sahibə xanım Qafarovanın Parlament Şəbəkəsinin ilk sədri seçilməsi dövlətimizin yüksək beynəlxalq nüfuzunu göstərən daha bir hadisə olmuşdur.

Milli Məclis nəzarət funksiyasını da uğurla yerinə yetirir. Hər il Nazirlər Kabinetinin, Hesablama Palatasının, İnsan hüquqları üzrə müvəkkilin (ombudsmanın), Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın və İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun hesabat və məruzələri dinlənilir. Azərbaycan parlamenti dövlət büdcəsinin icrasına nəzarət edir, qanunların icrasının monitorinqini həyata keçirir.

Məmnunluqla qeyd edilməlidir ki, Ulu Öndər Heydər Əliyevin dövlətçilik ideyalarından güc alan Azərbaycan Respublikasının Milli Məclisi öhdəsinə düşən vəzifələri uğurla yerinə yetirməyə çalışır, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi tarixi missiyanı qanunvericilik fəaliyyəti sahəsində dəstəkləmək üçün bütün qüvvəsini sərf edir.

# Heydər Əliyev irsi Azərbaycan xalqının mənəvi-siyasi sərvətidir



Yeni Azərbaycan Partiyası sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri **Tahir Budaqovla** müsahibə

**- Tahir müəllim, məlum olduğu kimi, Prezident İlham Əliyevin sərəncamı ilə 2023-cü il ölkəmizdə "Heydər Əliyev İli" elan edilib. Ulu Öndərin dövlətçilik tariximizdə yeri və rolu barədə nə deyə bilərsiniz?**

- Azərbaycan xalqı zəngin və çoxəsrlik dövlətçilik tarixinə malikdir. Bu tarix bəşər sivilizasiyasına bənzərsiz töhfələr vermiş xalqımızın şanlı keçmişini və şərəfli inkişaf yolunu əks etdirir.

Dövlətçilik tariximizin yeni və müasir dövrlərinə nəzər saldıqda müxtəlif - ziddiyyətli və fərqli mənzərənin şahidi oluruq. Xüsusilə də, Azərbaycan istər SSRİ-nin tərkibində olduğu zaman, istərsə də müstəqillik illərində çox ciddi sınaqlarla və tarixi çağırışlarla üz-üzə qalmış, ölkənin müqəddəratına, gələcək taleyinə təsir edən mühüm hadisə və proseslər baş vermişdir. Hər iki dönəmin ümumi ortaq cəhəti ondan ibarətdir ki, respublikamız düçar olduğu təlatümlərdən, böhran vəziyyətindən xilas olaraq inkişaf yoluna qədəm qoymuş, böyük uğurlar qazanaraq yeni reallıqların əsaslarını formalaşdırmışdır. Təbii ki, bu gerçəklikləri mümkün edən həlledici amil liderlik fenomeni olmuşdur. Azərbaycanın nümunəsi təsdiqləyir ki, güclü lider olmadan xalqın rifahını, dövlətin müstəqilliyini və inkişafını təmin etmək mümkün deyil.

Sovet İttifaqı dövründə 15 müttəfiq respublika sırasında sosial-iqtisadi vəziyyətinə görə sonuncu yerlərdə qərarlaşan Azərbaycan SSR Heydər Əliyevin 1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilməsindən sonra dinamik inkişaf yoluna qədəm qoymuş, bütün sahələrdə müsbət göstəricilər əldə edərək yüksəlişə nail olmuşdur. Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən konseptual xarakterli, stateji əhəmiyyətli tədbirlər sayəsində iqtisadiyyatın müxtəlif sektorlarında canlanma baş vermiş, bütün sahələrdə peşəkar kadr potensialı formalaşdırılmış, dövlət dilinə və milli-mənəvi dəyərlərə diqqət artırılmış, milli özünüdərk prosesi geniş vüsət almışdır. Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi də Azərbaycanın inkişafına xüsusi diqqət və qayğı göstərmiş, respublikamızı bir çox təhdidlərdən, o cümlədən ermənilərin məkrli planlarından qorumuş, ölkənin sosial-iqtisadi bazasının və elmi-mədəni potensialının güclənməsinə nail olmuşdur. Beləliklə, SSRİ dövründə Heydər Əliyevin məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində Azərbaycanın gələcək müstəqilliyinin əsasları formalaşmışdır.

Ümummilli Liderimiz Naxçıvan MSSR Ali Sovetinin sədri kimi də Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərmişdir. Həmin dövrdə ilk dəfə olaraq Naxçıvanda üçrəngli bayrağımızın qaldırılması, Naxçıvan MSSR adından "sovet" və "sosialist" sözlərinin çıxarılması, 20 Yanvar faciəsinə siyasi-hüquqi qiymət verilməsi, muxtar respublika əhalisinin SSRİ-nin saxlanılmasına dair keçirilən referendumda iştirak etməməsi, 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması kimi mühüm siyasi əhəmiyyətə malik tarixi hadisələr Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır.

Məlumdur ki, Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etsə də, bu, formal xarakter daşıyırdı. Yəni kağız




üzərində. De-yure müstəqillik olsa da, real suverenlikdən söhbət gedə bilməzdi. Bilirsiniz ki, müstəqilliyin ilk illərində dövlətçilik mənafelərinin arxa planda qalması, hakimiyyətin bir qrup savadsız və səriştəsiz, bəzən də xəyanətkar şəxslərin əlinə keçməsi ölkədə idarəolunmaz bir vəziyyətin yaranmasına, daxili qarşıdurmaların geniş vüsət almasına gətirib çıxarmışdı. Başqa sözlə, o zaman siyasi səlahiyyət sahibi olan hakimiyyət komandası respublikanı idarə etmək iqtidarında olmadığından ölkədə bütün sahələri əhatə edən dərin böhran hökm sürür, torpaqlarımızın Ermənistan tərəfindən işğalı davam edirdi. Belə bir şəraitdə xalqımız, o cümlədən dəyərli ziyalılarımız Azərbaycanı faciəyə sürükləyən bu ağır durumdan çıxış yolunu yalnız Heydər Əliyevin hakimiyyətə qayıtmasında - ölkəyə rəhbərlik etməsində görürdü. Təsadüfi deyil ki, 1992-ci il oktyabrın 16-da Azərbaycan xalqının qabaqcıl nümayəndələrindən olan 91 nəfər ziyalı,- hansı ki Ulu Öndər daha sonra onları "xalqımızın qızıl fondu" adlandırmışdı, - Heydər Əliyevə müraciət ünvanlayaraq Yeni Azərbaycan Partiyasının yaradılmasını və ona rəhbərlik etməyə razılıq verməsini xahiş etdilər. Xalqımızın müqəddəratının həll olunduğu taleyüklü məqamlarda öz həyatını belə təhlükə altına ataraq tarixi-siyasi məsuliyyəti daim üzərinə götürən və var qüvvəsi ilə çalışan görkəmli dövlət xadimi bu dəfə də Azərbaycanın taleyinə biganə qalmadı, vətənin dar günündə xalqın səsinə səs verdi. Beləliklə, 1992-ci il noyabrın 21-də müstəqil Azərbaycanın çağdaş dövlətçilik tarixində yeni səhifə açan əlamətdar hadisə baş verdi. Naxçıvanda 550 nəfərə yaxın nümayəndənin iştirakı ilə partiyanın təsis qurultayı keçirildi, Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Yeni Azərbaycan Partiyasının yaranmasından sonra yeni Azərbaycan quruculuğu istiqamətində gərgin fəaliyyətə başlandı. Partiya xalqın dəstəyi, Heydər Əliyevin sarsılmaz iradəsi və uğurlu siyasəti nəticəsində qısa müddət ərzində dövlətin siyasi sütununa çevrildi. Xaos və anarxiyanın hökm sürdüyü, Azərbaycanın taleyinin sual altında olduğu mürəkkəb bir dövrdə - 1993-cü il iyunun 15-də Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşu təmin olundu, xalqımız və dövlətimiz üçün yeni tarixi mərhələ başlandı. 1993-cü il oktyabrın 3-də xalqın iradəsi ilə Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev dövrün çağırışlarına və reallıqlarına cavab verən, milli maraqlara əsaslanan siyasətlə dövlət müstəqilliyinin möhkəmlənməsinə və qarşıda duran hədəflərin reallaşdırılmasına müvəffəq oldu. Atəşkəsə nail olmaqla ölkədə sabitlik və vətəndaş həmrəyliyi təmin edildi, ardıcıl islahatlar həyata keçirildi, neft strategiyası uğurla reallaşdırıldı, sistemli ordu quruculuğu prosesinə başlandı, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması və erməni yalanlarının ifşası istiqamətində beynəlxalq müstəvidə ardıcıl addımlar atıldı, ölkənin



xarici əlaqələri yüksələn xətlə inkişaf etdirildi. Ən mühüm məqamlardan biri budur ki, Ümummilli Liderin uzaqgörən siyasəti ölkəmizdə vətəninə sıx bağlı olan, milli dəyərlərin və ənənələrin, dövlətçilik maraqlarının qorunmasına xüsusi həssaslıqla yanaşan, cəmiyyət həyatının müxtəlif sahələrində yüksək fəallıq göstərən və respublikamızı beynəlxalq müstəvidə layiqincə təmsil edən gəncliyin yetişməsi və milli ideya əsasında - vətənpərvərlik ruhunda tərbiyəsində müstəsna rol oynadı.

Bir sözlə, güclü, nüfuzlu, qətiyyətli, milli maraqlara və milli-mənəvi dəyərlərə əsaslanan siyasət yürüdən liderin - Ulu Öndər Heydər Əliyevin titanik fəaliyyəti sayəsində Azərbaycan öz suverenliyinin və müstəqilliyinin bərpası istiqamətində əmin addımlarla irəliləyərək milli hədəflərini uğurla reallaşdırdı, dövlətçiliyin ictimai-siyasi dayaqlarını gücləndirdi, siyasi taleyinin sahibi olan qüdrətli dövlətə çevrildi, tarixi nailiyyətlər qazanaraq tərəqqi yoluna qədəm qoydu. Ona görə də Ulu Öndərin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illər yüksəliş dövrü kimi xarakterizə olunur.

Heydər Əliyevin müasir dövlətçilik tariximizdə əvəzsiz yeri və müstəsna rolu danılmaz bir faktdır və o, Azərbaycan xalqının yaddaşında vətənpərvər şəxsiyyət, sarsılmaz iradəyə malik qətiyyətli, qüdrətli və xilaskar lider, müdrik dövlət xadimi, millətinə və xalqına ürəkdən bağlı olan böyük azərbaycanlı kimi qalmışdır. Bu gün Ümummilli Liderin ideyaları və zəngin dövlətçilik irsi əsasında inkişaf yolunda inamla və qətiyyətlə addımlayan müasir Azərbaycan dövləti tarixinin ən qüdrətli dövrünü yaşayır, ölkəmizin müasir mənzərəsi, dünyanın siyasi sistemində yeri və rolu xalqımızda ruh yüksəkliyi, gələcəyə böyük inam yaradır.

**- Ulu Öndərin xalqımız qarşısında müstəsna xidmətlərindən ətraflı bəhs etdiniz. Siyasi analitiklər, tədqiqatçılar belə hesab edirlər ki, Azərbaycanın parlaq gələcəyi yalnız Heydər Əliyev siyasətinin dövrün tələblərinə uyğun ardıcıl olaraq davam etdirilməsi sayəsində mümkündür. Siz necə düşünürsünüz?**

- Tarixi şəxsiyyətlərin misilsiz xidmətləri təkcə yaşadıqları və fəaliyyət göstərdikləri dövrlə məhdudlaşmır, onların ideyaları və irsi həm zaman, həm də məkan anlayışının fövqündədir. Eynilə, Heydər Əliyev ideyaları, Ulu Öndərin zəngin dövlətçilik irsi kimi. Heydər Əliyev siyasəti bütün dövrlərdə həm xalqımızın mənəvi-siyasi sərvəti, həm də Azərbaycan dövlətinin inkişafını, parlaq perspektivini təmin edən dəyərlər sistemi kimi aktuallığını qoruyub, bu gün də belədir. Onun ideyaları təkcə Azərbaycanın inzibati-coğrafi sərhədləri - respublikamızın hüdudları ilə məhdudlaşmır, dünya azərbaycanlılarını birləşdirən məfkurəyə çevrilib. Bu baxımdan, siyasi varisliyin təmin olunması Heydər Əliyev irsinin parlaq təzahürü - Azərbaycanın dövlətçilik tarixinin müstəsna hadisələrindəndir.

2003-cü il  oktyabrın 15-də cənab İlham Əliyev xalqın iradəsi ilə Prezident seçildikdən sonra ölkəmizin inkişafında yeni bir mərhələnin əsası qoyulmuşdur. Prezident İlham Əliyev Ulu Öndərin ideyalarına və irsinə yüksək sədaqət nümayiş etdirərək dövlətçilik mənafelərini qətiyyətlə qorumuş, xalqa verdiyi vədləri şərəflə və müvəffəqiyyətlə yerinə yetirmişdir.

Cənab İlham Əliyevin rəhbərliyi dövründə ölkəmizin müstəqilliyinin möhkəmlənməsini təmin edən mühüm faktorlardan biri inkişafın milli modelinin yaradılmasıdır. Azərbaycan dövləti Prezident İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi 20 il ərzində bütün sahələrdə - siyasi, iqtisadi, hərbi, mədəni, humanitar istiqamətlərdə, diplomatiya müstəvisində möhtəşəm uğurlar qazanaraq Cənubi Qafqazın lider dövlətinə çevrilmiş, regional və beynəlxalq arenada mövqeyini möhkəmləndirmişdir. Bütün bu nailiyyətlərin məntiqi nəticəsi, kulminasiya nöqtəsi isə 30 ilə yaxın müddət ərzində Ermənistanın hərbi-siyasi əsarətində olan torpaqlarımızın işğaldan azad olunmasıdır.

Heç şübhəsiz, Azərbaycanın ərazi bütövlüyünün təmin edilmə-

si, tarixi ədalətin bərpası müstəsna əhəmiyyətə malik Zəfər salnaməsi Heydər Əliyev siyasətinin təntənəsidir. Bütün cəbhələrdə - istər hərb meydanında, istər diplomatiya müstəvisində, istərsə də informasiya platformasında tarixi qələbənin memarı və müəllifi olan Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycanın möhtəşəm Zəfərini dəyərləndirərkən "Müzəffər xalq kimi gəldik, öz ərazi bütövlüyümüzü bərpa etdik və milli ləyaqətimizi bərpa etdik" - demişdir. Bir sözlə, Heydər Əliyev ideyaları əsasında zirvələrə yüksələn xalqımız onun ən böyük arzusunu yerinə yetirmiş, XXI əsrdə tarixin yaddaşına "Qalib Azərbaycan!" adını həkk etdirmişdir.

Postmüharibə dövründə atılan addımlar, həyata keçirilən tədbirlər həm Azərbaycan iqtisadiyyatının inkişafını, həm tarixi qələbənin siyasi-diplomatik müstəvidə möhkəmlənməsini, həm də ölkənin beynəlxalq mövqeyinin güclənməsini şərtləndirir. Bir sözlə, Azərbaycan yeni mərhələdə növbəti strateji hədəflərinə doğru inamla irəliləyir, Heydər Əliyev tərəfindən əsası qoyulan inkişaf və Zəfər yolu ölkəmizi yeni zirvələrə yüksəldir.

Şübhə yoxdur ki, Azərbaycan bundan sonra da yeni uğurlar və qələbələr qazanacaq, dünya müasir müstəqil dövlətimizin banisinin ideyalarının reallığa çevrilməsi nəticəsində daha möhtəşəm Azərbaycana şahidlik edəcək.

**- Tahir müəllim, Yeni Azərbaycan Partiyasının yaranmasını zəruri edən amillərdən və Heydər Əliyevin liderliyi ilə partiyanın siyasi məsuliyyəti öz üzərinə götürürək avanqard gücə - lider partiyaya çevrilməsindən söhbət açdınız. Şübhəsiz, Yeni Azərbaycan Partiyası Ulu Öndərin Azərbaycan xalqına böyük mənəvi-siyasi mirasıdır. Partiyanın Heydər Əliyev ideyalarına əsaslanan fəaliyyəti barədə nə deyə bilərsiniz? "Heydər Əliyev İli" çərçivəsində YAP tərəfindən hansı tədbirlər reallaşdırılır?**

- Müasir müstəqil Azərbaycanın tərəqqisi, möhtəşəm tarixi nailiyyətlər qazanaraq qüdrətli dövlətə çevrilməsi Yeni Azərbaycan Partiyasının fəaliyyəti ilə bilavasitə bağlıdır. YAP öz siyasi məsuliyyətini və tarixi missiyasını dərk edərək ölkəmizin inkişafı istiqamətində üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməklə mühüm təşəbbüslər irəli sürmüş və möhtəşəm müvəffəqiyyətlərə imza atmışdır. Ulu Öndərin siyasi mirası olan Yeni Azərbaycan Partiyası bu gün də Heydər Əliyevin əbədiyaşar ideyalarının reallaşmasında vacib rol oynayır.

Bəlli olduğu kimi, böyük Zəfərdən sonra istər ölkəmizdə, istərsə də bütövlükdə regionda yaranmış yeni reallıqlar fonunda Prezident İlham Əliyevin rəhbərliyi ilə gerçəkləşdirilən sistemli və çoxşaxəli islahatlar kursunun mühüm tərkib hissəsi kimi 2021-ci il martın 5-də Yeni Azərbaycan Partiyasının VII qurultayı keçirilmişdir. Həmin qurultayda qəbul edilən qərarların icrası istiqamətində görülən işlər həm partiyamızın, həm də respublikamızın inkişafı baxımından böyük önəm daşıyır, Yeni Azərbaycan Partiyasının ictimai-siyasi dayaqlarını gücləndirir, nüfuzunu artırır və xalq-iqtidar birliyinin daha da möhkəmlənməsini şərtləndirir.

Xüsusi qeyd etmək lazımdır ki, bu gün Yeni Azərbaycan Partiyası Heydər Əliyev irsinin təbliği, dahi şəxsiyyətin əbədiyaşar ideyalarının cəmiyyətin bütün təbəqələrindən olan insanlara çatdırılması istiqamətində ardıcıl fəaliyyət göstərir. Partiyanın proqramında Heydər Əliyev irsinin təbliği və təşviqi əsas hədəflərdən biri kimi təqdim edilib. "Heydər Əliyev İli" çərçivəsində həyata keçirilən tədbirlər də bu baxımdan xüsusi əhəmiyyətə malikdir.

Xatırlatmaq istəyirəm ki, Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı "Heydər Əliyev İli" çərçivəsində görüləcək işləri və ümumi fəaliyyət istiqamətlərini müəyyən edən Tədbirlər Planı hazırlamış və sənəd partiyanın İdarə Heyətinin qərarı ilə təsdiq edilmişdir. Tədbirlər Planında Heydər Əliyev şəxsiyyətinin müasir dövlətçilik tariximizdə müstəsna yerinin və rolunun tədqiq olunması, müstəqil Azərbaycanın inkişaf yolunun hərtərəfli öyrənilməsi və təbliği məqsədi ilə il ərzində müsabiqələrin, aksiyaların, görüşlərin, elmi-praktik konfransların və digər bir sıra tədbirlərin keçirilməsi öz əksini tapmışdır.

Hazırda respublikamızın bütün bölgələrində Ulu Öndərin "Nə qədər ki Azərbaycan var, mən də varam" kəlamının deviz olaraq istifadə edildiyi silsilə tədbirlər reallaşdırılmaqdadır. Bu tədbirlər Heydər Əliyev şəxsiyyətinin dövlətçilik tariximizdə müstəsna yerinin və rolunun dərindən öyrənilməsi, onun ideya-siyasi xəttinin, zəngin dövlətçilik irsinin və əbədiyaşar ideyalarının aşılanması, gənc nəslin milli-mənəvi dəyərlər əsasında, vətənpərvərlik və dövlətə sədaqət ruhunda yetişməsi baxımından olduqca mühüm əhəmiyyətə malikdir.

Heydər Əliyev irsi Azərbaycan xalqının tükənməz mənəvi-siyasi sərvətidir. Çünki dahi şəxsiyyətin ideyaları Azərbaycanı zirvələrə yüksəldib, bu gün isə qüdrətli və qalib dövlətimizin parlaq gələcəyini təmin edir. Ona görə də Ümummilli Liderin ideyalarına sadiq olan Azərbaycan xalqı müstəqil dövlətimizin banisi, müdrik dövlət xadimi Heydər Əliyevin əziz xatirəsini daim ehtiramla və minnətdarlıqla yad edir. Nə qədər ki Azərbaycan var, Heydər Əliyev də olacaqdır və Ulu Öndərin əziz xatirəsi vətən sevgisindən qidalanan hər bir azərbaycanlının qəlbində əbədi yaşayacaqdır!

# Heydər Əliyev Azərbaycanda demokratik seçki sisteminin müəllifidir



**Məzahir Pənahov**
Azərbaycan Respublikası
Mərkəzi Seçki Komissiyasının sədri, professor

Azərbaycanda azad, ədalətli və şəffaf seçkilərin keçirilməsinə, vətəndaşların seçki hüquqlarının daha səmərəli realizə olunmasına imkan yaradan yeni seçki sisteminin tətbiqi müstəqil dövlətimizin memarı, dahi siyasətçi və dövlət xadimi, Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. 1990-cı illərin ortalarından etibarən uğurla gerçəkləşdirilməyə başlanan bu sistem mühüm dövlət təsisatlarının formalaşdırılmasına və siyasi proseslərdə demokratik dəyərlərin sürətli inkişafına təkan verdi.

Ulu Öndərimizin tarixi xilaskarlıq missiyasını üzərinə götürərək hakimiyyətə qayıdışından sonra ən mühüm taleyüklü addımlarından biri bilavasitə öz rəhbərliyi ilə Azərbaycanın ilk Konstitusiyasının hazırlanması oldu. Müasir dünyanın sivil dəyərlərinə və qanun yaradıcılığı təcrübəsinə, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrinə, milli və ümumbəşəri prinsiplərə söykənən Konstitusiya 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul olundu. Əsas qanunumuz xalqın yekdil və sarsılmaz iradəsini əks etdirməklə Azərbaycan dövlətinin fəaliyyətinin başlıca prinsiplərini, demokratik dövlət quruculuğu prosesinin prioritet istiqamətlərini, vətəndaşların fundamental hüquq və vəzifələrini müəyyən etdi.

1995-ci ildə keçirilən Konstitusiya referendumundan sonra ortaya çıxan ümdə məsələlərdən biri də seçki sisteminin müasir tələblərə uyğun yenidən qurulması idi. Ümummilli Liderimizin keçmiş totalitar sistemdən "miras" qalan formal seçki təcrübəsinin aradan qaldırılması məqsədi ilə lazım olan bütün zəruri tədbirlərin həyata keçirilməsinə yönəlmiş ciddi və birmənalı dəstəyi ölkədə demokratik seçki ənənəsinin bərqərar olması üçün ardıcıl və qətiyyətli islahatlara başlanılmasında ən həlledici amil oldu.

Müstəqilliyin bərpasından sonra parlamentə keçiriləcək ilk seçkilərlə əlaqədar 1995-ci il iyunun 14-də Heydər Əliyevin imzaladığı "Azərbaycan Respublikasının ali qanunvericilik orqanına seçkilərin keçirilməsi ilə bağlı tədbirlər haqqında" Fərmanda bir sıra mühüm addımlar, o cümlədən seçicilərin qeydiyyatının aparılması və məlumatların MSK-ya təqdim olunması məsələləri öz əksini tapmışdı. Praktiki baxımdan atılan bu kimi addımlarla yanaşı, seçkilərin hazırlanıb keçirilməsi üçün müvafiq hüquqi çərçivənin formalaşdırılması da böyük önəm kəsb edirdi. Ümummilli Liderimizin tövsiyələrinin tərkib hissəsi olaraq avqustun 12-də qəbul edilən "Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər haqqında" Qanun seçkilərlə bağlı bir sıra mütərəqqi məqamları özündə ehtiva etməklə gələcəkdə seçki qanunvericiliyi bazasının yaradılması və daha da təkmilləşdirilməsi üçün təməl rolunu oynayırdı.

Həmin dövrdə beynəlxalq ictimaiyyətin Azərbaycanda gedən proseslərə marağı durmadan artırdı, inkişaf dinamikası baxımın-



dan regionun qabaqcıl ölkəsi kimi respublikadakı demokratikləşmə prosesi də diqqət mərkəzində idi. Müstəqilliyin ilk illərindən etibarən ölkədə tüğyan edən vətəndaş qarşıdurması, separatçılıq meyilləri və hərc-mərclik Ulu Öndərimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra qlobal miqyaslı dövlət xadiminə xas məharətlə həyata keçirdiyi daxili və xarici siyasət nəticəsində qısa müddət ərzində aradan qaldırılaraq gündən-günə möhkəmlənən dayanıqlı ictimai-siyasi stabilliyə nail olundu ki, bu da azad və ədalətli seçkilərin keçirilməsində təməl faktordur. Beləliklə, növbəti mərhələdə peşəkar seçki institutunun təsis olunması və müvafiq qanunvericilik bazasının hazırlanması üçün şərait yarandı. Belə addımlardan biri də Ümummilli Liderimizin 1998-ci il mayın 15-də təsdiq etdiyi qanunla Mərkəzi Seçki Komissiyasının (MSK) daimi fəaliyyət göstərən dövlət orqanı kimi formalaşdırılması və onun fəaliyyət təminatı olmuşdur. İnkişaf etmiş demokratik ölkələrin mütərəqqi seçki təcrübəsinin öyrənilməsi, tətbiqi və seçki prosesində şəffaflığın daha geniş təminatı, beynəlxalq müşahidəçilərin fəaliyyətinə hərtərəfli yardım, habelə MSK-nın beynəlxalq əlaqələrinin inkişaf etdirilməsi məqsədi ilə Ulu Öndərimizin tövsiyəsi əsasında 1998-ci ildə MSK Katibliyinin strukturunda Beynəlxalq əlaqələr idarəsi də təsis olundu. Bununla da növbəti mərhələ üçün ölkənin seçki sistemində beynəlxalq praktika öyrənilməklə mövcud olan ən qabaqcıl təcrübəyə əsaslanan islahatlara başlanıldı, nüfuzlu beynəlxalq təşkilatlarla kifayət qədər uğurlu əlaqələrin qurulmasının əsası qoyuldu. Qeyd etmək lazımdır ki, ölkəmizdə keçirilən seçkilərdə gələcəkdə əldə olunan nailiyyətlərdə və seçki praktikasının ilbəil daha da təkmilləşdirilərək hazırkı inkişaf səviyyəsinə çatmasında beynəlxalq əlaqələr mühüm rol oynadı.

Avropaya inteqrasiya yolunda Azərbaycanın xarici siyasət kursunun prioritetlərindən biri də Avropa Şurasına üzvlük məsələsi olduğundan, 1998-ci ildən etibarən Avropa Şurası və onun müxtəlif qurumları ilə yaxından əməkdaşlığa başlandı. 1995-ci ildə qəbul olunmuş Konstitusiyada hüquqi statusu müəyyən edilən və yeni təsisat olan bələdiyyələrə 1999-cu il dekabrın 12-də keçirilən ilk seçkilər ərəfəsində MSK Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresi ilə sıx əməkdaşlıq edirdi. MSK-nın Beynəlxalq əlaqələr idarəsi və digər müvafiq qurumlar tərəfindən formalaşdırılan davamlı münasibətlər çərçivəsində yerli özünüidarəetmə və bələdiyyələrə seçkilərin keçirilməsi ilə bağlı Avropa Şurasına üzv ölkələrin də qabaqcıl praktikaları hərtərəfli araşdırılır və müsbət təcrübələrin istifadə edilməsi üçün Komissiyaya təqdim olunurdu. Seçkilərin keçirilməsində mövcud beynəlxalq normalar, habelə 1985-ci ildə Avropa Şurası tərəfindən qəbul olunmuş və bu quruma üzv dövlətlər üçün təməl sənədlərdən hesab edilən "Yerli özünüidarə haqqında" Avropa Xartiyasında öz əksini tapmış prinsiplər əsas götürülürdü.

**1995-ci ildə keçirilən Konstitusiya referendumundan sonra ortaya çıxan ümdə məsələlərdən biri də seçki sisteminin müasir tələblərə uyğun yenidən qurulması idi. Ümummilli Liderimizin keçmiş totalitar sistemdən "miras" qalan formal seçki təcrübəsinin aradan qaldırılması məqsədi ilə lazım olan bütün zəruri tədbirlərin həyata keçirilməsinə yönəlmiş ciddi və birmənalı dəstəyi ölkədə demokratik seçki ənənəsinin bərqərar olması üçün ardıcıl və qətiyyətli islahatlara başlanılmasında ən həlledici amil oldu.**

2000-ci ildən etibarən Azərbaycanın seçki praktikası yeni inkişaf mərhələsinə qədəm qoydu və daha təkmil məqamları ehtiva edən institusional mexanizmlərin reallaşdırılmasına başlanıldı. Yetkin demokratiyanın mövcud olduğu ölkələrin seçki təcrübəsi öyrənilərək 2000-ci il noyabrın 5-də Milli Məclisə seçkilərdə mütərəqqi standartların tətbiqi əhəmiyyətli dərəcədə genişləndirildi. Məhz bu səpkili yanaşma sözügedən seçkilərin uğurla hazırlanıb həyata keçirilməsini şərtləndirən amillərdən biri oldu. Ulu Öndərimizin xarici siyasət kursuna uyğun Avropaya inteqrasiya xətti artıq öz məntiqi nəticəsini verməkdə idi və respublikamız Avropa Şurasına üzvlük üçün müraciət ünvanlamışdı. Bu ərəfədə təşkilata üzv olmaq istəyən dövlətlər üçün müəyyənləşdirilən qəbul prosedurlarına əsasən, respublikamızda da bu qurumun bir sıra strukturları ilə müxtəlif istiqamətlər üzrə məsləhətləşmələr və monitorinqlər aparılırdı. Həmin sahələr arasında ən mühümlərindən biri də seçkilər idi. Bütün bu proseslərlə bağlı layihələrin rəvan şəkildə reallaşdırılması məqsədi ilə MSK 2000-ci il parlament seçkiləri ərəfəsində ixtisaslaşmış beynəlxalq və xarici təşkilatlarla, xüsusilə ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu ilə də intensiv əməkdaşlıq edirdi. Milli Məclisə keçirilən bu seçkilərin səciyyəvi xüsusiyyəti bir sıra yeni norma və prinsiplərin tətbiqi, daha yüksək şəffaflığın təmin olunması, beynəlxalq ictimaiyyətin proseslərə böyük marağı və digər bu




kimi məqamların mövcudluğu idi. Şübhəsiz, 2000-ci ildəki proseslər Azərbaycanın Avropa ailəsinə üzvlüyünə doğru atılan həlledici və yekun addımlardan biri kimi xarakterizə oluna bilər.

Müstəqilliyini qısa müddət əvvəl qazanmış respublikamızda seçki islahatlarının və yeni seçki sisteminin formalaşması istiqamətində görülən işlər prosesin mütəşəkkilliyinin təmin olunmasına yönəlmişdi. İlk əvvəllər seçki iştirakçıları arasında öz hüquq və vəzifələri barədə məlumatın yetərincə olmaması bəzi neqativ hallar ortaya çıxarırdı. 1990-cı illərin sonu, 2000-ci illərin əvvəllərində bu kimi hallara daha çox şahid olurduq. Seçki komissiyaları və müvafiq qurumlar həmişə bu cür məsələləri diqqət mərkəzində saxlayır, lazımi tədbirlər görürdülər. Bəzən belə hallar seçkilər zamanı səsvermənin nəticələrinin ləğvinə və digər adekvat tədbirlərin görülməsinə gətirib çıxarırdı. Ölkə Prezidenti Heydər Əliyev bu kimi məsələlərə həssaslıqla yanaşır, dövlət qurumlarının seçkilərlə bağlı qanunvericilikdə nəzərdə tutulan vəzifələrini yerinə yetirmələrini daim diqqət mərkəzində saxlayırdı. 1999-cu il bələdiyyə seçkilərində vətəndaşların seçki hüquqlarının pozulmasına yol verilməsinə və seçki prosesinə müdaxilə üçün şərait yaratdığına görə Bakı şəhəri Nərimanov Rayon İcra Hakimiyyətinin başçısı, 2000-ci ildə Milli Məclisə keçirilmiş seçkilərdə proseslərə qanunazidd müdaxilə etdiklərinə, seçicilərin öz iradəsini azad və sərbəst ifadə etmələrinə maneçilik törətdiklərinə və seçki komissiyalarının fəaliyyətlərinə təzyiq göstərdiklərinə görə Bakı şəhəri Yasamal rayonu, eləcə də Hacıqabul və İmişli rayonlarının icra hakimiyyəti başçıları Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə tutduqları vəzifədən azad olundular. Kəskin xarakterli bu kimi cavab tədbirləri seçki hüququnun norma və prinsiplərinin daha etibarlı təminatına rəvac verdi.

Ulu Öndərimizin ölkənin siyasi həyatına və xalqın seçiminə böyük önəm verməsini əks etdirən hadisə kimi 2000-ci ildə Milli Məclisə keçirilən seçkilərdə siyasi partiyaların iştirakına daha geniş şərait yaradılması ilə bağlı MSK-ya etdiyi müraciəti də xüsusi vurğulamaq yerinə düşər. O dövrdə siyasi



partiya quruculuğuna yeni başlanılmışdı və partiyaların seçkilərdə iştirak baxımından təcrübəsi yetərincə deyildi. Seçkilərdə iştirakla əlaqədar on iki siyasi partiya və siyasi partiyalar bloku tərəfindən MSK-ya təqdim olunmuş sənədlərin yoxlanılması nəticəsində onlardan yalnız beşinin namizədlər siyahısının qeydə alınması üçün hüquqi əsaslar müəyyən edilmişdi. Bu əsnada ölkə Prezidenti Heydər Əliyev partiyanın parlamentdə təmsilçiliyinin onun sosial bazası və əhali tərəfindən dəstəklənməsindən asılılığını vurğulayaraq siyasi partiyaların proporsional seçki sistemi üzrə seçkilərdə iştirakı məsələsinə bir daha baxılması imkanının müzakirə olunması barədə MSK-ya müraciət etdi. Komissiya müraciəti geniş və hərtərəfli müzakirə edərək belə nəticəyə gəldi ki, seçkilərdə iştirak etmək niyyətində olan bu partiyaların seçkilərə qatılması o dövr üçün azad və ədalətli seçkilərin keçirilməsinə xidmət etmiş olar. Beləliklə, humanizm prinsipini əsas götürərək seçki təcrübəsi böyük olmayan və seçkilərə qatılmaq istəyən digər partiyalara da şərait yaratmaq məqsədi ilə MSK onların da vahid namizədlər siyahısının qeydə alınmasına qərar verdi. Haqqında danışdığımız bu addım məhz demokratik islahatlara əlavə stimul verən amil kimi dəyərləndirildi.

Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanda seçki sisteminin təkmilləşdirilməsinə, onun informasiya təminatının müasir tələblər səviyyəsində qurulmasına, seçki prosesində aşkarlığın və şəffaflığın təmin olunmasına ən böyük töhfələrindən biri də 3 sentyabr 2000-ci il tarixli Sərəncamı ilə Dövlət Avtomatlaşdırılmış "Seçkilər" İnformasiya Sisteminin yaradılması idi. Sərəncamda əks olunan tövsiyəyə əsasən, MSK qısa müddətdə "Seçkilər" İnformasiya Mərkəzi yaratdı, sistemə aid tələbləri və ondan istifadə qaydalarını müəyyənləşdirdi, sistem daxilində informasiya mübadiləsi və təhlükəsizliyi təmin etmək üçün müvafiq qurumlarla birgə zəruri tədbirlər gördü.

2000-ci il noyabrın 2-də Azərbaycan Respublikasının Prezidenti, Ümummilli Liderimiz Heydər Əliyevin bilavasitə iştirakı ilə "Seçkilər" İnformasiya Mərkəzinin rəsmi açılışı həyata keçirildi. Dövlət başçısı təməli yeni qoyulan sistemin fəaliyyəti və mərkəzdə quraşdırılan müasir texniki avadanlıqlarla, həmçinin iş şəraiti ilə yaxından tanış oldu.

Ulu Öndərimizin birbaşa təşəbbüsü ilə yaradılan "Seçkilər" İnformasiya Mərkəzində seçkilərə dair məlumatların toplanaraq açıq internet şəbəkəsində yerləşdirilmə-

si yerli və beynəlxalq ictimaiyyətin, müşahidəçilərin, eləcə də digər seçki subyektlərinin operativ məlumatlandırılmasına, seçki komissiyalarının fəaliyyətində aşkarlığın təmin edilməsinə geniş imkanlar yaradılması üçün bir başlanğıc idi. Cəsarətlə vurğulamaq olar ki, bu təcrübə seçki praktikasının daha da təkmilləşdirilməsində çox mühüm addım kimi, hətta inkişaf etmiş ölkələrdəki mövcud seçki sistemləri üçün də mütərəqqi bir yenilik idi.

Sözügedən sistemin qurulması və müasir texnologiyalardan istifadə vahid seçicilər siyahısının rəqəmsallaşdırılması, tərtib edilməsi və dəqiqləşdirilməsi, seçkilər (referendum) zamanı seçicilərin fəallığı, səsvermənin nəticələri və seçkilərin yekunları barədə məlumatların onlayn rejimdə aşağı seçki komissiyaları tərəfindən yuxarı seçki komissiyalarına ötürülməsində, habelə bütün sadalananlar barədə informasiyanın, xüsusən seçkilərin ilkin nəticələrinin operativ şəkildə yerli və beynəlxalq ictimaiyyətə çatdırılmasında müstəsna rol oynadı.

Məhz "Seçkilər" İnformasiya Mərkəzinin yaradılması və bu istiqamətdə reallaşdırılan digər layihələr qarşıdakı illərdə Azərbaycanda keçirilən seçkilərlə bağlı rəqəmsal ani məlumat mübadiləsi ilə yanaşı, yüksək innovativ texnologiyalar və informasiya-kommunikasiya sistemlərinin müvəffəqiyyətlə tətbiqinə rəvac verdi.

2001-ci ildən etibarən Avropa Şurasının tamhüquqlu üzvü olan respublikamızda bir sıra sahələri əhatə edən qanunvericiliyin o dövr üçün mövcud mütərəqqi standartlara uyğunlaşdırılması prosesi həyata keçirilirdi. Bu qəbildən olan hüquqi addımların sırasına seçkilərin keçirilməsində mühüm əhəmiyyət daşıyan hüquqi bazanın möhkəmləndirilməsi və prosedurların vahid formada tənzimlənməsi də daxil idi. Məhz bu məqsədlə Prezident Heydər Əliyevin təşəbbüsü ilə seçki və referendum zamanı tətbiq olunan prosedurların unifikasiyası üçün 2001-ci ildən yeni seçki məcəlləsinin hazırlanmasına başlanıldı. Həmin ilin ortalarından ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu, Seçki Sistemləri üzrə Beynəlxalq Fond (İFES), növbəti mərhələdə isə Avropa Şurası Venesiya Komissiyası ilə səmərəli əməkdaşlıq şəraitində seçkilərin əsas istiqamətverici funksiyasını həyata keçirən Seçki Məcəlləsi işlənib hazırlandı. Beynəlxalq təşkilatlar, ictimaiyyət nümayəndələri, siyasi partiyalar, vətəndaş cəmiyyəti institutları və ekspertlərin də iştirakı ilə Seçki Məcəlləsinin layihəsinə dair geniş ictimai müzakirələr keçirildi. Nəticədə ortaya çıxan konstruktiv təkliflər də nəzərə alınmaqla Seçki Məcəlləsi ilə iş başa çatdırıldı, Milli Məclisdə müzakirə olunaraq qəbul edildi və 2003-cü il mayın 27-də Azərbaycan Respublikasının Prezidenti Ulu Öndərimiz Heydər Əliyevin fərmanı ilə qüvvəyə mindi.

**2001-ci ildən etibarən Avropa Şurasının tamhüquqlu üzvü olan respublikamızda bir sıra sahələri əhatə edən qanunvericiliyin o dövr üçün mövcud mütərəqqi standartlara uyğunlaşdırılması prosesi həyata keçirilirdi. Bu qəbildən olan hüquqi addımların sırasına seçkilərin keçirilməsində mühüm əhəmiyyət daşıyan hüquqi bazanın möhkəmləndirilməsi və prosedurların vahid formada tənzimlənməsi də daxil idi. Məhz bu məqsədlə Prezident Heydər Əliyevin təşəbbüsü ilə seçki və referendum zamanı tətbiq olunan prosedurların unifikasiyası üçün 2001-ci ildən yeni Seçki Məcəlləsinin hazırlanmasına başlanıldı.**

Seçki Məcəlləsi nüfuzlu beynəlxalq qurumlar və ekspertlər tərəfindən mütərəqqi qanun kimi müsbət qiymətləndirildi. Müxtəlif beynəlxalq qurumlar məcəllənin ən qabaqcıl təcrübələrə əsaslanan demokratik seçkilərin (referendumların) keçirilməsi üçün hərtərəfli hüquqi bazanı təmin etdiyinə və müfəssəl olmasına dair öz rəylərini bildirdilər.

Ümummilli Liderimizin təşəbbüsü ilə işlənib hazırlanan Seçki Məcəlləsi seçki hüququnun əsas norma və prinsiplərini, seçki komissiyalarının formalaşdırılması və fəaliyyət istiqamətlərini özündə əks etdirməklə prezident, Milli Məclis və bələdiyyə seçkilərinin, həmçinin referendumun keçirilməsi qaydalarını müəyyənləşdirdi. Yeni məcəllə seçkilərdə aşkarlığın və şəffaflığın daha da artırılmasını, müxtəlif seçki subyektlərinin hüquqlarının əhatəli təminatını, namizədlərin ədalətli və bərabər seçkiqabağı təşviqatının aparılmasını və digər zəruri fəaliyyətləri aydın, hərtərəfli təsbit etdi. Bununla da, 1990-cı illərin sonundan etibarən atılan məqsədyönlü addımlar yeni Seçki Məcəlləsi ilə ölkədə seçki sisteminin bərqərar olmasına gətirib çıxardı.

Bu gün tam əminliklə qeyd etmək olar ki, Ulu Öndərimiz Heydər Əliyev tərəfindən təməli qoyulan, hazırda qətiyyətlə davam etdirilən və möhkəm siyasi iradəyə söykənən seçki sistemi azad, ədalətli seçkilərin keçirilməsini tam təmin edir, hərtərəfli inkişaf etmiş modern dövlət kimi beynəlxalq aləmdə layiqli mövqeyə ucalmış Azərbaycan Respublikasında demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu proseslərində olduqca mühüm rol oynayır.

# Heydər Əliyev və həmkarlar ittifaqları




**Səttar Möhbalıyev**
Milli Məclisin deputatı,
Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri

Azərbaycanın şanlı tarixini şərəfləndirən həm də xalqımızın tarixində dərin iz buraxmış şəxsiyyətlərdir. Belə böyük insanlar yalnız millətin taleyini düşünmüş, xalqın müstəqilliyi, azad və sərbəst bir dövlətdə yaşaması üçün çalışmış, vətən anlayışını ən ali dəyər hesab etmiş, bu yolda yorulmadan mücadilə aparmışlar. Xalqımız taleyində mühüm rol oynamış həmin şəxsiyyətlərin adını daim uca tutmuş, tarixinin ən şanlı səhifələrində qızıl hərflərlə həkk edib, ana xəttini millət, dövlət və vətən anlayışları təşkil edən ölməz ideyalarını qoruyaraq gələcək nəsillərə ərməğan etmişdir. Xalqımızı zamanın ağır sınaqlarından üzüağ çıxaran, xoşbəxt həyat bəxş edən də məhz həmin ideyalardır ki, bu gün də milli sərvətimiz kimi qorunub saxlanılır.

Belə dahi şəxsiyyətlərdən biri gördüyü misilsiz işlərlə Azərbaycanın Ümummilli Liderinə çevrilmiş Heydər Əliyev fenomenidir. Bir insan olaraq Heydər Əliyevin düşüncələrinin, fəaliyyətinin mərkəzində yalnız Azərbaycan və onun müdrik xalqı var idi. O, ancaq xalqı üçün yaşadı, nə etdisə, bu ölkənin vətəndaşlarının xoşbəxtliyi, səadəti üçün etdi. Ulu Öndərin çoxşaxəli fəaliyyətinin, gördüyü genişmiqyaslı işlərin nəticəsi bu gün dünyada şan-şöhrəti dillər əzbəri olan müstəqil Azərbaycandır.

Ulu Öndərin bütün sahələrdə olduğu kimi, Azərbaycan Həmkarlar İttifaqlarının həyatında da əvəzolunmaz xidmətləri vardır. Hələ sovet Azərbaycanına rəhbərlik etdiyi dövrdə həmkarlar ittifaqlarını daim dəstəkləyirdi, onun inkişafına çalışırdı, müdrik məsləhət və öyüdlərini onlardan əsirgəmirdi. Məhz Ulu Öndərin respublikaya rəhbərliyi dövründə həmkarlar ittifaqları uzaqlaşdığı təməl prinsiplərinə yenidən dönməyə başladı, sıralar genişləndi. Əsas diqqət əməkçilərin həyat şəraitinin yaxşılaşdırılmasına, onların hüquqlarının qorunmasına və müdafiəsinə, istirahətlərinin təşkilinə və sağlamlıqlarının artırılması istiqamətində tədbirlərə yönəldildi. İstirahət mərkəzi və sanatoriyaların sayı artırıldı, yeni uşaq düşərgələri yaradıldı.

Daim həmkarlar ittifaqlarını diqqətində saxlayan Heydər Əliyev respublikaya rəhbərliyi dövrünə təsadüf etmiş qurumun 3-cü qurultayında iştirak edib geniş nitq söyləmiş, həmkarlar ittifaqlarının fəaliyyətini, cəmiyyətin inkişafındakı rolunu və xidmətlərini yüksək qiymətləndirmişdir.

1980-ci ildə Azərbaycanda həmkarlar ittifaqlarının yaranması münasibətilə keçirilən yubiley tədbirində çıxış edən Ulu Öndər həmkarlar ittifaqları işçilərinin və fəallarının bir qrupunu fəxri fərmanlarla təltif etmişdir. O, iştirak etdiyi həmkarlar ittifaqlarının bütün tədbirlərində əmək adamlarının hüquqlarının və mənafelərinin qorunmasının, istehsalatda demokratik prinsipləri inkişaf etdirməyin vacib olduğunu bildirmişdir. Həmin illərdə Heydər Əliyev baş çəkdiyi bütün zavod və fabriklərdə, idarə və təşkilatlarda həmkarlar ittifaqlarının fəaliyyəti ilə maraqlanır, gördüyü işlərlə yaxından tanış olur, bu istiqamətdə təşki-



latlanmanın vacibliyini önə çəkirdi. Müəssisə rəhbərlərinə həmkarlar ittifaqlarının fəaliyyətinə dəstək verməyi, onların rəy və təkliflərini nəzərə almağı, qaldırdıqları problemlərin mütləq həll edilməsini xüsusi olaraq tapşırırdı.

Əminliklə deyə bilərik ki, 1970-1980-ci illər həmkarlar ittifaqlarının fəaliyyətində ən səmərəli dövr hesab olunur. Həmin illərdə bu quruma fantastik sürətlə axın müşahidə edilirdi. 1980-ci ilin yanvar ayının statistik məlumatlarına görə, Azərbaycan Həmkarlar İttifaqları Şurasının sıralarında 2 milyon 270 min üzv var idi. Bu, 1970-ci illə müqayisədə 871 min nəfər çox üzv demək idi.

Həmin dövrlərdə həmkarlar ittifaqları, demək olar ki, ictimai həyatın bir çox sahələrini əhatə etməklə təyinatından asılı olmayaraq, bütün müəssisələrdə fəaliyyət göstərirdi. Bu da insanların əmək hüquqlarının qorunması ilə yanaşı, onların birləşməsinə, sosiallaşmasına mühüm töhfə verir, müstəqilliyə gedən yolda siyasi ideyaların formalaşması, təşkilatlanma, birgə mübarizə üçün xüsusi əhəmiyyət kəsb edirdi.

1991-ci ildə Sovet İttifaqının süqutu ilə Azərbaycan xalqı 71 il əvvəl itirdiyi müstəqilliyini bərpa etdi. Müstəqilliyin əldə olunmasından sonra ictimai-siyasi həyatın bütün sahələrindəki kimi, həmkarlar ittifaqları təşkilatlarının fəaliyyətində də xeyli dəyişiklik baş verdi, demokratik və aşkarlıq prinsipləri daha geniş tətbiq olunmağa başladı. Müstəqilliyin ilk vaxtlarında bütün sahələri bürüyən böhran ictimai təşkilatların fəaliyyətinə də mənfi təsir etmişdi. İstehsal müəssisələrinin, zavodların, fabriklərin fəaliyyətini dayandırması, işsizliyin artması, o cümlədən ölkənin ictimai-siyasi həyatında hökm sürən gərginlik ən böyük və kütləvi təşkilat olan həmkarlar ittifaqlarının fəaliyyətinin miqyasını və keyfiyyətini aşağı salmış, sosial bazasını zəiflətmişdi. Ölkə rəhbərliyi tərəfindən bu təsisata laqeyd münasibət isə vəziyyəti daha da ağırlaşdırırdı. Hətta o dövrdə AHİK-in mülkiyyəti hesab olunan inzibati binanı da əlindən almağa çalışırdılar. Həmkarlar ittifaqlarının qətiyyəti və atdığı qabaqlayıcı addımlar onların bu istəklərini həyata keçirməyə imkan vermədi.

1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi əsasında yenidən ölkə rəhbərliyinə gəlməsi ilə bütün sahələrdə olduğu kimi, ictimai təşkilatların, o cümlədən həmkarlar ittifaqlarının da həyatında köklü dəyişikliklər baş verdi, ictimai proseslərdə səlahiyyətləri çərçivəsində fəal iştirak etmək imkanları artdı. Bu da demokratik dövlət quruculuğu yolunda Ulu Öndərin həyata keçirməyə başladığı tədbirlərin tərkib hissəsi idi. Əvvəlki hökumətin qeyri-qanuni sərəncam və göstərişləri, o cümlədən sağlamlıq və müalicə ocaqlarının Səhiyyə Nazirliyinin balansına verilməsi ilə bağlı qərarları ləğv edildi. Həmkarlar ittifaqlarının mülkiyyəti olan kurort-turizm obyektlərinin genişləndirilməsinə, idman obyektlərinin, inzibati bina-



rın yenidən qurulmasına başlanıldı. Bu qurumun uzun illər ərzində formalaşmış maddi-texniki bazasının dağıdılmasının qarşısı alındı.

İlk gündən həmkarlar ittifaqları Ulu Öndərin xilaskarlıq missiyasını dəstəkləyərək əmək adamlarının sosial, iqtisadi və mədəni həyatının, rifah halının yaxşılaşdırılması, hüquq və mənafelərinin qorunması, həmçinin ölkənin bütövlüyü, ictimai-siyasi, sosial-iqtisadi böhranın aradan qaldırılması üçün öz funksiya və səlahiyyətləri çərçivəsində aktiv mübarizəyə qoşuldu.

AHİK üzvlərin rəyini nəzərə alaraq və maraqlarından çıxış edərək 1993-cü ildə Heydər Əliyevin ölkə Prezidentliyinə namizədliyini birmənalı şəkildə dəstəklədi. Prezident seçkilərində Heydər Əliyevin namizədliyinin müdafiə olunması barədə həmkarlar ittifaqları orqanlarının bütün təklifləri bəyənilmiş və AHİK tərəfindən sahə həmkarlar ittifaqları respublika komitələrinə müvafiq tədbirlərin görülməsi üçün tövsiyələr verilmişdi.

Ulu Öndərin bütün siyasi fəaliyyətinin mərkəzində Azərbaycan dövlətinin maraqları, xalqın sosial-iqtisadi vəziyyətinin yüksəldilməsi, ölkədə demokratik prinsiplərin bərqərar olması, azərbaycançılıq ideologiyasının və vətəndaş cəmiyyətinin inkişafı dururdu. O, bu yolda həmkarlar ittifaqlarının fəaliyyətini nəzərə alaraq hər zaman bu quruma dövlət qayğısı göstərir, zəhmətkeşlərin hüquq və mənafelərinin qorunması, maraqlarının təmin olunması, sosial vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində fəaliyyətini dəstəkləyirdi.

Prezident seçilməsindən cəmi bir il sonra - 1994-cü ildə Ulu Öndərin şəxsi təşəbbüsü və nəzarəti altında keçmiş postsovet məkanında ilk dəfə olaraq Azərbaycanda "Həmkarlar ittifaqları haqqında" Qanun qəbul edildi. Beləliklə, qurumun cəmiyyətdəki fəaliyyətinin yeni prinsiplər əsasında tənzimlənməsində və vətəndaşlarımızın sosial-iqtisadi mənafelərinin qorunmasında fəal iştirakı üçün hüquqi baza yaranmış oldu.

Bu, Heydər Əliyevin demokratik yöndə inkişaf edən vətəndaş cəmiyyətinə verdiyi dəyər idi. Bununla da təşkilatın fəaliyyəti genişləndirildi, əvvəlki nüfuzu özünə qaytarıldı, üzvlərinin sayı artmağa başladı, qarşısında ictimai təşkilat kimi sərbəst və müstəqil imkanlar açıldı.

"Həmkarlar ittifaqları haqqında" Qanun öz məzmununa görə bir çoxlarına demokratiyanı sözdə yox, işdə dəstəkləməyin parlaq nümunəsi oldu. Azərbaycanda bu sənədlə yanaşı, əməkçilərin sosial müdafiəsinə yönəlmiş çoxsaylı digər normativ hüquqi aktların qəbulu, Beynəlxalq Əmək Təşkilatının əsas konvensiyalarının Milli Məclis tərəfindən ratifikasiyası həmkarlar ittifaqlarının normal işləməsi üçün münbit şərait yaratdı. Bununla da istər Milli Məclisdə, istərsə də Nazirlər Kabinetində



əhalinin sosial-iqtisadi problemlərinin həlli ilə bağlı mühüm məsələlərə dair qərarların qəbulunda onun verdiyi təkliflər önəmli yer tuturdu.

Bu qanunla da əmək, sosial, iqtisadi məsələlər barədə qanunvericilik aktlarının hazırlanmasında həmkarlar ittifaqlarının hüquqları tanındı, beynəlxalq həmkarlar ittifaqları hərəkatının tərkib hissəsinə çevrildi ki, bu da bütün nailiyyətlərin təməlində Ulu Öndər Heydər Əliyevin diqqət və qayğısının dayandığını göstərirdi.

Ulu Öndərin siyasi kursunu layiqincə davam etdirən cənab İlham Əliyev tarixin ən qüdrətli Azərbaycanının yaradıcısı olaraq, həm də xalqın sosial-iqtisadi rifahının yüksəlməsini təmin etdi, bütün sahələrdə mühüm uğurlar qazandı. Bu gün ölkənin daxili və xarici siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır və ölkə Prezidentinin qəbul etdiyi bütün qərarlarda dövlətimizin və xalqımızın mənafeyi aydın əks olunur. AHİK olaraq böyük qürur və iftixar duyuruq ki, 2003, 2008, 2013 və 2018-ci illərdə keçirilmiş prezident seçkilərində cənab İlham Əliyevin namizədliyini irəli sürmüş və onu birmənalı olaraq dəstəkləmişik. Cənab İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi ilk günlərdən həmkarlar ittifaqlarının fəaliyyətini dəstəkləyib, yüksək dövlət qayğısı göstərib və bu himayədarlıq həmkarlar ittifaqlarının işində yeni mərhələnin yaranmasına təkan verib. Ölkə başçısı daim həmkarlar ittifaqları ilə maraqlanır, insanların iqtisadi və sosial mənafelərinin, əmək hüquqlarının qorunması sahəsində rolunu yüksək qiymətləndirir, AHİK-in qurultaylarına səmimi fikirlər əks etdirən təbrik məktubları göndərir, qiymətli tövsiyələrini verir, qurumun fəallarını dövlət təltifləri ilə mükafatlandırır.

Eyni zamanda, cənab İlham Əliyev AHİK-in yubiley və qurultay təbriklərində, beynəlxalq həmkarlar ittifaqları birliklərinin rəhbərləri ilə görüşlərində dəfələrlə həmkarlar ittifaqlarının güclü qüvvə olduğunu, Azərbaycanda işçilərin əmək hüquqlarının qorunması, sosial problemlərin həlli, sosial ədalət prinsiplərinə riayət edilməsi, işəgötürənlərlə işçilər arasında münasibətlərin tənzimlənməsi istiqamətində mühüm rolunu qeyd edir, xüsusilə ölkəmizdə əhalinin rifah halının daha da yaxşılaşdırılması, sosial müdafiəsinin təmin edilməsi, iş yerlərinin yaradılması ilə bağlı həyata keçirilən sosialyönümlü tədbirlərin mühüm əhəmiyyət daşıdığını vurğulayır. Həmkarlar ittifaqlarının üzvləri cəmiyyətin müxtəlif sahələrində dövlətə və xalqa sədaqətlə xidmət edirlər.

Bu gün Azərbaycanın Həmkarlar İttifaqları Konfederasiyası Ulu Öndər Heydər Əliyev irsinə sarsılmaz sədaqət, Prezident İlham Əliyev fəaliyyətinə birmənalı dəstək nümayiş etdirir. Bu əqidəmizdən və mövqeyimizdən əsla dönmədik və ona əbədi olaraq sadiq qalacağıq.

# Hesablama Palatasının yaradılmasında və fəaliyyətində Heydər Əliyevin rolu



**Vüqar Gülməmmədov**
Azərbaycan Respublikası
Hesablama Palatasının sədri

Keçmiş SSRİ dağıldıqdan sonra 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edildi və ölkəmiz həm siyasi, həm də iqtisadi sahədə öz suveren hüquqlarını müdafiə etmək, müstəqil siyasət yeritmək imkanı qazandı. İttifaq daxilində olarkən uzun müddət bürokratik sovet idarəçilik metodu ilə işləyən Azərbaycan sərbəst bazar iqtisadiyyatına keçid etməli idi. Lakin müstəqilliyimizin ilk illərində ölkədə gələcək inkişaf üçün əsas olacaq transformasiya proseslərini həyata keçirmək mümkün deyildi, üstəgəl də çox ciddi siyasi, iqtisadi və hərbi kataklizmlərlə üz-üzə qalmışdıq. Ölkə daxilində siyasi qarşıdurmalar və respublikanı bürüyən xaos, vətəndaş müharibəsi, XX yüzillikdə ikinci dəfə qazanılan müstəqilliyimizin itirilməsi təhlükəsi islahatlara başlamağı və sərbəst bazar iqtisadiyyatına keçid etməyi mümkünsüzləşdirir, hətta mövcud iqtisadiyyatı da sürətlə zəiflədirdi. Qeyd edilən çətinliklərlə yanaşı, azad bazar iqtisadiyyatına keçidin normativ hüquqi bazası da mövcud deyildi. Ölkəni ilk növbədə getdikcə dərinləşən xaosdan xilas etmək lazım idi.

Belə mürəkkəb və ziddiyyətli dönəmdə Bakıdan məqsədli şəkildə uzaqlaşdırılan və buna görə də Naxçıvanda yaşamaq məcburiyyətində qalan Heydər Əliyev xalqın son ümid yerinə çevrildi. Paytaxtda və bölgələrdə milyonlarla insan Ulu Öndərin Azərbaycanın siyasi rəhbərliyinə gəlməsini təkid edirdi. Xalqına qəlbən bağlı olan Heydər Əliyev vətənin ağır günündə məsuliyyəti öz üzərinə götürməyə razılıq verdi və 1993-cü ilin yayında Naxçıvandan Bakıya qayıtdı. Ümummilli Liderin bu qayıdışı Azərbaycanın qurtuluş tarixinin başlanğıcı oldu və dahi şəxsiyyət 1993-cü il oktyabrın 3-də xalqın etimadı ilə Azərbaycan Respublikasının Prezidenti seçildi.

Müdrik siyasətçi olan Heydər Əliyevin qəbul etdiyi qərarlar, verdiyi tapşırıqlar və gördüyü tədbirlər sayəsində qısa müddətdə ölkədə sabitlik bərqərar olundu, gələcək inkişaf üçün fundamental əsaslar yarandı. Amma həm də ölkənin gələcək inkişafına, qarşıda duran məsələlərin həllinə nail olmaq üçün iqtisadiyyatı böhrandan xilas etmək lazım idi. Uzun illərin idarəçilik təcrübəsinə malik olan Heydər Əliyev vaxt itirmədən bir sıra iqtisadi islahatlara başladı.

Heydər Əliyevin sədrliyi ilə 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə (referendum) Azərbaycan Respublikasının yeni Konstitusiya layihəsi qəbul edildi. Ana Qanunda "İqtisadi inkişaf və dövlət" adlı 15-ci maddə yer aldı. Həmin maddədə qeyd edilirdi: "Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət edir. Azərbaycan dövləti bazar münasibətləri əsasında sosialyönümlü iqtisadiyyatın inkişafına şərait yaradır, azad sahibkarlığa təminat verir, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol vermir".

Bu maddənin ölkənin əsas hüquqi aktına daxil edilməsi, əlbəttə, təsadüfi deyildi. Ulu Öndər bununla iqtisadi sahədə reallaşdırılacaq irihəcmli proqramların hüquqi bazasının əsasını qoyurdu. Qeyd edilən müddəa dövlətin iqtisadiyyatı inkişaf etdirmək istiqamətində rəhbər prinsip olmaqla əsas yol xəritəsini müəyyən etdi və bu istiqamətdə qanunvericilik ba-



zasının yaradılması üçün təxirəsalınmaz addımlar atıldı. Hazırda da iqtisadi qanunvericilik sahəsində mövcud olan bütün normativ hüquqi bazanın əsas mənbəyini məhz bu müddəa təşkil edir.

1994-cü il sentyabrın 20-də "Gülüstan" sarayında Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu və birbaşa təşəbbüskarlığı, böyük səyləri ilə Xəzərin Azərbaycan sektorundakı "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərin su qatlarındakı neftin birgə işlənməsi haqqında "məhsulun pay bölgüsü" barədə beynəlxalq konsorsium imzalandı. Beynəlxalq əhəmiyyəti nəzərə alınmaqla həmin müqavilə "Əsrin müqaviləsi" adlandırıldı və müqaviləyə dünyanın 13 ən məşhur neft şirkəti qoşuldu. Bu məşhur neft müqaviləsi sayəsində Azərbaycan keyfiyyətcə yeni bir inkişaf mərhələsinə qədəm qoydu. Həmin dövrdə iqtisadi artım, itirilmiş potensial bərpa edildi, işsizlik əhəmiyyətli dərəcədə azaldıldı, çoxsaylı uğurlara nail olundu, ölkənin strateji valyuta ehtiyatları formalaşdırıldı, bank sisteminə etimad bərpa edildi, dövlət büdcəsinin dayanıqlı maliyyələşmə mənbələri müəyyənləşdirildi.

Yenə də Ümummilli Liderin təşəbbüsü ilə 1998-ci ilin sentyabr ayında 9 ölkənin - Azərbaycan, Türkiyə, Gürcüstan, Ukrayna, Moldova, Rumıniya, Bolqarıstan, Özbəkistan və Qırğızıstanın dövlət başçılarının, 13 beynəlxalq təşkilatın və 32 dövlətin nümayəndə heyətlərinin iştirakı ilə tarixi İpək Yolunun bərpasına həsr olunmuş beynəlxalq konfrans təşkil edildi. Konfransın yekunu olaraq, Avropa İttifaqının TRASEKA proqramı əsasında "Avropa-Qafqaz-Asiya dəhlizinin inkişafı üzrə beynəlxalq nəqliyyat haqqında Əsas Çoxtərəfli Saziş" imzalanaraq Bakı Bəyannaməsi qəbul edildi. Bununla da, Azərbaycan tarixi İpək Yolunun bərpa edilməsinə öz töhfəsini verməklə layihənin əsas inkişaf istiqamətinin müəyyənləşdirilməsində mühüm rol oynadı. Bunun nəticəsidir ki, hazırda Azərbaycan Çin Xalq Respublikasının təşəbbüsü ilə gerçəkləşən "İpək Yolu iqtisadi kəməri" layihəsinin əsas iştirakçılarından biri qismində çıxış edir.

1999-cu ilin noyabrında Türkiyənin İstanbul şəhərində keçirilmiş Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Sammitində Amerika Birləşmiş Ştatları, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistanın dövlət başçıları tərəfindən Bakı-Tbilisi-




Ceyhan əsas ixrac neft kəmərinin çəkilişi haqqında dövlətlərarası beynəlxalq müqavilə imzalandı. 2002-ci il sentyabrın 18-də Bakıda Səngəçal terminalında Ümummilli Lider Heydər Əliyevin, Türkiyə və Gürcüstanın dövlət başçılarının iştirakı ilə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinin təməl daşı qoyuldu və 2006-cı ildə yekunlaşdırılaraq istifadəyə verildi.

Azərbaycanın enerji resurslarının nəqlində Bakı-Tbilisi-Ceyhan istiqamətinin seçilməsi Heydər Əliyevin uzaqgörən siyasətinin bəhrəsi idi. Çünki ölkəmiz bu kəmərlə bir dünya "arteriya"sı kimi qlobal neft kəmərləri sisteminə daxil oldu.

Ümummilli Lider güclü siyasətçi və dövlət xadimi kimi yaxşı bilirdi ki, dövlətin siyasi müstəqilliyi onun iqtisadi müstəqilliyindən asılıdır. Məhz buna görə də onun işləyib hazırladığı və əsasını qoyduğu yeni neft strategiyası Azərbaycanın həm siyasi, həm də iqtisadi müstəqilliyinin rəmzi sayılır. "Əsrin müqaviləsi" və digər kontraktlar çərçivəsində ölkəmizin valyuta gəlirlərinin artması sürətli iqtisadi inkişafın maliyyələşdirilməsinə geniş imkanlar açdı.

Sonradan ildən-ilə artan valyuta ehtiyatlarının çoxalması maliyyə nəzarəti sahəsində də mövcud mexanizmlərin təkmilləşdirilməsi zərurətini yaratdı. Ulu Öndər Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının layihəsi hazırlanarkən "Azərbaycan Respublikası Milli Məclisinin işinin təşkili"ndən bəhs edən 92-ci maddəsinə "Hesablama Palatası" adlı qurumu əlavə etdirməklə Palatanın konstitusion statusunun müəyyən edilməsində əsas təşəbbüskar qismində çıxış etdi. Heydər Əliyev bununla dövlət maliyyə nəzarəti sisteminin yenidən qurulmasında və təkmilləşdirilməsində yaranan zərurəti nəzərə alaraq nəzarət mexanizminin formalaşdırılması, tətbiq edilməsi və inkişafında mühüm əhəmiyyət kəsb edən tədbirlər həyata keçirməyə başladı. Onun tərəfindən iki mühüm sənəd - 1996-cı il iyunun 17-də "İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" və 1999-cu il yanvarın 7-də "Dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında" fərmanlar imzalandı.

Ulu Öndər tərəfindən həyata keçirilən iqtisadi məzmunlu islahatlar daxili, yəni müvafiq icra hakimiyyəti orqanı olaraq Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə yanaşı, hakimiyyətin icra hakimiyyəti qoluna aid olma-

yan, Azərbaycan parlamenti qarşısında hesabat verən Hesablama Palatası tərəfindən kənar dövlət maliyyə nəzarətinin həyata keçirilməsini zəruri etdi. Bu məqsədlə 1999-cu ildə "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilməklə ölkədə kənar dövlət maliyyə nəzarəti institutunun əsası qoyuldu.

Bundan sonra 2001-ci ildə Heydər Əliyev dövlət başçısı olaraq qanunvericilik təşəbbüsü hüququndan istifadə edərək Hesablama Palatasının fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması məqsədi ilə qanuna əlavə və dəyişikliklər təklif etdi. Həmin yeniliklərlə qanunda Hesablama Palatasının Azərbaycan Respublikasının Milli Məclisinə hesabat verən, daimi fəaliyyət göstərən dövlət büdcə-maliyyə nəzarəti orqanı kimi təşkilati və funksional müstəqilliyə malik olması, eyni zamanda, fəaliyyət dairəsinin genişləndirilməsi və Palata üzvlərinin hüquqi statusunun yüksəldilməsi istiqamətində müddəalar öz əksini tapdı. Azərbaycan Respublikası Hesablama Palatasının işinin təşkili və tənzimlənməsinin əsaslarının müəyyənləşdirilməsi məqsədi ilə 2002-ci il martın 5-də Azərbaycan Respublikası Hesablama Palatasının Daxili Nizamnaməsi təsdiq edildi.

2008-ci ildə Heydər Əliyev siyasi irsinin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə "Hesablama Palatası haqqında" Qanuna əlavə və dəyişikliklər edilməklə Palatanın fəaliyyət istiqamətləri üzrə hüquqlar daha da genişləndirildi. Yeni dövrün çağırışları nəzərə alınmaqla 2018-ci ildə "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Bu qanunun qəbul edilməsi ilə Palata öz inkişafının yeni mərhələsinə qədəm qoydu.

Bəhs olunan qanun Hesablama Palatasının statusunu, fəaliyyətinin hüquqi əsaslarını, idarəetmə və təşkilati strukturunu, habelə dövlət vəsaitinin və digər dövlət əmlakının qanunauyğun, məqsədyönlü və səmərəli istifadəsinə dövlət nəzarətinin təmin edilməsi sahəsində kənar dövlət maliyyə nəzarətinin obyektlərini və digər tərəflərlə münasibətlərini tənzimləyir. Bu qanun beynəlxalq təcrübəyə uyğun olaraq Hesablama Palatasının fəaliyyətinin təşkil edilməsinə hüquqi platformanı təmin etməklə dövlət vəsaitlərinin qorunmasında, bu vəsaitlərin nəticəli və qənaətli istifadəsində Hesablama Palatasının məsuliyyətini dəfələrlə artırdı. Yeni sənədlə Palatanın fəaliyyətinin hüquqi əsaslarını Azərbaycan Respublikasının Konstitusiyası və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələr, "Hesablama Palatası haqqında" Qanun və digər normativ hüquqi aktların təşkil edilməsi ilə yanaşı, Ali Audit Orqanlarının Beynəlxalq Təşkilatının (INTOSAI) standartları əsasında hazırlanmış metodiki sənədlərin tərtib edilməsi üçün hüquqi mexanizmlər yaradıldı. Həmin qanuna əsasən Hesablama Palatası kənar dövlət maliyyə nəzarəti fəaliyyətini "Hesablama Palatası haqqında" Qanuna və INTOSAI standartları əsasında Palata tərəfindən hazırlanan metodiki sənədlərə uyğun həyata keçirir. Bu hüquqi mexanizm Palatanın fəaliyyətinin beynəlxalq audit standartlarına uyğunlaşdırılması və daha effektiv inteqrasiya etməsi istiqamətində lazımı tədbirlərin görülməsinə əsas olmuşdur. Bu qanunla beynəlxalq əməkdaşlıq Palatanın dörd əsas fəaliyyət istiqamətindən biri kimi qeyd edildi. Bu səbəblə Hesablama Palatası INTOSAI (Ali Audit Orqanlarının Beynəlxalq Təşkilatı), EUROSAI (Avropa Ali Audit İnstitutlarının Təşkilatı), ASOSAI (Asiya Ali Audit Qurumları Təşkilatı) və ECOSAI (İqtisadi Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin Ali Audit Qurumları Təşkilatı) kimi beynəlxalq audit təşkilatlarına üzv oldu və onlarla sıx əməkdaşlıq etməyə başladı.

> **Ulu Öndər tərəfindən həyata keçirilən iqtisadi məzmunlu islahatlar daxili, yeni müvafiq icra hakimiyyəti orqanı olaraq Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə yanaşı, hakimiyyətin icra hakimiyyəti qoluna aid olmayan, Azərbaycan parlamenti qarşısında hesabat verən Hesablama Palatası tərəfindən kənar dövlət maliyyə nəzarətinin həyata keçirilməsini zəruri etdi. Bu məqsədlə 1999-cu ildə "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilməklə ölkədə kənar dövlət maliyyə nəzarəti institutunun əsası qoyuldu.**

2001-ci ildə Ümummilli Liderin təşəbbüsü ilə yaradılmış Hesablama Palatası fəaliyyət göstərdiyi 20 ildən artıq müddət ərzində qanunla müəyyən olunmuş hüquqlarından istifadə etməklə üzərinə düşən vəzifələrin öhdəsindən uğurla gəldi və Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət çərçivəsində fəaliyyətini davam etdirir.

Məsuliyyət hissimlə bildirmək istəyirəm ki, ölkə başçısı tərəfindən "Heydər Əliyev İli" elan olunmuş 2023-cü ildə ali audit orqanı kimi üzərimizə düşən bütün vəzifələrin öhdəsindən layiqincə gəlməyə çalışacaq, Ulu Öndər və onun layiqli davamçısı olan Prezident İlham Əliyev tərəfindən dövlət maliyyəsi sahəsində bizə göstərilmiş etimadı doğrultmaq üçün əlimizdən gələni edəcəyik.

# Ümummilli Liderin insan hüquq və azadlıqlarının təmin edilməsi sahəsindəki tarixi missiyası



**Səbinə Əliyeva**
Azərbaycan Respublikasının
İnsan hüquqları üzrə müvəkkili
(ombudsman)

Ulu Öndər Heydər Əliyevin şəxsiyyəti, dühası, görkəmli ictimai-siyasi, dövlət xadimi kimi idarəçilik fəaliyyəti ölkəmizin zəngin və çoxəsrlik dövlətçilik tarixi salnaməsində müstəsna yer tutur. Belə ki, müstəqil, müasir və qüdrətli Azərbaycan dövlətinin bərqərar olunması, möhkəmləndirilməsi və inkişafı üçün möhkəm iqtisadi, siyasi və hüquqi əsaslar məhz Ümummilli Lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə mümkün olmuşdur və bu şərəfli missiya onun siyasi kursunun layiqli davamçısı, müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ulu Öndərimizin müasir dövlətçilik tariximizdə yaratdığı zəngin və tükənməz salnamənin tədqiqi, öyrənilməsi, təbliği və tətbiqinə hələ uzun illər boyu böyük ehtiyacın olacağı, bundan indiki və gələcək nəsillərin faydalanacağı hamıya məlumdur. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci mərhələsinə (1969-1982-ci illər) nəzər salarkən aparılmış təhlillər deməyə əsas verir ki, o, ölkəmizdə qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsinə, respublikanın iqtisadi inkişaf göstəricilərinə görə, keçmiş SSRİ miqyasında ilk yerlərdən birini tutmasının təmin edilməsinə, həmin dönəmdə müstəqilliyimizə zəmin yaradan uzaqgörən və müdrik qərarların qəbul olunmasına mühüm töhfələr bəxş etmişdir.

1978-ci il aprelin 21-də qəbul olunmuş Azərbaycan SSR Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi Ümummilli Lider Heydər Əliyevin iradəsi sayəsində mümkün olmuşdur. Əsas Qanunumuzda xalqın mənəvi irsinin, xüsusən də dilinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün hüquqi əsasların müəyyən edilməsi həmin dövrdə olduqca ciddi və çox cəsarətli addım idi.

Heydər Əliyevin 1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə xilaskarlıq missiyasında qayıdışından sonra isə ölkəmizdə qanunun aliliyi təmin olunmuş, vətəndaşların hüquq və azadlıqlarının qorunması prioritet istiqamət kimi müəyyən edilmişdir.

Ulu Öndər ölkə parlamentinə rəhbərlik etdiyi dövrdə (1993-cü il iyunun 15-dən oktyabrın 10-dək) ordu quruculuğu sahəsində mühüm qərarlar, eləcə də “Şəhid adının əbədiləşdirilməsi və şəhid ailəsinə edilən güzəştlər haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Bütövlükdə həmin dövrdə 120-dən artıq qanun və qərarlar qəbul olunmuşdur.

Ümumilikdə, aparılmış araşdırmalar və statistik məlumatlar onu deməyə əsas verir ki, 1993-cü il oktyabrın 10-dan 2002-ci il dekabrın 30-dək Milli Məclis tərəfindən qəbul edilən 1715 qanun və qərardan 975-i məhz Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə qəbul olunmuşdur.

Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət qurucu-




luğu, nizami ordunun yaradılması Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna və misilsiz xidmətləridir.

Qeyd etmək lazımdır ki, dövlət müstəqilliyimizi bərpa etdikdən sonra ölkəmizdə əsas insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi məqsədi ilə həyata keçirilən hüquqi islahatlar ardıcıl və davamlı xarakter almışdır. 1993-cü ildə ilk dəfə olaraq ölkəmizdə ölüm cəzasının icrasına veto qoyulmuşdur. Heç şübhəsiz ki, əsas insan və vətəndaş hüquq və azadlıqlarının qorunması sahəsində tarixi bir nailiyyət, hüququn və humanizmin təntənəsi  olan bu qərar məhz görkəmli dövlət xadimi Heydər Əliyevin təşəbbüsü ilə gerçəkləşdirildi. Ümummilli Lider tərəfindən 1998-ci il fevralın 10-da “Azərbaycan Respublikasında ölüm cəzasının ləğv olunması ilə əlaqədar Azərbaycan Respublikasının Cinayət, Cinayət-Prosessual və İslah-Əmək Məcəllələrinə dəyişikliklər və əlavələr edilməsi haqqında” Azərbaycan Respublikasının Qanunu imzalandı və beləliklə də, ölkəmizdə ölüm cəzası ləğv edildi.

1998-ci ilin dekabrında BMT-nin Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 50 illik yubileyinə həsr olunmuş tədbirdə dahi şəxsiyyət ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qərarına qiymət verərkən demişdir: “Ölüm hökmünün ləğv olunması hansısa bir cinayətkara rəhm etmək məqsədi daşımır. Bu, ümumbəşəri, ümumxalq əhəmiyyətinə malik bir məsələdir. Ölüm hökmünün ləğv olunması onu göstərir ki, respublikamız, müstəqil Azərbaycan dövləti humanist siyasət aparan bir dövlətdir”.

Bu cəzanın ləğvi ölkəmizin hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğu yolunda olduğunu, bu yolda inamla inkişaf etdiyini bir daha təsdiqlədi. Müstəqil dövlətçilik ənənələrinin yaşadılması və möhkəmləndirilməsi, cəmiyyətin mənən saflaşdırılması məqsədi ilə ayrı-ayrı sahələr üzrə mövcud hüquq pozuntularını, o cümlədən cinayət əməllərini doğuran səbəb və şəraitin aşkar edilib onlara qarşı mübarizə tədbirlərinin gücləndirilməsi və həmin əməllərlə mübarizədə qabaqlayıcı tədbirlərin görülməsi Ulu Öndərin fəaliyyətinin ən prioritet istiqamətlərindən biri idi.

Milli Məclisin insan hüquq  və azadlıqlarının qorunması ilə bağlı qəbul etdiyi hüquqi aktların və sənədlərin böyük bir hissəsi  də məhz Heydər Əliyev tərəfindən parlamentin müzakirəsinə verilmiş qanun layihələri, konvensiyalar və sazişlərdir. Onlardan “İnsan hüquq və əsas azadlıqlarının müdafiəsi haqqında”, “İşgəncələrin və qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftarın və ya cəzanın qarşısının alınması

haqqında" Avropa konvensiyalarını, "Yerli özünüidarəetmə haqqında" Avropa Xartiyasını təsdiq edən sənədləri, "Vətəndaşlıq haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında", "Dini etiqad azadlığı haqqında" və digər qanunları misal göstərmək olar.

Azərbaycanda demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu, insan hüquqlarının inkişafı, müstəqil məhkəmədənkənar hüquq müdafiə mexanizmi olan Ombudsman təsisatının əsasının qoyulması ilə bağlı hüquqi islahatların həyata keçirilməsi də əziz xatirəsi xalqımız tərəfindən daim dərin hörmətlə yad edilən dahi şəxsiyyət Heydər Əliyevin müstəsna xidmətləri ilə birbaşa bağlıdır.

Ümummilli Lider Azərbaycan Prezidenti kimi 1998-ci il fevralın 22-də "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman imzalamış, eyni zamanda, bundan irəli gələn məqsəd və vəzifələri nəzərə alaraq 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə müvafiq sahədə ilk strateji sənəd olan "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nı təsdiq etmişdir. Hər iki sənəddə ilk dəfə olaraq Azərbaycanda insan hüquqları üzrə səlahiyyətli müvəkkil təsisatının yaradılması ilə bağlı müddəalar öz əksini tapır, habelə insan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində digər zəruri tədbirlərin reallaşdırılması nəzərdə tutulurdu. Onun diqqət və qayğısı nəticəsində həmin sənədlərin icrasının təmini çərçivəsində ölkəmizdə insan hüquqlarının müdafiəsi mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirildi və yeni məhkəmədənkənar hüquq müdafiə mexanizmi olan Ombudsman təsisatının səmərəli fəaliyyət göstərməsi üçün hüquqi və maddi-texniki baza yaradıldı.

Ulu Öndərin qanunvericilik təşəbbüsü ilə 2001-ci il 28 dekabr tarixində "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanunu qəbul olundu, 2002-ci il 5 mart tarixində həmin qanunun tətbiq edilməsi barədə fərman imzalandı, bir sıra qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edildi.

Bu gün ölkədə Ombudsman təsisatı müstəqil məhkəmədənkənar hüquq müdafiə mexanizmi, milli insan hüquqları institutu kimi Konstitusiyamızda və Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş, dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquq və azadlıqlarının bərpa edilməsi və Konstitusiya Qanunu ilə müəyyən olunmuş hallarda insan hüquqları pozuntularının qarşısının alınması istiqamətində fəaliyyətini uğurla davam etdirməklə dövlətimizin ali məqsədinin təmininə xidmət edir.

> "İnsan azadlığı, söz, vicdan azadlığı, insan hüquqlarının qorunması, bütün vətəndaşların eyni hüquqa malik olması, siyasi plüralizm Azərbaycanda demokratik cəmiyyətin əsas atributları kimi bərqərar olmalıdır".
>
> **Heydər Əliyev**

Ombudsmanın fəaliyyətini tənzimləyən əsas qanunvericilik aktının ən yüksək və birbaşa hüquqi qüvvəyə malik Konstitusiya Qanunu olması da məhz dövlətimizin insan hüquqlarına verdiyi ali dəyərin bariz təzahürüdür. Bu sənədə əsasən, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili vəzifəsi məhz insan hüquqları pozuntularının qarşısının alınması üçün təsis edilib. Müvəkkilin fəaliyyətinin ən mühüm və ən önəmli istiqamətlərindən biri də Azərbaycan Respublikasının Milli Məclisinə insan hüquq və azadlıqlarının təmin edilməsi məqsədi ilə qanunların qəbul edilməsinə, ləğv olunmasına və ya qanunlarda dəyişikliklər edilməsinə dair təkliflər verə bilməsi ilə bağlıdır.

Ötən müddət ərzində müvəkkil tərəfindən qeyd olunan səlahiyyətlərdən yararlanaraq qanunvericilik aktlarının insan və vətəndaş hüquq və azadlıqlarının daha dolğun təmin edilməsi baxımından təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanmış, baxılması üçün Azərbaycan Respublikasının Milli Məclisinə göndərilmiş və həmin təkliflərin bir çoxu sonradan qanun yaradıcılığı prosesində nəzərə alınaraq qəbul edilmişdir.

Eyni zamanda, fəaliyyəti dövründə müvəkkil ölkə üçün mühüm əhəmiyyət kəsb edən bir sıra konvensiyalara qoşulmaqla bağlı təklifləri aidiyyəti dövlət qurumlarına göndərmiş və bu istiqamətdə müsbət nəticələrə nail olunmuşdur.

Müvəkkilin qanunvericilik aktlarının insan və vətəndaş hüquqlarının və azadlıqlarının daha dolğun təmin edilməsi baxımından təkmilləşdirilməsi sahəsindəki fəaliyyətinin başqa bir mühüm istiqaməti Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinə sorğularla müraciət etmək səlahiyyəti ilə bağlıdır. Eyni zamanda, müvəkkil şikayətlərin araşdırılması zamanı şəxsin hüquqlarının qüvvədə olan normativ aktlarla pozulduğunu aşkarlayarsa, Konstitusiya Məhkəməsinə sorğu ilə müraciət etmək səlahiyyətinə malikdir.

Ötən müddətdə müvəkkilin ünvanladığı 41 sorğudan 26-na Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən baxılmış, 13 sorğu üzrə Palata tərəfindən genişləndirici şərhləri özündə ehtiva edən qərardadlar qəbul olunmuş, 2 sorğu isə sonradan qanunvericiliyə dəyişikliklərin edilməsi ilə əlaqədar geri götürülmüşdür. Müvəkkilin sorğuları əsasında qəbul edilmiş bu qərarlar istər



nəzəri, istərsə də təcrübi əhəmiyyət kəsb edərək Konstitusiyada və digər normativ hüquqi aktlarda təsbit olunmuş əsas insan və vətəndaş hüquqlarının və azadlıqlarının düzgün anlaşılmasına və təmininə mühüm töhfələr verməkdədir.

Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsindən, habelə mövcud sahədəki dayanıqlı və fundamental qanunvericilik sistemindən bəhs edərkən bir məsələni də xüsusi olaraq vurğulamaq istərdik ki, əfv və amnistiya institutlarının bərpası da məhz Ulu Öndərin humanist və qətiyyətli mövqeyi nəticəsində mümkün olmuşdur. Çünki məhkumun əfv olunması və amnistiyaya düşməsi ciddi tərbiyəvi əhəmiyyət daşımaqla yanaşı, minlərlə ailənin sevinci deməkdir. İndiyədək ölkəmizdə 69 əfv sərəncamı imzalanmış, 12 amnistiya aktı qəbul edilmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən 2023-cü il mayın 8-də Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə imzalanmış sonuncu əfv sərəncamı isə müstəqillik tariximizdə ən böyük əfv aktı olmaqla, ümumilikdə 801 nəfəri əhatə etmişdir. Bu sərəncam Ulu Öndərin əziz və əbədiyaşar xatirəsinə ehtiramın bir ifadəsi kimi, onun daim dəstəklədiyi humanizm siyasətinin davamı olaraq yüzlərlə insana islah olunaraq dövlət və cəmiyyət həyatında iştirak etmək və Azərbaycanın inkişafına töhfə vermək üçün yeni imkanlar yaratmış oldu. Bu günədək ombudsmanın məxsusi etdiyi müraciətlər əsasında 864 nəfər məhkum əfv olunaraq azadlığa qovuşmuşdur.

Bir daha qeyd etməyi özümə borc bilirəm ki, ombudsmanın pozulmuş insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi, o cümlədən qanunvericilik aktlarının insan və vətəndaş hüquqlarının və azadlıqlarının daha dolğun təmini baxımından təkmilləşdirilməsi sahəsində uğurlu fəaliyyətinə və qazandığı nailiyyətlərə Ulu Öndər Heydər Əliyevin gərgin əməyi və əzmkarlığı ilə başlanılmışdır və hazırda onun siyasi kursunun layiqli davamçısı, müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir.

Müstəqil Azərbaycanda insan hüquq və azadlıqlarının təmini sahəsində qanunvericilik bazasının zənginləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılmasında, səmərəli hüquq-müdafiə mexanizmlərinin formalaşdırılmasında Ümummilli Liderin xidmətləri danılmazdır. Heydər Əliyev adını bu sahədəki islahatların müəllifi kimi tarixə əbədi həkk etdirmişdir. Dünya tarixində hər zaman səriştəli, inamlı, uzaqgörən, siyasi bacarıqlara malik bir azərbaycanlı kimi xatırlanacaq Ulu Öndərin bu dəyərli irsi Azərbaycan gəncliyi üçün əvəzsiz örnəkdir.

# Heydər Əliyev və türk dünyası



**Mehmet Süreyya Er**
TÜRKPA-nın Baş katibi

Bu gün Ulu Öndər Heydər Əliyevin Azərbaycanda və onun hüdudlarından kənarda böyük təntənə ilə qeyd edilən 100 illik yubileyi dahi şəxsiyyətin nəinki Azərbaycan dövləti, xalqı üçün misilsiz xidmətlərinin, eyni zamanda, bütün türk dünyasının birliyi, həmrəyliyi naminə gördüyü işlərin, irəli sürdüyü təşəbbüslərin, çağırışların hərtərəfli təhlilini zərurətə çevirir.

Azərbaycan xalqının Ümummilli Liderinin bütün çağırışlarının mahiyyətində bir məqsəd dayanırdı: böyük bir ailəni xatırladan türk dünyasının birliyi təmin edilməlidir.

Şübhəsiz ki, Heydər Əliyevi əvəzsiz və ölməz liderə çevirən amillər bu böyük coğrafi məkanın bugünkü reallıqlarından daha aydın görünür. Müdhiş dühaya sahib olan bu fenomen insan tarixin müxtəlif mərhələlərində bir-birindən ayrı düşmüş türk dünyasını birləşdirmək üçün yorulmaz səylər göstərirdi. Onun məqsədyönlü fəaliyyətinin uğurlu nəticələri bu istiqamətdə davamlı addımların atılmasına mühüm töhfələr verdi. Ulu Öndər uzaqgörənliklə dünya xəritəsində yer alan türk xalqlarının gələcək taleyini əvvəlcədən gördü. 1991-ci ildə Sovet İttifaqının dağılması ilə Azərbaycan və digər türk dövlətləri öz dövlət müstəqilliklərini bərpa etdilər. Bununla da Heydər Əliyevin türk dünyasının gələcəyi ilə bağlı xəyalları gerçəkliyə çevrildi. Bir daha sübut olundu ki, türk xalqları daim əsarətdə qalmayacaqlar, öz müstəqilliklərinə, azadlıqlarına nail olacaqlar.

Bir mühüm məqamı da xüsusi vurğulamalıyıq ki, ötən əsrin əvvəllərində Osmanlı imperiyasının varisi olan Türkiyə 1923-cü ildə öz dövlət müstəqilliyini elan etdi. Həmin vaxtdan başlayaraq Azərbaycan və Türkiyə xalqlarını birləşdirən ortaq dəyərlər, tarix, sıx tellərlə bağlılıq zaman keçdikcə bu birliyi daha da möhkəmləndirərək dünya üçün nümunəyə çevirdi. Bu əlaqələrin möhkəm təməlinin qurulmasında Mustafa Kamal Atatürkün və Heydər Əliyevin müstəsna xidmətləri var. Məhz onların - Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", Heydər Əliyevin isə "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir" müdrik kəlamları bu gün iki ölkənin münasibətlərinin təməl prinsiplərinə çevrilib. Hazırda bu münasibətlər məhz həmin prinsiplərə söykənərək müasir dövrün yeni çağırışlarına uyğun olaraq inkişaf etdirilir.

Türkiyə öz qardaşı Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət oldu. Qardaş ölkələrimizin dövlət başçıları arasında mövcud olan yaxın dostluq münasibətləri, onların siyasi iradəsi və qətiyyəti bu gün iki ölkə arasında hərtərəfli əməkdaşlığın dərinləşməsinə güclü təkan verməkdədir.

Azərbaycanın İkinci Qarabağ müharibəsində tarixi Zəfəri ümumilikdə türk dünyasının birliyində yeni bir mərhələnin başlanğıcı oldu. Azərbaycan-Türkiyə qardaşlığı, müttəfiqliyi 2021-ci ilin iyun ayında imzalanan Şuşa Bəyannaməsində öz əksini tapdı. Bu qardaşlığın rəsmiləşməsi, Azərbaycan və Türkiyənin bundan sonra da birgə addımlayacağına edilən çağırışlar ümumilikdə türk dünyası birliyinin daha da möhkəmlənməsində özünü aydın göstərir.




Təbii ki, müasir şəraitdə bu birlik, həmrəylik bütün sahələrdə uğurla inkişaf etdirilir. Ümummilli Lider Heydər Əliyevin müdrik siyasi fəaliyyəti Azərbaycanın bütün türk dövlətləri ilə əlaqələrinin inkişafında əhəmiyyətli rol oynamışdır. Heydər Əliyev türk dünyası qarşısında misilsiz xidmətlərinə görə 1999-cu ildə "Beynəlxalq Atatürk Sülh Mükafatı"na layiq görülmüşdür.

Belə bir faktı xüsusi qeyd etmək lazımdır ki, Heydər Əliyev türk dünyasının birliyinə, sadəcə, etnik köklərin eyniliyinə əsaslanan mədəni-etnoqrafik birlik kimi baxmır, bu birliyin gələcəyini xüsusi diqqət mərkəzində saxlayırdı. Ulu Öndər daim bu çağırışı etmişdi ki, türk xalqlarının yaxınlaşması vacibdir. Bu dövlətlər arasında əməkdaşlığın inkişafı Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Bu baxımdan Azərbaycan-Qazaxıstan münasibətlərinin də zəngin tarixi var. Azərbaycan və qazax xalqları arasında tarixən ənənəvi dostluq və qardaşlıq əlaqələri mövcud olub. Buna əsas verən amillərdən biri bu xalqların etnik, dil, din və mədəni dəyərlər baxımından bir-birinə yaxınlığıdır. Ulu Öndərin bu münasibətlərin inkişafına olan töhfələri  də danılmazdır və məhz buna görə 1997-ci ildə Heydər Əliyevə Əl-Fərabi adına Qazax Milli Dövlət Universitetinin fəxri doktor diplomu, 1998-ci ildə isə "Astana" dövlət medalı təqdim olunmuşdur.

Azərbaycanın Qırğızıstanla və Türkmənistanla əlaqələri də dərin tarixə malikdir. SSRİ-nin dağılmasından sonra bu münasibətlər daha da inkişaf etməyə başladı. Heydər Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycanın bu qardaş dövlətlər ilə dərinləşən və genişlənən əlaqələri hazırkı ölkə rəhbərlərinin əzmi ilə yeni mərhələyə qədəm qoyaraq həm ikitərəfli, həm də çoxtərəfli müstəvilərdə daha da inkişaf etməkdədir.

Azərbaycanın Özbəkistan ilə münasibətləri də təqdir olunacaq səviyyədədir. Bu iki türk ölkəsi arasındakı dostluq, qardaşlıq və zəngin tarixə söykənən əlaqələrin, dövlətlərarası münasibətlərin inkişafında da Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. Özbəkistan dövləti dahi şəxsiyyətin iki dövlət arasında əməkdaşlığın inkişafına istiqamətlənmiş fəaliyyətini yüksək dəyərləndirib, Ulu Öndərə hər zaman ali ehtiramla yanaşıb, türk dünyasının böyük oğluna özünün yüksək sevgisini və rəğbətini bildirmişdir. Bu dərin sevginin ifadəsi kimi, 2010-cu ildə Daşkənddə Azərbaycanın Özbəkistandakı səfirliyinin nəzdində iki ölkənin hazırkı dövlət başçılarının iştirakı ilə Heydər Əliyev adına Mədəniyyət Mərkəzi fəaliyyətə başladı. Onu da xüsusi vurğulamaq lazımdır ki, mərkəz məhz



Ümummilli Liderin adını daşıyan küçədə yerləşir. Burada Heydər Əliyev muzeyi, Azərbaycanın dövlətçilik tarixi muzeyi, hər iki ölkənin müştərək tarix muzeyi təşkil olunub.

Məmnunluq hissi ilə vurğulamaq istəyirəm ki, Azərbaycanın qardaş türk dövlətləri ilə əməkdaşlığının zənginləşməsində, yüksələn xətt üzrə inkişafında Heydər Əliyev siyasi kursunun davamçısı Prezident İlham Əliyevin bu dövlətlərin başçıları ilə möhkəm dostluğu, qarşılıqlı hörmət və etimada əsaslanan münasibətləri də güclü təsir göstərməkdədir. Azərbaycan Prezidentinin türk dünyasının birliyi, həmrəyliyi, əməkdaşlığının möhkəmləndirilməsinə yönəlmiş fəaliyyəti digər türk dövlətləri tərəfindən də təqdir edilmiş və bu təqdirin ifadəsi kimi İlham Əliyev 2021-ci ildə Türk Dünyasının Ali Ordeni ilə təltif olunmuşdur.

Dövlətlərarası əlaqələrin inkişafında parlamentlər səviyyəsində aparılan dialoq, yaradılan əməkdaşlıq da əhəmiyyətli rol oynayır. Bu kontekstdən yanaşdıqda əminliklə deyə bilərik ki, türk dövlətləri arasında əlaqələrin inkişafında, daha da dərinləşməsində parlament diplomatiyası da öz sözünü deyir. 2008-ci il noyabrın 21-də Türkiyənin İstanbul şəhərinin Dolmabağça Sarayında Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə parlament rəhbərlərinin imzaladığı sazişə əsasən hazırkı adı ilə Türk Dövlətləri Parlament Assambleyası - TÜRKPA təsis edildi. 2009-cu ildə Bakıda qurumun ilk plenar iclasının keçirilməsi türk birliyinin möhkəmləndirilməsi strategiyasının uğurlu davamı kimi dəyərləndirilə bilər. TÜRKPA türk əməkdaşlığının parlament ölçüsü kimi parlament yarandığı gündən türk dövlətləri arasında əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində səmərəli fəaliyyət göstərməkdədir. Quruma üzv dövlətlər arasında ortaq tarixə, dilə, mədəni dəyərlərə və qarşılıqlı etimada əsaslanan əlaqələr keyfiyyətcə yeni mərhələyə daxil olub. Əsas hədəflərdən biri parlament diplomatiyası vasitəsilə dövlətlər arasında siyasi dialoqun daha da inkişaf etdirilməsinə nail olmaqdır.

> **"Özünün yeni yüksəliş dövrünü yaşayan çağdaş türk dünyası bəşər sivilizasiyasına yeni misilsiz nümunələr vermək iqtidarındadır. Bu gün öz suverenliyini əldə etmiş bir çox türk cümhuriyyətlərinin bu sıraya qoşulması türk dünyasının gələcəyinə işıqlı ümidlər oyadır. İqtisadi, siyasi və mədəni həyatın sıx telləri ilə birləşməyə başlamış türk xalqları yeni dünyanın mühüm amillərindən birinə çevrilməkdədir".**
>
> **Heydər Əliyev**




Hazırda türk dünyasında əməkdaşlığın bütün sahələrində böyük potensial mövcuddur. Hər bir üzv dövlətimiz malik olduğu imkanlardan yararlanaraq bu əməkdaşlığa dəstək verməyə səy göstərir. Müasir dünyada parlament diplomatiyasının əhəmiyyəti, dövrün çağırışlarının cavablandırılmasında parlamentlərin xüsusi rolu türk dünyasında parlamentlərarası əməkdaşlığın daha da inkişafını və dərinləşməsini şərtləndirir. Bu baxımdan böyük məmnunluqla qeyd etmək istərdim ki, cari ildə yaradılmasının 15 illiyini qeyd edəcək TÜRKPA parlamentlərin səmərəli dialoq və əməkdaşlıq platformasına çevrilmişdir.

Türk dünyasının birliyinə, türk dövlətləri arasında çoxtərəfli əməkdaşlığın inkişafına yönələn addımlar sırasında 2009-cu ildə Naxçıvan Sazişi ilə hazırkı adı Türk Dövlətləri Təşkilatı olan qurumun yaradılmasını xüsusi qeyd etməliyik. Eyni zamanda, mədəniyyət diplomatiyasından bəhrələnərək bu əməkdaşlığa töhfəsini verən TÜRKSOY, elm və təhsil sahəsində əməkdaşlığın inkişafını hədəfləyən Türk Akademiyası, türk dünyasının tarixi və mədəni irsinin qorunması və təşviqinə xidmət edən Türk Mədəniyyəti və İrsi Fondunun yaradılması da bu istiqamətdə mühüm qərarlar olaraq tarixə keçmişdir. Müxtəlif ölçülərdə türk əməkdaşlıq təşkilatlarının fəaliyyətləri türk dövlətləri arasında hərtərəfli münasibətlərin inkişafına təkan verməkdədir.

Dahi şəxsiyyət Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycanın türk dünyasının həmrəyliyinə xidmət edən addımlarının miqyası və əhəmiyyəti ölçüyəgəlməzdir. Ulu Öndərin türk dünyasının birliyində rolu, misilsiz xidmətləri onun xatirəsinin böyük ehtiramla anılmasında, adını daşıyan küçələrin, parkların açılmasında, abidələrinin ucaldılmasında özünü aydın təcəssüm etdirir, türk dövlətləri arasında əlaqələrin inkişafında əməyinin böyüklüyünü bir daha təsdiqləyir.

Türk dünyasının birliyi hazırda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində geniş miqyas alan bərpa-quruculuq işlərində də özünü parlaq şəkildə biruzə verir. Türkiyə şirkətləri ilk gündən bu prosesdə fəal iştirakları ilə diqqətdədirlər. Eyni zamanda, Qazaxıstan Prezidentinin təşəbbüsü ilə işğaldan azad edilmiş Füzuli şəhərində qazax xalqının böyük oğlu Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzinin, Özbəkistan Prezidentinin təşəbbüsü ilə məktəb tikintisinin həyata keçirilməsi birliyimizin təcəssümüdür.

Keçilən yol belə bir əminliyə əsas verir ki, türk dövlətləri bundan sonra da əməkdaşlıq əlaqələrinin bütün istiqamətlər üzrə inkişafına davamlı töhfələr verəcək və daha sıx birləşmiş türk dünyasına nail olacaqlar.

# Heydər Əliyevin xarici siyasətində MDB ölkələri ilə münasibətlər



**Ramin Rzayev**
MDB PA DİMBİ-nin Bakı filialının direktoru

Azərbaycan dövlətinin xarici siyasəti beynəlxalq hüquq normalarından irəli gələn prinsiplər əsasında, müxtəlif istiqamətlərdə həyata keçirilir. Müstəqil Dövlətlər Birliyi, onun institutları və qurumları, təşkilata üzv olan dövlətlər ilə əlaqələr də bu xarici siyasət kursunda xüsusi yerə malikdir.

MDB 1991-ci il dekabrın 8-də Minsk şəhərində imzalanmış "Müstəqil Dövlətlər Birliyinin yaradılmasına dair Saziş" əsasında təsis edilmişdir. Bu gün təşkilat bərabərhüquqlu müstəqil dövlətlərin əməkdaşlıq formasıdır və beynəlxalq birlik tərəfindən tanınan regional dövlətlərarası nüfuzlu bir ittifaqdır. MDB-nin əsas xüsusiyyətləri dövlətlərarası ünsiyyətin bütün sahələrində qarşılıqlı əlaqələrin təşkili, kollektiv əməkdaşlıq mexanizmlərinin və formatlarının çevikliyidir. Bu təşkilat MDB-yə üzv ölkələrin hər birinə inteqrasiya proseslərində milli maraqlara cavab verən dərəcədə və istiqamətlərdə iştirak etməyə imkan yaradır.

Ümummilli Lider Heydər Əliyev Azərbaycanın dünya dövlətləri ilə iqtisadi əlaqələrinin genişlənməsini ölkənin beynəlxalq aləmdə tanınmasında, nüfuzunun artmasında, daxili iqtisadi inkişafının yüksəlişində mühüm amillərdən biri hesab edirdi. Ulu Öndər Heydər Əliyevin xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə böyük diqqət yetirilirdi. Beynəlxalq təşkilatlara üzv olmaq, onların fəaliyyətində iştirak etmək, onlarla səmərəli iş qurmaq Azərbaycan həqiqətlərini dünyaya çatdırmaq üçün böyük əhəmiyyət kəsb edir. Azərbaycan qısa müddətdə BMT, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT), İslam Konfransı Təşkilatı (İKT), Türk Dövlətləri Birliyi (TDB), Müstəqil Dövlətlər Birliyi (MDB), Avropa Şurası (AŞ), Gürcüstan-Ukrayna-Azərbaycan-Moldova (GUAM), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Parlamentlərarası İttifaq (Pİ), İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) üzvü olmuşdur.

Azərbaycan-MDB münasibətləri regional əhəmiyyəti və mütərəqqi maraqlara xidmət etməsi ilə səciyyələnir. Azərbaycanın Müstəqil Dövlətlər Birliyində uğurlu təmsilçiliyi xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi iradəsi sayəsində baş tutub. Ölkəmizin MDB-yə qoşulmaq haqqında 21 dekabr 1991-ci il tarixli qərarı 1993-cü ilin sentyabr ayında ratifikasiya edilib və Azərbaycan MDB-nin tamhüquqlu üzvü olub. Eyni zamanda, 1993-cü ildə Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyası haqqında sazişə qoşulub.



Ümummilli Lider Heydər Əliyev bir çox təşkilatların, o cümlədən də MDB çərçivəsində keçirilən zirvə görüşlərində mütəmadi olaraq iştirak edirdi. Bu görüşlərdəki çıxışlarında, dövlət başçıları ilə söhbətlərində Azərbaycanın siyasi və iqtisadi mənafelərinin qorunması, bu təşkilat və dövlətlərlə ölkəmizin əməkdaşlığının və inkişaf probleminin həlli üçün, səmərəli istifadə edilməsi üçün şərait yaradılmasına çalışırdı. Ulu Öndər bilirdi ki, MDB-yə daxil olmaq Azərbaycanı təşkilata üzv dövlətlərlə iqtisadi, siyasi, mədəni münasibətlərin inkişafında irəliyə aparacaq. Heydər Əliyev ilk öncə bu dövlətlərlə olan münasibətləri qaydaya salmaq, hərtərəfli əlaqələri möhkəmləndirmək istəyirdi. Azərbaycanın MDB-yə üzv olması bu münasibətlərin yenidən bərpa olunmasına şərait yaratdı.

Heydər Əliyev 1993-cü il oktyabrın 10-da andiçmə mərasimində çıxış edərkən MDB-nin əhəmiyyətindən də bəhs etmişdi: "Biz əminik ki, Azərbaycanın MDB-yə daxil olması respublikanın iqtisadiyyatının inkişaf etməsi üçün yaxşı şərait yaradacaq və biz bu imkanlardan səmərəli istifadə etməliyik. Onu da qeyd etmək istəyirəm ki, Azərbaycanın MDB-yə daxil olmasını təhlükəli bir hal kimi qələmə verməyə çalışırlar. Bu, səhv fikirdir. Azərbaycan MDB-də öz müstəqilliyini daim qoruyacaq və təşkilatda iştirak etmək ölkənin müstəqilliyinə qətiyyən xələl gətirməyəcəkdir. Azərbaycan daim demokratik yolla gedəcək, beynəlxalq demokratiya normalarına riayət edəcək, burada kommunist ideologiyası və rejimi bir daha bərpa olunmayacaqdır. Güman edirəm ki, Azərbaycan vətəndaşlarının əksəriyyətinin də fikri belədir. Azərbaycan Respublikası bundan sonra heç vaxt başqa bir dövlətin tərkibinə daxil olmayacaq, başqa bir dövlətin tabeliyinə düşməyəcək, öz müstəqilliyini daim qoruyacaqdır".

Ümummilli Lider Heydər Əliyev Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının iclaslarında çıxış edərkən hər zaman artıq tarixə qovuşmuş Ermənistan-Azərbaycan münaqişəsi və onun həlli yollarına toxunurdu. Müdrik və uzaqgörən dövlət xadimi Heydər Əliyevin sayəsində 1994-cü ilin may ayında Ermənistanla atəşkəs müqaviləsinin imzalanmasına nail olundu.

Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının fəal iştirakı ilə 1994-cü ilin may ayında Dağlıq Qarabağda qarşıdurmanın fəal hərbi mərhələsinə son qoyan "Bişkek Protokolu" imzalandı. Bu protokol 1994-cü ilin may ayının 12-də qüvvəyə mindi. Əldə olunan



atəşkəs bütün tərəflərə sonrakı gedişlərini müəyyənləşdirmək üçün nisbətən dinc şəraitin yaranmasını təmin etdi. Məhz Heydər Əliyevin səyləri sayəsində Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması xarici siyasətin prioriteti kimi qəbul edildi.

Ulu Öndərin MDB və digər təşkilatlarda iştirakı, səmərəli fəaliyyəti Azərbaycanın dünya ölkələri ilə əməkdaşlıq imkanlarını sübut etdi.

Dövlətin xarici siyasətində MDB və onun iştirakçı dövlətləri ilə münasibətlərin məqsədi dövlət müstəqilliyimizi möhkəmləndirmək, mehriban qonşuluq münasibətlərini inkişaf etdirmək, dövlət quruculuğu və islahatların davamı üçün əlverişli beynəlxalq şəraiti təmin etmək, bərabərhüquqlu, qarşılıqlı faydalı iqtisadi, siyasi, elmi-texniki və mədəni münasibətlər qurmaq və inkişaf etdirməkdən ibarətdir.

MDB çərçivəsində fəaliyyət Azərbaycanın xarici siyasətində bu gün də özünəməxsus yer tutur. Təşkilat mahiyyət etibarilə dövlət başçılarının görüşlərinin keçirildiyi və onlara öz mövqelərini bir-birinə çatdırmağa imkan verən siyasi tribunadır.

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu siyasət bu gün onun layiqli davamçısı olan Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Azərbaycan Prezidenti İlham Əliyevin yüksək səviyyəli tədbirlərdə nümayiş etdirdiyi qətiyyətli mövqenin nəticəsidir ki, bu gün MDB-yə daxil olan ayrı-ayrı dövlətlər respublikamızın ərazi bütövlüyünə dəstək nümayiş etdirirlər.

Azərbaycan Respublikası hər il keçirilən MDB Dövlət Başçıları Şurası, Hökumət Başçıları Şurası, Parlamentlərarası Assambleya, İqtisadi Şura, Xarici İşlər Nazirləri Şurası və üzv olduğu digər orqanların iclaslarında fəal iştirak edir.

Azərbaycan Respublikası bir sıra MDB ölkələri ilə azad ticarət rejimi yaradıb, sərbəst sərmayə üçün hüquqi baza tərtib olunub. Eyni zamanda, Müstəqil Dövlətlər Birliyi çərçivəsində bir sıra mühüm sənədlər qəbul edilib.

Bu gün tam əminliklə deyə bilərik ki, 30 il əvvəl ölkəmizin MDB-yə üzv olması Azərbaycanın inkişaf xəttinin uğurlu nəticələrini kifayət qədər təsdiqləyir. Bütövlükdə MDB dövlətləri ilə çox yüksək səviyyəli ikitərəfli münasibətlər formalaşıb. İntensiv xarakter daşıyan bu münasibətlər ölkələrin milli maraqlarına xidmət edir və tarixi dostluq ənənələrinə, qarşılıqlı hörmət prinsipinə əsaslanır.

Demokratiyanın, parlamentarizmin inkişafının və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi beynəlxalq institutunun Bakı filialının (MDB PA DİMBİ Bakı filialı) artıq 15 ildir fəaliyyət göstərməsi MDB-Azərbaycan münasibətlərinin parlaq təzahürüdür.

MDB PA DİMBİ Bakı filialı ölkəmizdə və MDB PA iştirakçısı olan dövlətlərdə informasiya mübadiləsi proseslərinin daha dərin və səmərəli inkişafı üçün şərait yaradılmasına, demokratiya və parlamentarizmin inkişafı üzrə qabaqcıl təcrübənin ümumiləşdirilməsinə, həmçinin vətəndaşların




seçki hüquqlarına riayət olunmasına xidmət edir.

* * *

Onu da qeyd edim ki, 2023-cü il iyunun 1-də MDB PA DİMBİ-nin Bakı filialı Azərbaycan Respublikasının Milli Məclisi ilə birlikdə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının dəstəyi ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Heydər Əliyev - müasir müstəqil Azərbaycanın memarı və Azərbaycan multikulturalizminin banisi" adlı beynəlxalq konfrans keçirdi. Tədbirin keçirilməsində məqsəd Azərbaycanda multikulturalizm ənənələrinin formalaşması və qorunmasında Ulu Öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyətinin öyrənilməsi idi.





Konfransda Azərbaycan, Belarus, Qazaxıstan, Özbəkistan respublikalarından və Rusiya Federasiyasından olan millət vəkilləri, MDB PA-nın məsul şəxsləri, bir sıra ölkə səfirliklərinin, nazirlik və qurumların nümayəndələri, Azərbaycanın ali təhsil müəssisələrinin professor-müəllim heyəti, kütləvi informasiya vasitələrinin təmsilçiləri və digərləri iştirak edirdi.

Tədbirdə çıxış edənlər Ulu Öndər Heydər Əliyevin dövlətçilik ənənələrinin banisi kimi rolunu xüsusi qeyd etdilər.






AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ MƏCLİSİ